*Telman Orucov*

# Avstriya tarixi
# “Əziz dost” haqqında söz



•

*Telman Orucov*

# Müasir Vyanaya və Avstriyanın zəngin tarixinə səyahət

İki fədakar, mənə yaşlı adam kimi xüsusən hər cür qayğı göstərən yol yoldaşlarımla birlikdə biz qatarla Çexiyanın paytaxtı Praqadan Avstriya paytaxtı Vyanaya yola düşdük. Çexiya ərazisində cənubi-qərbə doğru irəlilədikcə hər yer qalın qar örtüyü altında idi. Paytaxtda da qar küçələri örtmüşdü, gündüz mənfi 6-8$^{o}$C şaxta olurdu. Ancaq hava küləksiz olduğundan şaxtanı elə də hiss etmirdik, təmiz havanı ağ ciyərlərimizə doldurmaqla rahat nəfəs alırdıq. Təəssüf ki, yol boyu diqqəti cəlb edən elə bir mənzərə seyr edə bilmədik. Qarlı ətraf, Ukraynanın qış şəraitində olan uzun sürən düzənliklərini yada salırdı. Mən bir qədər əvvəl qatarla Londondan Mançesterə, oradan isə Şotlandiyanın paytaxtı Edinburqa getmişdim. İngiltərə düzənliklərində maraqlı mənzərə görə bilmədik, Şotlandiyada isə təpələr və dərələrdən ibarət olan təbiət öz gözəlliyini qürurla nümayiş etdirirdi. Valter Skottun tarixi romanlarının birində yazdığının da şahidi oldum. O, yazırdı ki, düzənlikdə otlayan qoyunlar bir-birinə sıxılırlar, dağ yamaclarında otlayan qoyunlar isə bir – birindın aralı qaydada qidalanırlar. Çexiyada biz nə dağ yamacı, nə də orada otlayan qoyunları gördük, mənzərənin yeknəsəngliyi yolçuda adətən melanxolik hisslər yaradır, axı adam yad ölkədə nəsə yeni bir şeyi görməyə köklənir, bu, olmayanda özünü aldadılmış kimi hiss edir.

Ölkənin sərhədindəki Breslavda biz kupesində oturduğumuz çex qatarını tərk edib, Vyanaya gedən və artıq Avstriyaya məxsus sərnişin qatarına mindik. Avstriyalıların vaqonunda kupe yox idi, yalnız oturacaq kresloları var idi, lap təzə olması gözə dəyirdi. Qatarın yeganə bir eybi onda idi ki, hər beş-on dəqiqədən bir dayanırdı, lakin vaqondakı sərnişinlərin tərkibində elə bir dəyişiklik baş vermirdi, əslində, iri, uzun vaqonda ən çoxu 7-8 adam gedirdi. Nəhayət, qatar Dunay çayının üstündəki körpü ilə sağ sahilə çıxdıqda, biz Vyanaya daxil olduq. Dəmir yol vağzalı böyük idi və biz yaxındakı beşulduz «İnter Kontinental» otelinə yollandıq. Hər şey Bakıda olarkən bu sahədə çox yaxşı səriştəsi olan yaxın dostumuz tərəfindən sifariş verildiyindən, bizə otelin qəbulunda tezliklə otaqlarımzın açar-kod kartlarını verdilər. Otelin hollu köhnə dəbə uyğun bəzədilmişdi və onun bir hissəsini restoran ərazisi tuturdu. Elə bil ki, otel Vyananın köhnə saray zamanlarının bəzəyini, həm də öz dəbdəbəsi ilə isə müasirlikdən çox keçmişi yada salırdı.

Vyana bizi soyuq, sərt küləklə qarşıladı və olduğumuz günlərdə küləyin şiddəti azalmaq əvəzinə artırdı. Mövlud bayramı ərəfəsində Avropada günəşli havanı ummaq da sadəlövhlük olardı. Şönbrunn sarayına baxmağa gedəndə, qayıtmaq üçün taksini gözləməkdən ötəri daş divarların arxasında küləkdən qorunmaq üçün gizlənirdik. Taksi sürücülərinin əksəriyyəti türklərdir, azərbaycanlılar da vardır. Lakin onlar bizdə

•

yaranan təəssürata görə, təəssüf ki, diqqətli xidmət göstərmələri ilə öyünə bilməzdilər, adından azərbaycanlı olduğu bilinən sürücü bizdən telefonla qəbul etdiyi sifarişi üç dəfə dalbadal ləğv etdiyini bildirdi

Vyana Avropanın gözəl, tarixi və memarlıq abidələrini zənginliyi ilə seçilən şəhərlərindən biridir. Çox vaxt keçmişin dəbdəbəsinin, barokko üslubuna xas olan arxitektura incilərinin hələ də unudulmayan nişanələrinin izləri ilə addımbaşı qarşılaşırsan. Dövlət Opera teatrı binasının yerləşdiyi küçə çox sayda möhtəşəm qədim binalarla doludur. Şəhər parkların çoxluğu və böyüklüyü ilə də fərqlənir, bu məsələdə Londonu yada salır. Yaşadığımız otelin foyesini bəzəyən çilçıraq da xüsusən keçmiş saray məğrurluğunu canlandırırdı.

Vyana Dunay ətrafı Avstriyasının və bütün ölkənin siyasi, iqtisadi və mədəni mərkəzi olmaqla yanaşı, burada ölkə əhalisinin 1/5-dən çoxu və ya 2 milyon nəfərə qədəri yaşayır. Vyana başlanğıcdan Dunayın sağ sahilində yaranmış və böyümüşdür. Şəhər Alp dağlarının bir hissəsi olan meşəlik Vinervaldın – Vyana Meşəsinin ətəyində yerləşir. Xüsusən « Gözəl mavi Dunayda» valsı ilə daha böyük şöhrət tapmış bəstəkar və skripkaçı İohann Ştraus- oğulun (1825-1899-cu illərdə yaşamışdır.) «Vyana Meşəsi nağılı» musiqi əsəri bu məkanın təbii gözəlliklərini, flora və faunasının unikallığını ecazkar musiqi dilində, quşların oxuması ilə təsvir etdiyindən, dinləyicidə bu əraziyə böyük heyranlıq hissləri yaradır. Həmin musiqinin harmoniyası Ştrausa həsr olunmuş köhnə amerikan filminin cazibədar bəzəyinə çevrilmişdi. Bəstəkar meşədəki yolla karetada gedərkən təsvir olunur, quşların oxuması onu elə valeh edir ki, fürsəti əldən verməyib, elə oradaca zümzüməsi ilə həmin oynaq musiqi parçasını yaradır.

Ştraus bir bəstəkar kimi yüngül musiqinin, xüsusən Vyana valsının inkişafında böyük rol oynamışdır. Bu sadə xalq rəqsini o, saray adamlarının rəqsi səviyyəsinə yüksəltmişdi. Onun "Vyana qanı", "Bahar səsləri" valsları da çox populyardır. Təsadüfi deyildir ki, sağlığında onu "vals kralı" adlandırırdılar. İmperator Frants İosif də ona izdiham qarşısındaVyananın əsl kralı kimi müraciət etmişdi. Buna təəccüblənmək lazım deyildir. 1949-cu ildə ekranlara şıxmış "Avara" və sonrakı "Cənab 420" filmləri ilə böyük şöhrət tapmış Rac Kapur barədə müstəqil Hindistanın ilk baş naziri və istiqlaliyyət uğrunda mübarizənin liderlərindən biri olmuş Cavahirlər Nehru da şikayətlənirdi ki, o, hökumət başçısının da böyük populyarlığını kölgədə qoyur..Ştraus çox sayda operetttalar yasmışdır, onlardan "Yarasa" və "Qaraçı baronu" musiqi incisi hesab olunur. Onun atası olan İohann Ştraus-ata da bəstəkar və dirijor olmuşdur, az yaşasa da, həmçinin valslar müəllifi kimi tanınır

Şəhər getdikcə dağa doğru yüksəlir. Burada məskunlaşma çox qədim dövrlərdə baş vermişdi. Bizim eranın 90-cı illərində Roma işğalçıları bu ərazidə özlərinin istehkamlanmış Vindobana düşərgəsini salmışdılar. XII əsrin ortalarında isə bura Avstriya dövlətinin baş şəhərinə çevrildi.

•

Orta əsrlərdə Dunayın su yolu ilə Baltikyanı dövlətlərlə və Balkan yarımadası ilə gur ticarət gedirdi. Belə əlverişli məkanda yerləşməsindən, özünün sərfəli nəqliyyat-coğrafi vəziyyətindən Vyana bu gün də böyük fayda götürür. Nəhəng və çoxmillətli Avstriya Monarxiyasının paytaxtı kimi də Vyananın statusu böyük əhəmiyyət daşıyırdı. Burada imperiyanın baş şəhəri kimi çox sayda xalqların yaratdığı var-dövlət cəmləşirdi. İndiki kiçik Avstriyanın fonunda Vyana nəhəng şəhər təsiri bağışlayır. Avropada az sayda elə bir paytaxt tapmaq olar ki, öz dövlətinin taleyində Vyana tək bu qədər böyük rol oynasın.

Avstriyanın həyatında şəhərin xüsusi əhəmiyyəti bütünlüklə tarixi səbəblərlə izah olunur. Avstriya milli-dövlət olana qədər paytaxt şəhəri sənaye, ticarət və bank işinin mərkəzi idi. Çoxmillətli dövlətin paytaxtı kimi isə Vyana nəhəng müxtəlif tarixi dəyərlərin toplandığı, akkumiliyasiya olduğu bir yerə çevrilmişdi. Bunlar təkcə Avstriya milli-mədəniyyətinin deyil, həm də hansısa bir dövrdə əvvəllər Avstriyanın hökmranlığı altında olan torpaqlarda yaşayan xalqların mədəniyyətlərini təcəssüm etdirirdi.

Müasir neytral Avstriya Respublikasının mövcudluğu şəraitində Vyana çox sayda beynəlxalq təşkilatların iqamətgahı oldu. Bunlara atom enerjisi üzrə Beynəlxalq Agentliyi (MAQATE), sənaye inkişafı üzrə Birləşmiş Millətlər Təşkilatı (YuNİDO), neft ixrac edən ölkələrin təşkilatı (OPEK) və digərləri daxildir. Vyana beynəlxalq danışıqlar aparılmasının, konfransların, konqresslərin, elmi simpoziumların keçirilməsinə sığınacaq verən adəti bir yerə çevrilmişdir. Bu ənənənin əsası 1814-cü ildən, Napoleonun məğlubiyyətindən sonra qoyulmuşdu. Bu məsələdə Avstriya paytaxtı XX əsrin ikinci yarısından sonrakı dövrdə beynəlxalq təşkilatların ofislərinin çoxluğuna görə, diplomatiyanın tanınmış şəhəri sayılan Cenevrə ilə rəqabət aparmaq gücünə yiyələnmişdir.

Vyana haqqında deyirlər ki, bu, parklar, fəvvarələr və geniş meydanlar şəhəridir. Otelimizin yaxınlığında yerləşən teatr binasını iri park əhatə edirdi. Barokko üslubunda olan dəbdəbəli binalar, qotikanın gözəl abidələri adamı heyran edir. Əlində skripka çalan bəstəkar İohann Ştraus-oğulun qızıl suyuna çəkilmiş, çılpaq insan bədənlərinin təsviri ilə bəzədilmiş kvadrata bənzər dairənin haşiyələndirdiyi gözəl heykəl Vyananın simvollarından biridir.

Çoxəsrlik tarixi olan əksər şəhərlər kimi Vyananın planı dairəvi və radius tipli küçələrdən ibarətdir. Öz arxitekturası ilə daha çox məşhur olanlar və həmçinin abidələr və dekorativ heykəllər əsasən İnner Ştadt adlanan İçəri şəhərdə yerləşir. Lap mərkəzi isə keçmiş imperator sarayı olan Hofburq bəzəyir. Burada indi Avstriya Etnoqrafik muzeyi, Mədəniyyət muzeyi, Şəkil Qalereyasının zəngin eksponatları, həmçinin Milli Kitabxananın və Konsert salonunun kolleksiyası yerləşir.

•



Hofburq sarayı

Bir qədər aralıda qotik üslubda tikilmiş məşhur Müqəddəs Stefen kilsəsi yerləşir. Burada, mərkəzdə bir neçə qədim kilsələr və digər köhnə binalar, o cümlədən 1365-ci ildə əsası qoyulmuş universitetin binası vardır. İçəri şəhərin baş küçəsi Keribput – Trasse-Karintiya küçəsidir. İçəri şəhəri hər tərəfdən geniş Rinq bulvarı dövrələyir, bulvar konfiqurasiyasına görə at nalı formasına malikdir. Burada çox sayda dəbdəbəli, müxtəlif arxitektura üslubunda olan binalar tikilmişdir. Dövlət Operası, parlament və Ratuşa binaları, universitetin yeni binası da buradadır. Yaxınlıqda həmçinin məşhur Burq-teatrı yerləşir. Bir sıra muzeylərin, Vyana əyanlarına məxsus evlərin, iri mağazaların fasadı Rinqə tərəf çıxır.

Rinqdən yelpik kimi çıxan küçələrdən ən varlısı Mariyahil Ferştrassedir, o, zahiri yarımdairə əmələ gətirir, bu Qyurqal (“zolaq” mənasını verir) adlanır.

Vyananın qərb qurtaracağını, Qyurqaldan kənarda yerləşən daha möhtəşəm və yəqin ki, daha məşhur ansambl olan Şönbrunn – Habsburların keçmiş yay iqamətgahı bəzəyir. Bu nəhəng bina barokko üslubunda tikilmişdir.Onu mütəxəssislər üslubun müstəsna qanadı kimi, Vyana barokkosu tək qiymətləndirirlər.

XVIII əsrin ortalarında Şönbrunn sarayına həsr olunmuş tablo onu Kiçik Versal kimi təqdim etmişdi. Memar Fişer fon Erlax 1717-ci ildə saray kompleksinin tikintisinə başlayarkən, zənginliyə daha çox fikir vermişdi, onu fransız kralı XIV Luinin iqmətgahı olan Versal üslubunda yaratmağa səy gəstərmişdi.

•



Şönbrunn sarayı

Şəhərin şimali-qərb kənarında, Vyana Meşəsinin ətəyində varlı biznesmenlər, məmurlar məskunlaşmışlar.

Vyana ölkənin bütün sənaye istehsalı məhsulunun təqribən üçdə birini verir. Maşınqayırma, metal emalı, kimya müəssisələri çoxluq təşkil edir.

Əlbəttə, Vyana böyük keçmişə malik olan gözəl şəhərdir, lakin onu nə Roma ilə, xüsusən Parisin gözəllikləri ilə müqayisə etmək çətindir. Parisin şəhərsalma üslubundakı mükəmməlliyi (XIX əsrin ikinci yarısında İkinci İmperia vaxtı III Napoleonun göstərişi ilə Parisi yenidən qurmuş, onu əsaslı qaydada rekonstruksiyaya uğratmış Sena prefekti baron Osmanın bu sahədəki əvəzsiz xidmətini inkar etmək olmaz), Yelisey çölünün, Zəfər Tağının yerləşdiyi Etualın (Ulduz meydanının, indi de Qoll meydanı adlanır), Notr Dam de Parinin, Qrand Operanın və ya Sena üzərindəki körpülərin, xüsusən Rusiya çarı II Nikolay tərəfindən şəhərə atasının xatirəsi şərəfinə verilmiş hədiyyə kimi tikilən III Alelsandr körpüsünün gözəlliyi ilə müqayisədə, əlbəttə, Vyana uduzur. Şəhərin salınmasına və böyüməsinə də alman praqmatizmi, yəqin ki, öz təsirini göstərmişdir. Burada heyranedici gözəllik nümunələrinə, müqayisədə nisbətən az rast gəlirsən. Axı Vyananın Parisə gözəllik, müasir görkəm bəxş etməklə əl gəzdirən öz baron Osmanı olmamışdı. Onun güclü iradəsini və ağlını, zəhmətini və zövqünü təkrar etməyin özü də heç də asan məsələ deyilmiş.

## Avstriya Avropanın qüdrətli dövlətinə çevrilir

•

Avstriya Respublikası Avropanın mərkəzində yerləşməklə, qonşuları olan Çexiya və Slovakiya kimi kiçik bir əraziyə malik olan ölkədir.Bu ölkənin keçmişi isə olduqca böyükdür, vaxtilə müasiri olan digər heç bir dövlətə məxsus olmayan nəhəng məkana malik olması ilə seçilirdi. Beş əsr əvvəlki tarixi təkcə doğma qitəsinin deyil, Mərkəzi və Cənubi Amerika ölkələrinin (Braziliya istisna olmaqla), qismən Şimali Amerikanın cənub torpaqlarının taleyində də müəyyən rol oynamış İspaniya vasitəsilə oradakı çox sayda ölkələri üç əsr ərzində müstəmləkə kimi saxlamışdır. Yalnız Napoleon İspaniyaya daxil olduqdan sonra, Cənubi Amerika ölkələrində milli azadlıq hərəkatları böyüyərək qələbə çalmış və onlar öz müstəqilliklərini elan etmişdilər. Avropada isə bütöv Niderlandları və Belçikanı, İtaliyanın və Fransanın bir hissəsini, qonşuluğundakı Çexiyanı və Macarıstanı uzun müddət idarə etmişdi. Hakim Habsburqlar sülaləsi İspaniyada hökmranlığa sahib olmuş, 1806-cı ildə Napoleon Müqəddəs Roma İmperiyasını ləğv edənə qədər, üç il istisna olmaqla dörd əsr ərzində Habsburqlar Evinə məxsus imperator, imperiyanın idarəçiliyinə başçılıq etmiş, bu imkandan da Avstriya monarxiyasının faydalanması üçün bol-bol istifadə etmişdir. Çətin anda, paytaxt Vyana Osmanlı hücumuna məruz qalanda, Roma papası da kömək göstərmək barədə xristianlara müraciət etmiş, yad Polşa ordusunun həlledici dəstəyi ilə türklər şəhərin mühasirəsini götürməyə məcbur olmaqla yanaşı, ağır məğlubiyyətə də düçar olmuşdular.

Böyük alman filosofu Hegel demişdi : "Ümumdünya tarixi xoşbəxtlik səhnəsi deyildir". Avstriyanın tarixi də onun bir hissəsi olduğundan, bədbəxtliklərdən də xali olmamışdır. Buna görə də onun tarixi inkişaf xətti ziqzaqa bənzəyir.



Müqəddəs Stefen kilsəsi- Vyananın kafedral kilsəsi

•

XIX əsrin birinci onilliyində Napoleon dəfələrlə Avstriyanı məğlub edib alçaltsa da, ölkə qismən ərazi itkilərinə məruz qalsa da, torpaqlarını əsasən özündə saxlaya bilmişdi və Monarxiyanın da hakimiyyətinə elə bir ciddi xələl gəlməmişdi. 1810-cu ildə isə Fransa imperatoru Avstriya imperatoru I Frantsın (onların hər ikisi bu adı altı ilə yaxın idi ki, daşıyırdı.) qızına evləndikdən sonra, iki ölkə arasındakı düşmənçiliyə son qoyulmuşdu.

Napoleonun dalbadal məğlubiyyətindən sonra Vyana konfransları vasitəsilə Avstriya xüsusi diplomatik ustalıq və coşğunluq nümayiş etdirməyə başlamışdı.

Bugünkü Avstriyanın 9 milyona yaxın əhalisi vardır, bu kiçik ölkənin tarixini isə çox sayda qorxu yaradan hadisələr bəzəyir. Avstriyalılar tarixi olmayan bir millət də adlandırıla bilərlər, Avstriya tarixi də titul millətin mövcudluğu olmayan kimi hesab edilə bilər. Yalnız 1945-ci ildəki ağır məğlubiyyətə düçar olmuş Almaniyadan qopub azad olmaqla, avstriyalılar almanlardan ayrı şəkildə milli eyniyyətini qurmağa cəhd etmiş və bunda köks ötürüləsi uğur da qazana bilmişdir.

1918-ci ilə kimi «Avstriya» çoxmillətli olmaqla, sülalənin hakimiyyətinə əsaslanan bir imperiya idi. Bu sülalə Habsburq Monarxiyası kimi tanınır. Burada hələ köhnə dövrlərdən Alpın irsi torpaqlarına sahib olan almanlar yaşayırdılar. Monarxiya tənəzzülə uğradıqdan, süqut etdikdən, başqa sözlə, 1918-ci ilin noyabrından sonra ilk dəfə olaraq Avstriya Respublikası meydana gəlmişdi. Lakin 20 ilə yaxın müddətdən sonra, 1938-ci ilin martında Hitler Avstriyanı işğal edərək, bunu saxtalıqdan xəbər verən aldadıcı «Anşlyus» – «Birləşmə» kimi sadə bir sözlə ifadə etmişdi. 1945-ci ilə kimi yeddi il ərzində bu məcburi birləşmə dəhşətli nəticələrə səbəb olmuşdu, çünki Natsional Sosialist Almaniyası Avstriyanı özünün müharibə və qətl maşınına qoşmuşdu və onların hər ikisi bunun iştirakçısı olmaqla yanaşı, həm də total məğlubiyyətin məsuliyyətini daşımaq ittihamından da, əslində lap başlanğıcda bədbəxtcəsinə işğal olunmuş Avstriyanın özü də qaça bilməmişdi.

İkinci Dünya müharibəsi başa çatdıqdan sonra yeni müstəqil Avstriya, çətinliklə də olsa, ayağa qalxmağı bacardı. Yenidən eyniyyətinin müəyyən edilməsi ilə avstriyalılar almanlardan uzaqda dayanmalı oldular. İki dünya müharibəsindəki yaxınlıq, birincidə ittifaqda, ikincidə isə vahid dövlətin tərkibində olması Avstriyaya olduqca baha başa gəldi, 1918-ci ildə imperiya tarixdən silindi, 1945-ci ildə isə ölkənin ərazisi Müttəfiqlərin işğalına məruz qaldı.

Avstriyanın intibahı Avropanın müharibədən sonrakı sağalması prosesinin ən möcüzəli hadisələrindən biri idi. Ölkədə siyasi və iqtisadi sülhün sintezi, xarici siyasətdə neytrallıq və daxildə ümumi razılıq mühitinin yaranması imkan verdi ki, obrazlı deyilsə, yatan itin keçmişdəki uzanmasına toxunulmasın. Bu isə, XX əsrin sonrakı illərində ölkənin Yer kürəsindəki ən çiçəklənən və dinc bir məkana çevrilməsində mühüm rol oynadı.

Avstriyanın indiki sifətinə baxanda, o ilk dəfə Roma papasının dilindən çıxan «xoşbəxtlik adası» adlanmağa layiqdir. Çünki adambaşına düşən məhsul istehsalına

•

görə Avstriya Avropa İttifaqında ən yüksək yerlərdən birini tutur və ölkənin iqtisadiyyatı özünü uğurlu qaydada dəyişdirməyə qadir olduğunu göstərdi. Əhalinin yüksək texniki təhsil səviyyəsi sənayeləşmədən xidmət sahəsinə keçməyə imkan yaratdı. Avstriya əhalisinin rifah səviyyəsinin də nisbətən yüksək olması ilə yanaşı, bu ölkə dünyanın ən az cinayət, xüsusən daha az ağır cinayətlər törədilən bir məkan adını qazana bilmişdir. Kriminalistlər belə bir dinc birgəyaşayışın cəmiyyətdə hakim kəsilməsinin necə böyük bir nailiyyət olduğunu daha yaxşı bilirlər.



Belveder sarayı

Avropanın ürəyində yerləşən ölkənin coğrafi mövqeyi də ona yaxşı fayda verir. II Dünya müharibəsi dövrlərində Almaniya və İtaliya kimi iki işğalçı dövlətin qonşuluğunda, əslində birincinin tabeliyində olan bu ölkə, indi Avropa İttifaqına aid olan beynəlxalq bazarın habına (mərkəzinə) çevrilmişdir. Bu isə Avstriyaya kommersiyadan əhəmiyyətli səviyyədə fayda gətirir.

Habsburq imperiyası parçalandıqdan sonra uğurlu dövlətlərə çevrilən Çexoslovakiya, Macarıstan və Yuqoslaviyanın əhatəsində olması, hər iki Dünya müharibəsi dövründəki müəyyən siyasi düşmənçiliyin davamı kimi, 1945-ci ildən sonra  onlarla iqtisadi qarşıdurmanın da bəzən müəyyən retsidivləri yaranırdı. Axı onların hər üçü kapitalist ölkəsi olan Avstriyadan fərqli olaraq, sosialist dövlətlərinə çevrilmişdilər..

•

Həmin ölkələr artıq kommunist cəbhəsində təmsil olunmaqla, Uinston Çörçillin təbirincə desək," dəmir pərdə" ilə örtülmüş ərazilərdə yaşamaqla, yaxın sərhəddə yerləşsələr də, onların normal qonşuluqdan imtina etmələri ucbatından Avstriya üzünü «Qərbə» doğru çevirməli oldu.

Kommunizm 1991-cı ildə  süquta uğradıqdan sonra, sosialist sistemindən çıxmış dövlətlər hesabına Avropa İttifaqı XXI əsrin əvvəllərindən xeyli böyüməyə başladı. Avstriya isə öz sərhədlərində yaranmış bu əlverişli iqtisadi imkanlardan həm də olduqca yaxşı xeyir götürürdü.

Avstriya tarixinin çəkisi də xüsusən 1938-ci illə 1945-ci il arasındakı Avstriyanın «Avstriya» olmaması nişanəsini büruzə verməklə yanaşı, milli özünü anlamaqda da mürəkkəblik və narahatlıq yaradırdı. 1986-cı ildəki Kurt Valdhaym işi, II Dünya müharibəsi dövrünün köhnə kabuslarını üzə çıxarıb, yuxarı qaldırdı və həm də xarici rəyləri skandal səviyyəsinə gətirməli oldu. Avstriyalılar «öz» keçmiş imperial şəraitlərinə qayıtmağa ciddi surətdə cəhd edirdilər. Qəribə bir paradoks meydana gəlmişdi – avstriyalılar dünyadakı ən uğurlu dövlətlərdən birində yaşamaqla yanaşı, müstəsna qaydada, hətta hissiyyatlar özşüurunda mövcud olan münasibətlərdə bunu davam etdirirdilər. Onlardan öz «milli» keçmişini soruşanda, bu suala heç də tam əminlik hissi olmadan və özünü müdafiə qaydasında cavab verirdilər.



Opera teatrı

•

Avstriya tarixinə görə onların narahatlıqlarının güclü səbəbləri vardır. İndiki Avstriya ilə və avstriyalılarla əvvəllər «mövcud olmuş Avstriya» və «avstriyalılar» arasında mühüm fərq vardır. Avstriyanın tarixi kimliyinin mürəkkəbliyi timsalındakı labirintdən çıxmağın özü də asan məsələ deyildir. Bu dövlət Mərkəzi Avropaya problemlərlə dolu olan bir irs qoyub getmişdir, bununla yanaşı, həm də Avstriyaya imkan vermişdir ki, XX əsrin intellektual, ideoloji və mədəni cərəyanlarının çoxunun mərkəzində olsun.

Bugünkü avstriyalıların xeyli hissəsi imperiyanı, çoxmillətli Habsburq Avstriyasını öz ağuşuna basmaq istəyir. Bəlkə də, onlara "1900-cu illər Vyanasının" kosmopolitliyi hələ də xoş gəlir.

## Avstriya ərazisinin meydana gəlməsi

Avstriyanın «yoğun» hissəsi və Habsburqlar tərəfindən absorbsiya edilən müstəqil əyalətlər, XIV əsrdə Avstriya torpaqlarını meydana gətirdi. Müasir Avstriyaya və onun mədəni eyniyyətinə daxil olan bəzi əyalətlər, yalnız sonralar Habsburq Monarxiyasına birləşmişdilər. Məsələn, Zalsburq yalnız 1816-cı ildə bütöv şəkildə monarxiyanın tərkibinə keçmişdir, böyük bəstəkar Motsart isə orada 1756-cı ildə anadan olmuşdu, beləliklə o, əslində, heç də «avstriyalı» deyildi.

Yuxarı və Aşağı Avstriyalar Vyana vasitəsilə birləşdirilmişdi və onlar ölkə əhalisinin yarısını təşkil edirdi, Avstriyanın bu iki hissəsi – Dunay və Alp zolaqları arasında gərginlik qalırdı, onlar «vadi» və «dağ» adamları adlanırdılar. Lakin onlar heç vaxt «dağlılar» adlanmamışdılar, çünki dünyada yalnız iki xalq – şotlandlar və Şimali Qafqazda yaşayan xalqların nümayəndələri «dağlılar» kimi tanınırlar. Planetdə isə dağ ərazilərdə yaşayan xalqlar çoxdur, tibetlilər, nepallılar, Mərkəzi və Cənubi Amerikadakı bəzi xalqlar daha hündür yerlərdə yaşayırlar, lakin onlara heç kəs «dağlılar» demir. Azərbaycanda isə Bakıya nisbətən hündür ərazilərdə yaşayan xızılılara, yalnız lokal termin kimi « dağlı» deyilir.

Avstriya natsist Almaniyası tərəfindən işğal edildi, avstriyalılar Üçüncü Reyx ordusunda xidmət etməklə, Hitler rejiminə «rəğbət» nümayiş etdirirdilər. Onlar xarici ərazilərin işğallarını əldə silah tutmaqla dəstəkləmələrinə görə, guya məhz öz «borclarını» icra edirdilər.

Habsburqlar İsveçrə protodemokratiyasına müxalif olan bir sistem kimi fəaliyyətə başladılar. Onlar həm də protestant dövlətlərinə müxalif edilər. 1789-cu ildə Fransa inqilabinin yaratdığı liberal-inqilabi dövlətə qarşı da Avstriya əks mövqedə dayanırdı. Avstriya sübut etmək istədiyi legitimliyini can-başla özünə və başqalarına göstərməyə can atırdı. Avstriyanın keçmişinə və kimliyi düşüncəsinə görə qorxu hissləri, təəccüf ki, onun uzun müddət mövcud olmuş ənənəsinin bir hissəsi idi.

•

German tayfaları tərəfindən şimaldan artan təzyiqə məruz qalan indiki ərazisindəki qədim tayfa dinc qaydada bizim eradan əvvəl 15-ci ildə Roma imperiyasına daxil oldu. Roma idarəçiliyi beş əsrə yaxın davam etdi. Romalılar üstəlik qonşuluqdakı varlı Pannoniya əyalətlərini də (şimali Balkan ərazisi) işğal etdilər və şimaldakı german tayfalarını da özlərinə tabe etməyə cəhd etdilər. Norikam Roma imperiyasının sərhəd zonasına çevrildi, onun Avropadakı hərbi divarı rolunu oynadı. Bir sıra şəhərlər kimi Vyana da ərazidəki mühüm yolları birləşdirən bir məntəqəyə çevrildi.

Şərab istehsalına başlananda, həm də baha başa gələn yol sistemi də tikildi. Bir sözlə, Roma sivilizasiyası burada çiçəklənməyə başladı.

Bizim eranın 172-ci ilində imperator Mark Avreli, o, həm də böyük filosof idi, Romaya qarşı qiyamı yatırtmağa gəldi, onun Vindobonada 180-ci ildəki ölümü Vyananın şöhrət qazanması üçün ilk rəmz rolunu oynadı.

Bu vaxt ostroqotlar, şərqi germanlar və hunlar öz hücumlarını davam etdirirdilər. 433-cü ildə romalılar hunların təhlükəsinə görə Pannoniyadan geri çəkildilər. Hun sərkərdəsi, Avropa üçün bəla hesab edilən Attilanın 453-cü ildəki ölümündən sonra qotlar artıq buradakı ağalığı ələ keçirdi. Şərqi Alplar zonası, Roma erası başa çatdıqdan sonra Teodorixin Ostroqot imperiyasının bir hissəsinə çevrildi.

Tayfaların miqrasiyası davam edirdi və Dunay vadisi onlar üçün başlıca yol rolunu oynayırdı. Regionda yüksələn hakimiyyət bavariyalılara məxsus idi. VI və VII əsrlərdə frankların nəzarətinə keçənə qədər, bavariyalılar Dunay vadisində və Şərqi Alplarda məskunlaşmışdılar.

VIII əsrdə frank kralları Bavariyada öz hakimiyyətini qurdu. Şimalda iri slavyan hakimiyyəti kimi «Böyük Moraviya krallığı» meydana gəldi. IX əsrdə isə ən pisi macarların hücumu idi. Həmin əsrin sonunda macar orduları qonşu torpaqlara müdaxilə edirdi, 907-ci ildə isə Bavariya ordusunu darmadağın etdi.

Roma erasında kelt əhalisinin çoxu romanlaşdırılmışdı və VI əsrdən sonra tədricən xristianlaşdırılmışdı. Avstriya regionu elə əyalətlərdən biri idi ki, burada roman və xristian təsiri heç vaxt bütünlüklə yoxa çıxmamışdı. Roma rejimi süquta uğrasa da, 719-cu ildə Zalsburqda artıq yepiskop mövcud idi, VIII əsrin sonunda isə burada arxiyepiskop meydana gəldi. 1000-ci ildə isə Macarıstan kralı Stefen özü xristianlığa keçdi.

Babenberqlərin başçılığı altında avstriyalıların yürüşü əvvəlcədən güclü deyildi. Bu diyarın şimalında və şərqində əhalisi etnik cəhətdən german olmayan krallıqlar – Bohemiya, Macarıstan və Polşa var idi, onların monarxları isə xristian idilər. İlk Babenberq müasir Avstriyanın da ərazisindən çox kiçik olan torpaqlara nəzarət edirdi. Zalsburq Bavariyanın bir hissəsi olmaqla, arxiyepiskopun idarə etdiyi dini hakimiyyət altında olan əraziyə çevrilmişdi. Zalsburqdan şimalda olan Tirolda isə kiçik hökmdar var idi. Cənubda və cənubi-qərbdə Karintiya və yeni əyalət olan Stiriya yerləşirdi.

•

Üç əsr ərzində Babenberqlər, oyunu olduqca yaxşı oynadılar. XIII əsrdən onlar Müqəddəs Roma imperiyasının cənubi-şərqində olan hersoq hökmdarlara çevrildilər. Avstriya və Stiriyanın hər ikisi Müqəddəs Roma imperatorları olan Hohenştaufen ailəsinin başçılıq etdiyi həmin imperiya ilə ittifaqa girdi.

İlk Avstriya hersoqu II Henrinin varisi V Leopold hiyləgər bir hökmdar idi. O, Bavariyadan baha qiymətə torpaq almışdı. O, III Səlib yürüşündən qayıdan İngiltərə kralı Şirürəkli I Riçardın 1192-ci ildə həbs edilib, dustaq saxlanması göstərişini vermişdi. Girov pulu kimi İngiltərə ona böyük məbləğ ödəməyə məcbur oldu, bu pula o, Vyanadan Stiriyaya yol çəkdirmiş, xeyli sayda şəhərə yeni divarlar tikdirmişdi. Bu biabırçı tədbir isə öz döyüşçülərinə başçılıq edən V Leopoldla I Riçard arasında III Səlib yürüşü həyata keçiriləndə Akranın mühasirəsi vaxtı baş vermiş mübahisələrinin nəticəsi idi. Bu hadisə əslində hersoqun ciddi riskə getməsinin nümayişi idi.

Babenberq təkcə risk etməkdə deyil, hiyləgər sülalə siyasətini aparmaqda da uğurlu hərəkət edirdi. Səlib yürüşləri birbaşa olmasa da, Avstriyanın taleyinə də öz təsirini göstərdi, Hesoq V leopold qüdrətli İngiltərəyə gözlənilmədən meydan oxudu.

Dunay çayı böyük əhəmiyyətə malik olan ticarət yoluna çevrilmişdi, Vyana isə onun üzərindəki mühüm liman idi. Çay vasitəsilə germanların mərkəzi torpaqları, qərb əraziləri ilə əlaqə saxlayırdı. Şəhər həm də Macarıstana çıxış qapısı idi, onun arxasından isə Bizans imperiyasına keçmək mümkün idi. Bu, Vyananı və Avstriyanı şərq yolu kimi bir mühüm istiqamətə yiyələndirirdi. İki ən görkəmli Babenberq olan II Henri və VI Leopold öz hersoqluqlarının müdafiəsinə zəmin yaratmaq üçün Bizans printsessalarına evlənmişdilər.

## Səlib yürüşləri

Baş xristian kisəsinin və Avropa dövlət başçılarının müsəlman Şərqinə qarşı yürüşləri Səlib yürüşləri adlanmaqla, Orta əsrlərin böyük cinayətlərindən biri hesab olunur. Bunu tədqiq etmək üçün həmin dövrlərin geoiqtisadi landşaftına nəzər yetirmək ehtiyacı yaranır. O vaxtlar Avropa sivilizasiyası inkişaf etsə də, Şərqin torpaqları və imperiyaları ilə əlaqələrini bütünlüklə kəsməmişdi. XI əsrin sonunda bu əlaqə böyüdü, İslam və Bizans dünyalarının inkişafı, Avropa sivilizasiyasını da, öz qitəsindən kənara genişləndirmək üçün ilk başlıca cəhdə cəsarətləndirdi.

X əsrin ortalarından İslam imperiyasına Bağdaddakı İslam xilafəti ağalıq edirdi. Fatimilər kimi tanınan Şiə sülaləsi. də meydana çıxmışdı. Onların mənşəyi Şimali Afrika idi, onlar Misiri işğal edib, yeni şəhər olan Qahirəni özlərinə paytaxt etmişdilər. Şiə xilafətini qurmaqla onlar Bağdadın Sünnü xilafətinə rəqib oldular və İslamı parçaladılar.

•

Səlcuq türklər Mərkəzi Asiyadan olan köçəri xalq idi, islamı qəbul etmiş, Abbasilər xilafətində muzdlu hərbi xirdmətdə inkişaf etmişdilər. Onların sayı artdıqca Abbasilər imperiyasının şərq əyalətlərini özlərinə götürdülər. 1055-ci ildə türk lideri Bağdadı işğal etdi və sultan ("hakimiyyəti saxlayan" mənasını verir) titulu ilə Abbasilər imperiyasına başçılıq etdi. İki əsr sonra isə Bağdadı monqollar işğal edib, viran qoydular və ərəb sivilizasiyasının sürətli inkişaf xətti birdəfəlik kəsildi.

Həmin dövrdə Bizans imperiyasındakı Anatoliyada hərbi liderlər və kübarlar böyük torpaq sahiblərinin dəstəyini satın aldılar. Beləliklə, kəndli döyüşçülər Bizans imperiyasının onurğa sütununa çevrildilər. Ölkədəki Katolik kilsəsi ilə Ortdoks kilsəsi arasındakı böyüyən parçalanma da Bizans dövlətini zəiflətdi.

Səlib yürüşləri dinsizlərə qarşı müqəddəs müharibə ideyasına əsaslanırdı. Xristianların qəzəbi müsəlmanlara qarşı çevrilmişdi. Müsəlmanlar irəliləyib, İspaniyanı işğal etmişdilər. XI əsrin sonunda isə müsəlmanlara hücum etmək üçün xristianlar əla imkan əldə etmişdilər. Bizans imperatoru I Aleksius papa II Urbandan xahiş etdi ki, Səlcuq türklərinə qarşı mübarizədə ona kömək göstərilsin. Papa bunda qızıl bir  imkan gördü. Yerusəlimi və Müqəddəs torpağı dinsizlərdən azad etmək üçün Avropadan  döyüşçülər göndərməklə, o, həm də özünün hökmranlığını sübut edəcəkdi. 1095 –ci ildə Urban xristianlara çağırış etdi ki, dinsizlərə qarşı öz silahlarını qaldırsınlar. Papa onlara günahlarını bağışlamağı da vəd etdi.

Qərbi Avropa, xüsusən Fransa Səlib ordularını təşkil etdi. 1099-cu ildə onlar Yerusəlimə çatdılar., beş həftəlik mühasrədən sonra şəhər tutuldu. Və sakinlər dəhşətli qırğına məruz qaldılar.

1187-ci ildə Səlahəddinin başçılığı altında müsəlman qüvvələri Yerusəlimi  geri aldılar. Buna cavab olaraq Xristianlıq bütünlüklə Orta Şərqə yeni Səlib yürüşünə şağrıldı. Üç başlıca monarx yeni Səlib qüvvələrinə şəxsən başçılıq etməyə razılaşdı. Həmin dövlət başçıları Almaniya imperatoru Fridrix Barbarossa, İngiltərə kralı Şirürəkli I Riçard  və Fransa kralı Filip II Avqust idi. Səlibçilərin bir hissəsi 1189-cu ildə nəhayət Orta Şərqə gəlib çıxdı, lakin burada yalnız problemlərlə üzləşməli oldu. Fridrix Barbarossa yerli çayda çiməndə batdı və onun ordusu tezliklə parçalandı. İngilislər və fransızlar dənizlə üzüb gəlmişdilər və sahil şəhərlərində uğur qazana bildilər. Çünki orada onlar donanmanın köməyindən istifadə etmişdilər. Lakin içəri ərazilərə hərəkət edəndə ağır məğlubiyyətə düçar oldular. Nəticədə, Filip vətəninə qayıtdıqdan sonra, Riçard  bəzi razılaşmalar üçün danışıqlar apardı, Səlahəddin xristian zəvvarlarının Yeusəlimə sərbəst şəkildə gəlmələrinə icazə verdi. III Səlib yürüşü belə kiçik nəticə ilə başa çatdı. Lakin dramatizminə görə əvvəlkilərdən seçilirdi. İmperator suda boğulmuşdu, kral Şirürəkli I Riçard ilə Avstriya hersoqu V Leopoldun oradakı sözləşməsi, vətəninə qayıdan ingilis kralının Avsyriya ərazisində hersoq Leopold tərəfindən həbs edilməsi ilə nəticələnmişdi..

VI Səlib yürüşünü isə imperator II Fridrix uğurla həyata keçirdi. Sonrakı iki yürüş də əvvəlki beşinci yürüş kimi uğursuzluqla nəticələndi.

•

## Habsburqların hakimiyyətə gəlməsi

Lakin Babenberqlərin yaxşı taleyə malik olması uzun çəkmədi. VI Leopold 1230-cu ildə öldü və onu, oğlu II Fridrix əvəz etdi, onda isə atasında olan diplomat və siyasətçi qabiliyyəti yox idi. O, mübahisə etməyi sevən Fridrix kimi tanınırdı. Öz qonşuları və ya imperator ilə danışıqlar apardı. Şərqi Avropaya müdaxilədə və imperial – papalıq münaqişəsində də hersoq II Fridrix fəaliyyət göstərməli oldu və həm imperator, həm də papa oxşar qaydada ona diqqət göstərdilər. 1246-cı ildə hersoq II Fridrix macarlarla vuruşda öldürüldü. Onun kişi cinsindən olan heç bir varisi yox idi. Bir neçə onillikdən sonra böhran vəziyyəti və müharibə dayandı, bu vaxt digər bir sülalə region siyasətində öz yerini tutmağa qadir oldu. Bu mürəkkəb oyunda məhz Habsburqlar öz ustalıqlarını göstərdilər.

Həmin dövrdə Müqəddəs Roma imperiyasında vəziyyət heç də pis deyildi. 1212-ci ildən 1250-ci ildə ölənə qədər II Fridrix 38 il ərzində imperator kimi əsasən uğurlu fəaliyyət göstərmişdi. Babası I Fridrix Barbarossa da buna bərabər olan müddətdə imperator  tacını daşımış, 1190-cı ildə Səlib yürüşü vaxtı Fələstindəki çayda çiməndə batıb ölmüşdü. Müqəddəs Roma imperiyası öz başlanğıcını 962-ci ildə Almaniyanın Sakson kralı kimi tanınan I Ottonun ordu ilə Romaya daxil olduqdan sonra, papanın onu taclandırmasından götürür. Bununla alman xalqının Müqəddəs Roma imperiyasının binövrəsi qoyulmuşdu.

II Fridrix əvvəllər, üç yaşı olanda Siciliya kralı, 18 yaşında isə Almaniya kralı və imperator olmuşdu. Onun imperator fəaliyyəti ziddiyyətlər bolluğu ilə seçilirdi. həm də, o, çoxtərəfli istedad sahibi idi, bir sərkərdə, dövlət xadimi, qanun yaradıcısı və alim kimi tanınırdı. Onu tarixçilər  “dünyanı dolaşan Fridrix” addlandırırdılar, həm də qəribəlikləri təqlid etməklə seçilirdi. Ümumi qaydalara və rəyə məhəl qoymamasına görə onu həm dinsizlikdə, həm də hətta müsəlman olmaqda ittiham edirdilər. Onun öz dövrünə xas olan qaydaların dağılmasının toxumunu səpmək cəhdlərini də inkar etmək olmaz.

1228-ci ildə o, VI Səlib yürüşünə başçılıq etmiş və Misir sultanının razılğı ilə Yerusəlimin kralı kimi taclanmışdı. O, şəhəri vuruşsuz ələ keçirmişdi. Həm də digər Səlib yürüşlərindən fərqli olaraq, papanın dəstəyindən istifadə etməmişdi. Şəhəri tərk etdikdən sonra isə, Yerusəlim Misir sultanı ilə ittifaqa girən türk qrupu tərəfindən tutulmuşdu.

•

Onun fəaliyyətinin ən uğurlu tərəfi Yerusəlimi ələ keçirməsi hesab olunur. O, sadəcə müraciət etməklə, qalib gəlmək üsulunu seçmişdi., Müqəddəs şəhəri müsəlmanlardan geri almışdı. Bu nailiyyətinə baxmayaraq axırda lənətlənməli olmuşdu.

Fridrix Yerusəlimin axırıncı xristian kralı oldu, bir müddət şəhəri idarə etmişdi. II Fridrixdən sonra İtaliyanın özündə də krallıq yoxa çıxdı.. O, heç də dövrünün adamı deyildi. Papalıqla gərgin münasibət saxlamaqda da babası I Fridrix Barbarossaya bənzəyirdi. O, həm də özünün dinsizliyinə, şəxsi pozğunluğuna, barbar qəddarlığına görə tanınırdı. Bəlkə də bu onun əcdadlarından gəlirdi, onlar yarı alman, yarı norman idilər.

1278-ci ilin avqustunda german kralı I Rudolf Habsburqun ordusu Bohemiya kralı Otakarın qüvvələrini Vyananın şimal-şərqində məğlub etdi. Vuruş səhnəsi Avstriya tarixində dönüş nöqtəsi olmaqla, bu hadisə Habsburqları Avstriyanın hökmdarı etdi. Həmin vaxtdan 1918-ci ilə kimi Avstriya tarixi, sülalə siyasətinin nümunəsinə çevrildi. Habsburq ailəsi tezliklə imperiya hökmdarı kimi ilahi hüquqa yiyələndi və qəti şəkildə dünya ağalığına iddia etdi. Habsburq kosmosunda Avstriya bəzən təkcə kiçik bir element rolunu oynayırdı. Ona görə də indiki Avstriya Respublikası, tarixi imperiya ilə müqayisədə tsiklopa bənzəyən nəhəngin, karlik tipli bir törəməsini yada salır. Habsburqların hakimiyyətə daxil olması Avstriyanın sonralar nə demək olduğunu göstərdi, həmçinin onun qitədəki mövqeyini də, böyüməyə doğru dəyişdirdi.

Onlar şimalda Bavariya torpaqları ilə birlikdə Baltikadan Adriatik dənizinə qədər olan bir imperiya qurşağının meydana gəlməsinin astanasında idilər. Bu yeganə mümkün olan hal idi ki, 1250-ci ildə ölən imperator, Hohenştaufen sülaləsindən olan II Fridrixdən sonra xaosun bürüdüyü imperiyada tənəzzül baş verdi. Bu, german hökmdarları üçün dərman rolunu oynadı. 1273-cü ildə bu, imkan verdi ki, onlar german kralı Rudolf Habsburqu, Otakarın özünü namizəd göstərməsinə baxmayaraq, imperator seçə bilsinlər

I Rudolf 1250-ci ildən sonra itirilmiş imperial hüquqlarının bərpası siyasətini aparmağa başladı. Rudolfun qüvvələrinin qələbəsi isə ona Avstriyaya da iddia etməyə imkan verdi.

Avstriya torpaqlarının ələ keçirilməsi Habsburq ailəsi üçün başlıca addım idi. Onlar İsveçrə sərhədinə qədər olan ərazilərə nəzarət edirdilər, bu torpaqlar «*Habich-tsburg*» – «Quzğun istehkamı» adlanırdı. Ailə Cənubi German Şvabiyasında görkəmli torpaq sahiblərinə çevrildilər. Rudolf, Habsburq ərazisini şimala doğru xeyli genişləndirdi, bu isə Orta Əsrlər Avropasında mühüm geosiyasi nöqtələr idi və artıq imperial siyasətdə öz vəznli rolunu göstərə bilmişdi. Beləliklə, I Rudolf Habsburq sülaləsinin banisi oldu. Babenberq ərazilərinin ələ keçirilməsi isə hakimiyyətlə yanaşı, həm də yeni yaranan sülalənin nüfuzunun əhəmiyyətli dərəcədə böyüməsi demək idi.

•

O, çox istəyirdi ki, Vyana Bohemiyanın paytaxtı olan Praqanı ötüb keçsin, onun bu arzusu xeyli müddətdən sonra reallaşdı.

1282-ci ildə Rudolfun böyük oğlu Albrext yeganə varisliyə yiyələndi. Gənc hersoq özünü həm də imperator tacında görürdü. Lakin onun imperator seçilməsi baş tutmamışdı. Elektor hökmdarlar (seçmək hüququ olan kurfyurstlar) VII Henri Lyuksemburqlunun Rudolfun həqiqi varisi olmasını sübut etmək naminə, digər bir sülalə seçdilər.

Hersoq Birgözhü Albrext adlanırdı, Onu zəhərləmişdilər, həkimlər zəhəri bədəndən çıxarmaq üçün onu başı aşağı asmışdılar, bunun hesabına onun bir gözü çıxmışdı.

Həmin Henri 1313-cü ildə öləndə Habsburqlar imperial mantiyasının yenidən əldə etməyə cəhd etdilər. Lakin Habsburqlardan olan Fridrix seçkidə qalib gələ bilmədi, çünki o, yalnız adına görə kral idi, real hakimiyyət isə onunla birgə hökmranlıq edən Lyudviqə məxsus idi. Ataları Fridrix 1330-cu ildə öləndə iki gənc qardaş- II Albrext və Otto Habsburq hökmdarları oldular.

II Albrext yəhudilərin himayəsinə sığınsa da, onun dövründə ilk yəhudi qırğını baş verdi. Albrext fərman verdi ki, yəhudi ailələrindəki 15 yaşına qədər olan uşaqlar valideynlərindən ayrılıb, xristian kimi xaç suyuna çəkilsinlər. Onun hakimiyyəti 1348-49-cu illərdə Qara Ölümü – Taun pandemiyasını da gördü.

German kralı, öz qayınatası IV Karlın 1356-cı ildə dərc etdiyi və «Qızıl bulla» adlanan qanununu yeni hersoq IV Rudolf kodifikasiya edərək, 1359-cu ildə, onun əsasında yeni sənəd qəbul etdi. Vaxtilə mperator I Fridrix Barbarossanın Babenberq hersoqlarına verdiyi imtiyazlara görə imperiyada Avstriyanın statusu xeyli böyümüşdü. Hersoq IV Rudolf ilk dəfə Avstriya hersoquna gələcəkdə ershersoq titulu veriləcəyini elan etdi. Rudolfun məqsədi imperatoru seçən yeddi elektor-hökmdarlarla Avstriya hersoqunun müqayisə edilməyə imkan verən bir statusa nail olması idi. Bundan ötrü o, saxta sənəd də düzəltdi və ona XII əsrdə, 1190-cı ilə qədər38 il ərzində Müqəddəs Roma imperatoru olmuş I Fridrix Babarossanın da imzasını qoydu. Bir əsr sonra, 1453-cü ildə həmin sənədlə III Fridrix Avstriyada regent olmaqla, nəhayət ershersoq titulu ilə tanındı. O, imtiyazların yenidən möhkəmləndirilməsi qaydasını qəbul etdi. O, ilk Habsburq idi ki, Müqəddəs Roma imperatoru seçilmişdi. Ona Şişman Fridrix deyirdilər. O, həm də sülalə üçün böyük əhəmiyyət daşıyan Fridrix Barborassanın guya imzaladığı saxta sənədi təsbit etdi. Onun ambitsiyaları imkanlarından, gücündən böyük idi, lakin məhz onun dövründə Habsburqlar mənşəcə Aleman Şvabları olsalar da, özlərini "Avstriyanın ağaları", hökmdarları kimi göstərdilər.

II Albrextin varisi olan böyük oğlu IV Rudolf (1358-1365-ci illər) öz atasının siyasətini davam etdirirdi, Şvabiyada Habsburqların mövqelərini bərpa etdi və Avstriya torpaqlarında icra hakimiyyətini və vergi sistemini islahata uğratdı. Müqəddəs Stefen kilsəsini yenidən tikməklə, özünə "Banis" ləqəbi qazandı. Vyanada

•

universitet yaratmaqla, o, Alman kralı IV Karlın 1348-ci ildə Praqa universitetinin əsasını qoymasına cavab verirdi. İlk Vyana universitetinin əsasını qoyduğuna görə, bu təhsil və elm ocağı "alma-mater Rudolfina" adlanırdı.

IV Rudolf Alp dağları ətrafında öz mövqelərini möhkəmləndirmək üçün Milan hersoqları olan Viskontilərlə nikah ittifaqına girməyi planlaşdırırdı. Milanla, Bohemiya ilə və həmçinin Macarıstanla sülalənin ittifaqları Habsburq ambitsiyalarına hətta daha möhkəm baza yaratmışdı. Lakin Rudolf Milana səfər edərkən yolda, 27 yaşında öldü, o, bu vaxt qardaşının Viskontilərin qızı ilə nikah mərasiminə gedirdi.

Onun qardaşları III Albrext və III Leopold birgə hökmranlıq edirdilər, onun uğurlu siyasətini davam etdirirdilər.

Avstriya böyük ilahiyyat alimi, din islahatçısı kimi məşhurlaşan , çex Reformatsiyasının ideoloqu olan Yan Husun ardıcıllarının müharibələrinə də cəlb olundu. Axı Yan Hus katolik kilsəsinin qərarı ilə 1415-ci ildə Konstansada (indiki Rumıniyadakı şəhərdir) tonqalda yandırılmışdı. O, hələ Martin Lyüterdən bir əsr əvvəl kilsə pozğunluqlarına, Roma papalarının sui-istifadələrinə qarşı mübarizə aparmışdı.

Hus tərəfdarlarının başladıqları qarışıqlıq Avstriyanın şimalına da gəlib çıxmışdı. XV əsrdə həm də Osmanlı türklərinin müdaxiləsi şəklində təhlükə meydana çıxdı. Hersoq V Albrextin ölümü türklərə qarşı kampaniya ilə eyni vaxta düşdü. Osmanlı türkləri Avropanın cənubi-şərqinə gəlib çıxmışdı. Hələ 1389-cu ildə Kosovo çölündəki döyüşdə türklər serb-bosniya qüvvələri üzərində qələbə çalmışdılar.

Osmanlı türklərinin Bizans imperiyasını məhv etdikdən sonra Avropadakı işğallarına onlarda daha geniş həvəs yarandı. Türk sultanı 21 yaşlı Mehmet Fateh 1453-cü ilin 29 mayında Konstantinopolu işğal edib, paytaxtını Adrianopoldan, artıq İslamın şərəfinə İstanbul adlandırdığı bu şəhərə köçürdi. Bu nailiyyətinə görə Mehmet Fateh Osmanlı imperiyasının banisi hesab olunur. Yeni imperiya keçmiş Şərqi Roma və ya Bizans imperiyasını məhv etdikdən sonra, onu daha geniş ölçülərdə bərpa etməyə çalışırdı. Ərazi işğalı iştahı getdikcə daha da artırdı. 1520-ci ilə qədər taxt-tacda olan sultan Səlim Yavuz diqqəti Şərqə verib, iri əraziləri tutduğu halda, onu əvəz edən oğlu sultan Süleyman Kanuni nəzərlərini Avropaya dikdi və onun yürüşləri buradakı xristian dövlətləri üçün qorxulu təhlükəyə çevrildi.

Konstantinopolun türklər tərəfindən işğal olunduğu ildə Avropada digər böyük hadisə baş verdi, İngiltərə ilə Fransa arasındakı Yüzillik müharibə başa çatdı. Fransa öz ərazisini işğaldan azad etdikdən və güclü dövlətə çevrildikdən sonra Avropa problemlərinin həllində mühüm rol oynamaq imkanı qazandı.

## AEIOU – Avstriya bütün dünyanı idarə etməlidir

•

1451-ci ildə Stiriya hökmdarı V Fridrix, o, 1440-cı ildən həm də Almaniyanın III Fridrix adı altında olan seçilmiş kralı idi, Romaya getdi ki, orada 1452-ci ildə ilk Habsburqa çevrilməklə və həm də axırıncı alman kralı kimi, Romada papa tərəfindən imperator kimi taclansın. III Fridrixlə 1806-cı ilə kimi Habsburqların imperial ofisə inhisarı başlandı (yalnız 1742-45-ci illər istisna olmaqla) və sülalə siyasətçiləri öz uğurlarını kainat monarxiyası yaratmağa gətirib çıxarmaq üçün istifadə etməli idilər.

III Fridrix bankrotluğa yaxın olanda və özünün kiçik ərazisi ilə belə, təəssürat yaradan mərasimləri ilə imperial titulunu əldə edə bilmişdi. Habsburqlar de facto Müqəddəs Roma imperiyasının işlərini aparırdı, *de jure* isə Bohemiya və Macarıstanın da işləri onların üzərində idi.

Habsburqların dünya hakimiyyətinə yiyələnməyə yüksəlməsi, beləliklə, imperial və ilahi hakimiyyətə olan bir iddia ilə başlamaqla, siyasi reallığa çevrildi. Üç əsrdən artıq müddətdə, 1740-cı ildə Mariya Terezanın taxt-taca qalxmasına qədər Habsburqlar hökmranlıq etmək üçün öz ilahi hüquqlarını reallaşdırmağa çalışırdılar. Onlar hakimiyyətləri altında olan kiçik ərazilərlə kifayətlənməyib, bütöv sivilizasiyalanmış (xristianlığa məxsus) dünya üzərində məhz Allah tərəfindən seçilmiş ağalıq edən bir sülalə olduqlarını sübut etməyə cəhd göstərir və buna nail olurdular da. Onlar bunu özlərinin xüsusi ilahi vəzifəsi, müqəddəs borcları kimi qəbul edirdilər. III Fridrix öz imperial tacını qəbul edəndə, bunu özünün icad etdiyi məşhur formula olan AEIOU ilə ifadə etmişdi. Alman dilində bu, «*Alles erdreich ist Österreich unterthan*» demək idi. Latın dilindən tərcümədən istifadə etdikdə, «Avstriya bütün dünyanı idarə etməlidir» və ya “Bütün dünya Avstriyaya məxsusdur” kimi səslənir.

III Fridrix öz imperial ofisinə sevinc hissləri bəsləyirdi, lakin o, özü olduqca zəif bir monarx idi. Onun hakimiyyətinin ilk 20 ili ərzində o, öz qardaşı VI Albertinin, bir macar generalının və çex liberalının kölgəsində qalmışdı. Bu dövrdə o, öz passivliyinə baxmayaraq, hakimiyyətin başlıca mənbəyi idi, Bohemiyanın və Macarıstanın kralı adlanmaqla, həm də Avstriya hersoqu idi. Hakimiyyətdə olması müddəti Qədim Roma imperatoru Avqustunkindən də uzun olmuşdu

Bizans 1453-cü ildə yıxılanda türklər Macarıstana doğru irəlilədilər, Avstriya da gələcəkdə hücuma məruz qala bilərdi. III Fridrix həm də Burqundiya ilə sülalə nikahına girdi, bu, Habsburqlar üçün nəhəng uduş idi. Burqundiyanın dəstəyi ilə onun öz oğlu Maksimilianın Fransa kralı Şarlın yeganə qızı Mariyaya evlənməsi barədə danışıqlar apardı və onlar nişanlandılar. Maksimilian Mariyaya evlənməklə Habsburqlar ən böyük sülaləyə çevrilmək yoluna düşdülər.

Burqundiya kralının ərazilərinə gəldikdə, onlara Niderlandlar, Belçika, Lüksemburq və həmçinin Fransanın şimali-şərqi daxil idi. Ümumiyyətlə, nikahların hesabına Avstriyanın tərkibinə Macarıstan, Xorvatiya və Bohemiya daxil olmuşdu.

•

Maksimilian de facto imperatora və fərasətli hökmdara çevrildi, atasının ilahi hüquqa sahib olmaq barədəki təbliğatından sülalə üçün istifadə etdi. O, enerjili olmaqla yanaşı, buna görə onu "alman Herkulesi" adlandırırdılar, təbliğata da böyük fikir verirdi. O, ölkəsində çıxdığı səfərləri qravyuralarda təsvir etdirib, yaydırırdı. Bu sahədə kitab çapının icadı da ona yaxşı köməklik göstərmişdi. Həm də nikah vasitəsilə Habsburqların təsirini genişləndirmək işində böyük ustalıq göstərirdi. Buna görə çox vaxt bu sitat dilə gətirilirdi ki, xoşbəxt Avstriya bu ittifaqlara girir. «Avstriya, nikaha gir» şüarı da çox yayılmışdı. Maksimilianın iki nikah ittifaqı, İspaniyanın Kastiliya evi ilə də yaxın münasibəti reallaşdırdı. Bu Habsburqlara İspaniyanın, Yeni Dünyanın böyük ərazilərinin., İtaliyanın çox hissəsinin və həmçinin başqa nikah ittifaqı ilə Mərkəzi Avropanın əksəriyyətinin, obrazlı desək, anbarına girməyə imkan verdi. Nikahın strategiya kimi Habsburqların uğuruna xidmət etməsi, onun sirrinin yalnız bir hissəsi idi. Onlar öz hökmranlıq hüquqlarını təkcə təbliğat və mərasimlərlə deyil, həm də döyüş səhnələrində həyata keçirirdilər.

İspaniyada yaranan vəziyyət də elə bil ki, Habsburqların xeyrinə dəyişmişdi. İspaniya bir az əvvəl tam xristian dövlətinə çevrilmişdi, buna isə az qala yeddi əsrdən artıq vaxt sərf olunmuşdu. Ərəblərin İspaniyanı VIII əsrdəki (711-ci il) işğalından 7 il sonra xristian ispan əhalisi işğalçılara qarşı Rekonkista adlanan mübarizəyə qalxdı, bu söz "geri almaq" mənasını verir. XIII əsrin başlnğıcından isə bu mübarizə daha uğurlu gedirdi, əsrin ortalarından isə ərəblərin əlində, malik olduqları nəhəng ərazidən yalnız Qrenada əmirliyi qalmışdı. İspaniya kralı Ferdinandın və onun arvadı, birgə hökmdarlıq edən kraliça İzabellanın səyi nəticəsində Qrenada da 1492- ci ildə xristianların əlinə keçdi və əsrlər ərzində inkişaf etmiş "əl- Əndəlus" sivilizasiyası süqut etdi. Ərəblərin Pireney yarımadasından qovulması isə əksinə, ispan Rekonkistası üçün olduqca böyük qələbə idi, çünki yad işğalçılardan öz ərazilərini azad etmişdi. Bu hadisə xristianlığın, həmçinin əsrlər ərzindəki mübarizənin son zəfərinə nail olmuş, bunula həm də din qarşısında da nəhəng xidmət göstərmiş kralın və kraliçanın böyük sevincinə səbəb olmaya bilməzdi. Həmin ili, bir neçə ay sonra (1492-ci ilin oktyabrında) kraliça İzabella üçün daha böyük hadisə baş verdi, onun bilavasitə maddi himayəsi altında Hindistanı kəşf etmək və ona dəniz yolu açmaq üçün Atlantik okeanının qərbinə səyahət edən Xristofor Kolumb bu vaxtadək məlum olmayan yeni torpaqları kəşf etdi. Əslində kraliça İzabella bu mühüm layihəyə sponsorluq etnəklə, siyasi və elmi fədakarlıq göstərmişdi.. Sonralar məlum oldu ki, Kolumbun güman etdiyi kimi, bu ərazilər heç də Hindistan deyil, Yeni Dünya imiş. Kolumb kəşfin həqiqi müəllifi idi, lakin bu riskli əməliyyatın xeyir-duasını məhz kraliça İzabella vermiş, onun baş tutmasında möhkəm iradə və əsl uzaqgörənlik göstərmişdi. Amerikalar qitələrinin uğurlu kəşfində Kolummbla yanaşı , kraliça İzabellanın gəstərdiyi xidmətlər də danılmazdır.

Yuxarı Reyndəki mürəkkəb hakimiyyət əlaqələri ilə Habsburqlar Burqundiya irsinə də yiyələndilər. Hətta İtaliyada əldə etdiyi qohumluq əlaqəsi tarazlıq hesabına

•

İspaniya irsinə də sahib olmağa aparıb çıxardı. Maksimilian və Ferdinand Araqonlu (o,arvadı İzabella Kastiliyalı ilə birlikdə iki xırda dövlətdən yaranan ilk, rüşeym şəklində olan mərkəzləşmiş İspaniya dövlətinin həmkralı idi) arasında danışıqlar nikah ittifaqının yaranmasına səbəb oldu. Maksimilianın oğlu Qəşəng Filipp Ferdinandın və İzabellanın qızı, prinntsessa Xuanaya evləndi. Maksimilianın qızı Marqaret isə bir il sonra, 1497-ci ildə İspan infantı Xuana ərə getdi. Həmin ildə Xuanın ölməsi Filippi və Xuananı İspaniya torpaqlarının şəriki etdi. Ferdinandın və İzabellanın kiçik qızları Katerina Araqonlu sonralar İngitərə kralı VIII Henrinin arvadı olmuşdu. 1506-cı ildə Filipp öləndə, onun dul arvadı Xuananın əsəbləri ağır dərdə görə pozuldu və onun dəli olması elan edildi. Onların oğlu Karl Gentli (o, 1500-cü ildə Belçikanın həmin şəhərində anadan olmuşdu) yaranmış şəraitdə İspaniya torpaqlarının yeganə varisliyinə sahib oldu. Bu, Habsburq hakimiyyətində nəhəng yüksəliş əldə etməyə imkan verdi.

Maksimilian fransız təhlükəsinə qarşı imperiyanı səfərbər etməyə çalışırdı və ilk alman monarxlarından biri idi ki, yalnız alman milli kartı ilə oynayırdı. O, 1519-cu ildə öldü. Öz nəvəsi Karlı ancaq hələ alman kralı seçdirməyi bacarmamışdı, lakin sülalə imkanları ilə varis kimi ona daha çox «sursat» qoyub getmişdi. Onun İspaniya ilə, həmçinin Mərkəzi Avropadakı nikah ittifaqları Habsburqların taleyini sonrakı dörd əsr ərzində uğurlu qaydada müəyyən etməyə qadir etdi. Maksimilian öz ölümünə də hazır idi, səfərə çıxanda özü ilə tabutunu da götürürdü.

Maksimilianın varisi Karl həm də Burqundiya hersoqu və Kastiliya kralı oldu. Ferdinand Araqonlu 1516-cı ildə öləndə isə bütün İspaniyanın kralı oldu, bu vəzifəsinə görə I Karl adlanırdı. Maksimilianın ölümündən sonra və özünün iri məbləğdə rüşvət verməsi hesabına Karl 1519-cu ildə yekdilliklə alman kralı seçilməklə, yalnız 1520-ci ildə İspaniyadan Aaxenə (bu şəhər vaxtilə Qərb imperatoru Böyük Karlın paytaxtı olmuşdu) səfər etdi ki, taclansın. Maksimilian həm də nəvəsi Ferdinandı 1515-ci ildə Macarıstanın və Xorvatiyanın kralı etmişdi.

İspaniyadan, Burqundiya torpaqlarından və irsi Avstriya torpaqlarından başqa, Karl həmçinin Araqon irsi hesabına İtaliyadakı və Aralıq dənizindəki geniş ərazilərin hökmdarı idi. Okeanın o tərəfində isə İspaniya artıq Karib ölkələrində müstəmləkələrə malik idi və Ernan Kortes 1519-cu ilin fevralında Mərkəzi Amerikada sahilə çıxaraq, Attsek paytaxtı Mexikonu zəbt etmişdi. 1532-ci ildə bunun ardınca Fransisko Pisarro tərəfindən Peru işğal edilmişdi. Bu torpaqlar, xüsusən Peru zəngin gümüş yataqlarına malik idi. Müqəddəs Roma imperiyasında Karl təkcə kral deyildi, həm də (seçilmiş) imperator idi, bu vəzifəsinə görə o, V Karl adlanırdı.

Habsburqların ərazi mülkiyyəti o qədər nəhəng görünürdü ki, kainat monarxiyası barədə III Fridrixin vaxtilə mümkün olmayan AEIOU ideyası bu vaxt həll edilməyə yaxın olan kimi görünürdü. Bütün birləşmiş Xristian aləmi bir skipetr altında kainat monarxiyası cığırında idarə olunmalı idi. «*Plus ultra*» – «Daha uzağa

•

getmək» şüarı ilə isə elə görünürdü ki, Karlın həmin vəzifəni həyata keçirməsi üçün bu, etibarlı qaydada seçilmiş bir cığırdır.

Kainat monarxiyası iddiası həm də heç vaxt reallığı ilə seçilən bir məqsəd olmamışdı. Fransa kralı I Fransisk həmçinin xeyli ambitsiyalara malik idi və daxili kommunikasiya xətlərini inkişaf etdirmək sahəsində bəzi irəliləyişlər etmişdi, həm də səmərəli icra hakimiyyəti qurmuşdu. Baxmayaraq ki, o, 1525-ci ildə İtaliyadakı Paviyada ispanlara əsir düşmüşdü, lakin iki il sonra azad olub, vətəninə qayıtdıqdan sonra yenə də eyni fəallıq göstərməyə başlamışdı. Hətta Yeni Dünyadan İspaniyaya milyonlarla sərvət gələndə də, Fransanın gəlirləri Habsburq maliyyəsi ilə müqayisə oluna bilərdi. Habsburq torpaqlarının həddən artıq genişlənməsi faktiki olaraq onu idarə edilməyən etmişdi. Bu, kainat monarxiyası yaratmaq üçün, daha çox bir-birinə birləşmiş platformalara bənzəyirdi. Hətta V Karl imperator kimi taclandıqda da, onun Avstriyalı təbəələri Vyanada ona tabeliyin bəzi xüsusiyyətlərindən imtina edirdilər. Karlın digər ərazilərində də, xüsusən Niderlandlarda narahatlıqlar baş verirdi.

Bir məsələni də qeyd etmək lazımdır ki, İspaniya Amerikalardan gələn nəhəng var-dövlət hesabına qızıla hərisliyinə görə qəribə bir "sərxoşluğa" qurşanmışdı, öz iqtisadiyyatının inkişafına fikir vermirdi. Əsas diqqət gümüşü daşımağa yönəldilmişdi. Ona görə də İspaniya Yeni Tarixdə Avropada başlananan iqtisadi inkişaf hərəkatından kənarda qaldı və bu, onun tənəzzülə uğramasına səbəb oldu.

Karlın kainat monarxiyası məqsədinin əleyhinə iki digər amil də mövcud idi. Onlardan biri daha çox əhəmiyyətə malik idi. Əgər Fransa xristian aləmi içərisində müqavimət göstərsə, türklər asanlıqla nəhəng bir təhlükəyə çevrilərdi. Digəri isə daha böyük nəticələrə səbəb ola bilən Martin Lyüterin meydana çıxması idi. Maksimilian özünün rıtsarlıq poemasını çap etdirəndə, Lyüter 1517-ci ildə özünün pamflet xarakteri daşıyan 95 maddəlik bəyanatını Vittenberqdəki kilsənin qapısına vurmuşdu. Protestantizmin meydana gəlməsi Katolik Xristianlığın ənənəvi nəzər-diqqətinə görə, onların dünyasına birbaşa və ölümcül bir təhlükə idi. Bu isə Müqəddəs Roma imperiyasının və həm də Habsburqlar sülaləsinin nüfuzuna ağır zərbə ola bilərdi. Sonra Lyüteran cərəyanı ilə birlikdə kalvinistlər və digər sektalar səhnəyə çıxdı. "Bir skipetr altında olan" birləşmiş Xristianlıq konsepsiyasında da oyuq əmələ gəldi.

Türk hücumu təhlükəsi gündəlikdən düşmürdü. 1529-cu ildə Avropada Möhtəşəm Süleyman kim tanınan türk sultanı Vyanaya yürüş etdi və şəhəri mühasirəyə aldı. Sultan Süleyman bu vaxt həm də Ərəb xəlifəsi və Ruma imperatoru idi. Lakin mühasirə uğurlu olmadı. Türklərin vəziyyəti yaxşı deyildi, xeyli toplarını itirmişdilər, ordunun qidası da tükənirdi. Leysan yağış da türklərin geri çəkilməsi səbəblərindən biri oldu.

Türk dinsizləri ilə (xristianların rəyi belə idi) Lyüteran çağırışı arasında birləşmə əmələ gələndə, Karl axırıncını yatırtmaq üçün hansısa bir vasitə tapa bilmədi. Hələ də V Karl heç vaxt özünü adamların sevdiyi şəxs edə bilməmişdi, həm də öz məqsədinə çatmaq üçün kifayət dərəcədə cəhd göstərmirdi. O vaxtlar

•

Makiavellinin «*raison d`etat*» – «dövlət marağı» ideyası heç də V Karlın idarə etmə üslubuna yaxın deyildi.

V Karl lakin öz torpaqları ilə bütünlüklə məşğul idi və onların naminə vuruşurdu da. İlk illərdə o, İspaniyada Fransaya qarşı vuruşmuşdu, 1527-ci ildə onun ordusu Romanı qarət etmişdi. Həmin ili papa VII Klement Karlı Müqəddəs Roma imperatoru və Milan hersoqu kimi taclandırmışdı. Bu, Müqəddəs Roma imperatorunun axırıncı dəfə papa tərəfindən taclanması oldu.

V Karl ilə papanın sövdələşməsinə görə, imperator öz qızı Marqareti Florensiya hersoqu Alessandro Mediçiyə ərə verdi. 6 ay sonra Alessandro öldü, onu hansısa yad qatil deyil, öz qohumu və əxlaqsızlıq sirdaşı Lorentso öldürmüşdü.

Lyüteranizm sürətlə yayılırdı, xüsusən də Habsburq Avstriyasının ərazilərində. Auqsburq parlamenti tərəfindən 1530-34-cü illərdə lyüteranlar təşkilatlanmış qüvvəyə çevrildilər. V Karlı 1531-ci ildə qardaşı Ferdinand əvəz etdi. Türklər 1532-ci ildə Vyanaya yaxınlaşdılar. V Karl imperiyaya olan marağını yenidən itirdi.

1552-ci ildə protestant hökmdarları Fransa kralı II Henri ilə ittifaqa girdilər. 1555-ci il Dini Sülh barədəki qərarla imperiyada belə bir prinsip qüvvəyə mindi ki, hökmdarın dini (sitayiş etdiyi din növü və ya tərkibində olduğu konfessiya) onun təbəələrinin dini olmalıdır. Bu, katolik ağalığının sonu demək idi, lakin imperator ona görə də öz adının bu qaydada tanınmasını istəmirdi və sənədi imzalamağı Ferdinandın ixtiyarına buraxdı. Həmin il Karl Niderlandların hökmdarlığından da istefa verdi, 1556-cı ildə isə imperial ofisini də Ferdinanda verdi, axırıncı isə ancaq iki il sonra imperator seçildi. Karl istirahət üçün İspaniyaya yollandı və 1558-ci ildə orada öldü. Onunla birlikdə Habsburq kainat monarxiyası qurulması cəhdinə də olan inam öldü.

Karlın oğlu II Filipp lakin hələ də bu məqsədi güdməkdə davam edirdi və bəzi uğurlar da qazandı. 1557-ci ildə fransızları məğlub etməklə, Habsburq İtaliyada nəzarəti ələ keçirdi. Fransadakı dini vətəndaş müharibələrinin getməsinə görə, Cənubi Amerikadan İspaniyaya gümüş gətirilməsi daşqın xarakteri daşıdığından, II Filipp atası Karlın arzuladığı kimi Avropada açıq şəkildə ən qüdrətli hökmdara çevrildi. Filipp onu (və ya ən azı Ferdinandı) Müqəddəs Roma imperotoru kimi əvəz etdi. Əgər Filippin 1554-cü ildə İngiltərə kraliçası Mariya ilə sülalə nikahı bəhrəli olsaydı, Mariya ona övlad doğsaydı və ya o, 1559-cu ildə İngiltərənin yeni kraliçası Elizabetə evlənə bilsəydi (onların hər iksi kral VIII Henrin qızları olmaqla, bir-birinin ardınca taxt- taca çıxmışdılar), yaxınlaşan kainat monarxiyası reallaşa bilərdi və Habsburq dünyası və onun tarixi, yəqin ki, tam fərqli olardı.

## Monarxiya çətinliklərlə üzləşir

•

Habsburqların XVI əsrdəki taleyi elə bil ki, II Dünya müharibəsindən sonra Böyük Britaniya imperiyasının parçalanması nəticəsindəki zəifləməsinə çox bənzəyirdi. XIX əsrin sonunda Viktoriya epoxasının Böyük Britaniyası dünya ərazisinin dörddə birinə hökmranlıq edirdi. II Dünya müharibəsindən sonra imperiya şaqren dərisi kimi daralmağa başladı, 1947-ci ildə imperiya tacının brilyantı olan Hindistan müstəqilliyini elan etdi, Malayyada imperiyaya qarşı silahlı üsyan qalxdı.

Böyük Britaniya kralı VI Corcun zəifləyən imperiyaya rəhbərliyi, İspaniya kralı I Karlın (Müqəddəs Roma imperatoru kimi o, V Karl adlanırdı) tənəzzülə uğrayan nüfuzunun təkrarını yada sala bilərdi. XX əsrin 60-70-ci illərində isə Böyük Britaniya Afrikadakı və Asiyadakı müstəmləkələrinin əksəriyyətini itirdi.

V Karlın kainat monarxiyası barədəki uğursuz layihəsi, Avstriyanın Habsburq Evinə sonralar daxil olan çox sayda hökmdarların məsuliyyətində qaldı, lakin sülalənin ehtiyatları bunun üçün elə də çox deyildi. I  Ferdinand və onun varisləri böyüyən Protestant hərəkatını və həm də narahat Avstriya torpaqlarının mövcudluğunu da nəzərə almaqla, həmçinin imperiyanın parçalanması prosesinin getməsinə qarşı və Türk təhlükəsi ilə mübarizə aparmalı idi. Bu çağırışlara cavab verməyə uyğunlaşmaq,  Habsburq monarxiyası üçün mürəkkəb xarakter daşıyan və reallığı ilə seçilən bir məsələ idi.

Bütün bunlarla yanaşı, onu da qeyd etmək lazımdır ki, Karlın dövründə imperiyanın ərazisi Cənubi Amerikadan Avropadakı Balkanlara qədər böyümüşdü, bu isə olduqca ciddi əhəmiyyətə malik idi. Həm də o dövrdə V Karl Avropada ən qüdrətli kral idi, imperator kimi o, dini işlərə müdaxilə edirdi. Hətta Roma papası ondan çəkinirdi, İngiltərə kral VIII Henrinin arvadı Katerina Araqonlunu boşamağa icazə verməməsi də ispan kralından qorxudan meydana gəlmişdi. V Karl Katerina Araqonlunun qohumu idi.

V Karlın Ferdinanda əraziləri verməsi faktiki olaraq 1521-ci ildə, rəsmi olaraq isə 1556-cı ildə baş verdi, lakin bu, Habsburq portfeli üçün o qədər də böyük mükafat deyildi. İspaniya ilə, Niderlandlarla və Habsburqların İtalian əraziləri ilə müqayisədə, onların Alman və Mərkəzi Avropa torpaqları orta əhəmiyyətə malik idi, lakin onlara iki baş Habsburq problemi- Türklər və Prtestantlar birbaşa təhlükə törədirdi.

Ferdinand buna baxmayaraq vəziyyəti tezliklə sağaltdı və səmərəli hökmdar olduğunu sübut etdi. Avstriya Monarxiyası Türklərə qarşı dayana bildiyini də sübut etdi.1515-ci ildə sülalə nikahı ittifaqı hesabına, Ferdinand bu vaxt Bohemiya və Macarıstan taclarına da varis oldu.

Qərbi Avropa ticarətinin, Yeni Dünyanın kəşfi nəticəsində Atlantik okeanı istiqamətinə tərəf dönməsi ilə əlaqədar olaraq, Dunay regionu iqtisadi cəhətdən tənəzzülə uğradı. Şərqlə ticarət isə Türk müdaxiləsi hesabına tamamilə kəsilmişdi. Türklərin ərazi ekspansiyası və təhlükəsi Habsburq hökumətini zəruri qaydada fəaliyyətə cəlb etdi. Maksimilian islahatına yaxın olan qaydada və Burqundiya

•

hökuməti modelindən istifadə etməklə monarxiyanı qurmağa çalışan Ferdinand mərkəzləşmiş hökumətin özəyinə aid olan elementləri irəli sürdü.

Lyüterin mesajı Avstriya torpağında 1520-ci illərdə çox geniş yayıldı, bu isə xüsusən şəhərlərin və kübarların diqqətini daha çox cəlb edirdi. Habsburq hakimiyyətləri Protestantizmi əvvəldən əzməyə çalışmışdı, 1534-cü ildə yeretikliyinə görə hətta bir protestant Vyanada edam edilmişdi.

Türk təhlükəsinin təzələnməsi də sonralar Protestant məsələsinə köməklik göstərirdi. Ferdinand 1541-ci ildə Avstriya və Bohemiya əyalətlərinin Baş ştatlarını türklərə qarşı mübarizədə köməyə çağırdıqda, onlar din məsələsində güzəşt edilməsini tələb etdilər. V Karl taxt-tacdan gedəndə, xüsusən Bohemiyada protestantizm daha geniş yayılmışdı. Monastırlar rahiblərini sürətlə itirirdi və xidmətdə qalan rahiblər də öz sərt qaydalarından uzaqlaşırdılar.

Protestantizmə, ümumiyyətlə dinə münasibətdə sosial aspekt mühüm rol oynayır və onu nəzərə almaq zərurəti yaranır. .Yeni hərəkata qarşı mübarizənin sərtliyi bəzən əks effekt verə bilərdi, protestantizmə meyl güclənərdi. Axı katoliklər arasında protestantlara rəğbət bəsləyənlər də var idi, yeni dini cərəyanı təmsil edənlərin özləri də katolik mantiyasından çıxmışdılar, heç də kocmosdan gəlməmişdilər. Dinin parçalandığı şəraitdə barışmaz cəbhəyə bölünənlərin birliyinin saflığına da qarantiya vermək çətin idi. Bölünmə həm də cəmiyyətdə qarışıqlıq, bir-birini qəbul etməmək əhval-ruhiyyəsi yaradırdı. Bu barədə Fransa kralı IV Henrinin sözləri yerinə düşür: “Su köpüyə, torpaq toza malikdir, qızıl özü də yerin təkində qarışıqsız olmur”.

Protentastizmin sərt təqib edilməsinin, onun keşişlərinin yeretik kimi edam edilmələrinin əks xarakterli nəticələr verməsi İngiltərədə gedən mübarizə təcrübəsindən aydın görünür. Kral VIII Henri Roma kilsəsi ilə əlaqələri kəsmişdi.1547-ci ildə o, öləndən sonra onu əvəz edən yeniyetmə kral VI Eduard protestantizmin yayılmasına və inkişafına geniş yol açdı. Altı il sənra onun ölümü ilə hakimiyyətə gələn I Mariya Tüdor, anası Katerina Araqonlunun xatirəsinə hörmət əlaməti kimi onun dini olan katolitsizmi tam bərpa etdi və belə elan dərc etdirdi ki, o, təbəələrini məcbur edəcəkdir ki, onun öz dininə sitayiş etsinlər.. Eduardın bütün dini qanunları ləğv edildi, kilsə doktrinası bərpa edildi. İngilis kilsəsi Roman yuridiksiyasına qayıtdı. 800 protestant keşiş sürgünə yollandı, ölkədə qalanlar yeretiklik barədəki qanunların hədəfinə çevrildilər. Yepiskoplar Ridli və Leytimer tonqalda yandırıldılar. Cəmi 283 nəfər edam edildi.

Oksfordun üç şəhidindən biri olan Hyuc Leytimer Vinçester yepiskopu idi. Tonqalda onunla birlikdə yandırılan Nikolas Ridliyə demişdi:” Dua et, Master Ridli, biz bu gün İngiltərədə şam kimi Allah xatirinə işıq verəcəyik. Mən inanıram ki, bu işıq heç vaxt sönməyəcəkdir.” Belə də oldu, 1558- ci ildən kraliça olan I Elizabet ustalıqla ingilisləri protestantizmə qaytardı və İngiltərə protestant dövləti oldu.

•

İngilislərin İspan Armadasını darmadağın etməsi də protestantizmin katolitsizm üzərində qələbəsi kimi qiymətləndirildi.

Kraliça I Mariya Tüdorun katolitsizmi ölkədə geniş yaymaq məqsədini güdən qızğın fəaliyyəti və təqiblərə geniş yer verməsi protestantların qəzəbinə səbəb olduğundan, müxalifləri onu “Bloody Mary”- “Qanlı Mariya” adlandırırdılar. Sonralar isə ingilislər bu adı istehza əlaməti kimi spirtli içkiyə - araq və tomat şirəsinin bir-birinə qarışmayan tərkibdəki kokteylə verdilər.

Ferdinand 1554-cü ildə oğlanları arasında torpaqları böldü, bölgü onun ölümündən sonra həyata keçməli idi. Böyük oğlu II Maksimilian onu imperator kimi əvəz etdi, həmçinin Bohemiya və Macarıstan taxt-tacına sahib oldu. Həm də irs kimi əkiz Avstriya hersoqlarının idarəçiliyini qəbul etdi. Digər oğlanları Ferdinanda və Karla Yuxarı Avstriya və İçəri Avstriya çatdı.

II Maksimilian rahat həyatı sevirdi. Gənc oğlan kimi onu mülayim Lyüteran ideyası özünə cəlb etdi.

II Maksimilianı 1576-cı ildə onun böyük oğlu II Rudolf əvəz etdi. Rudolf artıq Macarıstan və Bohemiyanın kralı və «Romanların kralı» seçilmişdi. O, II Filippin İspan Habsburq sarayında böyümüşdü, daha çox Karlın kainat monarxiyası ideyasının Avstriya ənənəsində ilişib qalmışdı. O, həm də dini konfessiyalar plyütarizmini həyata keçirməyə hazırlaşırdı. Onu Bohemiya daha açıq şəkildə özünə cəlb edirdi, ona görə də öz torpaqlarının paytaxtını Praqaya köçürdü. Onu buna həm də Vyanadakı Lyüteran həyəcanları məcbur etmişdi. Praqa onun varlı əyalətinin mərkəzində idi, bura həm də türklərdən nisbətən uzaq idi.

II Rudolf yaxşı təşkil olunmuş saray qurmuşdu, bu, Praqanın Qızıl erasına təsadüf edirdi. O, Habsburqlar arasında incəsənətin ən böyük hamilərindən birinə çevrildi, bu sahədə onu Florensiyadakı Mediçilərə oxşatmaq olardı.

Məhz II Rudolf Habsburq Evinin tac sahibliyinə səlahiyyət verdi, ona qədər heç bir Habsburq kral kimi taclanmamışdı. O, həm də elmin inkişafına, özü də həm ezoterik (sirrli) və həm də təbii elmlərə böyük diqqət verirdi, çünki o vaxtlar onların hər ikisi arasında hansısa bir fərqin olduğu aydın deyildi. Rudolf dövrün iki ən böyük astronomunu Praqaya dəvət etmişdi. O, həm də həmin astronomlara və saraya digər dəvət olunmuş əlkimyaçılara çox hörmətlə yanaşırdı.

Rudolf imperial titulun nüfuzunu və Habsburqların dünya monarxlarının başında olmalarını qeyd etməklə lovğalanırdı. Lakin o, real olaraq əyalətlərin idarə edilməsi ilə maraqlanmırdı. Öz əlində olan torpaqların çoxunun idarəçiliyini qardaşlarına ötürmüşdü və bunun hesabına da ailədə qarışıqlıq yaranmışdı. Habsburq qardaşları Ernst, Matias, Maksimilian və Albrext Rudolfun özü kimi İspaniyada tərbiyə olunmuşdular. 1570-ci ildə onların hər biri Ailə irsinin bir hissəsinə sahib oldu.

Maksimilian Tevton Ordeninin ustasına çevrildi ki, buna görə həm də İçəri Avstriyanın, sonralar isə Tirolun regenti olsun.

•

Ernst Aşağı və İçəri Avstriya regenti olmaqla yanaşı, Niderlandlarda II Filippin qubernatoru idi. Albrext əvvəlcə kardinal idi, sonralar isə II Filippin qızına evlənməklə, Cənubi Niderlandın hökmdarı oldu. Matias adlı digər qardaş isə fərqli qaydada rahat yaşamağa üstünlük verirdi və 1595-ci ildən o, Yuxarı və Aşağı Avstriyanı idarə etmək vəzifəsini öz üzərinə götürdü, lakin bunun öhdəsindən kifayət qədər gəlməyi bacarmadı.

Avstriyalılardan əvvəl türklərin  macarlarla seriya müharibələri getmişdi. 1389-cu ildə Kosovo çölündıki döyüşdə türklərin qələbəsindən sonra elə görünürdü ki, Osmanlı imperiyası bütün Balkan yarımadasını işğal etməyə hazırdır. Lakin macarlar Balkanların müdafiəsini təşkil edə bildilər. 1459-cu ildə macarlar Serbiyanı özlərinə tabe etdilər.

Avropada türklərin ekspansiyasını 1520-ci ildə taxt-taca çıxan I Süleyman bərpa etdi. 1521-1526-cı illərdə türklərin macarlarla müharibəsi Osmanlı imperiyası ilə Macarıstan krallığı arasında silahlı münaqişə olmaqla, faktiki olaraq Macarıstanın müstəqilliyinə son qoydu.1526-cı ildəki Moxaç çölü döyüşündə Macarıstanın süqutu baş verdı. .

Osmanlı sultanı Səlim Yavuz ölümündən əvvəl Şərqdə və Cənubda - bütün Kiçik Asiyada nəhəng torpaqları işğal etmişdi.

Sultan Süleymanın birinci yürüşü isə türklərin Bosniya  və Dalmatiyada bir neçə qalanı tutması ilə başlandı. Osmanlılar 1526-cı ilin avqustunda Moxaçdakı döyüşdə qalib gəldikdən sonra Macarıstanı tutdular.

Yeni sultan Süleyman Macarıstan krallığından təzminat verməyi tələb etdikdə, rədd cavabı almışdı. Sonra Süleyman iri qüvvələrlə Macarıstanın cənub sərhədlərinə hücum etdi. Bu vaxt o, Belqradı tutdu. Sultanın başı Rodos adasını tutmağa qarışanda. 1522-1524-cü illərdə iri hərbi hərəkətlər etmədi. Həm də o, İrana hücum etməyi planlaşdırırdı. 1525-ci ildə sultan Macarıstana böyük hücum hazırladı. Bu vaxt imperator I Maksimilian da Çexiyanın və Macarıstanın taxt-tacını ələ keçirməyə çalışırdı.

26 aprel 1526-cı ildə Süleyman 100 minlik ordu və 300 topla üç aya Belqrada gəlib çıxdı. Macarlar döyüşsüz geri çəkildilər. Avqust ayının ikinci yarısında  Moxaç yaxınlığındakı döyüşə macarlar 25 min adam, 80 top yığmışdılar. Ordu əsasən alman, çex və serb muzdlularından ibarət idi. Macarlar məğlub oldu.

Sultan Süleyman Macarıstana vassal kral təyin etdi və böyük qarət əldə etdi. Macarların müharibədə ümumi itkisi 200 min nəfər və ya əhalisinin 10 faizi miqdaında idi.

1529-cu ildə Süleyman Vyanaya yürüş etdi və avstriyalılarla da uzun çəkən müharibələr başlandı.

1568-cı ildən sonra Avstriyaya türk yürüşləri davam edirdi və 1583-cü ildə tam ölçüdə olan müharibə ilə yekunlaşdı. Müharibə təkcə türklərlə deyil, macarlarla da aparılırdı. Sülh müqaviləsi bağlandıqdan sonra Transilvaniya faktiki olaraq

•

Protestantizmin bastionuna çevrilmişdi və Habsburqlar Macarıstan Ştatlarına əsaslı güzəştə getdlər. Türklər ilk dövr üçün onlara illik təzminat verilməsini bir müddət başqa sözlə ifadə olunmaqla, «bəxşiş» adlandırdılar.

Rudolf bir imperator kimi öz bacarıqsızlığını göstərdi, qərarlarında ciddi səhvlərə yol verirdi. 1605-ci ildə Matiasa müharibə və sülh danışıqlarını aparmaq məsuliyyətini həvalə etmişdi və buna görə tənqidə məruz qalmışdı. Rudolf bağlanmış sülhün nəticələrini məmnunedici saymadı və gizli olaraq özünü ondan uzaqlaşdırdı. Lakin razılaşdı ki, Matias Ailənin başçısı kimi Rudolfu əvəz edəcəkdir.

Rudolfla Matias arasında yenidən münaqişə başlandı. Matias Bohemiyanın kralı kimi taclandı. Yalnız imperator titulu ilə qalan Rudolf 1612-ci ildə öldü. II Rudolf imperator olsa da, "ağılsız Rudolf" adlanırdı. O, incəsənətdən yaxşı baş çıxarırdı. O, qızlara və gənc oğlanlara xüsusi diqqət yetirirdi. Çox sayda uşaqları var idi.

İmperator Rudolfun sifəti portretlərdə meyvə salatı şəklində təsvir olunurdu, onun burnu armud, başı isə cürbəcür meyvələrlə örtülmüşdü. Bu onun mitsizmindən irəli gəlirdi. Bizim dövrümüzdə italyanlar belə portretdən meyvə-tərəvəz reklamı üçün istifadə edirlər.1609-cu ildə Rudolf Katolitsizmi Protestantizm ilə bərabərləşdirdi.

Ispaniyaya gəldikdə XVII əsrin başlanğıcında bu dövlət dünyada ən çox əhalisi olan bir imperiya idi, demək olar ki, bütün Cənubi Amerikaya, həmçinin Asiya və Afrikada olan çox sayda ərazilərə nəzarət edirdi. Avropalıların əksəriyyəti üçün İspaniya hələ də dövrün ən böyük dövləti təsirini bağışlayırdı, lakin reallıq tam fərqli idi. Xəzinə boş idi, kral II Filipp 1596-cı ildə bankrota çevrilmişdi. Buna səbəb İngiltərə ilə apardığı müharibənin yaratdığı iri xərclər olmuşdu. Taxt-tacın varisiı III Filipp 1607-ci ildə eyni hərəkəti etdi, öz sarayının gələcəyini bu yolla xərclədi. Ölkənin silahlı qüvvələri, dövr üçün müasir tipdə deyildi, hökumət səmərəsiz fəaliyyyət göstərirdi. Kommersial sinif zəif idi, kübar sinfi kəndliləri istismar etməklə, dəbdəbəli həyat sürürdü. Yaxşı təmin olunan keşişlər və rahiblər də onlardan fərqlənmirdi. İspaniya hələ də böyük dövlət rolunu oynamaqda davam edirdi, lakin belə zahiri görünüş aldadıcı idi.

III Filippin hökmranlığı ərzində (1598-1621-ci illər) İspaniyanın zəifləməsi daha aydın nəzərə çarpırdı. Yalnız saray dəbdəbəsi və ya keçmişin qalığının möcüzəli bir qaydada işləyəcəyi ilə maraqlanan III Filipp qısqanc Lerma hersoqu olan öz birinci nazirinə icazə verdi ki, yeni, XVII əsrə başlasın. Aristokrat Lermanın başlıca vəzifəsi isə hakimiyyəti və var-dövləti öz əlində cəmləşdirmək idi, dövlətin qayğıları isə onu o qədər də maraqlandırmırdı. Mühüm rəsmi vəzifələr onun qohumları ilə dolu idi, vacib problemlər isə həll olunmamış qalırdı.

Atası ölən ili Matias Habsburqlu həm də imperator seçildi. O, öz iqamətgahını tezliklə Vyanaya köçürdü. 1615-ci ildə Bohemiya dayeti (parlamenti) antialman qanunçuluğunu qəbul etməyə məcbur edildi. İki il sonra II Ferdinand Bohemiya kralı

•

seçilib, taclandı. Matiasın iştirakı olmadan kompromiss cəhdi Ferdinand tərəfindən uğursuzluğa düçar oldu. Bu vaxt o, həm Bohemiyanın, həm də Macarıstanın kralı idi.

Otuz illik müharibə (1618-1648-ciillər) Habsburq bloku ((ispan və Avstriya Habsburqları, Almaniyanın katolik knyazlıqları) ilə antihabsburq koalisiyası (alman protestant knyazlıqları, Fransa, İsveç, Danimarka) arasında gedirdi. Hər iki tərəfə kömək edənlər də var idi. Habsburq bloku katolitsizm, antihabsburq koalisiyası isə protestantizm bayrağı altında gedirdi. Lakin Fransanın kral şurasının başçısı kimi faktiki hökmdarı olan qatı katolik kardinal Rişelye dövlətin mənafeyini katolitsizmə sədaqətindən üstün tutaraq, müharibədə İsveçin tərəfinə keçərək, Avstriya blokundakı katoliklərə qarşı vuruşmağı qərara aldı. Müharibənin faydalı nəticələrini görmək ona qismət olmadı, Vestifaliya sülhü bağlanandan 6 il əvvəl dünyanı tərk etmişdi.

Müharibə bir neçə dövrə bölünür. Ilk 11 ildə Danimarka məğlub edildi, onun qoşunları və isveçlilər Almaniya ərazisindən qovuldu. Sonra İsveç ordusu Almaniyaya girib, qələbə çaldı. 1635-1648-ci illərdə Fransa müharibəyə daxil olduqda, antihabsburq koalisiyasının açıq üstünlüyü üzə çıxdı. Milli dövlətlər Fransanın hegemonluğu altına keçdi. Müharibə Avropada, xüsusən Almaniyada nəhəng demoqrafik və iqtisadi haqq ödənilməsi kimi ağır cəzanın meydana gəlməsinə səbəb oldu. Avstriya torpaqları, əsasən, viran qalmaqdan yayınmışdı. Lalin Fransanın və İsveçin üstün hərbi gücü Habsburqun Avropadakı və İmperiyadakı iddialarına son qoydu. 1648-ci il müqaviləsi Fransnın Mərkəzi Avropada, İsveçin isə Şimali Avropada ağalıq etməsinə səbəb oldu. Həm də müharibə Mərkəzi Avropa əraziləri daxilində Habsburqların bir sıra iddialarını reallaşdırmaq sahəsindəki qabiliyyətini böyütdü.

II Ferdinand 1637-ci ildə öləndə, onun daha praqmatik varisi olan III Ferdinand atasından qalan ağır mirasa sahib oldu. Avstriya Habsburqları və Bavariya Otuz illik müharibənin sonunda öz torpaqlarında qaldı. Fransa isə öz sərhədlərini böyütməklə, Elzası ələ keçirdi. Reyn üzərində Habsburqların hakimiyyəti laxladı. 1648-ci il Vestifaliya sülhü fransızların və isveçlilərin şərtləri əsasında bağlanmaqla yanaşı, protestantların qələbəsi demək idi. İsveçrə və Birləşmiş Əyalətlər Respublikası (Hiderlandlar) imperiya ittifaqının üzvülüyündən çıxdı. Müstəqil dövlət yaratmalarını niderlandlılar sevinclə qarşıladı, onlar bunu fəvvarədən su əvəzinə şərab püskürməsi ilə qeyd etdilər. Ümumiyyətlə, Vestifaliya sülhü Avropa tarixinə Yeni Tarix dövründə ciddi təsir göstərdi..

Müharibə böyük ərazilərdə gedirdi.Avstriya Habsburqları elə də böyük torpaq itirməmişdi. Lakin ən vacib məsələ ondan ibarət idi ki, nəticədə Habsburqların "dünya imperiyası" yaratmaq planı iflasa uğramışdı. Müharibədə Almaniya isə öz əhalisinin üçdə birini itirmişdi. Müharibə dövründə Avropada taun xəstəliyi yenidən yayılmışdı və bu, demoqrafik vəziyyəti daha da ağırlaşdırmışdı. Müharibə məşhur flamand rəssamı Paul Rubensi (1577-1640-cı illər) də casusa çevirmişdi.

•

İngiltərənin 1588-ci ildə İspan Armadası üzərindəki qələbəsi II Filippin donanmasının darmadağın edilməsi ilə nəticələnmişdi. Bununla da yəhudi yazılarında olan Allahın sözü özünün həqiqət olduğunu göstərmişdi. Burada yəhudi Allahının nəfəsi barədə yazılmışdı. Axı XV əsrin sonunda qatı katolik kral Ferdinand Araqonlu və kraliça İzabella Kastiliyalı ərəblərə qarşı Rekonkistanı 1492-ci ildə qələbə ilə başa çatdırıb, mavrların son şəhəri olan Qrenadanı da işğal etdikdən sonra ölkədə müsəlman qalmamışdı. Xristian dini müsəlmanlarla yanaşı, yəhudiləri də çox saydakı vasitələrlə, xüsusən İnkvizisiya məhkəmələrinin köməyi ilə təqib edərək, İudaizmə sitayiş edənləri ölkədən qovmuşdu. Qaçqın yəhudilərə Osmanlı Türkiyəsi, Niderlandlar və Polşa sığınacaq vermişdi, bir qismi isə Meksikaya yollanmışdı.

İngilislərin ispanlar üzərindəki qələbəsi həm də protestantların zəfəri kimi qiymətləndirilirdi. İngilis və yəhudi ənənələrinə uyğun olmaqla, İspaniyanın, kral II Filippinin ağır məğlubiyyəti, həm də katolitsizmə, Habsburqlara və Avstriyaya qarşı ruhi azadlığın apardığı döyüşün bir epizodu sayılırdı.

Avstriya Habsburqları Maarifçilik erasına da çətinliklə uyğunlaşırdı, çünki onların uğurları Barokko dövründə qalmışdı. «Barokko» üslubu əsasən, Almaniyadan şimalda Kontr Reformasiyadan əvvəl meydana gəlmişdi. Barokko Allah qaydasının Yer üzərində əsas amil kimi olmasını nəzərdə tuturdu və Habsburq ənənəsində möhkəm köklərə malik idi.

III Ferdinandın 1657-ci ildəki ölümündən sonra onun oğlu Leopold fransız xəttinə boyun əyməklə imperator seçildi. Florensiya isə Fransa ağalığına müqavimət göstərirdi. O, sülhsevərlik yolunu tutmağı qərara aldı. 1681-ci ildə Leopold Macarıstan başçılarına iri güzəştə getdi, burada protestantların hüquqlarının bərpası ən başlıca məsələ idi. Orada Protestantların "kuruk" (səlibçilər) adlanan qüvvələri ilə Katoliklərin "labank" (piyadalar) adlanan hərbi dəstələri arasında bütöv miqyasda vətəndaş müharibəsi getdi. "Kuruk" qiyamı davam edəndə, onu Osmanlı vəziri Kara Mustafa da dəstəkləyirdi. Üstəlik, fransızlar da vəziri həvəsləndirmişdilər ki, Avstriyaya hücum etsin.

1683-cü ildə türklər Vyananı mühasirəyə aldılar, Macar milli-azadlıq hərəkatı fransız diplomatiyası ilə birləşmişdi. Kara Mustafa Habsburqun vəziyyətinin kövrəkliyindən istifadə etməyi qərara aldı, xristianlığın bu bastionunu işğal etmək üçün böyük ordu ilə Avstriyaya gəlmişdi. I Leopold öz canını xilas etmək üçün Romaya qaçmışdı, çünki Vyana məhv olmaq ərəfəsində idi. Oradan papa və Leopold xristianlara müraciət etdi.

XVI əsrdən sonra türklərin bura girişməsindən avstriyalılar yayınmağa müvəffəq olmuşdular. Türklərin 1682-83-cü illərdə Vyanaya tərəf irəliləməsi, əksinə Leopold və Habsburqlar üçün görünməmiş xoşbəxt bir hadisəyə çevrildi. Fransızların gecikmiş taktikalarının ziddinə imperiyanın və Mərkəzi Avropanın dövlətlərinin əksəriyyəti imperatorun tərəfində vuruşmağa başladı. Papa XI İnnokenti və italyan dövlətlərinin çoxu, İspaniya və Portuqaliya pulla köməklik göstərdi. Lotaringiya

•

hersoqu Karlın başçılığı altında Habsburq ordusu qəsdən Dunayın şimal sahilinə çəkildi, yaxşı qarnizonlaşmış Vyananı isə türklərlə üz-üzə qoydu. İyul ayından şəhər mühasirədə idi. Türklərin şəhər divarlarını deşmək cəhdlərinə qarşı Vyana dayana bildi. Bu vaxt imperiyadakı iri ordu Habsburq və Polşa qüvvələrinə əlavə olunmaqla, toplaşdılar. 1683-cü ilin sentyabrında ordu hücum edib, türkləri darmadağın etdi və əks-hücum vasitəsilə vətəndə qələbə çalındı.

Polşa kralı Yan Sobeski 3 minlik "qanadlı" ordu ilə Vyananın müdafiəsinə gəlmişdi. Bu işə bavariyalılar və digər Avropa ölkələrinin qoşunları da qoşulmuşdu. Sobeski 18 minlik süvari dəstəsini Vyananın müdafiəsinə qaldırdı və hücumla türkləri Avstriya paytaxtının mühasirəsini götürməyə məcbur etdi. Kara Mustafanın ordusu tarmar edildi. Osmanlı sultanı bu məğlubiyyətə görə vəzirini edam etdirmək istədiyindən, onun göndərdiyi adamlar Kara Mustafanı boğub öldürdü. Habsburqlar və Byana üçün isə "qızıl era" başlandı.

Vyananın müdafiəsində gələcək məşhur sərkərdə Yevgeni Sivoylu da fərqləndi. O, Fransanın Günəş kralı XIV Luinin məşuqəsinin oğlu idi. Qadının maliyyə fırıldağındakı iştirakına görə, kral onu və 17 yaşlı oğlu Yevgenini Versaldan qovdu. Bu yoxsul oğlan Vyanaya gəlib çıxdı. Avstriya ordusunda türklərə qarşı igidliklə vuruşdu. Sonra o, fransızlarla döyüşdə də qələbə çalmış, Con Çörçillin – Malboro hersoqunun Blenheymdəki, Ramillesdəki, Odenarddakı və Malplekdəki 1704-1709-cu illərdəki qələbələrində yaxından iştirak etmişdi. 22 yaşında general-mayor olmuşdu. Sonralar böyük xidmətlərinə görə generalissimus rütbəsi almışdı. Yevgeni Savoylu Con Çörçillin – Malboro hersoqunun dostuna çevrildi. 30 il ərzində Avstriya ordusunun baş komandanı olmuşdu. Prints Yevgeni Savoylu şöhrətdə üç imperatoru kölgədə qoymuşdu.

Qədirbilən avstriyalılar Vyanada, Hofburq sarayı meydanında Yevgeni Savoyluya (sonra o, Yevgeni Avstriyalı adlanırdı) at üstündə onun bürünc heykəlini qoymuşdu. Onun yay iqamətgahı olan Belveder də Vyananın arxitektura incilərindən biri sayılır. Macarıstanın paytaxtı Budapeştdə də, Dunayın sahilindəki kral sarayının qarşısında Yevgeni Savoylunun əzəmətli heykəli ucalır.

Yan Sobeski, türklərin Vyananı işğal etdiyi təqdirdə şimala, Polşaya müdaxilə edəcəyini nəzərə alıb, könüllü qaydada Avstriya paytaxtının müdafiəsinə tələsmiş və türklər üzərində Avropada ilk böyük qələbə çalmışdı. Lakin onun xidmətləri layiqli qiymətini almadı. Paytaxta qayıdan kral Leopold onunla soyuq görüşmüş, onun qəhrəmanlığına və əslində, xilaskar zəhmətinə anlaşılmayan bir laqeydlik göstərmişdi. Yəqin, buna görədir ki, Polşa kralının xidmətlərini yada salan hansısa bir nişanəni Vyanada görmədik. Əslində isə Yan Sobeski Vyananı xilas etməklə, Osmanlı türklərinin Avropadakı işğallarına son qoymuşdu və məğlubiyyət hətta onları, sonrakı niyyətlərini həyata keçirməkdən də uzaqlaşdırmışdı. Üç əsr davam edən qalibiyyətli yürüşlərdən sonra Osmanlı İmperiyasının XVII əsrin sonlarından tənəzzül dövrü başlandı və XX əsrin ikinci onilliyində Osmanlı imperiyası özünün vaxtilə məğlub

•

etdiyi və mövcudluğuna son qoyduğu Bizans imperiyası kimi tarixin arxivinə getməli oldu.

Avstriya tarixinə dair əsərlərin bəzi müəllifləri də elə bil ki, Leopoldun nankorluğunun korrelyasiyası kimi bu nəhəng qələbənin əsl müəllifi olan Yan Sobeskinin adını çəkməyə də cəsarət etmirlər. Axı Polşa kralı, bütün qələbələri öz adına çıxmaq istəyən bəzi Roma imperatorlarından fərqli olaraq, şəxsi xidmətlərini şişirtmək qayğısına qalmırdı, lakin bu böyük qələbənin baş müəllifini inkar etmək də insafsızlıq olardı. Ümumiyyətlə, tarix göründüyü kimi həqiqətən də, həm vəcdə gəlmək mənbəyi və həm də lənətdir.

Vyana müsəlman türklər üzərində (ordu Osmanlılara məxsus olduğuna görə belə adlanırdı, əslində ordunun əksəriyyəti başqa millətlərin, əsasən xristianların gənc nəslindən ibarət olmaqla, islam ruhunda və ugid döyüşkənlik üçün tərbiyə olunmuş yeniçərilərdən ibarət idi) qələbəni bayram etdi. Çünki bu, xristianlığın və həm də Vyananın qələbəsi idi. Türklər darmadağın edilgikdən 14 il sonra Leopold ən böyük ərazilərə sahib oldu.

Lotaringiya hersoqu Karl Fransa ilə münasibətdəki dəyişikliyi təcəssüm etdirirdi. Fransa onun torpaqlarını işğal etdikdə, o, Reyndəki vuruşda Habsburqların xidmətinə girdi, bu vaxt avstriyalılar Dunayda şərəfli qələbə qazandılar.

«Vəhşi Şərqdə» karyerasına başlayan və əvvəllər fransız orbitində olmuş prints Yevgeni Savoylu 1697-ci ildə Zentdə Avstriya ordusunun yeni baş komandanı kimi böyük qələbə çalmaqla, qüdrətli türk ordusunu yenidən alçaldılmasına imza atdı. Türklərə qarşı həmin uğur Macarıstanda Leopoldun mövqeyini möhkəmləndirdi. Zentdən sonra türklər 1699-cu ildə Karlovits sülhünü bağlamağa məcbur oldular. 1716-1717 –ci illərdə Avstriya ordusu türklər üzərində yenə qələbə çaldı və 1717-ci ildə Belqradı tutdu.

Yevgeni Savoylu həm də ənənəvi olmayan cinsi orientasiya sahibi kimi tanınırdı. Görkəmli şəxsiyyətlərin arasında homoseksualistlər az deyildi. XIII əsrdə İngiltərə kralı olmuş II Eduard, Renessansın dahi rəssamı və heykəltəraşı Mikelancelo, böyük ingilis dramaturqu Şekspir, məşhur rus bəstəkarı P.İ. Çaykovski, istedadlı ingilis yazıçısı Oskar Uayld, baletmeyster Rudolf Nuriyev,  müğənni Fredi Merkuri əsasən öz cinslərinə məxsus olanlarla yaxın əlaqəyə üstünlük verirdilər.

Leopold istəyirdi ki,öz paytaxtını ən gözəl şəhərə çevirsin. Həqiqətən də Vyana yavaş-yavaş kosmopolit şəhərə çevrilirdi. Vyana artıq təkcə imperiya paytaxtı deyil, həm də sülalə və arzular şəhəri idi.

Yevgeni Savoylu 1717-ci ildə türkləri yenə məğlub edərək, Belqradı onların işğalından azad etdi. 1718- ci il Passovits sülhü ilə Avstriya Serbiya paytaxtına və Bosniyanın şimalına sahib oldu. Prints Yevgeni geniş intellektə malik olan bir şəxs idi, Volterlə, Leybnitslə dostluq edirdi. Böyük kitabxanası var idi, yaxşı zövqə malik idi, onun sifarişi əsasında Byanada gözəl Belveder sarayı tikilmişdi. Malboro hersoqu

•

Con Cörcillə hərbi əməkdaşlığı yaxın dostluğa çevrilmişdi. O, 1736-cı ildə 72 yaşında vəfat etmişdi, məşhur ingilis sərkərdəsi də eyni yaşda dünyanı tərk etmişdi.




Yevgeni Savoylunun heykəli

1699-cu ildə bağlanan Karlovits sülhü Avstriya Habsburqlarına nəhəng fayda verdi. Macarıstan krallığının hamısı kiçik istisnalarla bu vaxt Transilvaniya kimi Avstriyanın oldu.

Leopold Qərbdə protestant liderləri ilə ittifaqa girdi və İngiltərədəki 1689-cu ilin «Şanlı inqilabı», həmçinin Orancli Uilyam Habsburqlara xeyli xeyir verdi. Leopoldun nəhəg çənəsi var idi, sifəti buna görə bir qədər eybəcər görünürdü. Arvadı ilə qız hələ uşaq olanda nişanlanmışdı. Həmin ispan infantası Marqarita Tereza, uşaq ikən müxtəlif yaşlarında böyük ispan rəssmı Velaskes onun bir neçə portetini çəkmişdi. 15 yaşı olanda qızın toyu olmuş və o, Vyanaya gəlmişdi. Əri Leopoldla hərtərəfli qohum idi. Toy böyük dəbdəbə ilə keçdi, iri xərcə cəbəb oldu.

Toy mərasimində at baleti göstərildi. Balet səhnəsi Hofburq meydanında getdi. Atlar guya suyun içində hərəkət edirdilər, əslində su yox idi, onu müxtəlif rənglərdəki dekorativ parçalar əvəz edirdi. Atlarla çoxlu məşq edilirdi, onlar rəqqaslara bənzər hərəkət edir, baletlədəki piruetləri yada salırdılar. Vyanada at baleti ənənəsi davam edir, indiki konkur yarışı da həmin tamaşalara çox bənzəyir.

**İspan irsi uğrunda mübarizə**

•

Bu vaxt İspan Habsburqları, ağıldan kəm II Karlın kişi cinsindən varisi olmadığından bütünlüklə sülalə dəhşətlərini yaşamalı oldu. İspan irsi məsələsi XVII əsrin sonunda Avropa siyasətində mühüm əhəmiyyət kəsb etdi. II Karl 1700-cü ildə övladsız öləndə, onun varisliyinə iki ciddi namizəd meydana gəldi, onlardan biri Avstriya Habsburqlarından, digəri isə Fransız Burbon sülaləsindən idi. II Karl Leopoldun ikinci oğlu Karl Avstriyalını özünə yeganə varis seçmişdi. Lakin onun axırıncı vəsiyyəti inandırırdı ki, onun imperator varisliyi XIV Luinin nəvəsi Filipp Anjuluya keçməlidir. Həm də II Karl nəyi vardısa, hamısını fransızlara vəsiyyət etmişdi. Öləndən əvvəl yazdığı vəsiyyətnamədə İspan dünyasına toxunulmayacağı və bütün İspaniya ərazisinin XIV Luinin nəvəsinə catacağı göstərilmişdi. Bu da təsadüfi deyildi. Məsələ burasında idi ki, Fransa kralı və Müqəddəs Roma imperatorunun hər iksi daim ölüb, dirilən II Karlın bacılarına evlənmişdilər. Onların hər iksi ümid edirdi ki, ailələrinin gənc üzvü İspan taxt-tacına sahib olacaqdır. Məsələni həll etmək üçün XIV Lui İspaniya ərazisinin parçalanmasını təklif etdi. Lakin şərtlər Leopold üçün qəbul edilən deyildi. Yalnız Böyük Britaniya və Avstriya birlikdə XIV Luiyə qarşı dura bilərdi Yeganə çıxış yolu İspan irsi uğrunda gedən müharibə oldu.

1701-ci ildən1714-cü ilə kimi Fransa Avropanın qalan hissəsi ilə üz-üzə gəldi, İspaniyanı və imperiyanın çox hissəsini Burbonlar əldə etməyə qadir oldu. Müharibə həmçinin göstərdi ki, Habsburq Avstriyası Avropada hakimiyyətlərin yeni tarazlığında təkər milinə çevrilmişdir və həm də protestant İngiltərəsi ilə katolik imperator arasındakı ittifaqın bütöv bəhrəsinə yiyələnə bilmişdir. İspan irsi uğrunda müharib\ 1713-cü ildə Utrext sülhü və 1714 cü il Rastatt sülhü ilə başa çatdı. Razılaşma əsasında V Filip İspaniya hökmdarı oldu, bununla da İspan Burbon sülaləsi yarandı və bu sülalə XX əsrin 30-cu illərinə qədərki dövrdə və Franko hakimiyyətindən sonra orada hakimiyyətdə qalmaqda davam edir. Lakin İspaniya və Fransa taxt-tacları bir-birindən ayrı olaraq qaldı.

Utrext sülhünün real qalibi isə İngiltərə oldu, o Gibraltar adasını, Amerikada isə Nyufaundlend, Hadson Buxtası Ərazisi və Nova Skotiya torpaqlarını özünə götürdü. Əlbəttə, Fransa böyük dövlət olaraq qalırdı, İngiltərə isə güclü dəniz donanmasına malik olan ölkə kimi meydana çıxdı.

Utrext sülhündən iki il sonra böyük bir səltənətin kralı öldü. Günəş kral adlanan XIV Lui Fransanı borc və düşmənlərinə təslim olmuş kimi qoyub gedirdi. Ölüm yatağında 76 yaşlı qoca özünün varisi olacaq 5 yaşlı nəticəsinə məsləhət verəndə tam peşman olmuş, vicdan əzabı çəkən kimi görünürdü. O, varisinə özünün müharibə həvəskarı olduğunu etiraf etməklə, ona bundan çəkinməyi, qonşularla dinc şəraitdə yaşamağı vəsiyyət etdi.

1703-cü ildə Avstriyada sərt böhran baş verdi, onun nəticəsi Bavariyanın hücumu və Macarıstandakı narahatlıq oldu. Avropanın vuruş səhnəsinə gələn Hersoq Malboro- Con Cörcill isə burada heç bir müqavimət görmədi. Onun Blenheymdəki

•

1704-cü ildə qazandığı qələbə Bavariyanı müharibədən uzaqlaşdırdı. Sonra isə onun 1709-cu ilə kimi beş il davam edən üç qələbə seriyası baş verdi.

Leopoldun 1705-ci ildəki ölümündən sonra imperator olan I İosif isə 1716-cı ildə çiçək xəstəliyindən öləndə, Karlı özünün varisi kimi qoyub dünyadan köçdü. Karl 1711-ci ildə imperator seçildi. Macarıstandakı qiyamın yatırılmasına görə, onun mövqeyi möhkəmləndi. Həm Habsburq imperiyasının və həm də İspaniyanın taxt-tacına onun sahib olması müəyyən ziddiyyət yaradırdı. VI Karl inadkarlıqla İspaniya taxt-tacını arzu edirdi. Öz müttəfiqlərindən uzaqlaşmaqla, 1713-cü ildə Utrext sülhünü bağladı. Böyük Britaniya da Avstriya və İspaniyanın birləşməsi nəticəsində onların qorxulu təhlükəyə çevriləcəyindən ehtiyat edib, öz müttəfiqi Avstriyaya xəyanət etdi və Fransa ilə ittifaqa girdi.

Müharibələrə, münaqişələrə baxmayaraq, Byana bu vaxt ən böyük imperiyanın paytaxtı idi. İmperiya paytaxtı olmasını həm də saraylarla, möhtəşəm binalarla, heykəllərlə də sübut edirdi. Vyana incəsənətin, musiqinin tanınmış mərkəzi idi

VI Karl İspaniyanın itirilməsi ilə barışa bilmirdi. Onun oğul övladı yox idi, arvadı Yelizaveta çox gözəl olsa da, təəssüf ki, ona irsə yiyələnmək üçün varis doğmamışdı. Ona görə də Avstriyada heç bir qadın ershersoginiya titulunu daşımamışdı. 1740-cı ildə VI Karl köbələk yeyib, öldü. Qızı Mariya Terezanı özünə varis etməklə, mərhum mövcud situasiyanı daha da pisləşdirdi. Axı qız Lotaringiyalı Frants Stefenə nişanlanmışdı. 1733-cü ildə Avropada başlanan müharibə beş il sonra sülhlə nəticələnəndə, Avstriya İtaliyadakı ərazilərinin də çoxunu itirmişdi. Kompensasiya kimi Toskana lotaringiyalı Frants Stefenə verildi, bu, Lotaringiyanın özünün itirilməsinə, Fransaya keçməsinə görə edilmişdi.

Habsburqun taleyi ölkə daxilində heç də yaxşı deyildi. 1737-39-cu illər İkinci Türkiyə müharibəsi, əsl hərbi və diplomatik bədbəxtlik idi. Sülh müqaviləsi isə Avstriyanın əldə etdiklərinin çoxunun itirilməsi ilə nəticələnmişdi. Bu əks xarakterli hərəkətlər nəticəsində nüfuzun itirilməsi, ərazi itkilərindən daha ağır idi. 1740-cı ildə VI Karl öləndə zəiflənmiş Avstriya Monarxiyası XVIII əsr Avropasının sülalə dövləti siyasətini sual altında qoydu. Mariya Tereza taxt-tacı qəbul etsə də, Karl qızının legitimliyinin sübut olunmasının müdafiəsini mümkün olmayan bir şəkildə qoyub getmişdi.

## Mariya Tereza Avstriya taxt –tacında

1740-cı ilin dekabrında, Mariya Terezanın hökmranlığının başlanğıcında Prussiya qoşunları Sileziyaya müdaxilə etdi. Sileziyanın itirilməsi Habsburq siyasəti, yeni kraliça Mariya Tereza üçün dərin dəyişikliklər dövrünü açdı. İndi bu, rəsmi olaraq Habsburq – Lotaringiya adlanırdı. Prussiyanın təcəssüm etdirdiyi real güc

•

siyasi erası Habsburq maraqlarını himayə etmək işində Mariya Terezanı və onun məsləhətçilərini problemlərlə üzləşdirdi.

Bilavasitə məqsəd Sileziyanı geri almaq və Prussiyanı darmadağın etmək idi, bu vəzifə isə özünün qeyri-mümkün olduğunu göstərdi. Habsburqlar hakimiyyəti Maarifçilik erasında meydana çıxan və uyğunlaşmaq vəzifəsi kimi özünü göstərən ekzistensial vəziyyətlə üzləşməli oldu. Bu, həm də icra hakimiyyətinin böyüməsi, ənənənin ratsional çağırışı erası idi.

Yarım əsr ərzində Habsburq hökmdarları islahatlar aparmağa cəhd etdilər, çünki Habsburq Monarxiyası özünün mövcudluğuna qarşı qorxulu bir təhlükə altında idi. Bu böhranın başlıca təhrik edəni Prussiya kralı II Fridrix idi, az sonra o, Böyük Fridrix kimi adlanmağa başladı. O, Bavariya kurfyurstu Karl Albrextin Mariya Terezanın varis seçilməsinə qarşı olan etirazını istismar edərək, Habsburqları şantaj etməyə əl atdı, onun «təklifi» rədd edildikdə, Sileziyaya müdaxilə etdi. 1741-ci ildə Avstriya üzərindəki II Fridrixin Mollavits qələbəsi Habsburq ərazisini parçalamaq üçün Avropanın qalan hissəsinə verilən bir siqnal idi. II Fridrixin cəhdi əsassız deyildi, hətta Bohemiya və Yuxarı Alplar, həmçinin kübar təbəqələri Mariya Terzanın əvəzinə 1740-cı ildə həmin taxt-taca iddia edən Karl Albrexti Avstriya kralı kimi tanımağa hazır idilər. İstehza şəklindəki bircə istisna var idi, bu da Macarıstan idi. Macarıstan parlamenti həmin ilin payızında Mariya Terezanı dəstəkləmişdi.

Mariya Tereza İngiltərənin XVI əsrdəki məşhur kraliçası Elizabet kimi zəif qadın bədəninə sahib olsa da, polad bir iradəyə malik idi, bununla o, həmvətənləri olan avstriyalıların özünü də təəccübləndirirdi. O, tac uğrunda mübarizə aparıb, onu qoruyub saxlaya bildi. Onun zəhməti Sizif əməyinə bənzəyirdi. Onun düşməni heç də sadə bir adam deyildi. Prussiya kralı II Fridrix uğurlu kral və bacarıqlı sərkərdə idi, cəsarətli bir hərəkətlə Avstriyaya məxsus olan Sileziyanı tutmuşdu.

Əlacsız qalan Mariya Tereza Macarıstana yollandı və oranın parlamenti qarşısında əsl aktyorluq ustalığı göstərdi. Q, qucağındakı oğlu, kiçik İosifi göstərib dedi ki, gələcək kral və taxt-tac təhlükədədir. Mariya Terza Sileziyanı itirsə də, tacını qoruyub saxlaya bildi. Bohemiyanı özünə qaytardı və Macarıstava hökmranlıq etdi. Lakin ailəsində də problemlər var idi, əri Frants Stefen başqa qadınlarla yaxınlıq edirdi, bu isə kraliçanın narazılığına səbəb olurdu.

Lakin Habsburqlar tezliklə əks xarakter daşıyan çox pis cavab aldılar. Karl Albrext 1742-ci ildə Müqəddəs Roma imperatoru seçildi və taclandı.Yalnız üç il imperator tacını daşımaqla, o, yeganə Habsburq olmayan imperator olaraq qaldı. İki «Sileziya müharibəsi» müvafiq olaraq 1742-ci ildə və 1745-ci ildə başa çatdı. Niderlandlardakı və İtaliyadakı müharibələr, Fransa ilə Britaniya arasındakı müstəmləkələr uğrundakı müharibə yalnız 1748-ci ildə başa çatdı.

Karl Albrext 1745-ci ildə öləndə, müvafiq olaraq Mariya Terezanın əri, Lotaringiyalı Frants Stefenin imperator seçilməsi Habsburqun ənənəvi hakimiyyət bazasını bərpa etdi. İtaliyadakı ərazi itkisi də o qədər böyük deyildi. Lakin Prussiya

•

bütün Sileziyanı əlində saxlayırdı. Avstriyaya yalnız Yuxarı Sileziyadakı üç qraflıq qalmışdı.

Mariya Tereza protestant iş adamlarına və maliyyəçilərinə tolerant münasibət göstərməyə hazırlaşırdı. Yəhudi maliyyəçiləri Habsburq tədbirləri üçün istifadə edilən kreditlərin mühüm mənbəyi idi. Lakin Mariya Tereza yəhudilərin Praqadan qovulması göstərişini verdi. O deyirdi: «Mən bu irqdən daha böyük taun xəstəliyini tanımıram, çünki aldatmaq, sələmçilik etmək və pul ehtiyatı yığmaq hesabına onlar mənim təbəələrimi dilənçi vəziyyətinə gətirib çıxarmışlar».

Həm də Mariya Tereza əla çeviklik və siyasətdə açıq baxış nümayiş etdirirdi, bunlar isə yeni çağırışlara uyğunlaşmaqda Avstriya Monarxiyası üçün xüsusilə mühüm əhəmiyyətə malik idi. Macarıstan parlamenti qarşısında həvəskar qaydadakı bir dramatizmdən istifadə edib, kömək xahiş edəndə, onun dörd aylıq oğlu İosif gənc ananın qolları üstündə idi. O öz məsləhətçilərini də diqqətlə dinləyirdi, onlar da onu inandırırdılar ki, onun «Evi» öz icra və maliyyə strukturlarını dəyişdirməlidir ki, çətin vəziyyətdən salamat çıxmaq mümkün olsun.

Yeddi illik müharibə (1756-1763-ci illər) başlayanda, Mariya Terezanın monarxiyasında situasiyanın xeyli yaxşılaşmasının ziddinə, onun çox ehtiyatlı tərpənən orduları hələ də Prussiyaya qarşı həlledici qələbə qazanmaqda uğursuzluğa uğrayırdı. Berlin ruslar tərəfindən işğal olunmuşdu və bəzi vaxtlarda II Fridrix monarxdan daha çox qaçqına bənzəyirdi. Lakin o, və onun qüvvələri dirilə bildi.

Bu vaxt Fransa okeanın o tərəfində Böyük Britaniya qüvvələri tərəfindən ağır məğlubiyyətə uğramaqdan əziyyət çəkirdi və öz Avstriya müttəfiqi üçün onların göstərdiyi entuziazm əbəs bir cəhdə çevrilmişdi. Rusiyada 1762-ci ildə baş verən hadisələr vəziyyəti dəyişdi, ruslar bu vaxt Prussiya ilə qalibiyyətli qaydada vuruşduqları halda, yeni çar III Pyotr qəflətən Fridrixin ölkəsinin müttəfiqi oldu. Yüngül xasiyyətli III Pyotr II Fridrixi özünün kumiri sayırdı. Bu hərəkəti ilə o, əslində, pərəstiş etdiyi sərkərdənin və Prussiyanın xilas olmasına şərait yaratdı. Onun devrilməsi və öldürülməsi Avstriyanın dəhşətlərinə son qoydu. Lakin taxt-taca çıxan II Yekaterina da neytrallıq mövqeyini seçdiyindən, bu, Avstriya oyununun başa çatması mənasını verirdi.

Müharibə, Fransanın Britaniyaya təhvil verməli olduğu müstəmləkə itkiləri ilə yekunlaşdı. Fransa- Avstriya ittifaqı nisbətən yaxşı nəticələndi, 1763-cü il sülhü ilə ərazi *status quo ante* – ərazi üzrə keçmiş status-kvo təsdiq edildi. Avstriya münaqişəyə cəlb olunmaqla, ağrılı narahatlıq qazandı. Habsburqlar vaxtilə başlıca güc idi, lakin bu işdə iştirak etməklə, arzuladıqları nəticəyə sahib ola bilmədilər. Sileziya hələ də Prussiyanınkı olaraq qalırdı.

Uğursuzluq Monarxiyanı digər bir çətinliyə də aparıb çıxardı. Direktoriya Birləşmiş Avstriya və Bohemiya kanslerliyi kimi hərəkət etdi. Separat, müstəqil ədliyyə sisteminə və ayrıca maliyyə orqanlarına sahib oldu.

•

Həm də dini və mədəni işlərdə dəyişiklik meydana gəldi. 1760-cı illərdə həyata keçirilən islahatlar artıq Maarifçiliyə doğru irəliləyirdi. Digər radikal bir dəyişiklik aqrar siyasətdə baş verdi. Sileziya toxuculuq sənayesi Şimali Bohemiyaya keçirildi. Aqrar siyasətin açarı kübar imtiyazlarının hansı şəkildə azaldılması və ya ən azı onların nizamlanması idi. Geniş yayılan kəndli həyəcanları müharibə effektləri ilə birgə meydana gəlmişdi, buna həm də 1770-72-ci illərin aclığı səbəb olmuşdu. Kübarlar da malikanə hüquqlarından sui-istifadə edirdilər, öz müdaxilələrini çox asanlıqla həyata keçirirdilər.

## II İosif Monarxiyada əvvəlcə həmregent, sonra isə kral kimi

Radikal dəyişikliklərə olan ümid, daha çox Mariya Terezanın həmregent kimi 1765-ci ildə əri Frants Stefenin ölümü ilə əlaqədar olaraq irəli çəkdiyi oğlu II İosif üzərində cəmləşmişdi. II İosif modern islahatlar müstəvisində tərbiyə olunmuşdu, Maarifçiliyin qızğın ardıcılı idi. Onun üçün model (və başlıca düşmən) rolunu prussiyalı II Fridrix oynayırdı. Mərhum atasını da elə həmin il Müqəddəs Roma imperatoru kimi də əvəz etdi.

Maarifçilik Avropada sivilizasiyaya böyük təkan verdi. Alman filosofu İmmanuil Kant 1784-cü ildə Maarifçiliyi "adamların öz şəxsi səbəbinə görə qeyri-kamillikdə yaşaması" kimi müəyyən etmişdi. Əvvəlki dövrlərdə onlar bacarıqsızlıqları hesabına " öz qabiliyyətlərindən başqasının yol göstərməsi olmadan istifadə etməkdə" maneələrlə üzləşirdilər. Kant həm də Maarifçiliyin devizini irəli sürdü: "Öyrənməkdə cəsarətli ol! Öz qabiliyyətindən istifadə etməkdə igidlik göstər! " XVIII əsrdə Maarifçilik öyrənməyə cəsarət edən intellektuarların hərəkatı idi. Onlar Elmi İnqilabın nailiyyətlərinin böyük təsiri altına düşmüşdülər.

Həmregent xarici siyasətə də böyük təsir göstərirdi. II İosifin komandası II Fridrixlə və Rusiyalı II Yekaterina ilə ratsional Realpolitik (Realpolitik dövlətin siyasi kursunun bir növü olmaqla, Bismark tərəfindən irəli sürülmüş və həyata keçirilmişdir. Bu barədə təklifi isə ilk dəfə Lyudviq fon Roxau 1853-cü ildə vermişdi. . Bu kursun mahiyyəti dövlət siyasətində hər cür ideologiyadan imtina etməkdir. Burada əxlaq deyil, praktiki fayda götürmək əsas rol oynayır. Roxau bunu siyasi orqanizm kimi dövlətin təbiət qanunlarına uyğun olaraq yaranması və mövcud olması ilə izah edirdi.) oyunu oynayırdı. Mariya Terezanın etirazına baxmayaraq, bu, "müqəddəs olanın və ədalətin hər bir standartının" pozulması» idi. Onun oğlu kanslerlə birlikdə Polşanın 1772-ci ildəki ilk parçalanmasının zəruri olmasına anasını inandırdı. Bu parçalanma ilə monarxiya Qalisiya ərazisini və həm də 2,6 milyon yeni təbəə ələ keçirdi. Ümumiyyətlə, İosif praqmatik adam idi, öz məqsədindən geri çəkilən deyildi.

•

Daxili işlərdə İosifin nəyə rəğbət bəslədiyi də aydın görünürdü. O, Maarifçiliyin və həm də mütləqiyyətin tərəfdarı idi. Onun katolik inancı katolitsizmin radikal islahatına əsaslanırdı, istəyirdi ki, dövlət dinə nəzarət etsin. II İosif təkbaşına hakimiyyətdə olanda isə Maarifçiliyin təsiri daha da gücləndi. 1780-ci ildə Vyana 247 min kvadrat kilometr ərazisi olan və təqribən 26 milyon əhalisi olan bir imperiyanın paytaxtı idi. Son göstərici demək olar ki, Fransanınkına bənzəyirdi. Vyananın özünün əhalisi 200 min nəfər idi. Praqada isə 80 min adam yaşayırdı. Paytaxt həm də regionda özünün sənaye və iqtisadi ekspansiyasından fayda götürürdü. Vyana təkcə Habsburq paytaxtı olmayıb, bütün Almaniyanın və Mərkəzi Avropanın Maarifçilik ümidlərinin mərkəzinə çevrilmişdi.

Mariya Tereza və II İosif saray həyatında xərclərə qənaət edilməsinə də çalışırdılar, lakin həm də incəsənətin əliaçıq hamiləri olaraq qalırdılar. Şəhərin arxitekturası çiçəklənməkdə davam edirdi. Şönbrunn sarayının daxilində Rokoko üslubuna geniş yer verilmişdi, o, Barokkonun daha yüngül versiyası olduğunu sübut edirdi. Sarayın xərclərinin azaldılması cəhdi, əlbəttə ki, nisbi xarakter daşıyırdı.

Burada böyük filosof Volterin, fransız kralı XIV Luinin- Günəş kralın 1715- ci ildəki ölümündən sonra onun 5 yaşlı varisi olacaq nəticəsi XV Luinin regenti təyin edilmiş Orlean hersoqu II Filippin xalqı aldatmaq üçün həyata keçirdiyi tədbirə münasibəti yada düşür. Mərhum kralın bədxərcliyinə son qoymaq adı altında o, sarayın tövlələrində ov gəzintisi üçün saxlanılan atların sayının iki qat azaldılması göstərişini vermişdi. Bunu eşidən gənc Volter özünə məxsus bir sarkazmla regentin qərarına düzəliş şəklindəki təklifini irəli sürmşdü. O, yazmışdı:”Sarayın tövlələrindəki atları azaltmaq əvəzinə, saraydakı eşşəklərin sayını o, iki dəfə ixtisar etsəydi, daha yaxşı olardı”.

Vyana sarayındakı dəbdəbə 1680-ci ildən sonra Günəş Kralın Versalında hakim kəsilənlərlə heç cür müqayisə edilə bilməzdi. Lakin sarayda xərclərə nə qədər qənaət edilsə də, dəbdəbə yoxa şıxa bilməzdi, mərasimləri ləğv etmək mümkün deyildi, saray istənilən şəraitdə öz qaydalarının toxunulmazlığını qoruyub saxlayırdı.

Azyaşlı fransız kralının regenti olan Orlean hersoqu isə səkkiz il sonra, 1723-cü ildə 49 yaşında ölənə qədər həyatını eyş-işrətə sərf etmiş, nəhayətsiz sərxoşluqla məşğul olduğundan kor olmuşdu. Onun qənaətcilliyinin də saxta olduğu özünü biruzə vermişdi. Məhz onun dövründə, 1720-ci ildə ölkədə daha bir bədbəxtlik baş verdi, Bank Royal bankrot oldu. Bu hadisə mənşəcə şotland olan və Fransada yaşayan Con Lonun başçılığı altında olan fransız şirkəti ilə yanaşı, həmçinin onun Fransa üçün milli bankı və kağız valyutanı yaratmaq cəhdi ilə də bağlı idi. Xalq Lonun, şirkətin nəhəng gəlirlər gətirəcəyi vədinə inanıb, səhmlərini sürətlə almağa cumanda, birjada səhmlərin qiyməti qısa müddətdə ağıla sığmayan bir yüksək səviyyəyə qalxdı və “köpük” partlayışı baş verdi. Lonun şirkəti və bank bankrot oldu, dövlətin maliyyə sistemi böhran dövrünü yaşadı, səhmləri faydasız kağız parçasına çevrilən əhali böyük maddi ziyan çəkdi. 1990-cı illərin əvvəllərində Bakıda da

•

Rusiyadaki Mavrodinin maliyyə piramidası təcrübəsindən istifadə edərək, meydana gələn fırıldaqçı özəl banklar əmanətlərə yüksək faiz qoymaqla, ayda onların bir hissəsini bəzi əmanətçilərə ödəməklə, adamları kütləvi qaydada şirnikləndirb, külli miqdarda pul ələ keçirdilər. Ailələrin "qara gün" üçün topladığı vəsaitlə yanaşı, bu vaxt olduqca çətin maddi vəziyyət keçirən bəzi adamların hətta var-dövləti də əllərindən çıxdı. Bir qrup dələduz həmin nəhəng məbləği mənibsəyib, aradan çıxmaqla qeybə çəkildi. Aldadılan yüz minlərlə adam daha ağır ehtiyacla üzləşməli oldu. Adətən ağır maddi şərait yarandıqda, fırıldaqçıların isə ovu kütləvi maymaqlıq hesbına daha bol olur.

Dövlət işləri ilə regentin ölümündən sonrakı dövrdə XV Lui bir kral kimi özü məşğul olmalı idi, lakin o, bunlara əhəmiyyət vermirdi, bu işlərlə yalnız nazirlər məşğul olurdular. Vaxtını kral aramsız eyş-işrətə sərf edirdi. O, Polşa kralı Ponyatovskinin özündən yeddi yaş böyük olan qızına evlənmişdi. Çox keçməmiş onun adı çoxlu məşuqələrə malik olmasından yaranan intriqalarla bağlı oldu. Kral onları oyun kartı kimi tez-tez dəyişirdi. Ən məşhur məşuqəsi isə Madam de Pompadur idi, bu qadın krala böyük təsir göstərməsi imkanından istifadə edərək ədəbiyyata, incəsətə hamilik edirdi və bu, yuxarı dairələrdə onun nüfuzunu xeyli artırmışdı.

XV Luinin hakimiyyəti dövründə Fransa ağır iqtisadi böhranla üzləşdi. 1774 –cü ildə 64 yaşında öləndə ondan xatirə kimi hansısa bir xidməti deyil, məşuqələrinin gözə çarpan siyahısı qaldı, çünki kral olaraq, o, ölkəni bərbad vəziyyətə qoymuşdu.

Avstriyada musiqi həyatı bu dövrdə daha da irəli getdi. Kristof Qlyukun operaları italyanlarınkına rəqib olmaqla, alman operasını təmsil edirdi. Vyana alman torpaqlarının yeni musiqi mərkəzinə çevrilmişdi. Jozef Haydn uşaq xorunda oxumağa başlasa da, şəhərin əsl musiqi ustasına çevrilmişdi. O, Vyanaya 1790-cı ildə köçmüşdü, burada böyük şöhrət qazanmışdı. Hələ 1770-ci ildə Volfqanq Amadey Motsartla qarşılıqlı məhsuldar olan kontraktlar bağlanmışdı. Motsart isə heç də Habsburqunku olmayan Zalsburqdan idi. O, Vyanaya 1781-ci ildə gəlmişdi, Habsburq paytaxtında müxtəlif uğurlar qazanmaqla, öz dövrünün aparıcı bəstəkarına çevrilmişdi. O, musiqidə bir janrdan başqasına keçməklə öz dahiliyini göstərdi. Motsart böyük improvizator idi, yaradıcılıq barədə qaynar enerjiyə malik idi. Milli rəqs, italyan motivləri və ya türk marşı kimi qəbul edilən məşhur "Rondo alla turca" onun dühasının rəngarəngliyini sübut edirdi. Təəssüf ki, 1791-ci ildə çox cavan ikən, 35 yaşında öldü. Bugünkü Vyanada addımbaşı Motsartın xatirəsi ilə rastlaşırsan. Onun adını daşıyan restoran daha çox müştəri cəlb edir, qutusunun üstündə gur saçlı Motsartın şəkli olan şokolad konfetləri daha sürətlə satılır.

•



Motsartın heykəli

Vyanada çox sayda görkəmli musiqiçilər – Bethoven, Haydn, Maler, ata-oğul Ştrauslar yaşamışdı. Onların hər biri bu musiqi Məkkəsinin şöhrətini xeyli artırmışdılar, lakin heç biri Motsart məşhurluğuna yiyələnə bilməmiş, ona olan hədsiz sevgiyə sahib olmağı təkrar etməyi bacarmamışdılar. Fridrix Şopenin, Klod Debyussinin heyranedici piano konsertləri, noktürnləri vardır, lakin yaradıcılığının genişliyinə, çox sayda musiqi janrlarında incilər yaratmasına görə onlar Motsartla müqayisədə uduzurlar. O, həm də bir virtuoz ifaçı idi. 1781-ci ildə dünyanın musiqi paytaxtı olan Vyanaya gəlmişdi. Motsart  improvizatorluğu hesabına, dörd notdan heyranedici musiqi parçası düzəldirdi. Bugünki dillə deyilsə, o, dövrünün kral-ulduzu idi.

İki əsr yarımdan çox bir müddət keçsə də, onun şöhrəti azalmaq bilmir, əksinə, artır, böyüyür. Onun adı brendə çevrildiyindən, iş adamları istehsal etdikləri məhsullar üçün ondan geniş istifadə edirlər. Reklamda heç kəs Motsart adını üstələyə bilmir.

II İosifn Yəhudi siyasətinə gəldikdə, onun məqsədi bütünlükdə yəhudilərə xətər toxundurmamaq idi, lakin ayrı-ayrı fərdlərə qarşı cəza tətbiq edilə bilərdi. Katolik monastırları elə bir fayda gətirən niyyətə xidmət etmirdi. İosifin dövründə Avropada onların sayı 700-dən artıq idi, Habsburq torpaqlarında olan monastırların təqribən üçdə biri buraxılmışdı, onların bağlanmasından gələn pulları saxlayan fondlar dünyəvi din xadimlərini himayə etməyə xərclənirdi.

•

İosif printsessa İzabellaya evlənmişdi, lakin onların nikahını xoşbəxtlik mənbəyi hesab etmək olmazdı. Gəlin gözlənilmədən İosifin bacısına vuruldu və onunla əsl eşq macərası yaşadı. Toydan üç il sonra İzabella 21 yaşında öldü, bu faciə ərinə olduqca ağır təsir göstərdi.

1780-ci ildə Mariya Tereza öldü, II İosif 1790-cı ildə ölənə qədər on il ərzində kral oldu, o, həm də Müqəddəs Roma imperatoru idi. O, öz nəhəng imperiyasını dəyişdirmək istəyirdi, çünki o, əsl reformator idi.

İosif cəmiyyətdə yeni «ratsional» yaxınlaşmanı güdürdü, elə güman edirdi ki, islahatlara uğratmaqla, monarxiyanı dəyişdirmək olar. Transformasiynın həm də asan başa gələcəyini düşünürdü. Siseronun məşhur qədim Roma dövlət xadimi Kiçik Katon barədə dediyi sözləri bütünlüklə ona da aid etmək olar: “Ancaq o, (Katon-müəllif) ən yaxşı niyyətləri ilə və özünün yüksək vicdanlılığı ilə, bəzən dövlətə ziyan vurur. O, elə danışır ki, elə bil ki, Romulun əclafları arasında deyil, Platonun dövlətində yaşayır.” II İosif də daşlaşmış ənənələrə malik olan Avstriya Monarxiyasının kralı olmaqla, onun arzularına heç cür uyğun gəlməyən bir çevrədə olduğunu unudurdu. İosif öz monarxiyasını qəbul etdiyi irs kimi deyil, tam başqa mahiyyətə malik olan bir dövlət kimi görmək istəyirdi.Düşmən siyasi cəbhəsindən olan və Katona başqa rakursdan yanaşan Qay Krisp isə ona digər sərrast bir qiymət vermişdi: “Beləliklə o, nə qədər az .şöhrət axtarırsa, şöhrət o qədər çox onun arxasınca gedir.” İosif də daim öz dövlətinin taleyini düşünürdü, şöhrət arxasınca qaçmırdı, yalnız ölümündən sonra o, hətta sağlığında görmədiyi şöhrət çələngi ilə mükafatlandı.

Kralın bir cəhəti isə reallığa məhəl qoymaması, müəyyən ölçüdə idealizmə meyl etməsi idi. Görünür o, böyük ingilis alimi Tomas Morun təsiri altına da düşmüşdü. Mor iki əsr əvvəl yazdığı“Utopiya” əsərində qeyd edirdi ki, cəmiyyət qanunları təbiət qanunları kimi fəaliyyət göstərməlidir. İosif də bu iki varlıq arasında belə korrelyasiyaya bel bağlamaq, ondan mümkün olduğu qədər istifadə etmək istəyirdi.

Həm də cəmiyyəti sağlamlaşdırmaq yollarını tapmağa çalışırdı. Dini qardaşlıqlar buraxılmışdı, mərasimlər, ziyafətlər, bayramların çoxu qadağan olunmuşdu. XVIII əsrdə Vyana iki dəfə böyümüşdü, hətta qəbiristanlığa yer çatışmırdı. Böyük xərcə səbəb olan matəm qaydasına həmçinin son qoyulmuşdu, ölülər tabutda deyil, kisədə dəfn edilirdi. Çünki bu, ucuz başa gəlirdi. Dini institutlar müvafiq dünyəvi, faydalı qaydalarla əvəz edildi. İosifin dövrində dəfndə yeni bir qayda da icad edilmişdi. Xüsusi tabuta qoyulan meyit, kəndiri çəkmək vasitəsilə tabutun altı açıldıqda, içindəki cəsəd avtomatik olaraq qəbirə düşürdü. Beləliklə, həmin tabutdan dəfələrlə dəfndə istifadə etmək olardı, bu, musiqiçilərin prokat götürdükləri fraka bənzəyirdi. Belə tabut xərclərin azaldılmasına, həm də ona sərf olunan ağac materialına qənaət etməyə şərait yaradırdı. Lakin kübarlar dəfələrlə işlənən tabutu bəyənmədilər və ənənəvi olanına üstünlük verdilər.

•

Vyanada 1784-cü ildə dünyada ən iri və daha modern sayılan Baş Hospital açılmışdı. Buraxılmış dini qardaşlıqların və cəmiyyətlərin pulları məktəblər tikmək və istifadədə olanları isə genişləndirməyə sərf ediləcək fondlara qoyulurdu.

Qanun sistemi də həmçinin islahata uğradıldı. Ədliyyə və icra hakimiyyətləri bir-birindən ayrıldı, məhkəmə sistemi professsionallaşdırıldı. Yeni Mülki Məcəllənin birinci hissəsi 1786-cı ildə dərc edildi, bir il sonra isə yeni Cinayət Məcəlləsi qəbul edildi. Böyük italyan filosofu Çezare Bekkarianın ideyalarından istifadə edilərək, cəzanın törədilmiş cinayətə uyğun olması prinsipi işlənib hazırlanmışdı. Bu məcəllələr təkcə daha humanitar yaxşılaşmanı əks etdirmirdi, onlar həmçinin radikal qaydada qanun qarşısında bərabərliyi – həm kübarlar, həm də kommonerlər üçün olan bərabərliyi bəyan edirdi.

İosifin möhkəm dəstəyi ilə onun torpaqlarında İllyuminat və Frimason geniş yayıldı, kiçik, lakin nüfuzlu maariflənmiş gizli qardaşlıq icmaları bu vaxt çox sayda qüdrətli və görkəmli üzvlər qazandılar. Motsartın və Haydnın hər ikisi mason lojasına məxsus idi. Motsart hələ əvvəllər də operalarında bu mövzuya toxunmuşdu.

II İosif təkcə öz təbəələrinin idarə edilməsini mülayimləşdirməyə çalışmırdı, həm də onların davranışını formaya salmaq istəyirdi. Bu Konfutsinin mərasimlərin rolunu yüksəltmək ideyasına bənzəyirdi. Mariya Terezanın krallığının axırıncı dekadasında hər il 100-ə yaxın dekret buraxılmışdı, 1780-ci ildə anasının ölümündən sonra kral olan İosifin bilavasitə başçılığı altında isə orta hesabla ildə, demək olar ki, 700 dekret dərc olunurdu.

O, hökuməti Avstriya, Bohemiya torpaqlarının üzərində və Qalisiyada Birləşmiş saray ofisi altında mərkəzləşdirdi və müxtəlif əyalət administrasiyalarını birləşdirilmək göstərişini verdi. II İosifin Macarıstana münasibəti isə xüsusən radikal idi. Anası vaxtilə macarlarla çox ehtiyatlı davrandığı halda, İosif qərara aldı ki, Macarıstanda geniş dövlət islahatı blokunu həyata keçirməklə yanaşı, o, həm də bu ölkədə inzibati dil kimi latını alman dili ilə əvəz etsin. Bu məsələlərdə o, güzəştə getmək istəmirdi, və belə xarakteri ilə o, XVII əsrdə Fransa kralı olmuş XIII Luini yada salırdı. 1610-cu ildə atası IV Henri öldükdən sonra 14 yaşında kral olmuş Lui sonralar ondan özləri üçün böyük səlahiyyətlər tələb edən huqenotlara sərt cavab vermişdi. Huqenotlar əsas üçün III Henrinin və IV Henrinin krallar kimi onlara mərhəmətli münasibətini misal çəkmişdilər. XIII Luinin isə cavabı belə olmuşdu: “III Henri zizdən qorxudu, mənim atam isə sizi sevirdi. (Həqiqətən də kral olana qədər Henri Navarralı huqenotların liderlərindən biri olmuşdu – müəllif)) İndi mən sizdən nə qorxuram, nə sizi sevirəm”. II İosifin sələfləri içində də macarlardan qorxanlar olmuşdu, anası Mariya Tereza isə çətin anda ona böyük kömək göstərən macarlara borclu idi.

Onun Belçikanı, Avstriya Niderlandlarını ovucunun içərisində saxlamaq cəhdi də İosifin çox böyük səhv etdiyini göstərdi. Belçika qiyamına İosifin ilk cavabı nəzarəti gücləndirmək oldu. İosif öz milli siyasətində tabula rasa- təmiz lövhə

•

prinsipini tətbiq etmək istəyirdi, bu isə həmişə yaxşı nəticə vermir. Nə vaxtsa hansısa bir yolla işğal edilmiş və ya ələ keçirilmiş torpaqları idarə etmək də asan iş deyildir. Vaxtilə kimlərsə buna nail olmuşdular, lakin onların malik olduqlarını əbədiləşdirmək arzusu və cəhdi ağılsızlıqdan başqa bir şey deyildir." Quod liset İovi (Jovi), non liset bovi." – "Yupiterə izin verilənlər, öküzə heç də icazə verilmir". Yupiter (Zevs) öküzə çevrilib, təəccübləndirməsi nəticəsində öküzə valeh olan Yevropanı belinə götürüb, dənizi üzüb keçirməklə Krit adsına aparmış, orada da onunla intim yaxınlıqdan gələcək məşhur Krit çarı Minos doğulmuşdu. Öküz bunu heç vaxt təkrar edə, bu fikirə heç düşə də bilməzdi. Siyasətə isə dəyişilən zaman öz damğasını vurur və bunları nəzərə almamaq pis nəticələrə gətirib çıxarır.

II İosif Rusiya imperatriçəsi Böyük Yekaterina ilə türklərə qarşı müqavilə bağladı, uzaq məqsəd Konstantinopolu türklərin əlindən almaq idi.

O, 1788-ci ildən vərəm xəstəliyindən əziyyət çəkirdi, güclü iradəsi hesabına özünü haqlamış mərəzdən qurtarmağı, ona qalib gəlməyi qərara aldı. Torpaq vergisi islahatı dərc edildi. Bu, əsl inqilabi tədbir olmaqla, onun əsasında kəndlilərin becərdikləri torpaqlardan öz lordlarına – torpaq sahiblərinə ödədikləri vergiləri əsaslı qaydada azaltdı. Avstriya - Bohemiya kübarlığı yeni qanuna etiraz etdi və yerli institutlara hücum kübar qiyamı ilə müşayiət olundu. Kəndlilər onlara vergi verməkdən özləri imtina etdilər. Lakin qanun dəyişikliyə uğrasa da, heç vaxt işləmədi və II İosif hökmranlığının fəlakətli finalının qurbanlarından biri oldu. Qədim Roma şairi Horatsi demişkən: "Non uno luna nitet vultu"- "Xoşbəxtlik heç də həmişə adama gülümsəmir". İosif də öz nüfuzuna güvənib, problemi həll etməyə çalışsa da, uğursuzluğa düçar oldu.

Belçika və Macarıstan böhranının yüksəkliyində kobud xarici siyasət Avstriyanı 1788-ci ildə türklərə qarşı müharibəyə cəlb etdi. Özünün vərəm xəstəliyinə baxmayaraq, II İosif cəbhədə komandanlıq edirdi. O, XVII əsrdə yaşamış Fransa marşalı de Monmoransinin sözünü tam hüquqla təkrar edə bilərdi. Marşala özünün igidlik göstərdiyi qalibiyyətli Vallano döyüşündən sonra, təhlükə yarandığı halda ölüm barədə düşünməyin vacib olduğunu bildirən dostuna belə cavab verrmişdi:"Mən öz əcdalarımdan öyrənmişəm ki, daha şərəfli həyat odur ki, o qalibiyyətli döyüş meydanında başa çatır." Lakin ağciyərin fəsadı II Losifi döyüşməkdən də məhrum etdi və tezliklə öldürdü.

1789-cu ildə müharibədə vəziyyət Avstriyanın xeyrinə dəyişdi, lakin bu vaxt Prussiyanın yeni kralı II Fridrix Vilhelm, İosifin səhhəti ilə əlaqədar çətin vəziyyətini görüb, Türkiyə ilə ittifaq bağladı.

Belçika qiyamçıları və macar kübarları Bohemiyaya müdaxilə etməyə hazırlaşdılar. Böhran böhranın üstünə gələndə, vərəmin son səhnəsində İosif dramatik tam bir dönüş etdi, 1790-cı ilin yanvarında o. demək olar ki, bütün islahatları ləğv etdi, torpaq vergisi dekretini dayandırdı. 1790-cı ilin fevralında II İosif öldü.

•

Onun varisi II Leopold öz böyük qardaşından daha mülayim adam idi. O, 1765-ci ildən Toskananın Böyük hersoqu olmuşdu, həmçinin çalışırdı ki, maariflənmiş islahatlar həyata keçirsin. Lakin tədricən və tam taktiki qaydada konstitusiyalı hökumətin elementlərini tətbiq etmək istədi. Yeni vergi qanununu ləğv etdi. Leopold Prussiya ilə məsələləri həll etdi və Müqəddəs Roma imperatoru seçilməyə əminlik qazandı. Bu, Leopolda imkan verdi ki, Belçika və Macarıstan qiyamlarını yatırtsın.

Leopoldun nailiyyətləri olduqca yaxşı idi. Habsburq monarxiyasının mövqeyi bərpa edildi və islahatların çoxu, xüsusən dinə və təhsilə aid olanlar qorunub saxlandı. O, mətbuatı yenidən liberallaşdırdı. Lakin bu vaxt Fransadakı hadisələr hesabına daxili islahatlar sönməyə düçar oldu, burada ailə bağlılığı da öz rolunu oynayırdı. Fransanın həbs olunmuş kraliçası Mariya Antuanetta II Leopoldun bacısı idi, həm də Habsburq ənənəsi əsasında həmin nikah yolu ilə iki dövlət arasında ittifaq möhkəmlənmişdi.

II İosif kral kimi çətin vəziyyətdə qaldığına görə, 1789-cu ildə əvvəlcədən fransız inqilabını öz prinsiplərinin təsdiqi kimi təbrik etmişdi. II Leopold hətta 1792-ci ildə inqilabi Fransa hakimiyyəti ilə kompromissə getməyə hazırlaşmışdı. Lakin həmin ilin martında gözlənilməyən ölümü onun hökmranlıq müddətini çox qısa etdi. Onun oğlu II Frants ilə yeni era başlandı, bu vaxt heç bir islahat həyata keçirilməmişdi. Fransız inqilabı tərəfindən yüyəni buraxılmış qüvvələrə cavab vermək Habsburqların imperativ vəzifəsinə çevrilmişdi.

II İosif ölüm yatağında olanda o, öz epitafiyasının oxunması göstərişini verdi: "Burada niyyətləri təmiz olan hökmdar yatır, lakin bədbəxtlikdən, o, özünün bütün planlarının süqut etdiyini gördü." Bu, əlbəttə ki, olduqca radikal iddia idi. Öz anasının hökmranlığının nailiyyətləri üzərində qurulmaqla, İosifin islahatları nəhəng dəyişikliklərə yol açdı. İlk dəfə olaraq Habsburq monarxiyası fəaliyyət göstərən bürokratiyaya malik oldu, onun üzvlərinin sayı 1790-cı illərdə 14 min nəfərə yaxın idi. Dövlətlə vətəndaşlar/təbəələr arasındakı əlaqə dərin qaydada dəyişdi, dövlət Monarxiya imicinə malik olsa da, bu vaxt islahatların mənbəyi «xalqı» müdafiə edən kimi görünürdü. II İosif Habsburq cəmiyyətindəki proqressiv elementlərə görə «yaxşı Habsburqa» çevrildi. İosif dövlət nəzarətini və ratsionalizmi vurğulayaraq, həm bürokratiyasında, həm də katolik ierarxiyasında öz möhkəm mövqeyini saxlayırdı.

II İosifin irsi Habsburq monarxiyasının sərhədlərindən uzaqlara getdi. Bethovenin « Fidelio» operası insan azadlığına həsr olunan böyük həqiqətlərin ifadəsi idi. O, görkəmli alman bəstəkarı olsa da, öz ömründəki yaradıcılıq həyatının çoxunu Vyanada keçirmişdi. Hətta onun Bonndakı cavanlığı da Habsburqdan olan Kölndə elektor olmuş, II İosifin kiçik qardaşı Maksimilian Frantsın rəhbərliyi altında keçmişdi. Bethoven Vyanada 1792-ci ildən yaşamağa başlamışdı, bir il əvvəl burada Motsart vəfat etmişdi. «Fidelio»nu o, 1805-ci ildə yazmış və ilk tamaşası Vyanada göstərilmişdi.

•

II İosifin həyatı ilə Bethovenin bağlılığı çox dərin idi. Bethoven hələ Bonnda olanda İllyuminat Ordeninin varisi, bəstəkara II İosifin ölümünə həsr olunmuş kantatanı yazmağı tapşırmışdı.

## Qanuni imperiyanın yarım əsrlik tarixi

Edmund Börk özünün «Fransadakı inqilaba zidd olanlar» əsərində əvvəlcədən göstərirdi ki, fransız inqilabçıları keçmişin Kartezian ( nəzəri mənbəyi filosof Rene Dekartın ideyalarına məxsus olan və XVII – XVIII əsrlərdə möbcud olmuş fəlsəfədəki və təbiətşünaslıqdakı istiqamət belə adlanırdı)  ratsionalizmini rədd etdi və mərkəzi milli uniforma geyinilməsini təkid etdi, bu isə özünün radikal bir çağırış olduğunu sübut etdi. İnqilabçı Fransa Avstriya monarxiyası üçün daha böyük təhlükə idi. Bu dövlət sülalə işinin ürəyində idi, çox sayda etnik qrupların yaşadığı ərazilərə hökmranlıq edirdi. Modern milli dövlət isə populyar suverenliyə malik idi.  İnqilabi Fransa Monarxiya üçün  təkcə digər rəqib bir dövlət deyildi, həm də Avstriyanın ideoloji cəhətdən qisasçısı idi. Fransızlar azadlıq sevgisini ideallaşdırmışdılar. Ona görə də fransız inqilabçıları Avstriya imperiyasına nifrət edirdilər.

Fransız inqilabı təhlükəsi Avstriyanın yuxarıdan həyata keçirmək istədiyi islahatlara bəslənən ümidlərə də effektiv qaydada son qoydu. Fransanın inqilabçı travma vuran təcrübəsi və Napoleon müharibələri Avstriya hakimiyyətinin müasirliyə əsaslanan cəhdlərini də zəruri olaraq yoxa çıxardı. Bır necə dekada ərzində millətçilik, liberalizm və proqress erası olan bu dövrdə dəyərlər Fransız inqilabını təcəssüm etdirməklə, bütünlüklə yüksək milli sülaləyə haqq qazandırmağın əsasına qeyri-adekvat idi. Lakin onun «qanuniliyi» də ola bilərdi.

Əvvəlki dövrlərdə Fransa inqilabının Avstriyaya təsiri nisbətən kiçik idi, Parisdə 1789-cu ildə baş verənlərdən sonra Leopoldun öz islahatlarını davam etdirməsinin qarşısını alan hansısa bir əlamət kimi görünmürdü. II Frants onu əvəz edəndə, çox sayda belə fikirlər var idi ki, o, yumşaq islahatları, xüsusən aqrar siyasətdə davam etdirəcəkdir. Lakin Frants tezliklə mühafizəkar qaydada olan bir kurs götürdü. Fransız inqilabından müstəsna təhlükə özünü Prussiyaya və Rusiyaya qarşı siyasətdə, həm də onun öz Fransa müttəfiqini itirməsində göstərdi. II Leopold Prussiyaya qoşuldu və Rusiya ilə ittifaqa girdi. Bu ona gətirib çıxardı ki, fransızlar 1792-ci ilin aprelində Avstriyaya qarşı müharibə elan etdi. Prussiyanı və Rusiyanı isə heç də Avstriya deyil, yalnız Polşa ərazisindən daha çox torpaq qoparmaq marağı düşündürürdü.

Fransa ilə döyüş kampaniyası ani olaraq bədbəxtlik gətirib çıxardı. Fransız qüvvələri müttəfiqlər ordusuna 1792-ci ilin 20 dekabrında qalib gəldi. Bir gün sonra fransız Milli Konventi öz ölkəsindəki monarxiyanı ləğv etdi. İnqilabi qüvvələr

•

hücumçu döyüşlər aparmaqla, Belçikanı və həm də Reynin bütün sol sahilini işğal etdi. 1793-cü ilin 21 yanvarında XVI Lui edam edildi. Robespyer ölüm hökmünün ədalətli olduğunu əsaslandırmaq üçün demişdi; "Kral ölməlidir ki, Fransa yaşasın." Kralın edam edilməsilə Fransada Terror başlandı. Rusiya və Prussiya bu vaxt Polşanın ikinci parçalanmasını həyata keçirdilər. Lakin birinci parçalanmadan fərqli olaraq bu dəfə Avstriya bu işdə iştirak etmədi, hətta ona müxalif çıxdı. Çünki Fransa təhlükəsindən çox qorxurdu.

1793-cü ildə Avstriya Fransaya qarşı Avropanın çox sayda olan dövlətlərinin Birinci Koalisiyasını yaratdı, lakin buna Prussiya və Rusiya daxil olmamışdı. Payızda Fransanın avstriyalı kraliçası, Mariya Terezanın qızı, sonrakı iki kralın bacısı Mariya Antuanettanın edam edilməsi, Avstriyada rejimi idarə edən elitanı qorxutdu.

Ümumiyyətlə, Avstriya kraliçasının qızı olmasına, Fransa kralının arvadı olmasına baxmayaraq, Mariya Antuanettanın «xoşbəxtliyini» zəhər qatılmış bir kokteyli içməyə bənzətmək olardı. O, 1770-ci ildə Fransa dofini XVI Luiyə ərə getmişdi və dörd il sonra əri kral olmuşdu. Lakin yeddi il ərzində ərlə arvad bir yerdə yatsalar da, intim yaxınlıq halı olmamışdı. Lui öz ər vəzifəsini icra etmək istəyəndə dəhşətli ağrıdan qorxub, buna cəsarət etmirdi. Bu vəziyyət kraliça ananı və həmregent olan prints II İosifi ciddi narahat edirdi. Parisdə də Mariya Antuanettanın digər məşuqlara malik olması barədə şayiələr gəzirdi. Nəhayət, 1777-ci ildə İosif Parisə gəlib, bu vəziyyət davam edərsə, bacısını boşatdıracaqları hədəsini etdi və Luinin uşaq əmələ gətirən orqanında cərrahiyyə əməliyyatı keçirilməsini tələb etdi. Lui razılaşdı. Yazıçı Tomas Mannın yazdığına görə, əməliyyat Luinin sadəcə sünnət edilməsindən ibarət idi. Tədbir yaxşı nəticə verdi və Lui yataqda arvadı qarşısındakı vəzifəsini çox uzun fasilədən sonra birinci dəfə uğurla yerinə yetirə bildi. Lakin parislilər «avstriyalı qıza» nifrət bəsləyir, onu gözdən salmaq üçün hər bir vasitəyə əl atırdılar. Onsuz da Mariya Antuanetta özünün pak əxlaqı ilə öyünə bilməzdi, lakin onun hətta şəhvət düşkünü olması barədə açıq-saçıq karikaturlar paytaxtda geniş yayılmışdı. Ərə getdikdən 23 il, əri ilə həqiqi yaxınlıqdan 16 il sonra 37 yaşlı kraliça nazik boynunu gilyotina bıçağının zərbəsinə etibar etməli oldu.

İnqilabi Terror kral və kraliçanı fiziki cəhətdən məhv etmək vəzifəsini də axıradək yerinə yetirdi, sonra isə Jorj Danton kimi öz inqilab mübarizlərini hədəf seçdi. 1794-cü ilin yayında bu dəhşətli tədbirin baş təşəbbüsçüsü Maksimilian Robespyerin özünün edam edilməsi ilə isə Terrora son qoyuldu.

Fransızların hərbi uğuru isə daha həyəcan doğuran idi. 1794-cü ildə fransızlar Holland Birləşmiş Əyalətlərini işğal etdilər. Prussiya, Rusiya və Avstriya 1795-ci ildə Polşanın üçüncü Parçalanmasını həyata keçirdi.

Habsburqun mövqeyi getdikcə tənəzzülə uğrayırdı. Habsburq Müqəddəs Roma imperiyası üzərində də nəzarətini itirirdi. 1803-cü ildə Elektorların (imperotoru seçmək hüquü olan yeddi kurfyurstun) Kollegiyasında protestantlar çoxluğa nail oldular. Lunevill sülhü isə Avstriya üçün açıq alçalma demək idi.

•

1804-cü ilin mayında Napoleon Bonapart özünü imperator elan etdi. Ənənəvi Avropa monarxiyalarının duayeni olan Habsburqlar üçün bu, ciddi çağırış idi. Müqəddəs Roma imperiyasının özü də kiçildi və onun sağ qalması artıq sual altında idi. 1804-cü ildə vəziyyət II Frantsın özünü I Frants adlandıraraq, Avstriyanın ilk imperatoru elan edilməsinə aparıb çıxardı. Yeni titul imperiyanın yaranması üçün əlavə bir əsasa çevrildi. Bu, bütün torpaqların Avstriya tərəfindən Habsburq Evi vasitəsilə idarə edilməsini təsbit edirdi. Bəyannaməyə görə ona Avstriya dövləti deyil, artıq Avstriya dövlətləri deyilirdi.

Yeni imperiya öz tacına malik idi, buna hələ II Rudolf səlahiyyət vermişdi. Napoleon özünü 2 dekabrda taclandırandan beş gün sonra Frants da özünü rəsmi mərasimdə öz dövlətindəki imperator elan etdi, lakin burada heç bir taclanma baş vermədi. Napoleon isə Notr Damdakı təntənəli mərasimdə tacı Roma papasının əlindən qapıb, öz başına qoymuşdu, sonra isə arvadı Jozefinanı taclandırmışdı.

1805-ci ildəki Üçüncü Koalisiyanın müharibəsi 21 oktyabrda Trafalqar körfəzində ingilislərin Britaniyanın məşhur dəniz hərbçisi, admiral Horatsi Nelsonun başçılığı altında fransız- ispan birləşmiş donanması üzərindəki parlaq qələbəsi ilə nəticələndi. Döyüşdə igid admiral özü həlak olmuşdu. Qitədəki quru döyüşlərində isə fransız dominantlığı davam edirdi. Napoleon Vyanaya girdi, əhali onu düşməndən daha çox, sevilən qalib kimi şadlıqla qarşıladı. Fransızlar vyanalılara yaxşı təsir bağışlayırdı.  Bethovenin «Filodelio» operası işğalçı fransız zabitləri üçün göstərildi. O, artıq Vyananın ulduzuna çevrilmişdi. 1805-ci ilin dekabrında Austerlitsdə Napoleonun möhtəşəm qələbəsi başa çatdı, o, Zalsburqu və Habsburq Şvabiyasını aldı. Napoleon Reyn Konfiderasiyasında Almaniyanı birləşdirdi, Müqəddəs Roma imperiyasını isə 1806-cı ildə ləğv etdi.

Dahi sərkərdə Napoleon dövrün əsl hərbçisi idi, böyük qələbələr qazanırdı, 16 il ərzində o, Avropanı parçalamaqla, qitənin xəritəsini dəyişdirmişdi. Fransa Prussiyanı İena və Auerştadt döyüşlərində darmadağın etdi. Avstriya Napoleon Avropasına yol tapmağa cəhd edirdi, imperial konstitusiyalar Avstriya hakimiyyətinin ürəyində idi. I Frants çox millətli, müxtəlif dillərdə danışan orduya malik olduğundan, alman millətçiliyi ideyasını irəli sürdü..Fratsın qardaşı Karl fransızları məğlub etdi, buna görə Napoleon qəddarcasına qisas aldı.

Artıq tam müstəqil olmayan Avstriya fransızlara boyun əyməli oldu, 1808-ci ildə isə Napoleonun Britaniyaya qarşı iqtisadi blokadası olan Qitə sisteminə də qoşuldu. Bu siyasət Avstriya üçün qarışıq iqtisadi nəticələrə gətirib çıxardı. Toxuculuq sənayesi əsgərlərə paltar tikməyə olan tələbata görə inkişaf etdi və onu, Britaniya ilə olan rəqabətdən himayə etdi. Müharibə nəhəng fiskal defitsiti əmələ gətirdi, qiymətlərin böyüməsinə, inflyasiyaya səbəb oldu və bu, şəhər əhalisinin yoxsullaşmasına gətirib çıxardı. Lakin ordunu ərzaqla təchiz etmək sahəsində tələbatın artmasının nəticəsi kimi kəndlilərin çoxu yaxşı qazanc əldə etdi.

•

Mədəni cəhətdən ambivalent (ikili) era mövcud idi, yaralı rejimin meydana gəlməsi Avstriya intellektual həyatını xeyli qaydada qısırlılığa məhkum etdi. Hökumət əyalətlərdə tarixi muzeylər yaratdı. Avstriya «milli» səfərbərliyi, dövrün başlıca əlaməti oldu.

Baş nazir Stadionu 1809-cu ildə Klement Lotar – Metternix qrafı əvəz etdi. Metternix maariflənmiş Reynli ailəsindən idi, islahata inansa da, öz ağası olan imperatora itaət edirdi. Frantsın alçaldılmasının əksinə, onun qızı Mariya Luiza, edam edilmiş kraliça Mariya Antuanettanın nəvə qohumu olmaqla, 1810-cu ilin martında Napoleona ərə getdi. 1811-ci ilin martında isə Mariya Luiza oğlan doğdu və bu hadisə fransızlarla olan yeni ittifaqı möhkəmləndirdi. Bu vaxt Avstriya imperiyası fransızların məğlub etdikləri və artıq bankrot olmuş bir ardıcılı idi. 1812-ci ildə onun tam müttəfiqi olmaqla, Napoleonun *Crand Armu*-sinə – Böyük ordusuna 30 min nəfərlik öz qoşununu vermişdi.

1812-ci ildəki Rusiya kampaniyasında Napoleonun biabırçı məğlubiyyəti və qaçmaq şəklindəki bədbəxtliyi Avropa dövlətləri arasındakı tarazlığı bütövlüklə dəyişdirdi. Metternix isə yeni situasiyadan fayda götürməyə çalışdı.

Mariya Luiza ilk dəfə Napoleonla Kompyendə görüşən vaxt, imperator valideynlərinin ona nə tapşırdığını soruşanda, qız cavab vermişdi ki, onlar dedilər ki, bədənini və ürəyini ərinə təslim et. Bu cavab Napoleonun çox xoşuna gəldi və gəlinlə ilk coşqun gecə keçirdi. Həzz aldığını gizlətmədən səhəri əyanlarına dedi ki, ancaq alman qızına evlənin. Onlar dörd il ər-arvad kimi yaşadılar. Lakin bu dövrdə Napoleonun seriya bədbəxtlikləri baş verdi, Rusiya kampaniyası onun ordusunu məhv etdi, sonrakı ili Leypsiq döyüşündə də ağır məğlubiyyətə düçar oldu. Ruslar 1814-cü ildə çar I Aleksandrın başçılığı altında Parisə daxil oldular. Napoleon Elba adasına sürgün edildi. O, kiçik oğlu və arvadı üçün çox darıxdığından, onları dəfələrlə Elbaya dəvət etsə də, Mariya Luiza onun yanına getmədi, Vyanaya qayıtdı, orada avstriyalı generalla yaxınlıq etdi və 1821-ci ildə Napoleon öləndən sonra ona ərə getdi.

Mariya Luizanın sədaqətsizliyi Napoleonu çox kədərləndirirdi. Varşavada yaxınlıq etdiyi madam Valevskaya (Mariya Valevskaya) ondan bastard oğul doğmuşdu və onu da götürüb sürgündə yaşayan Napoleona qonaq gəldi. Jozefina isə artıq 1815-ci ildə ölmüşdü, bu vaxt onun 52 yaşı var idi, çox sevdiyi ikinci əri (birinci əri isə gilyotina edilməklə boynu vurulmuş general Aleksandr Boharne olmuşdu) Napoleon da həmin yaşda ikinci və sonuncu sürgün yeri olan Müqəddəs Yelena adasında əsir kimi yaşayarkən 1821-ci ildə dünyanı tərk etmişdi.

Napoleon Mariya Luizanın ona varis doğmasına çox sevinmişdi, onu II Napoleon adlandırıb, Neapol kralı etmışdı. Sonralar Vyanada babası I Frantsın Şönbrunn sarayında yaşayan bu oğlan 21 yaşında öldü. Napoleonun qardaşının Jozefinanın qızından olan oğlu Lui Bonapart Napoleon III Napoleona çevrilməklə 18 il ərzində, 1870-ci ildə prussiyalılara əsir düşənə qədər Fransanın ikinci imperatoru oldu.

•

Avstriya 1814-cü ildən tamamilə qalib olmaqla, yaxşı bir taleyə malik idi və Metternix diplomatiyası qalibiyyət tərəfində yekunlaşdı. Vyana konfransı inqilabdan sonrakı dekadada Avropadakı qüvvələr nisbətinin dəyişilməsini öz əlində saxlayırdı. Avstriya Vyana Konqressinə sədrlik edirdi. Aydın idi ki, müharibəni Britaniyanın və İspaniyanın köməyi ilə faktiki olaraq Rusiya və Prussiya udmuşdu.

1814-cü ilin oktyabrında Avstriya imperatoru Konqress iştirakçıları üçün bal təşkil etdi. İmperatorlar və krallar qalib sərkərdələr kimi valsın sədaları altında fırlanırdılar. Yeni başlanan dəbə görə ciddi beynəlxalq məsələlərin çoxu artıq rəsmi görüşlərdə deyil, ballarda, ziyafətlərdə həll olunurdu. Konqressdə fəallığı ilə seçilən Rusiya çarı I Aleksandrın guya Avstriya xarici işlər naziri, faktiki olaraq impriya hökumətinin başçısı olan Metternixin güclü təsiri altında olduğu güman edilirdi. Aleksandr isə dövlətlər arasında mövcud qüvvələr nisbətini nəzərə alırdı. Bir qədər sonra Metternix mövcud rəyi alt-üst edərək, Rusiya çarına nifrət etməyə başladı.

Napoleon 1815-ci ildəki öz 100 günlük hakimiyyətinin başlanğıcında mart ayında Elbadan qaçıb, vətəninə qayıtmışdı, 1814-cü ildəki məğlubiyyətindən sonra Böyük Britaniya və Prussiya onu edam etməyi təklif etdilər. Yalnız çar I Aleksandın cəhdləri hesabına o, Aralıq dənizindəki Elba adasın sürgün edilmişdi. Lakin qisasa susayan Napoleon yenidən qitənin böyük qüvvələri ilə vuruşa girmək qərarına gəldi, ancaq bu cəhdi daha uğursuz oldu. Britaniya və Prussiya orduları 18 iyun 1815-ci ildə Vaterlooda Napoleon qüvvələrini məğlub etdilər. Napoleon artıq əsir şəklində britaniyalılar tərəfindən Müqəddəs Yelena adasına sürgün edildi və altı əzablı ildən sonra, həmin adada da öldü, orada da dəfn edildi. Yalnız 1840-cı ildə onun cəsədli Parisə gətirilib, Əlillər Evində təntənəli qaydada dəfn edildi. İndi də onun sərdabəsi turistlərin ziyarətgahına çevrilmişdir.

Vaxtilə Bethoven III simfoniyasını «Bonapart» adlandırmışdı, sonra buna peşman olub, əsərini «Qəhrəmanlıq simfoniyası» adlandırdı.

Yuxarıda qeyd edildiyi kimi, Avstriya digər qüdrətli dövlətlərlə yaxşı münasibət yaratmaq üçün nikah ittifaqlarından geniş istifadə edirdi, özü də, əsasən, qızlarını başqa ölkələrin printslərinə və hökmdarlarına ərə verirdi. Geniş və uzun müddət ərzində istifadə etdiyi siyasi ittifaqların yaranmasına xidmət edən nikah heç də Avstriyanın öz icadı deyildi, sadəcə olaraq tarixdə mövcud olmuş ənənələrə əsaslanırdı. Qədim Romada siyasi fayda götürmək, hakimiyyətə yiyələnmək və ya onu bölüşdürmək silahı kimi nikahlar rəqiblərə qarşı uğur qazanmaqda mühüm rol oynayırdı. Yuli Sezar Qney Pompeylə yaxınlaşmaq üçün qızını özündən yaslı olan həmin adama ərə vermişdi. Bu yolla yaranan Birinci Triumvirat Sezarın siyasi aləmdə yüksəlməsinə yol açmışdı. Sonralar Sezarın qızı ölmüş, iki müttəfiq isə düşmənlərə çevrilmiş, nəhayət Pompeyin məğlubiyyəti və ölümü ilə nəticələnmişdi. Yaxud, İkinci Triumviratın nisbətən mülayim üzvü olan Lepid Oktavianla Antoni arasında ixtilaf yaranacağından qorxub, arvadı ölmüş Antoniyə Oktavianın bacısı Oktaviyaya evlənməyi təklif etmişdi və Antoni buna razılıq vermişdi. Lakin az sonra Antoni

•

yenidən Misir kraliçası, məşuqəsi Kleopatranın yanına qayıtmış, Oktavianla yaranan düşmənçiliyinə görə yeni arvadını boşamışdı. Siyasi və nikah ittifaqı bu dəfə də birinin – Antoninin məğlubiyyəti və özünü intihar etməsi ilə nəticələnmişdi.

Florensiyada Mediçilər öz hakimiyyətlərini qoruyub saxlamaq üçün gah İspaniya kralı, gah da Fransa kralı ilə nikah yolu ilə qohum olmaqla, yaranan ittifaqdan öz hakimiyyətlərinin təhlükəsizliyinə zəmin yaradırdılar. Florensiya Böyük Hersoqu Alessandro İspaniya kralı və Müqəddəs Roma imperatoru V Karlın qızına evlənmişdi. Bu ailədən olan Katerina Mediçi Fransa kralı I Fransiskin oğlu olan dofinə, gələcək kral II Henriyə ərə getmişdi. Onun üç oğlu və həmçinin kürəkəni IV Henri Fransa taxt-tacında olmuşdu. IV Henri Katerina Mediçinin qızı Marqareti boşadıqdan sonra, 1600-cü ildə Mediçilər ailəsinin digər nümayəndəsi olan Mariya Mediçiyə evlənmişdi. Beləliklə, Mediçilər uzun müddət kraliça və regent kimi Fransa siyasətində mümkün olduğu qədər fəal iştirak etmişdilər.

Avstriya Roma ənənələrindən daha çox Florensiya təcrübəsinə üstünlük verirdi, öz qızlarını başqa sarayların real və namizəd olan sahiblərinə ərə verməklə və öz oğlanlarını printsessalara evləndirməklə yaxşı ittifaqlar yaratmağa müvəffəq olurdu. Kraliça Mariya Terezanın qızı Mariya Antuanetta gələcək kral olacaq dofin XVI Luiyə ərə getmişdi. Kral I Frants Napoleona məğlub olub, alçaldıldıqdan sonra qızı Mariya Luizanı ona ərə vermişdi.

Avstriyanın düşdüyü zəifliyə baxmayaraq, Metternix daha çox strategiya və diplomatiya qaydasında düşünürdü. Lombardiyaya, Venetsiyaya sahib olmaqla, Toskanada və Modenada Habsburq hökmdarlarının olması Habsburqun yenidən İtaliyada dominant olması mənasını verirdi. Almaniyada isə, baxmayaraq ki, Müqəddəs Roma imperiyası dirilə bilməmişdi, Avstriya yeni Alman Konfederasiyasının prezidenti idi. Hətta Prussiya əvvəlki tək böyük olsa da belə, Metternix həmçinin Fransa ilə yumşaq münasibət yaratmağa əmin olduqda, öz diplomatik idealı olan dövlətlərin tarazlığını qurmuşdu. İttifaqlar sistemi, Avropadakı razılaşmanın əsası olmalı idi.

1813-15-ci illərin uğuruna baxmayaraq, Avstriya 1809- 1811 -ci illərin bədbəxtliklərini real olaraq sağalda bilmədi. 1830-cu ildə Fransada yeni inqilab başladı və dövlət liberal konstitusion monarxiyaya çevrildi. Britaniyanın himayəsi ilə Belçika müstəqil dövlətə çevrildi. Bu vaxt İtaliyadakı və Polşadakı liberal və milli qiyamlar uğurlu qaydada yatırıldı.

I Frantsın 1835-ci ildə ölməsi Avstriya hökumətinin hətta daha az nəticə vəd edən niyyət uğrunda və birbaşa fəaliyyət göstərməyə məcbur etdi. Frantsın böyük oğlu Ferdinand taxt-taca yiyələndi. Lakin o, belə məsuliyyəti daşımağa əqli və fiziki cəhətdən qadir deyildi. Metternix özünün siyasət üzərindəki yeganə qaydadakı nəzarətini əvvəldən qoruyub saxlamağa çalışırdı, lakin ershersoq İohannın müdaxiləsi onun nəzərdə tutduqlarını uğursuz etdi.

•

Bu erada ədəbiyyatda bir neçə yazıçı meydana gəldi. 1830-cu ildə başlayan Avstriya alman ədəbiyyatı Metternix rejiminə daha tənqidi yanaşmağa başladı. Çox sayda Avstriya liberalları və yazıçıları xarici ölkələrə, ən azı başqa alman dövlətlərinə getdi, orada onlar Metternix siyasətindən müqayisəli qaydada təhlükəsiz idilər. Onların səbirli olmalarını dayandırıb, dəyişilmələrinə səbəb Avstriya iqtisadiyyatı, mədəniyyəti və cəmiyyətinin dəyişilməsi idi, onlar rejimin irtica xarakterinə heç də hörmətlə yanaşmırdılar. 1811-ci ildə dövlətin bankrot olması sərt iqtisadi durğunluğa gətirib çıxardı. 1820-ci illərin sonundan iqtisadiyyat sağaldı və yaxşı dərəcədə böyüdü. Bohemiya torpaqları istehsalın artımının əldə edilməsində aparıcı region idi. Texnoloji irəliləyiş iqtisadi inkişafa təkan verirdi. Toxuculuq sənayesinin genişlənməsi artıq buxar enerjisindən istifadəyə və mexanikləşməyə əsaslanırdı.

Bankir Rotşild monarxiyanın iki mühüm bölməsinin – dəmir yolunun və dəmir əritmə sənayesinin pioneri idi. Avstriya iqtisadiyyatının genişlənməsində yəhudilər mühüm rol oynayırdılar. İosifizmin dirildiyi zonalardan biri, hökumətin sənaye və kommersiya siyasətindəki proqressiv  xarakter daşıyanlar idi. Avstriyada Vyana politexnikumu kimi ən nüfuzlu texniki institutlar faydalı mühəndis bilikləri verirdi.

## Avstriyada milli münasibətlər

Avstriya dövləti ilə digər etnik qruplar arasındakı əlaqələr çox hallarda anomaliya xarakteri daşıyırdı. Siyasi həyata hökumət təzyiq göstərəndə «mədəni» həyata icazə verirdi. Bura müxtəlif millətlərin monarxiya tarixinə yönəlmiş «tədqiqatları» daxil idi. Monarxiyanın «tarixi millətləri» arasında milli şüuru idarə edən siniflərin olduğu italyanlar, macarlar və polyaklar yüksək mədəniyyət sahibləri kimi tanınırdı, burada artıq tarixi “hüquqların” yaxşı inkişaf etmiş hissələri var idi. «Tarixi olmayan millətlər» sayılan slovenlər və ya slovaklar arasında mədəni millətçilik dəstəklənirdi. Onlara, öz idarə edən sinfi və həm də yüksək mədəniyyəti olmayan millətlər kimi baxılırdı. Milli hərəkatlar böyüyən qaydada inkişaf edirdi. Monarxiyada dövlət alman dilinin *lingua franca* olmasına əsaslanırdı.

1848-ci il inqilabı Qərbi və Mərkəzi Avropa ölkələrinin çoxunda baş verdi, bu sənayeləşmənin böhranı kimi özünü göstərdi. Monarxiyada isə bu böhran daha sərt xarakter daşıyırdı. Metternixin imperiyanı qoruyub saxlamaq metodu özünü təsdiq edən legitimliyə malik deyildi.

1848-ci ilin martında tələbə dəstəsi və onlara rəğbət bəsləyənlər islahat petitsiyasını təqdim etmək üçün Aşağı Avstriya dayetinə (parlamentinə) hücum etdilər. Qoşunlar camaata atəş açanda beş nəfər öldü və etiraz dalğası inqilaba çevrildi. Gecə düşəndə Metternix istefa verdi və iki gün sonra, martın 15-də əhaliyə

•

konstitusiya vəd edildi. Habsburq hakimiyyəti tərəqqi ruhunu bərpa etmək yolunu tutmalı idi. Bunlar yalnız yarımçıq şəkildə uğurlu oldu.

Vyanada mart inqilabı vaxtı Habsburq monarxiyasında həyəcan davam edəndə, Milanda da qiyamlar başlandı. Digər yeni bir inqilab Parisdə baş verdi və bütün Mərkəzi Avropaya yayıldı. Hadisələrin zəncirlərindən biri Qərbi Almaniyaya keçdi, bu zəncir Vyanada rejimin yıxılması ilə ikinci həmrəylik qığılcımını yaratdı. Monarxiyanın digər hissələrində də «milli» inqilablar başlandı. Macarıstanlı Lukas Koşut bütöv monarxiyada radikal islahat aparılması barədə öz çağırışını etdi. Bu, Vyana inqilabı üçün katalizator rolunu oynadı, Macarıstanda və Monarxiyanın digər əksər hissələrində də inqilab alovu qalxdı.

Aprelin 1-də Vyanadakı Müqəddəs Stefen kilsəsinin qülləsində alman qara-qırmızı-qızılı bayrağı qaldırıldı. Sabahısı gün bayraq «alman» imperatoru II İosifin abidəsi üzərinə gətirildi və Hofburq sarayının üstündə də dalğalandı. Monarxiyanın alman dilində danışan regionları bütövlüklə Alman Frankfurt parlamentinə seçkilərdə iştirak etdi. Parlament Habsburqu – ershersoq İohannı Almaniyanın «imperial regenti» seçdi.

Bir sıra vyanalı inqilabçı belə mülki «azadlığı» dəstəkləməyə hazırlaşmışdı, lakin həm də çoxları buna etiraz edirdi. Çex siyasi lideri Frantişek Palatski Frankfurt parlamentinə dəvəti rədd etdi, çünki Bohemiya «Almaniyanın» bir hissəsi kimi qiymətləndirilməmişdi. Palatski bəyan etdi ki, «Avstriya imperiyası artıq mövcud deyildir, biri onu yaratmağa tələsir ki, guya bu Avropanın, bütün bəşəriyyətin mənafeyinə xidmət edir». Çexlər, Palatskiyə görə, slavyanların çoxluq təşkil etdiyi bir dövlətdə Vyanadan heç də yaxşı idarə olunmur. 22 iyunda Avstriya parlamenti olan Reyxstaq Vyanada toplandı. Kişi cinsindən olanların universal səs verməsi ilə 383 deputat Monarxiyanın yarısından savayı qalan hissəsinin timsalında bütün Monarxiyanı təmsil edirdi, onlardan da 190-u slavyan idi və dörddə biri kəndli idi. Çoxmillətli olduğuna görə onsuz da Avstriya imperiyasını haqlı olaraq «qurama yorğan» adlandırırdılar.

Vəziyyət, Xorvatiya ordusu Macarıstana yeridikdə daha da qızışdı. Macarıstanda vuruşmaq üçün qüvvə göndərilməsi təhlükəsi Vyanada da qiyamın qalxmasına və radikal bunta səbəb oldu. Saray yenidən qaçmağa məcbur oldu. Həftə ərzində ikinci inqilab qoşunlar tərəfindən darmadağın edildi. Oktyabr inqilabı (Rusiyadakı 69 il sonra baş verən Oktyabr inqilabı ilə qarışıq salınmamalıdır) liderlərindən bəziləri edam edildi.

Müzəffər Habsburq sarayı Macarıstanda qiyamı yatırtmaq niyyətini güdəndə, Avstriya dövlətinin yeniləşməsi prosesi üzə çıxdı. Parlament yeni konstitusiya qəbul etdi, yeni baş nazir təyin edildi. 1848-ci ilin dekabrında Ferdinand taxt-tacından istefa verdi və onu 18 yaşlı qohumu I Frants İosif əvəz etdi. Yeni imperatorun adı II İosif liberalizmini dəstəkləyən I Frantsa bənzədiyindən, Frants İosif mütləqiyyəti qoruyub saxlamaqla birlikdə, modernləşmə niyyətini də güdürdü.

•

## Alman millətçiliyi

Vyanada alman bayrağının qaldırılması, çoxmillətli imperiyada alman dilində danışanların iradəsi ilə Alman Frankfurt parlamentinin yaranması və ershersoqun Almaniyanın «imperial regenti» seçilməsi bəzilərinə xırda tarixi epizod kimi görünə bilər və həmin dövrdə də belə münasibətin mövcudluğu alman millətçiliyini qızışdıran yanacaq rolunu oynadı. XIX əsrdə hələ Almaniya Prussiyanın Fransa üzərində qələbəsi hesabına 1871-ci ildə birləşib, vahid dövlət əmələ gətirməmişdən xeyli əvvəl alman millətçiliyi möhkəm baş qaldırırdı və Avstriya almanları da bu dalğada iştirak etmələrinə sevinclə yanaşırdılar. Ona görə də Hitler faşizminin quru yerdə yaranması, yalnız ümumdünya böhranının nəticəsi kimi izah edilməsi səhv düşüncəyə əsaslanır. Əlbəttə, 1929-cu ildə başlanan böyük iqtisadi böhran pandemiya xarakteri daşımaqla, I Dünya müharibəsindən məğlub çıxmış, ağır təzminat verməyə məhkum edilmiş Almaniyanın vəziyyətini daha da ağırlaşdırmışdı və onun təsirini danmaq olmaz. Lakin millətçiliyin meydana gəlməsi və yayılıb, inkişaf etməsi uzun proses olub, heç də ani bir iqtisadi böhranın bəhrəsi deyildi. Alman millətçiliyi almanların yaşadığı ərazilərdə kök atıb, böyüyürdü və nə vaxtsa onun bol-bol zəhərli meyvələri yaranmalı idi.

Ona görə də alman natsizminin banisi kimi Hitlerin bədnam böyük rolu ilə yanaşı, bu iyrənc prosesdə alman millətçiliyinin də xidmətlərini inkar etmək bağışlanmaz səhvdir. 18 yaşlı Adolf Hitler əyalət şəhərindən imperiyanın paytaxtı Vyanaya düşdükdən sonra, şəhərin merinin real antisemitizm təcrübəsini görüb, ondan ilhamlandı. Onda yəhudilərə qarşı zooloji bir nifrət yarandı və bu iyrənc təməl üzərində o, hakimiyyətə gəldikdən sonra Holokost tüğyanı baş verdi. Antisemitizm həm də Hitlerin oyanan gur millətçiliyini daha da qızışdırdı, qığılcımdan hökmən alov törəyəcəkdi. Hitlerin hərbi avantüralarına gəldikdə, bu məsələdə də onun nümunə götürdüyü görkəmli siyasi və hərbi xadim kimi Prussiya kansleri olan Otto fon Bismark var idi. Bismark Almaniyanı birləşdirmək niyyəti ilə alışıb yanırdı. Bunun üçün 1864-cü ildə Danimarka ilə də müharibə etmişdi və onu iti sürətlə məğlub etmişdi.

Lakin bu onun məqsədlərini həyata keçməsi üçün xırda səbəb idi. Daha irisini tapmaq, və ondan əsl böyük məqsəd üçün vaxt itirmədən istifadə etmək Bismarkı daha iri provokasiyalara cəsarətləndirdi. O, özünün icad etdiyi və məqsədlərinə çatmaq üçün geniş istifadə etdiyi *Realrolitik*-ini bu dəfə də işə saldı, diplomatik qaydaları pozaraq, Fransa imperatoru III Napoleonun Almaniya kayzerinə göndərdiyi sərt məktubu, axırıncının icazəsi olmadan mətbuatda çap etdirdi. Fransa rəhbərliyi Bismarkın bu provokasiyasına uyub, Almaniyaya müharibə elan etdi. Fransa baş

•

naziri qeyd etmişdi ki, «Biz müharibəyə açıq ürəklə gedirik». Bismark istədiyinə nail oldu, Fransaya müdaxilə edib, Sedanda fransız ordusunu 1870-ci ilin 2 sentyabrında ağır məğlubiyyətə uğradıb, imperator III Napoleonun özünü əsir götürdü. Sonra Paris dörd ay ərzində ağır mühasirə həyatı yaşadı və almanlar tərəfindən 1871-ci ilin yanvarında tutuldu. 1871-ci ilin 18 yanvarında Versalın Güzgülü salonunda, Günəş Kral XIV Luinin çox sevdiyi və fəxr etdiyi sarayının bu gur işıqlı zalında Almaniyanın birləşməsi elan edildi. Prussiya kralı I Vilhelm birləşmiş Almaniyanın kayzeri və ya imperatoru tacını qəbul etdi, Bismark isə kansler oldu. Bu İkinci Alman imperiyası idi, birinci isə orta əsrlərdəki Müqəddəs Roma imperiyası sayılırdı, sonralar isə Hitler öz dövlətini Üçüncü Reyx adlandıracaqdı.

Bismark siyasi məsələləri çızmağa münasibətdə, vaxtilə özünün gizlətmədiyi kimi, dəmir və qanla həll etmək yolunu seçmişdi və bunlarda uğur da qazanırdı. Hitler Bismarkın yolu ilə getməyə üstünlük verdi, hədə və qorxu gəlməklə 1938-ci ildə əvvəlcə Avstriyanı birləşdirmək adı altında işğal etdi, sonra isə Çexoslovakiyanın bir hissəsi olan Sudetləri ələ keçirdi, 3 milyona qədər etnik almanın yaşadığı Sudetlər alman ordusu tərəfindən işğal edildi. Slovakiyada isə Hitler özünə itaət edən bir dövlət yaratdı. Bu uduşlarından ilhamlanıb, Avropa ölkələrini işğal etməklə II Dünya müharibəsi tonqalını qaladı, Britaniyaya güclü hava hücumları etsə də, axıra qədər onu diz çökdürə bilmədi.

Bismarka gəldikdə, o, Hitlerin kumiri rolunu oynayırdı. Ona görə də 1940- cı ildə qayrılan ən böyük alman hərb gəmisinə Bismarkın adı verilmişdi. Su tutumu 53 min ton olan bu gəmi həm də batmayan hesab olunurdu və Hitler ona çox böyük ümid bəsləyirdi. 1941-ci ilin yazında gücünə əmin olduğu bu gəmini ilk dəfə Atlantik okeanındakı döyüşə göndərdi. 18 mayda "Bismark" döyüşə girdi. Britaniyalılar onu mühasirəyə alıb, iki saatlıq döyüşdən sonra batırdılar. Gəminin 2 min dənizçisi məhv edildi. Hitler dəniz qüvvələrinin potensial simvolu olan "Bismark" tərifli gəmisi şərəfsizcəsinə öz mövcudluğunun sonunu tapdı. II Dünya müharibəsinə başlayan Hitlerə sonrakı illərdə hətta öz yol göstərən ulduzu da artıq kömək edə bilmirdi.

1939-cu ilin sentyabrında müharibənin başlanğıcı üçün Polşanın işğal edilməsi seçildiyi kimi, bir il 10 aydan sonra yenə üzünü Şərqə tərəf tutdu. Axı lap əvvəllərdə «Şərqdə yaşayış məkanı» əldə etmək ideyasını irəli sürmüşdü, indi isə Britaniyanı məğlub etmək üçün ona strateji resurslar – neft, metal, taxıl lazım idi və SSRİ ilə bağlanmış pakta görə bu ölkədən həmin məhsulları aramsız olaraq alırdı. Deməli, SSRİ "yaşayış məkanı»nın" əlverişli imkanı olmaqla yanaşı, həm də müharibəyə lazım olan strateji resursların zəngin anbarı idi və ona görə də 1941-ci ilin iyununda onun ərazisinə böyük hərbi qüvvə tətbiq etməklə müdaxilə etdi və ilk yarım ilə yaxın müddətdə onun «blitskriq» ideyası da uğurla həyata keçirdi. Lakin SSRİ böyük iqtisadi potensiala malik olan ərazilərini, milyonlarla döyüşən əsgərini itirsə də, məğlub olmadı. Müharibə külündən yenidən həyata qayıdıb, Hitler faşizmi üzərində Müttəfiqlərin köməyi və bilavasitə iştirakı ilə qələbə çaldı.

•

Təəssüf ki, Hitler, avantyrizmin əsiri olmasına görə tarixi yaxşı öyrənməyə cəhd etməmişdi, yalnız onu ilhamlandıran aldadıcı səhifələrinə vurulmuşdu və bu, ona olduqca baha başa gəldi. Dünya ağalığına can atan Hitler öyündüyü doğma Almaniyasının məğlubiyyətinin, dağılmasının və aqoniyasının şahidi olduqdan sonra, əlacsızlıqdan, öz arzularının tam əks şəkildə baş verdiyini, puç olduğunun gördükdə həyatla vidalaşmaq qərarına gəldi. Bu, 6 il əvvəl baş versəydi, Avropa, əslində bütün dünya II Dünya müharibəsinin dəhşətli əzablarından yəqin ki, xilas olmuş olardı.

Hitler Rusiyaya müdaxilə etməyi məqbul saymayan Bismarkın mülahizəsinə də məhəl qoymamışdı, daha çox Almaniya kayzeri II Vilhelmin I Dünya müharibəsinin başlanmasına rəvac verib, dörd il sonra ağır məğlubiyyətə düçar olmasını, imperiyasını və taxt-tacını itirməsini də nəzərə almamışdı. Bəlkə də onları iti düşüncə tərzi ilə araşdırsaydı, onu əsir edən sərsəm ideyalara tam təslim olmamaqla, görünməmiş kataklizmlərə yol açan və dünyanı dəhşətlərə qərq edən  öz  ağılsız hərəkətlərindən çəkinərdi. Lakin tarix feilin lazım formasını tanımır. Dünya, XX əsrdə tarixin ən çox qan axdılmasına səbəb olan müharibələrin – I və II Dünya müharibələrinin, onların  kəsilmək bilməyən ölüm saçan nəfəsini, üst-üstə on il ərzində bol qurbanlar verilməsi, əsasən  Avropanın dözülməz dərdlər və ehtiyaclar girdabına düşməsi ilə hiss etməli oldu.

Avstriya imperiyasında baş verən hadisələrə qayıtdıqda, Macarıstan qiyamı 1849-cu ilin avqustunda başa çatdı. Avstriya rəhbərliyinin xahişi ilə müdaxilə edən Rusiya ordusu qiyamçı generalı əsir götürdü. Frants İosif çar I Nikolaydan hərbi kömək xahiş etmişdi. Nəticə ikiqat borc şəklini aldı. Rusiyaya Avstriyanın diplomatik borcu ilə yanaşı, xüsusən intiqam və qan borcu da var idi. Avstriya Macarıstanı işğal etdi, bu, macarların rəyinin dərin bir qaydada yadlaşmasına səbəb oldu.

Habsburq dövlətinin bir parçasının Almaniyada özünü bərpa etməsi ehtiyacı yarandı. 1850-ci ildə Prussiya xoşbəxt qaydada özünün Almaniyanın lideri olması şansı ilə razılaşdı. II Dünya müharibəsindən sonra Almaniya Federativ Respublikasının məşhur kansleri olmuş Konrad Adenauer isə deyirdi ki, prussiyalılar öz əcdadlarını unutmuş slavyanlardır. Doğrudan da, ölkənin adı Rusiya və Belorusiyaya yaxın kimi səslənir. Mənşənin əslində necə olmasından asılı olmayaraq, Prussiya hərbi gücü ilə Almaniyanın liderliyini ələ keçirə bilmişdi və bunu bir neçə onillik ərzində reallığa çevirməklə, onun vahid dövlətdəki birliyini də yaratmağı bacarmışdı.

Habsburq hakimiyyəti bərpa edildikdən sonra I Frants İosifin həm də yaxşı məsləhətçiləri var idi. İmperator özünün yeni mütləq erası ərzində imperiyanı dörd ordu ilə idarə edirdi. Onlardan biri hərbi, digəri bürokratik, başqa biri ruhanilər və dördüncüsü isə məlumat verənlər ordusu idi. Dini siyasət qanunu bərabərlik prinsipinin bünövrəsini qazırdı. Frants İosif sonralar daha çox yəhudiləri sevən bir hökmdar kimi görünürdü, o, yəhudilərə bərabər hüquqlar vermişdi. Lakin o, həm də

•

yəhudi emansipasiyasını təsdiq etməkdən imtina etdi. Bu da onun konservativ katolik olmasından irəli gəlirdi.

Ordunu Frants İosif şəxsən özü istiqamətləndirirdi. Lakin onu islahata uğrada bilməmişdi. Orduya ayrılan illik büdcə üç ay ərzində xərclənmişdi.

Rusiya çarı I Nikolay Avropanın inqilabdan xilas etdiyinə görə bunun kompensasiyası kimi Türkiyəyə qarşı qitə dövlətlərinin dəstəyini umurdu. O, hətta Frints İosifə də perspektivdə əldə edəcəklərinə şərik olmağı təklif etmişdi. Lakin Avstriya imperatoru bundan imtina etdi. O deyirdi ki, Türkiyənin qalması Avstriyanın marağına uyğundur. İmperator qeyd etmişdi ki, «Bütün dünyanın üzərində avstriyalı olmalıdır».

Rusiya Krım müharibəsində (1853-1856-cı illər) əmin idi ki, Avstriya ona kömək edəcəkdir. Lakin Avstriya tam nankorluq göstərərək, uzun müddət neytrallığını saxladı. Avstriya siyasi xadimləri hətta bu yolverilməz nankorluğu etiraf etməli olmuşdular.

Sonralar, 1911-ci ildə yenə belə hadisə baş verəndə, İkinci Mərakeş böhranı vaxtı Avstriya xarici işlər naziri demişdi: «Mən nə edə bilərəm. Biz heç bir *Weltpolitik* -ə (yumşaq siyasətə) əməl edə bilməzdik».

Avstriya vuruşan Rusiyadan uzaqlaşdı. Müharibədə sonra qalib gələn tərəf isə Britaniya və Fransa oldu. Müharibə Rusiyanı alçaldılması ilə başa çatdı. Avstriya öz keçmiş başlıca müttəfiqi Rusiyanı tərk etməklə yanaşı, Britaniya və Fransanın olduqca azacıq hörmətini qazandı.

Frants İosifin imperalist ambitsiyaları çox böyük idi, adətən nəticənin necə olacağını düşünmürdü. 1855-i ildə Pyemonta müharibə elan etməklə tələyə düşdü. Frants Pyemonta müdaxiləyə özü dirijorluq edirdi. Döyüşləri uduzan Frants İosifin yeni mütləqiyyət rejimi süqut etdi. Məğlubiyyət imperiyanı İtaliyadakı varlı əyalət olan Lombardiyasız qoydu, cənubda isə nəhayət İtalya milli dövləti meydana gəldi. Sonralar Bosniya –Hersoqvinanı anneksiya etməkdə də səhvə yol vermişdi və milli azadlıq hərəkatının daha da qızışmasına şərait yaratmışdı. Bu vaxt yada, XVI- XVII əsrlərdə yaşamış böyük ingilis filosofu və siyasi xadimi Frensis Bekonun sözləri düşür. Bekon York Hauz Qardendə olanda,. öz torlarını çaya atan balıqçıları görüb, onlardan xahiş etdi ki, tutduqları nə olsa , ona satsınlar.. Balıqçılar öz qiymətlərini dilə gətirdilər, lord onlara cavab verdi ki, o qədər çox yox, ancaq qoy onun dediyi qiymətə də baxsınlar. Balıqçılar razılaşmadı. Onlar torlarını çıxaranda, onda iki-üç xırda balıq olduğunu gördülər. Lord onlara dedi ki, balıqçılar onun təklifini qəbul etsəydilər, indi evlərinə on şillinq aparardılar. Cavab verdilər ki, onlar öz ovlarının yaxşı olacağına ümid edirdilər. Bunun müqabilində filsof onlara dedi ki, ümid yaxşı səhər yeməyidir, lakin çox pis şam yeməyidir. Frants İosif də çox şeyə nail olacağına ümid edirdi, lakin arzularının çoxu puç olurdu.

Frants İosif yalnız könülsüz qaydada konstitusiyonalizmin anafemasını qəbul etdi, onun heç bir çıxış yolu yox idi. Maliyyə böhranı baş vermişdi, çoxu yəhudilər

•

olan Vyana bankirlər qrupunun, axı fondların həqiqi mənbələri məhz onlar idi, münasibətini Anselm Rotşild 1860-cı ildə bildirərək demişdi: «Konstitusiya yoxdursa, pul da yoxdur». Bu, həmçinin effektli yəhudi emansipasiyası ili idi, yəhudilər öz real mülkiyyətlərinə malik oldular və yaşayış yerlərini dəyişmək hüququ qazandılar.

1864-cü ildə Frants İosif yenidən siyasət kursunu dəyişdi, onu daha mühafizəkar strategiyaya uyğunlaşdırdı. Xarici siyasətdə Prussiya kansleri Bismarkla birlikdə hərəkət etdi və Prussiyanın Danimarkanın idarə etdiyi əyalətə 1864-cü ildə müdaxilə etməsində ona köməklik göstərdi.

## İmperiyanın xəbərdar olunması

Habsburq Monarxiyası tezliklə Avstriya-Macarıstan Dual (ikili) monarxiyasına çevrildi, bu monarxiya da yarım əsrdən sonra yoxa çıxdı, parçalanmaqla Şərqi Mərkəzi Avropanın sifətində milli-dövlətlərin yaranmasına səbəb oldu. Bu vaxt son yarım əsr ərzində monarxiya hökmən süquta uğrayacaq kimi görünürdü və sülalə ağalığına əsaslanan yüksək-dövlət, millətçilik dalğasına dözməyərək süqut etdi. İkili monarxiya hələ 1867-ci ildə yarandığı vaxtda məhz «xəbərdar olunan imperiya» adlanmışdı.

Tarixdə mövcud olmuş bütün imperiyalar kimi Avstriya-Macarıstan imperiyası da, I Dünya müharibəsində biabırçı uduzmasına görə məğlubiyyətlə üzləşmiş Osmanlı imperiyası kimi dağıldı, onlar birbaşa müvafiq olaraq əsasən avstriyalı almanlara və türklərə məxsus olan əraziləri saxlayıb, nəhəng valideynləri ilə müqayisədə yetim uşaq kimi nisbətən kiçik bir ərazidə öz yeni, müstəqil dövlətlərini yaratdılar. Rusiya imperiyasını 1917-ci ilin Fevral və Oktyabr inqilabları məhv etmişdi. Almaniya imperiyası məhv olsa da, Afrikadakı müstəmləkəsini və Asiyadakı torpaq ərazilərini itirsə də, lakin onun doğma qitədə 1871-ci ildə meydana çıxmış öz ərazisinə xələl gəlməmişdi, çünki Almaniyanın öz torpaqlarına düşmən ayağı dəyməmişdi. Alman ordusunun Baş Qərargah rəisi Lyudendorf kayzer I Vilhelmi məcbur etmişdi ki, ordunun məhv olmaması naminə Almaniya gecikmədən sülh bağlamaq təklifini etsin.

I Dünya müharibəsinin xarabalıqlarında dörd imperiyanın simvolik qəbri nəzərə çarpırdı, onlarda uyuyanların hesabına çox sayda Avropa və Asiyanın Yaxın Şərq dövlətləri müstəqillik və mandat altındakı yarımmüstəqillik qazanmışdılar. Avropada Britaniya imperiyası mövcudluğunu saxlamaqla, orada olan İsveç, Belçika, Niderland, İtaliya, İspaniya və Yunanıstan dövlətlərində yenə də krallar özləri üçün taxt-tacı qoruyub saxlamışdılar. 1930-cu illərdə İspaniya kralı qaçmağa məcbur oldu və II Dünya müharibəsindən sonra isə İtaliyada və Yunanıstanda kral hakimiyyəti xalqın iradəsi ilə ləğv olundu. 1952-ci ildə inqilab nəticəsində devrilən Misir kralı Faruq qeyri-ciddi şəkildə peyğəmbərlik edərək demişdi ki, dünyada az sonra cəmi 5

•

kral qalacaqdır, bunlardan biri Britaniyanınkı olmaqla, dördü isə oyun kartına məxsus olacaqdır. Lakin bir sıra Avropa ölkələrində dövlətə yenə də krallar başçılıq edir, Yaponiyada isə imperator kimi mikadonun mövcudluğu davam edir.

Avstriya imperiyasına daxil olan italyan torpaqlarındakı vətənpərvər qüvvələrin mübarizəsi, nəhayət, uğurla nəticələndi və Avstriya Milanı, Lombardiyanı və digər əraziləri tərk etməli oldu. Etel Lililan Voyniçin romanının məşhur qəhrəmanı Ovod – Artur avstriyalılara qarşı mübarizənin qurbanı olmuşdu, lakin nəhayət, onun və digər mərd mübarizlərin arzusu həyata keçdi və Avstriya işğalçıları italyan ərazilərindən qovuldu.

Cəmi 51 yaş yaşamaqla, 11 noyabr 1918-ci ildə son nəfəsini verən Avstriya-Macarıstan imperiyasının yerində yeni müstəqil dövlətlər – indi altı dövlətdən ibarət olan Yuqoslaviya krallığı (bu adı həmin dövlət 1929-cu ildə qəbul etmişdi), Macarıstan, indiki iki dövlətdən ibarət olan Çexoslovakiya yarandı. Polşa öz ərazilərini bərpa etməklə müstəqil dövlətə çevrildi. Osmanlı imperiyasına daxil olan Yaxın Şərqdəki ərəb dövlətləri İngiltərənin və Fransanın mandatları altında olan dövlətlərə çevrildilər. Fələstində isə 1948-ci ildə qısa müddət ömür sürən ərəb dövləti və yəhudilərin yaşamaqda davam edən İsrail dövləti yarandı.

Tarixdəki imperiyalar daim bir adı daşımaqla mövcud olmuş, öz tərkibinə daxil olan heç bir ölkənin adını özünə qoşmamışdı. Yeganə imperiyadır ki, 1867-ci ildə öz çoxəsrlik adını dəyişdirib, ona Macarıstan sözünü də əlavə etmişdi. Rusiya Avstriya imperiyasını 1840-ci illərin sonundakı ağır təhlükədən xilas etsə də, 1917-ci ildə öz imperiyasını qoruyub saxlaya bilməmiş, bir inqilab çarı devirmiş, digəri isə səkkiz ay sonra Rusiyada yeni sosialist dövləti yaratmışdı. Buna qədər Krım müharibəsindəki və Yaponiya ilə sonra, XX əsrin başlanğıcında baş verən silahlı münaqişədəki (əsasən dəniz döyşündəki) ağır məğlubiyyətlər Rusiyanın da Avstriya kimi kövrək, qeyri-möhkəm vəziyyətdə olduğunu göstərmişdi. Ona görə də I Dünya müharibəsində ağır itkilər verən Rusiya daxildəki siyasi qarışıqlığa əncam tapmayıb, bura ordudakı düşmənlə “qardaşlaşma” şüarının əsgərlər arasında intizamı pozması şəraitini də əlavə etmək lazımdır, mütləqiyyət rejimini itirməli oldu.

Krım müharibəsindəki məğlubiyyət Rusiyaya baha başa gəlmişdi. Rusiya Qara dənizdə hərbi donanma saxlaya bilməzdi.. I Nikolayın «Avropanın xəstə adamı» adlandırdığı Osmanlı Türkiyəsi ilə münaqişəni, onun müttəfiqlərinin ciddi kömək göstərməsi hesabına uduzdu. Çar I Nikolay ağır dərdə dözə bilməib xəstələndi, müharibə başa çatmamış, 1855-ci ildə öldü. Təhkimli kəndlilərdən ibarət olan Rusiya ordusu daha müasir orduların təzyiqinə davam gətirə bilməmişdi. Nəhayət, 1861-ci ildə Rusiya onun üçün yaralı məsələ olan təhkimçiliyi ləğv etdi, lakin onun bəzi xüsusiyyətləri müxtəlif yollarla qüvvədə qalırdı. Rusiya Avropada yeganə dövlət idi ki, orada təhkimçilik XIX əsrin yarısına qədər mövcud olmuşdu, hansı ki, avropalıların quldarlığın başqa bir növü hesab etdiyi təhkimçilik hələ XV əsrdə

•

İngiltərədə ləğv olunmuşdu. Nisbətən iradəli imperatriçə II Yekaterina da ölkəsindəki bu «xərçəng şişini» kəsib atmağa cəsarət etməmişdi.

Krım müharibəsində yaralı əsgərlərin həyatını qorumağa xidmət edən mühüm bir hadisə də baş verdi. Bu müharibəyə qədər və onun gedişində döyüşdə yaralanan əsgərlər üçün lazaretlərdə yaxşı müalicə və lazımi sanitariya şəraiti olmadığından, az qala onların kütləvi şəkildə ölməsi baş verirdi. Maraqlı məsələlərdən biri odur ki, bu vəziyyəti canıyanalıqla anlayan İngilis könüllüsü Florens Naytingel adlı qadın Krıma gəlib, lazaretlərdəki və hospitallardakı sanitariya vəziyyətini və xəstələrə qulluğu kökündən yaxşılaşdırmağa nail oldu və bu, yaralılar arasında ölüm hallarını xeyli azaltdı. Naytingelin təşəbbüsü ilə şəfqət bacıları institutu meydana gəldi və onlar yaralı əsgərlərin həyatının xilası üçün əsl fədakarlıq nümunəsi göstərirdilər. Bu təşəbbüs sonra beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin yaranmasına yol açdı. Naytingel böyük nüfuza yiyələndi, özünün "bülbül" mənasını verən soyadına, həlak olmaq təhlükəsi ilə üzləşən yaralı əsgərlərin həyatını hifz etmək cəhdinə görə, əlavə şərəf gətirdi.

Avstriya-Macarıstan dual imperiyasının taleyi də, müstəsna dərəcədə mürəkkəb oldu. Monarxiya son dekadalarda Yanus sifətinə yiyələnmişdi (Qədim Roma mifologiyasına görə Yanusun iki üzü var idi). Dual imperiya da bir üz kosmopolitliyə məxsus olmaqla, yüksək modern bir mədəniyyətə malik idi. Digər sifəti isə etnik mübarizə ilə, siyasi müxalifətlə, avtotarizmlə, irqçiliklə əlaqədar idi. Liberal olmayan gələcəyində isə labüd şəkildə hətta Hitlerin Üçüncü Reyxinin dəhşətli ölüm düşərgələri ilə də əlaqədə olacaqdı. Hər iki üz avstriyalıların XX əsrə keçməsinin «nəhəng» kombinasiyasının bir hissəsi olacaqdı.

Prussiya tərəfindən fəlakətli məğlubiyyətdən sonra Frants İosif tezliklə Macar rəhbərliyi qarşısında şərtlər qoydu. Nəticə, 1867-ci ildəki kompromissdən ibarət oldu, Dual Monarxiya meydana gəldi. Bu, alman-macar razılaşması idi, konstitusiya ilə monarxia hissələrə bölündü, Avstriya özünün rəsmi adını itirdi, başqa sözlə, bu söz rəsmi ad kimi qeybə çəkildi. Macarıstan isə rəsmi olaraq Macarıstan idi, imperiyanın macar olmayan "yarısının" əhalisi ümumi əhali sayının 57 faizini təşkil edirdi.

Frants İosif Macarıstan kralına həmin ölkənin sərhədləri daxilindəki idarəçiliyi verdi və Avstriya imperatorunun (yəni özünün) oradakı idarəçiliyə müdaxilə etməsinin qarşısı əvvəlcədən alındı. Macarıstan öz növbəsində 1871-ci ildən konstitusiyanın hər bir dəyişikliyinə veto qoymaq hüququ qazandı.

Avstriya-Macarıstan siyasətində həlledici məsələlərdən biri kronprints (tac printsi) Rudolf ilə əlaqədar idi. 1888-ci ildə o, atasını xəbərdar etdi ki, Bosniya Herseqovinanın işğalı «qəbirə tərəf bir addım atmaq» demək olacaqdır. Lakin atası oğlunun ağıllı sözünə əhəmiyyət vermədi, digər tərəfdən onun üçün Rudolfun şəxsən özü bir problem olaraq qalırdı. Alman ittifaqına Rudolfun müxalifliyi, onun özünü sol liberallarla əhatə etməsi və macarların xeyrinə olan mövqeyi, anası imperatriçə

•

Yelizaveta ilə fikir şərikliyi imperial dairədə çətinlik yarada bilərdi. Lakin bu, varis üçün əslində normal bir davranış idi.

Rudolfun fərdi hərəkətlərində isə böyüyən ruhi pozulma hiss olunurdu, atası onu ciddi məsuliyyət tələb edən işlərdən kənar etmişdi. Xəstəliyinin nəticəsində və ya psixoloji qaydasının pozulmasına görə Rudolfun tirbulentləri öz sevgilisi Mariya Vetseranı və sonra özünü Vyana Meşəsində 1889-cu ildə öldürməsi ilə kulminasiya nöqtəsinə çatdı.

Rudolfun ölümü imperiya üçün sırf bədən zərbəsi idi. O, Frants İosifin yeganə oğlu idi və heç nəyə baxmayaraq, atası onu çox sevirdi. Bu hadisə imperatorun ürəyini parçalamışdı, lakin Rudolfun ölümü, faktın əleyhinə özünü intihar kimi qiymətləndirilmədiyindən, ona layiqli səviyyədə dəfn mərasimi quruldu.

Doqquz il sonra imperatorun başına başqa bir faciə gəldi. Bu vaxt o qədər də yaxın münasibətləri olmayan arvadı Yelizaveta 1898-ci ildə Cenevrədə gölün ətrafında gəzərkən, italyan anarxisti onu xəncər zərbəsi ilə öldürdü. Bavariya hersoqu Maksimilianın qızı olan  Yelizaveta çox gözəl idi, 1854-cü ildə  Avstriya imperatoruna ərə getmişdi. Gözəlliyinə və cazibədarlığına görə gənc imperatriçə tezliklə təbəələr arasında böyük populyarlıq qazanmışdı. Lakin bədbəxtliklərinə, xüsusən oğlu Rudolfun özünü intihar etməsinə görə onun ruhi qüvvəsi sıradan çıxmışdı. Ağır depressiyadan xilas olmağa cəhd edərək, o, demək olar ki, bütün vaxtını Avropaya səyahətdə keçirirdi. Çox vaxt o, özünün Korfu adasında tikdirdiyi qəsrdə yaşayırdı. Oğlunun və arvadının ölümü ilə imperator Frants İosif  isə bir dekada ərzində iki ağır zərbəyə hədəf olmuşdu.

Bu vaxt milli münaqişə də xeyli pisləşmişdi. Bohemiya münaqişəsi böyüyürdü. Xristian sosialistlər və sosial demokratlar milliləşdirmə meylinə qarşı  çıxırdılar. Macar siyasətçiləri fərqli qaydada inkişaf edirdilər, lakin həmçinin böhranda idilər. Macarıstan artıq macar dövlətinə çevrilmişdi.

1900-cü ildə Vyana, həqiqətən, radikal mədəni və intellektual innovasiyanın titrəyən mərkəzi idi. Vyanada xüsusən bu sahədə yəhudilərin idarəçiliyi dominant xarakter daşıyırdı. Şəhər modern mədəniyyətində geniş çoxluq yəhudilərə məxsus idi. Yəhudilər Habsburq Monarxiyasında əsrlərlə yaşamışdılar, yalnız XVIII əsrdə onların inteqrasiyası daha sürətli qaydada yəhudi olmayan bir dünyaya daxil olmuşdu.

Avstriyada doğulub böyüdüyü 18 yaşlı Adolf Hitler 1907-ci – 1913-cü illərdə Vyanada yaşadı, rəssamlıq təhsili almaq sahəsindəki cəhdləri uğursuz oldu. I Dünya müharibəsi başlananda isə alman ordusunda xidmət etdi. Hitler burada yaşadığı altı il ərzində Vyananın sərt antisemitizmi ilə seçilən meri Karl Lyugerin təsiri altına düşmüş, onun aludəçisinə çevrilmişdi. Hitler antisemitizmi daha eybəcər forma və böyük miqyas aldı. Onun hakimiyyəti dövründə  günahsız yəhudi qurbanlarının sayı milyonlarla ölçülürdü.

1913-cü ildə burada həmçinin bir müddət yaşamış İosif Cuqaşvili (Stalin) çox müxtəlif xalqların yaşadığı Avstriya imperiyasındakı milli münasibətləri öyrənmişdi.

•

Həmin ili Hitler isə Vyananın tərk etmişdi. Stalinin bu sahədəki biliyinə rəğbətlə yanaşan V.İ. Lenin ona məhz Vyanaya getməyi məsləhət görmüşdü. 1922-ci ildə SSRİ yarananda İ.V.Stalinin milli münasibətlər barədəki ideyaları da qismən nəzərə alınmışdı.

Vyananın Şönbrunn yaxınlığındakı küçələrin birində binanın üzərindəki xatirə lövhəsində Stalinin lopa bığla təsvir edilən portreti və burada olması barədəki məlumatlar təsvir olunmuşdur. Parisdə Stalinqrad meydanında da olmuşdum. Rusiyada isə Moskvanın Qızıl Meydanında Leninin Mavzoleyinin yanında Stalinin qəbrindən və qəbirüstü büstündən başqa heç bir xatirə yoxdur.

Demokratik ölkələrdə isə vəziiyyət başqa cürdür, onlarda tarixə düzəlişə yol verilmir. Ölkənin tarixində xidməti olanlar adətən layiqincə qiymətləndirilir.ABŞ-ın İnqilab müharibəsidə Saraqota döyüşündəki amerikanların ingilis ordusu üzərində qələbəsi (1777 –ci ilin payızında Nyu-York ştatında, Olbani yaxınlığında getmişdir) bu müharibənin dönüş nöqtəsi hesab olunur. İngilis generalı Börqoyn 6 min əsgər və zabiti ilə birlikdə əsir götürüldü. Döyüşün qəhrəmanlarına Saraqota Milli Tarixi parkında heykəllər qoyulmuşdur. Amerikanlar həmin vaxt qalib orduya başçılıq etmiş, lakin sonralar düşmən ingilislərə casusluq etmiş general Benedikt Arnoldun da bu danılmaz xidmətinə hörmət bəsləməyi nəzərə alaraq, onun əsgər çəkmələrinin heykəlini qoymuşlar, bu heykəl elə "Çəkmə" kimi də məşhurdur.Generalın yalnız sonrakı xəyanətinə görə məhz belə xatirə növünə müraciət edilmişdir.

Qalib orduya və xalqa başçılıq etmiş Stalinin isə heykəlləri kütləvi qaydada məhv etmişdilər. Ağılasığmayan qəhrəmanlıqla müşayiət olunan müdafiə döyüşünə və şanlı qələbəyə görə tarixə düşmüş Stalinqrad şəhərinin adı da Xruşşovun təkidi ilə dəyişdirilib, yanından axan çayın şərəfinə Volqoqrad adlandırılmışdı. Türklər bir əsr sonra belə Çanaqqalada (Qallipolidə) 1915-ci ildə ingilislər üzərindəki qələbəni ehtiramla yad etməklə yanaşı, Çanaqqalanı milli iftixar simvoluna çevirmişlər. Rusiya rəhbərliyi isə II Dünya müharibəsindəki qələbədə Qərbin SSRİ-nin mühüm iştirakının kiçidilməsi cəhdlərinə qarşı etirazlarını bildirsə də, qələbənin əsl simvollarını özləri silib, yoxa çıxarmışlar. Böyük Vətən müharibəsində dönüş nöqtəsi sayılan Stalinqrad döyüşünə indi yalnız tarixi kitablarda rast gəlinir, real həyatda isə əsl şöhrət simvolu olan Stalinqrad sözü arxaizm nişanəsi kimi səslənir.

Tarixi təftiş etmək yolverilməzdir, lakin buna ilk olaraq rusların özləri başlamışlar, Qərbin onlara qarşı guya ədalətsiz münasibətindən hələ xeyli əvvəl öz qələbələrini özləri oğurlamışlar. Stalinqradlıların çoxunun şəhərin əvvəlki adın bərpa olunması barədəki arzuları da reallığa çevrilmədi.. Təkcə Stalinqrad qələbəsinin 80 illiyi ərəfəsində Sovet İttifaqı Marşalları G.K.Jukovun və A.M.Vasilyevskinin büstlərinin yanında müharibə veteranlarının tələbi ilə İ.V.Stalinin də büstü qoyuldu, axı bu marşallar da Stalinin bilavasitə rəhbərliyi altında işləmişdilər. Vətəni Qoridə ev-muzeyi qalsa da, həyətdəki Stalinin əzəmətli heykəli də götürülmüşdür. Londonda isə ölkənin bir-birinə zidd olan tarixi şəxsiyyətlərinin heykəllərinə toxunulmamışdır.

•

Qan tökməklə daha çox məşhurlaşmış, monarxiya rejimini müvəqqəti də olsa məhv etmiş Oliver Kromvelin də heykəli digər böyük tarixi şəxsiyyətlərin abidələri kimi şəhəri bəzəyir.

Stalinin ölkəyə rəhbərlikdə danılmaz uğurları olmuşdu. Rusiya kənd təsərrüfatı ölkəsindən qısa müddətdə inkişaf etmiş sənaye dövlətinə çevrilmişdi. SSRİ-də savadsızlıq ləğv edilmişdi, elm və təhsil sürətlə inkişaf etdirilmişdi Dünyada ilk dəfə kosmosun fəth edilməsinə bu ölkə başlamış, hətta daha güclü sənaye potensialına və texnologiyaya malik olan ABŞ-ı da ötüb keçmişdi. Alman faşizmi üzərindəki qələbədən sonra dünyada meydana gələn iki fövqəldünya dövlətindən biri olmuş, beynəlxalq aləmdə böyük nüfuza yiyələnmişdi. Çox sayda möhtəşəm uğurları ilə yanaşı, onun ölkədə rəhbərlikdəki fəaliyyətinin ağır nəticələrə səbəb olan ciddi nöqsanları da olmuşdur. 1937-38 –ci illərdə SSRİ-də təqiblər baş alıb getmişdi, bu Böyük Terrorda !,3 milyon adam azadlıqdan məhrum edilmiş, 682 min adam güllələnmişdi. Qolçomaqlara qarşı mübarizə adı altında isə bundan xeyli əvvəl, 1928-32 –ci illərdə kəndin əsas məhsuldar qüvvəsi sıradan çıxarılmışdı. Kolxozların kütləvi şəkildə yaradılması prosesi ölkənin iri ərazilərində aclığın meydana gəlməsinə gətirib çıxarmışdı 1932-33-cü illərdə Ukraynada baş verən aclıqda milyonlarla adam ölmüşdü. Yeni dövlət sisteminin qurulması, başqalarına bənzəməyən və tam fərqli nəzəri ideyalar əsaında yeni cəmiyyətin yaradılması faktiki olaraq əhalinin müəyyən seqmentinin qurban getməsinə səbəb olmuşdu. Uinston Çörçill özünün 6 cildlik *Memoirs of the Second World War* – "İkinci Dünya Müharibəsinin xatirələri" əsərində, Stalinin 16 avqust 1942-ci ildə Kremldəki çox sadə mənzilində ona dəbdəbəli qonaqlıq verərkən etdiyi söhbətdə SSRİ- də repressiyalar nəticisində itkinin 10 milyon adam ölməsını etiraf etdiyini qeyd edir.

Stalin alman faşizmi, Hitler ordusu üzərindəki qəti qələbənin baş müəlliflərindən biridir. SSRİ-də isə Qələbədən 11 il sonra Stalinin xatirəsinin bütünlüklə unudulması prosesi başlanmaqla, getdikcə genişlənmişdir. Böyük Britaniyanın ağalığına qarşı 13 koloniyanın apardığı mübarizə və İnqilab müharibəsi nəticəsində ABŞ dövləti yaranmışdır. Lakin orada düşmən münasibəti bəslənilən İngiltərə krallarının və kraliçalarının coğrafi məkanlara və şəhərlərə qoyulan adları heç bir düzəlişə yol verilmədən əsasən saxlanılmışdır. Kromvel ilk oəfə İngiltərə kralı I Çarlzın boynunu vurdurmuş, Şimali İrlandiyadakı Droqheda şəhərində monastır rahiblərinin kütləvi qırğınına səbəb olduğu halda nə ölkənin tarixindən silinmiş, nə də onun Londondakı heykəlinə toxunulmuşdur.

Stalinin xatirəsinə isə məhvedici hücum baş verdi və davam etdirildi. Stalinin təqsiri üzündən milyonlarla insan əzab çəkməli olmuşdur, lakin onu sevənlər və ona valeh olanlar da olduqca çox idi. Ancaq o, anafemaya məruz qaldı. Əlbəttə, duman nə qədər sıx olsa da, Stalin şəxsiyyətindən çıxan işıq onu yarıb, görkəmli və fəaliyyətinin qütbvariliyi ilə seçilən bu böyük insanın unudulmasına imkan verməyəcəkdir. Xruşşov da, Qorbaçov da gəldi gedərdir, Stalin isə öz müsbət və hətta

•

onun dialektik davamı hesab edilən mənfi əməlləri ilə tarixə dərin kök salmışdır, onu səhvən alaq otu timsalında güman edib, tarix torpağındakı kökündən çıxarmaq mümkün olmayacaqdır. Axı palıd ağacını heç tufanlar da məhv edə bilmir. Hətta ona olan hücumlar da, parodoksal görünsə də, güman ki, əks effekt verməklə, həm də onun xatirəsinin yaşamasına xidmət edəcəkdir.

Stalinin xidmətləri böyük olduğu kimi, qurbanlarının sayı da nəhəng ölçüdədir. Onun fəaliyyətinə qiymət verərkən bu cəhət də unudulmamalıdır. Böyük rus yazıçısı L. N. Tolstoy ilk dəfə 1857-ci ildə Parisdə olarkən I Napoleonun orada mövcud olan şəxsiyyətinə pərəstişə bəslədiyi öz hiddətini gizlətməyərək, yazmışdı: "Şər qüvvənin ilahiləşdirilməsi dəhşətdir". Ona görə də Stalinin tarixi fəaliyyəti təhlil edildikdə, onun rəhbərlik xarakterinin ambivalentliyi nəzərdən qaçırılmamalıdır.

Bir cəhəti də qeyd etmək lazımdır ki, Stalinin kultunun yaradılması üçün müvafiq üsul da tapılmışdı, əvvəlcə Leninin kultu meydana gəlmişdi. Bu, əslində canlı rəhbərin xidmətlərinin şişirdilməsinə yol açmışdı. Şəxsiyyətə pərəstiş maşını işə düşdükdən sonra isə onu dayandırmaq, sürətini azaltmaq mümkün olmur, bu proses heç bir həddə məhəl qoymur. Ölkədə sosializmin təbliğatı əslində rəhbərin şəxsiyyətinin hədsiz böyüməsi, hündürlükdə Everesti ötüb keçməsi ilə əvəz olunurdu. Ziyalılar bu sahədə xüsusi fəallıq göstərirdilər, onlar Stalini qədim Misir faraonlarına, Yer üzərindəki Allaha çevirməyə can atırdılar. Rus yazıçısı Leonid Leonov bizim eranın tarixinin başlanğıcını İiususun anadan olmasından deyil, Stalinin dünyaya gəlməsi günündən tətbiq etməyi təklif edirdi.

Milli respublikalarda yaradıcı ziyalılar bu məddahlıq yarışında geridə qalmaq istəmirdilər, bundan həm də şəxsi fayda götürüdülər. Rəhbərə qiyabi salam mərasimi də insan ruhunun alçaldılması ifadəsinə çevrilirdi. Şairin təmsil etdiyi millətin əslində saxta şəkildə təsvir edilən rəhbər şəxsə sədaqət hissini yalnız Hindistandakı "toxunulmazların" yuxarı kastalardan olan qorxusu ilə müqayisə etmək olardı. Dövrün tələbinə müvafiq olaraq qul asılılığını təbliğ edən yazıçılar batalyonları meydana gəlirdi və onlara qoşulmayanları isə öz donosları ilə məhv etməyə müvəffəq olurdular. Yerli satraplar da bu prosesdən faydalanır, nisbətən kiçik ölçüdə öz şəxsi kultlarını yaratmaq imkanı qazanırdılar.

Ölkədə şəxsiyyətə pərəstişin mövcudluğunu danmaq, inkar etmək mümkün deyildir. Lakin bu pərəstiş heç də bütünlüklə quru yerdə yaranmamışdı, səhradakı çiçək plantasiyası təsiri bağışlamırdı.Olduqca böyük əraziyə malik olan ölkə qısa müddətdə həqiqi inkişaf yoluna qədəm qoymuşdu. Bu irəliləyiş cəmiyyət həyatının bütün məsamələrinə təsir göstərmiş, iqtisadi-sosial inkişafla yanaşı, təhsilə, elmə, mədəniyyətə qayğı və həvəs göstərilməsinə səbəb olmuşdu. Rusiyanın kənarlarında yerləşən ərazilərdə Avropada hələ XVIII əsrdə meydana gələn Sənaye Inqilabı sürət götürmüşdü, həm də yerli kadrlar ordusu meydana gəlmişdi. Çox sayda Şərq xalqları feodalizm həyat tərzindən daha inkişaf etmiş sosializm cəmiyyətinə sıçrayış etmişdilər. Cəhalətə, xurafata qarşı, bütün əyintilərlə yanaşı, uğurlu mübarizə gedirdi

•

və savadsızlığın bütünlüklə ləğvi bu sahədə mühüm rol oynamışdı. Xırda istisnalarla yanaşı Şeyx Nəsrullahların meydana gəlməsinə son qoyulmuşdu.

Bir sözlə, yazıçı Mixail Şoloxovun dediyi kimi, "şəxsiyyətə pərəstiş var idi, lakin həm də şəxsiyyət var idi". Ümumxalq psixologiyasına güclü təzyiq və təsir göstərilməsi şəraitində, həm də bütün sahələrdə gur inkişaf gedirdi və irəliləyişə doğru hərakat magistral xəttə çevrilmişdi.

Stalinin səyi ilə dünya sosializm sistemi meydana gəlmişdi. SSRİ-nin 1991-ci ildə dağılması ilə Avropada bu sistemə daxil olan ölkələrdəki əvvəlki dövlət quruluşları da yoxa çıxdı, onlar təzyiq altında həyata gətirdikləri sosialist totalitar idarəetmə üsulundan bir andaca uzaqlaşıb, liberal xarakter daşıyan kapitalist istehsal münasibətlərini bərqərar etməyə qayıtdılar. Lakin Asiyada, Amerikada sosialist dövlətləri qalır və hər cür təzyiqlərə baxmayaraq, öz varlıqlarını qoruyub saxlayırlar. Vaxtilə iqtisadi cəə gedirdihətdən geridə qalmış Vyetnam sürətli inkişaf yoluna düşmüşdür. İki sistemin sintezinə uğurla nail olmuş Çin Xalq Respublikası iqtisadi və sosial inkişafda möcüzəli nəticələr əldə etmişdir. Təəssüf ki, bu sözləri insanları ağır həyat şəraitində yaşayan və digər sosial çətinliklərlə üzləşən Şimali Koreya və Kuba haqqında demək mümkün deyildir.

Avstriyanın tarixinə gəldikdə, 1900-cü illərdə Dual Monarxiya öz milli münaqişələrindən əziyyət çəkirdi. Əvvəllər xırda krallıqlardan və knyazlıqlardan ibarət olan pərakəndə xalqların nümayəndələri - almanlar, rumınlar və italyanlar artıq öz milli dövlətlərinə malik idilər və onlar Avstriya- Macarıstanın müttəfiqləri kimi çıxış edirdilər. Çətin problemlər Monarxiyanın cənub flanqında cərəyan edirdi. Serblər, xorvatlar və slovenlər bu regionun çeşidli növlərini təşkil edirdi. Monarxiya daxilində bu qruplar arasındakı əlaqələr kifayət qədər tikanlı idi. Dualizm, vəziyyəti daha da pisləşdirmişdi.

Frants İosif, imperiyasındakı və ailəsindəki ağır problemlərə, faciələrə baxmayaraq. özünün sağlamlığının qayğısına qalır, əyləncələrindən uzaqlaşmırdı. O, çox qızğın bir ovçu idi, gündə yüzlərlə qırqovul ovlaması ilə öyünürdü. İngiltərə kralı V Corcun ova olan həvəsini Frants İoiflə müqayisə edirdilər, ingilis hətta iri yırtıcı heyvanları ovlamaq üçün Hindistana da getmişdi. Vyana sarayında isə həmçinin dəbdəbəli tamaşalar da göstərilirdi.

İmperatorun arvadı Yelizaveta isə qədim yunan mifologiyasının vurğunu idi. Yunanıstanıstanın tərkibinə daxil olan Korfu (Kerkira) adasında o, 30 yaşında faciəli şəkildə həyatdan getmiş oğlu Rudolfun xatirəsinə həsr etdiyi və mif qəhrəmanı Axillesin şərəfinə «Axilleon» adlandırdığı qəsri tikdirmişdi. Axı Axilles böyük qəhrəman, döyüşçü igidliyinin simvolu olmaqla yanaşı, həm də yarımallah idi, Makedoniyalı Aleksandr və Romanın məşhur sərkərdələri onu özlərinə nümunə biiirdilər. Dəbdəbəli binaların yerləşdiyi qəsrdə qadın böyük park saldırmışdı. Parkı qədim yunanların heykəlləri bəzəyir. Onların arasında Axillesi yada salanlar daha maraqlıdır. Birində qəhrəman öz məşhur qalxanı ilə təsvir olunur, axu bu qalxanı allah

•

Hefestin özünün döydüyü güman edilirdi. Digərində isə cavan ikən həlak olan Axilles aqoniya əzablarının ağuşunda göstərilir. Troya müharibəsində Kiçik Asiyadakı varlı şəhər olan İliona müdaxilə edən yunanların Aqamemnonun başçılıq etdiyi ordusunda igidliklə vuruşan Axillesi Troya printsi Paris yeganə onun zəif yerindən, dabanından yaralamışdı və bu, onun ölümünə səbəb olmuşdu. İmperatriçə burada böyük alman şairi Henrix Heynəyə də heykəl qoydurmuşdu.

Buradakı binaların birində imperatorun kabineti yerləşir, onun iş masası ətrafındakı kreslosu at yəhərinə bənzəyir, bələdçi qız, vaxtilə qəsrlə tanış olarkən bizə bunu onun ayaqlarının xəstəliyi ilə əlaqədar olduğunu izah etmişdi. İmperator Frants İosif ovçuluqla yanaşı musiqini, xüsusən İohann Ştrausun valslarını çox sevirdi, Vyana sarayında hər il vals festivalının keçirilməsi bizim dövrümüzə də gəlib çıxmışdır. Festivalda iştirak etməyə görkəmli incəsənət xadimləri, dövlət rəhbərləri axışırlar.



İohann Ştrausun heykəli

**Avstriya-Macarıstan I Dünya müharibəsinə start verir və məğlubiyyətə düçar olur**

•

Monarxiyanın taleyini qoruyub saxlamağın yeganə yolu, qəribə görünsə də, müharibəyə girmək idi. Frants İosif müharibəyə ona görə bütünlüklə getdi ki, o, hiss edirdi ki, bunu talenin özü tələb edir. Sarayevoda olan qətl hadisələri arxasında nələr olduğunu o, öz Manifestində bildirdi.

Avstriya hersoqu Frants Ferdinandın və onun arvadı Sofiyanın 28 iyun 1914-cü ildə qətlə yetirilməsi müharibənin başlanması üçün heç də casus belli yaratmırdı, müharibə elan etmək və hərbi hərəkətlərə başlamaq üçün formal səbəb deyildi. Bu hadisə ancaq bəhanə rolunu oynadı, əsl səbəb isə iri Avropa dövlətləri arasında meydana gələn böyük ziddiyyətlər idi və onlar məntiqi olaraq iri ölçüdəki müharibəyə aparmalı idi. Bu qətli Sarayevoda Bosniya fəalı, serb terrorist təşkilatı olan «Qara Əl»də çalışan Qavrilo Printsip icra etmişdi. Bu qanlı iş serb millətçilərinin panslavyan krallığının yaradılması ideyasını reallaşdırmağa xidmət göstərmək məqsədinə həsr olunmuşdu. Bosniya- Hersoqovina anneksiya edildikdən sonra Avstriya- Macarıstan imperiyasının tərkibində idi və bu, milli birləşməyə cəhd göstərən serbləri hiddətləndirməyə bilməzdi. Hadisə Avstriya üçün ağır zərbə idi, gələcək imperator, Frants İosifin birbaşa varisi öldürmüşdü. Baxmayaraq ki, Avstriya hökuməti heç də Serbiya hökumətinin ershersoqun qətlinə birbaşa cəlb olunduğundan dəqiqliklə hali deyildi. Serbiyanın tərəfində Rusiyanın müdaxiləsindən qorxan Avstriya liderləri silahlı toqquşma baş verdikdə, öz alman müttəfiqləri olan imperator II Vilhelmə və onun kanslerinə bel bağlayırdılar. «İşlər Avstriya-Macarıstanla Rusiya arasında müharibəyə çevrilsə, onun bütün müddətində Almaniyanın «bütöv dəstəyinə» arxalana bilərdi». Almaniya isə Avstriya-Serbiya müharibəsinin nə qədər belə geniş əhatəli olacağını, böyük miqyas alacağını ağlına gətirmirdi. İmperator Frants İosifin iradəsi ilə hərəkət edən Avstriya-Macarıstan Baş Qərargahının rəisi Konrad düşünürdü ki, Serbiya ilə müharibə labüd olmaqla, hökmən baş verməlidir. Avstriya liderləri qərara gəldilər ki, 14 iyulda müharibə hədəsi ilə Serbiyaya ultimatum göndərsinlər. Lakin avstriyalılar ultimatumun nəticəsini Fransa dövlət rəsmlərinin Rusiyaya səfərinin başa çatmasına qədər gözlədilər. Tələblər çox sərt olduğundan, Serbiya onları rədd etməkdə yalnız kiçik seçim imkanına malik idi ki, öz suverenliyini qoruyub saxlaya bilsin. Avstriya bu vaxt 1914-cü ilin 28 iyulunda Serbiyaya müharibə elan etdi. Avstriya Balkanlarda öz uğuruna çox arxayın idi, lakin bu ümidlər tezliklə qeybə çəkildi.

Müharibədə Rusiya Serbiyanı, Almaniya isə Balkanlardakı münaqişəni geniş müharibəyə çevirəcəyi ilə hədələyən Avstriyanı müdafiə edirdi. Rusiya çarı II Nikolay müharibə elan ediləndən bir gün sonra köhnə dostu kimi Almaniya imperatoru II Vilhelmə teleqram göndərib xahiş etdi ki,Avropa müharibəsinin bədbəxtliyə çevriləcəyinə görə mən təkid edirəm ki, səlahiyyətində olan hər şeydən istifadə edib, müharibəyə getməkdən sən öz müttəfiqliyini pozasan. 30 iyulda isə II Vilhelm çar II Nikolaya bildirdi ki, sənin istəyin mümkün olmadığı halda təhlükə törədəcəkdir.Sən müharibə və sülhə görə məsuliyyət daşımalısan. Beləliklə, Avstriya-

•

Macarıstanın qəyyumu kimi çıxış edən imperator II Vilhelm müharibənin başlanmasının əsl təşəbbüsçüsü olduğu halda, günahı Rusiya çarının üzərinə yıxırdı.

Avstriya-Macarıstanın daxili və həm də xarici münasibətlər müstəvisindəki zəifliyi şəraitində 1914-cü ildə geniş miqyaslı müharibəyə girməsi, müstəqil böyük bir dövlət kimi onun özünü məhv etmək aktı idi. Frants İosif təkcə Serbiya ilə müharibəyə girmək qərarını verməmişdi, yaxşı düşünsə, müharibənin sonunda öz imperiyasının məhvinə də əvvəlcədən imza atmışdı. Habsburq siyasi dairələrindən, bir çox adam, mərhum Frants Ferdinandın özü də daxil olmaqla, bunu yaxşı başa düşürdü.

Serbiya təhlükəsi Habsburq maraqlarına qarşı yeganə material deyildi. «Yeni adamlar» Belvederdə mərhum kronprints Frants Ferdinandın ətrafında toplaşmışdı. Bu vaxt onların rəyinin əksinə anneksiya yolu ilə, əvvəllər türklərə məxsus olan ərazi artıq rəsmi olaraq Avstriya Bosniya-Herseqovinasına çevrilmişdi.

Rusiyalılar da həmçinin birgə əməliyyat aparılmasında maraqlı idi. Alman dəstəyi ilə Avstriya-Macarıstan isə bu böhranı həll etməyə əmin idi. Frant İosif kronprintsi morqanatik nikahına (saray dairəsindən olmayan sadə qıza evlənməsinə) görə cəzalandırmaq istəyirdi, ona görə də varisin Sarayevoda öldürülməsinə əvvəllər, əslində bu cəzanın həyata keçməsi kimi baxırdı. Müharibəni elan edəndə, o, öz əyanı Aleksandr fon Krobatinə demişdi: «Get, daha başqa heç nə edə bilmərəm». Bundan bir neçə gün əvvəl isə Konrada  bildirmişdi: «Əgər monarxiya məhv olmalıdırsa, bu, ən azı ləyaqətli bir məhv olma olacaqdır». Deməli, o, monarxiyanın bədbəxt taleyə yiyələnəcəyi perspektivini də. nəzərdən qaçırmırdı.

Müharibənin başlanmasından işlər fəlakətli qaydada getməyə başladı. İyulun 28-dəki bəyanatdan sonra avstriyalıların və almanların təəccübünə səbəb olan hadisə baş verdi, Avropa silahlı münaqişəyə qoşuldu. Almaniya Britaniyanın Antantanın (bu söz fransızca «Ürəkdən razılaşma» mənasını verir) tərəfini saxlamasına məəttəl qalmışdı. Üçlük İttifaqının üzvlərindən biri olan İtaliya isə tezliklə İttifaqa qoşulmadı, çünki Avstriya-Macarıstan təcavüzkar tərəf idi, həm də bir az əvvəl onun öz torpaqlarını müstəmləkəyə çevirmiş düşməni idi.

Habsburq qüvvələri avqustda Serbiyaya qalib gəlməkdə uğursuzluğa uğradı, sonra almanlara dəstək vermək üçün Habsburq ordusu geri, Rusiyaya qarşı döndü. 1915-ci ilin sonunda Avstriya qalib gələ bilərdi, lakin Almaniyaya olan subordinasiyanın (tabeliyin) böyüməsi hesabına.

Avstriya-Macarıstan müstəqilliyi eroziyaya uğrayırdı, xaotik iqtisadi şəraitlərdə sülh bağlamaq barədə monarxiyaya göstərilən təzyiqlər də artırdı. Gündəliyə həyat və ölüm siyasəti daxil olmuşdu.

•



Ratuşa binası

Müharibəyə iri ərazilərə sahib olmaq barədəki böyük ümidlərlə başlayan Almaniyada millətçilik coşğunluğu ən yüksək səviyyəyə qalxmışdı. Arxada hamı qələbənin qazanılmasına xidmət etməli idi. Adamların, xüsusən yeniyetmələrin döyüşən orduya cəlb edilməsi üçün böyük təbliğat işi gedirdi. Orta məktəblərdə canfəşanlıq edən müəllimlər şagirdləri I Dünya müharibəsi cəbhələrində vuruşmağa getməyə ruhlandırırdılar, bunun igidlik, qəhrəmanlıq olduğunu vurğulayurdular. Bir müəllim almanların sırf təcavüz xarakteri daşıyan bu ədalətsiz müharibədə vuruşmasını Vətən naminə fədakarlıq və müqəddəs borc adlandıraraq, çağırışının təsir gücünü artırmaq üçün böyük şair Horatsinin "Bətən yolunda həlak olmaq sevinc gətirən və tərifə layiq işdir" sözlərini misal çəkirdi. Belə gur təbliğat nəticəsində məktəbin yuxarı siniflərinin şagirləri bütünlüklə cəbhədə xidmətə yollanırdı. Həmin yeniyetmə gənclər az müddətdə müharibə qurbanlarına çevrilirdilər. Bunları yazıçı Erix Mariya Remark özünün məşhur "Qərb cəbhəsində dəyişiklik yoxdur" romanında olduqca yaxşı təsvir edir.

Cəbhədəki vəziyyət sonralar alman siyasi və hərbi rəhbərliyinin gözlədiyi kimi olmadı. Tranşey və səngər müharibəsinə çevrilməklə, silahlı qarşıdurma uzun sürdü, həm də getdikcə alman ordusunu uğursuzluqlarla müşayiət etdi. Müharibənin son fazasında taqətdən düşmüş alman ordusu üstəlik hərbi texnikanın və silahların, vuruşan Antanta qüvvələri ilə müqayisədə nisbətən azlığından əziyyət çəkirdi. Əsgərlərin qidalandırılmasında da əzablı fasilələrə yol verilirdi. Səngərlər isə antisanitariya şəraitində yaralı əsgərlərin əsl ölüm yatağından ibarət olan bir düşərgəyə çevrilirdi. Almaniyanın gözlədiyi qələbə yaz dumanı kimi yoxa çıxmışdı, amansız məğlubiyyət isə artıq qapını döyürdü. 1916-cı ilin avqustunda cəbhədəki

•

məğlubiyyətlərə görə Almaniya Baş Qərargah rəisi Erix fon Fakenhayn vəzifəsindən azad edildi və onun yerinə general Paul fon Hindenburq təyin edildi, onun müavini isə Erix Lyudendorf oldu. Onların hər ikisi müharibənin populyar qəhrəmanları idilər. Onlar bu vəzifələrinə başlayandan hökumətə nəzarət etməklə, Almaniyanın hərbi diktatorlarına çevrildilər.

Həmin ili Hindenburq və Lyudendorf total müharbə üçün tam səfərbərlik sisteminin yaradılması barədə dekret verdilər.

Cəbhələrdə vəziyyətin Antantanın xeyrinə dəyiişilməsində ABŞ-ın onun tərəfində müharibəyə qatılması mühüm rol oynadı. Müharbə başlanan 1914-cü ildən Birləşmiş Ştatlar neytral qalmağa cəhd edirdi, lakin həm də özünün müharbəyə cəlb olunmasına sövq edilməsinə görə bunu icra etmək olduqca çətin idi. Münaqişədə məhz Britaniyanın tərəfində olmaq xeyrinə ölkədə xeyli hisslər mövcud idi. Almaniya ilə Böyük Britaniya arasındakı dəniz müharibəsi Amerikanın müharibədə iştirak etməsi şansı üçün qəflətən böyük səbəbə çevrildi. 1916-cı ilin mayındakı Yutland dəniz döyüşündə Almaniya tam olmayan bir qələbə çaldı.

Britaniya öz qüdrətli hərbi-dəniz qüvvələrindən istifadə etməklə, Almaniyanı dəniz blokadasına almışdı. Almaniya blokadanı yarmaq üçün sualtı qayıqlardan geniş istifadə etməyə başladı. Hələ 1915-ci ildə Almaniya hökuməti Britaniya adalarının ətrafını müharibə zonası elan edib, torpedo vasitəsilə istənilən gəmini tutacağı ilə hədələdi. Almanlar gəmiləri batıranda, bir gəmidə 100-dən çox amerikan həyatını itirmişdi., onlar amerikanların"Luzitaniya" gəmisini də batırmışdılar. Bunlara görə ABŞ-ın etirazları Alman hökumətini məcbur etdi ki, məhdudiyyətə yol vermədən gedən sualtı qayıqlar döyüşü siyasətini bir qədər dəyişdirsin.

1917-ci ilin yanvarında almanlar yenidən məhdudiyyət qoyulmayan sualtı qayıqlar döyüşünə qayıtmaqla, digər bir hərbi oyuna başladılar. Alman hərbi-dəniz zabitləri imperator II Vilhelmi inandırdılar ki, sualtı qayıq döyüşlərindən istifadə etməklə, beş ay ərzində britaniyalıları aclığa məhkum etmək olar. İmpertor amerikanların müdaxiləsinin mümkünlüyü ilə maraqlananda, ona dedilər ki, buna görə heç narahat olmasın. Çünki amerikanlar qeyri-mütəşəkkil olmaqla yanaşı, həm də intizamsızdırlar. Amerikanlar hərəkətə gələnə qədər britaniyalılar artıq aclıq çəkəcəklər. İmperator inandırıldı ki, hətta amerikanlar konfliktə müdaxilə etsələr də, bir amerikan əsgəri də öz ayağını Avropa qitəsinə basa bilməyəcəkdir. Həm də Almaniyanın özünün Birləşmiş Ştatlara müdaxilə etməsi planı və bu avantyurada iştirak etməyə Meksikanı təhrik etməsi faktı da məlum oldu.. Almanlar Meksika rəhbərliyini şirnikləndirmək üçün onlara 70 il əvvəl itirilmiş və ABŞ ərazilərinə çevrilmiş Texas, Nyu-Meksiko və Arizona ştatları torpaqlarını qaytarmağı vəd etdilər. Meksikanın ABŞ-la müharibəyə cəlb edilməsi Böyük Britaniya üçün böyük çətinliklər yaradardı. ABŞ öz qonşusu ilə müharibəyə başlasa, İngiltərəyə göndərdiyi olduqca vacib təchizat köməyi kəsilərdi və bu fəlakata səbəb ola bilərdi.

•

Alman sualtı qayıqlarının Atlantik okeanda cəzasız olaraq hərbi cinayətlər törətməsi və Birləşmiş Ştatlara əlavə təhlükə yaranması ABŞ rəhbərliyini neytral mövqedən çəkilməyə və müharibədə birbaşa iştirak etməyə məcbur etdi. Birləşmiş Ştatlar 16 aprel 1917-ci ildə Almaniyaya müharibə elan etdi. Onsuz da neytral olduğu müddətdə də Böyük Britaniyaya və Fransaya kreditlərlə və silah göndərmək yolu ilə köməklik göstərmişdi. Lakin almanlar tərəfindən 1917-ci ilin aprelində məhdudiyyətsiz sualtı qayıqlar müharibəsinin bərpa edilməsi Birləşmiş Ştatları müharibəyə qoşulmağa gətirib çıxarmışdı.

Amerikan qoşunları ilk anlarda Qitəyə iri tərkibdə gəlməmişdi. Lakin ABŞ-ın nüharibəyə qoşulması faktı Müttəfiq dövlətlərə, onların çox möhtac olduqları böyük psixoloji təsir göstərdi. Ancaq vəziyyət əsaslı qaydada yaxşılaşmamışdı. Qərb Cəbhəsində Müttəfiqlərin hücumları uğursuz olmaqla, məğlubiyyətlə üzləşməli oldu. İtalyan ordusu darmadağın edildi, Rusiyanın inqiabi bolşevik hökuməti müharibədən geri çəkilməyi qərara aldı. Bütün bunlara baxmayaraq, Mərkəzi Dövlətlərin vəziyyəti qənaətbəxş görünürdü. Əks tərəfdə olanlrın isə - Qsmanlı imperiyasının, Bolqarıstanın, Avstriya-Macarıstanın və Almaniyanın zəifləməsi prosesi başlanmışdı.

Müharibənin son fazasında fransız generalı Ferdinand Foşun komandanlığı altında 1918-ci ilin iyulunda Marnada Müttəfiqlərin əks hücumu və 140 min nəfərlik təzə gələn amerikan qoşunlarının kömək göstərməsi nəticəsində almanlar məğlub edildilər. Lyudendorfun yeni oyunu uğursuz oldu. O, öz ehtiyatlarından istifadə etsə də, məğlubiyyətin labüdlüyünü hiss edirdi. Tərkibi 1 milyondan artıq olan amerikan qoşunlarının gəlməsi ilə Müttədfiq qüvvələri Almaniyaya tərəf ciddi surətdə irəliləməyə başladı.

29 sentyabr 1918-ci ildə general Lyudendorf məğlubiyyıtin günahının ordunun üzərinə qoyulmasna razı olmadığından tələb etdi ki, hökumət gecikmədən sülh təklifini etsin. Müttəfiqlər avtoritar imperial hökumətin sülh təlifi ilə razılaşmamalarından alman rəsmiləri agah olduqda, onlar liberal hökumət yaratmaq üçün islahatlar həyata keçirdilər. Lakin bu çox gec olduğundan və alman xalqının qəzəbini nəzərə alaraq kayzer II Vilhelm ictimai təzyiqə təslim olub, 9 noyabrda ölkəni tərk etdi. Fridrix Ebertin başçılığı altında sosialistlər ölkədə respublika qurulmasını elan etdilər. İki gün sonra, 11 noyabr 1918-ci ildə yeni Almaniya hökumətii ilə atəşkəs razılaşması qüvvəyə mindi. II Dünya müharibəsi başa çatdı.

Etiraf etmək lazımdır ki, hər iki Dünya müharibəsində ABŞ-ın iştirakı və təcavüzkarlara qarşı vuruşanlara nəhəng maddi və hərbi yardım göstərməsi 1918- ci və 1945-ci illərdə qazanılan qələbələrdə olduqca böyük və əhəmiyyətli rol oynamışdır.

1917-ci ilin Fevral inqilabı Rusiyada çar rejimini məhv etdi. Oktyabr inqilabının yaratdığı yeni bolşevik rejimi faktiki olaraq təslim olub, Brest-Litovskda 1918-ci ilin martında öz böyük ərazilərini itirməklə razılaşaraq, rəsmi qaydada sülh müqaviləsi bağladı. Almaniya və Avstriya-Macarıstan bolşevik Rusiyasının

•

imzaladığı bu təslimçilik sənədi ilə I Dünya müharibəsinin Şərq cəbhəsində faktiki olaraq qələbə çalmış kimi görünürdü.

Yaxınlaşan bədbəxtliklə, həm də Almaniyanın ağalığı ilə üz-üzə gələn Avstriyanın yeni imperatoru Karl (Frants İosif 1916-cı ildə öldükdən sonra o, taxt-taca çıxmış və ağır mirasa sahib olmuşdu) və Almaniya rəhbərliyi 1918-ci ildə britaniyalılarla və fransızlarla gizli danışıqlar aparmağı davam etdirirdi. Almanlar öz müttəfiqinə «Avstriya Kanossasını» təkid edirdilər və buna nail oldular. (Kanossa Şimali İtaliyada yerləşən bir qəsrdir. 1077-ci ilin yanvarında kilsədən təcrid edilmiş və taxt-tacdan düşürülmüş alman imperatoru IV Henrix papa VII Qriqoridən bağışlanmasını yalvarmaq üçün həmin Kanossaya gəlmişdi ki, qarlı havada ayaqyalın dayanıb, alçalmaqla, özünün məğlub olduğunu etiraf etsin. Buradan da «Kanossaya getmək» ifadəsi meydana gəlmişdir). Müharibədən sonra da imperiyanı qoruyub saxlamağı gözləyən Avstriya-Macarıstan hətta öz müstəqilliyinin də əksinə, onun bütün qalıqlarının da təslim olması məcburiyyətində qaldı.

18 oktyabr 1918-ci ildə ABŞ prezidenti Vudro Vilson Avstriyanın sülh çağırışını rədd etdi, Amerika qoşunu 1917-ci ildən Antataya kömək göstərmək üçün artıq Avropaya gəlmişdi. Müharibənin yaxınlaşan nəticələri ilə əlaqədar Vilson özünün «14 maddə»sini irəli sürmüşdü. 16 oktyabrda imperator Karl Almaniya ilə ittifaqdan geri çəkildi. 28 oktyabrda Çexoslovakiya Praqada öz müstəqilliyini elan etdi, bir gün sonra Zaqrebdə Xorvatiya parlamenti Serbiya ilə ittifaqını bəyan etdi. Macar rəhbərliyi Dual monarxiyanın bir hissəsi olmaqdan 1 noyabr inqilabının qətnaməsi ilə imtina etdi və imperiya öz sonluğuna gəlib çatdı.

3 noyabrda Avstriya-Macarıstan hakimiyyəti atəşkəs imzaladı, həm də o vaxtda Monarxiyanın niyyətləri və arzuları öz mövcudluğunu bütünlüklə dayandırdı. Vyanada Habsburq sülaləsinin saxlanmaması şərtilə, Alman Avstriyası Alman Respublikasının konstitusional hissəsinə çevrildi. İnqilab atmosferi ilə Sosial-Demokratlar respublika qurulmasını tələb etdilər. Habsburqlar üçün adi bir otaq da yox idi və I Dünya müharibəsinin başa çatdığı 11 noyabr 1918-ci ilin saat 11-indən sonra, Karl özünün imperial hakimiyyətindən istefa verdi. 1919-cu ildə Karl və onun ailəsi Avstriyanı tərk edib, İsveçrəyə sürgünə yollandı və səhhətinin ağırlaşmasına görə 1 aprel 1922-ci ildə Madeyra adasında vəfat etdi.

İki varis dövlət – Çexoslovakiya və Macarıstan Avstriyadan həm də öz milli irslərini tələb edirdi.

I Dünya müharibəsi Avropa sivilizasiyasını viran qoydu. 8 və 9 milyon arasında olan sayda əsgər döyüş cəbhələrində həlak oldu, digər 22 milyon yaralanmışdı. Sağalanlar sonra əllərini və ya ayaqlarını itirməklə əzab çəkən əlillər kimi müharibə yaralarından ölürdülər.

I Dünya müharibəsi həmçinin müharibə veteranlarından “itirilmiş nəsl” yaratdı, onlar zorakılığa adət edənlərə çevrilmişdilər. Müharibədən sonra məhz onların

•

döyüşçü əlləri Mussolinin və Hitlerin hakimiyyətə sahib olmaq cəhdlərinə və bu səylərin uğurla nəticələnməsinə dəstək verdi.

Ölənlər yalnız əsgərlər deyildi. Müharibədən, vətəndaş müharibəsindən və ya aclıqdan ölənlərin sayı ağıla sığmırdı.

I Dünya müharibəsini başa çatdiran müqavilələr çox sayda ölkəni pis vəziyyətdə qoydu və onların qəzəbinə səbəb oldu. Müqavilələr uzun sürən sülh qurmaqda da uğursuzluğa uğradı. Fransız generalı Ferdinand Foş 1919-cu ilin iyununda Versal sülh müqaviləsinin imzalandığını eşitdikdə, ucadan demişdi: “ Bu sülh deyil, bu 20 illik üçün olan bir atəşkəsdir”. Onun peyğəmbərliyi düz çıxdı, 1939-cu ildə yeni Dünya müharibəsi başlandı. Dövrün siyasi və iqtisadi qeyri- dəqiqliyi şəraitində milli partiyaların sağ qanadları xalqa güclü təsir etmək imkanı qazandı, onların arasında daha qüvvətlisi və daha bədnamı Hitlerin Natsistləri idi.

## Keyfiyyətli olmayan torpaq

1918-ci ildə Avstriya öz iradəsinin əleyhinə keyfiyyəti olmayan bir torpağa çevrildi. 1918-ci ildən 1945-ci ilə kimi Avstriya tarixi, mübarizə aparan, lakin uğursuzluğa düçar olan bir xalqın tarixi idi. Avstriya Respublikası yeni Avstriya eyniyyətini yaratmaqda uğursuzluğa uğradı. 1918-ci ildə avstriyalılar asanlıqla «almanlara» çevrildilər, çünki onlar özlərini artıq alman millətinin bir hissəsi kimi görürdülər. İkinci fəlakət isə Üçüncü Reyxin bir hissəsi olmaqda özünü göstərdi, bu, Avstriya sakinlərini inandırdı ki, hər şeydən əvvəl onlar milliyyətcə «avstriyalılardırlar».

Monarxiya yoxa çıxdıqdan sonra onun yerini «milli-dövlətlər» kimi nəzərdə tutulanlar əvəz etdi. Bəzi ərazilər qonşuluqdakı milli-dövlətlərə çevrilmişdilər. Bunlar İtaliya, Rumıniya və Polşa idi. Monarxiyanın cənub torpaqlarının çoxu yeni krallıq olan Yuqoslaviyanın tərkibinə girdi. Üç dövlət Monarxiyaya məxsus olan doğma çuxadan çıxmışdı, onlar Macarıstan, Çexoslovakiya və «Alman Avstriyası» adlanan respublika olmaqla, 12 noyabr 1918-ci ildə həmin dövlətlərin əsası qoyulmuşdu. Axırıncının məsələsinini Reyxstaqın alman üzvlərinin Baş Məclisi həll etmişdi. Bu, Monarxiyadan yetim qalmış bir dövlət idi, onu isə heç kəs istəmirdi.

1918-ci ildə həm də Avstriyanın görkəmli rəssamı Qustav Klimt (1862-1918-ci illər) həyatdan getdi. O, çox sayda tabloların, portretlərin, peyzaj təsvirlərinin müəllifi idi.Vyananın mağazalarında indi də onun qadın portretlərinin reproduksiyaları geniş satılır.

Versal sülhü müharibəni başa çatdırdı. Qaliblər, Müttəfiqlər olan Britaniya, Fransa və Birləşmiş Ştatlar idi, milli liderlər və dövlətlər də mükafat timsalında

•

Avstriya-Macarıstana qarşı bu qaliblərin tərəfinə keçmişdi. Versal müqaviləsinə görə Almaniya Alman imperiyasının varisi kimi cəzalandırıldı, Dual imperiyanın açıq varisləri olanlar da cəzalandırıldılar. Öz milli müqəddəratını təyin etmək barədəki Vilson prinsipləri sülh həllinin əsasları rolunu oynadı. Macarıstan öz əvvəlki ərazisinin üçdə birini itirdi, çox sayda macar da onun sərhədlərindən kənarda qaldı. Özünün şimal sərhədindəki Bohemiya və Moravianın tarixi ərazilərinin Çexoslovakiyaya məxsus olması saxlandı.

Sloveniya Yuqoslaviyanın bir hissəsi oldu. İtaliya təkcə italyan dilində danışanların zonası olmayıb, alman dilində danışan Tirolun cənub hissəsi də həmçinin onun tərkibinə keçdi. «Cənubi Tirolun zorlanması» öz müqəddəratını həll etməyin gülünc mövzusuna çevrildi. «Avstriyalıların» çoxu 1918-19-cu illərdə Avstriya Respublikasının müstəqilliyini istəmirdi, Alman Avstriyasının Almaniyaya Anşlyus olunmasına qarşı müttəfiqlərin qoyduğu veto, Almaniya üçün bunun əvvəlcədən absurd olmasını göstərdi. Almanlar müharibədə təqsirkar və məğlub hesab edildi.

Anşlyus vetosu dəyişikliyə səbəb oldu, «Alman Avstriyası» Avstriya Respublikalısına çevrildi. 1919-cu il qanunu bu dəyişikliyi institutlaşdırdı, qüvvəyə mindirdi, yeni Avstriya Respublikası, qısa müddətli Alman dövlətinin əksinə, «Avstriyanın» leqal bir varisi idi.

Vyananın Monarxiyadan birdəfəlik ayrılması ilə, milli xətləri keçmək xüsusilə çətin idi. İmperial paytaxt Vyana, Monarxiya üçün azad ticarət arealının mərkəzi (habı) kimi Macarıstandan ərzaq ehtiyatı almaqdan asılı idi, sənaye üçün kömürü isə Bohemiya torpaqlarından alırdı. Yeni milli sərhədlər Vyananın öz əvvəlki iqtisadi həyat mənbələri ilə əlaqələrini kəsdi. Belə travmatik dəyişiklikdən sonra bu, ciddi çətinliyə səbəb oldu. Almaniyada olduğu kimi, Avstriyada möhkəm valyutanın bərpa edilməsi maliyyə resurslarının olmasını tələb edirdi, bu resurslar isə yox idi. 1920-ci illərdə Avstriya siyasətçiləri inflyasiyaya qarşı aparılan mübarizədə dövlət kreditindən istifadə etməli idi.

## Mədəniyyət müharibələri və Hitler tərəfindən Avstriyanın işğalı

1927-ci ilin xüsusiyyətlərindən biri «O yəhudidirmi?» sualı idi. Bu vaxt adam onun haqqında başqalarının nə düşündüyünü asanlıqla anlayırdı. 1900-cü il Vyanasının modeli olan «yəhudi» mədəniyyəti ilə Avstriyanın qalan hissəsinin konservativ mədəniyyəti arasındakı toqquşma da müharibə vasitəsilə intesivləşdirilmişdi və böhrana səbəb olmuşdu. Avstriya mədəniyyətində yəhudi elementi avstriyalıların çoxu tərəfindən «Avstriya üçün» hansısa bir əcnəbi mədəniyyət kimi qiymətləndirilirdi. Bu dövrün musiqi dünyasında on iki tonlu bəstəkarlıq sistemi yarandı. Müharibə illərində Vyana fəlsəfəsinin çox böyük nailiyyətləri üzə çıxdı. Avstriyalıların hüququ barədəki konservativ mədəniyyət

•

siyasətinə baxmayaraq, yəhudi törəmələri olan fərdlər görkəmli yaradıcı insanlara çevrildilər. Yəhudilər xüsusən Vyana operettası dünyasında görkəmli olmaları ilə fərqlənirdilər. Yəhudi operettası Hollivuda da yol açdı. Yəhudilər Alp və Barokko Avstriyasının turizm imicinin də irəliləməsinə köməklik göstərdilər. Turizmin həvəsləndirilməsi isə, əslində, konservativ strategiya idi.

İqtisadi böhran dərinləşdikdə, 1932-ci ilin yanvarında Alman natsistləri hökuməti tərk etdilər. Dünya iqtisadi böhranı öz startını 1929-cu ildə ABŞ-da baş verən Böyük Depressiyadan götürmüşdü. Almaniyada isə bu böhran, bir az əvvəl onun məğlub ölkəyə çevrilməsi ilə xalqın daha ağır sosial şəraitində keçirdi. Bəzi tarixçilər deyirlər ki, ağır iqtisadi böhran olmasaydı, Hitler kiçik bir siyasi xadim kimi qalardı, heç cür tarixi Qoliafa çevrilməzdi. Natsistlər isə böhrandan fayda götürmək üçün, ondan məharətlə istifadə etməyi bacardılar və iqtisadi və sosial çətinliklər, heç şübhəsiz, onların hakimiyyətə gəlməsinə münbit şərait yaratdı. Hitler işsizliyi ləğv etmək üçün geniş miqyasdakı avtobanlar tikintisinə başladı, əslində onlar hərbi məqsədlərə xidmət etməli idi. İşsizliyin ləğvinə isə daha çox qadınların əmək bazarından uzaqlaşdırılması kömək etdi, alman qadınları uşaq doğmaq üçün canlı inkubatorlara çevrilmişdilər. Bəkarəti məhv edilmiş qızlar hamilə olduqda, Hitler üçün uşaq doğacaqları ilə fəxr edirdilər.

Üç ay sonra, martda Almaniyada Natsional Sosialistlərin aparıcılıq etdiyi hökumət formalaşdı, 1933-cü ilin yanvarında isə Adolf Hitler reyxkansler oldu. 1934-cü ilin avqustunda prezident Hindenburq öləndə Hitler iki ali hakimiyyəti öz əlində cəmləşdirb, özünü Almaniyanın füreri adlandırdı və Çarli Çaplinin də öz filmində ifşa qaydasında təsvir etdiyi bir diktatora çevrildi. Millətlər Liqası Avstriyaya iri məbləğdə borc verdi, bu, birbaşa, Almaniya ilə bütöv birləşmə ideyalarının rədd edilməsinin qiyməti, bilavasitə həmin məqsəd üçün çəkilən xərc idi. Bu addım, maliyyə cəhətdən köməklik göstərsə də, siyasi cəhətdən elə bir ciddi təsir göstərə bilmədi, çünki respublika öz daxilində bölünmüşdü. Buradakı Sosial- Demokratlar, alman millətçiləri və yerli Natsional-Sosialistlər Qərb dövlətlərinə təslim olmağa etiraz edirdilər.

Dövlətin yeni heraldik simvolu Habsburq iki başlı qartalı oldu, baxmayaraq ki, bu, Babenberqin qırmızı-ağ-qırmızı qalxanında birgə simvol hesab olunurdu. Bu simvol Habsburq ailəsinə daha pozitiv münasibəti nümayiş etdirirdi, onların alçalan hüquqları isə 1935-ci ildə artıq xeyli qaydada bərpa olunmuşdu.

Avstriyanın milli ambivalentliyi Hitler Almaniyasının fenomenal iqtisadi uğuruna imkan yaratdı. Hitler Üçüncü Reyxi daha təəssürat yaradan bir dövlətə çevirdi. 1935-ci ildə Fransa, Britaniya və İtaliya Hitlerin təftişçilik müharibəsinə qarşı dayanmaq üçün Avstriyanın müstəqilliyinə təminat verdi, İtaliya hələ 1834-cü ildə Avstriya kansleri Dolfus öldürüldükdən sonra , duçe Mussolininin dili ilə Avstriyanın müstəqilliyini müdafiə edərək, Hitlerin vicdanlılğın elementar qanunlarını pozduğunu bildirmişdi. Mussolini gələcək dostu Hitler haqqında həmin 1934-cü ildə onunla

•

Venetsiyadakı görüşündən sonra yazmışdı : ” O, zəhlə tökən adamdır. Bu Hitler - quduz və qəddar adamdır, məcbur edir ki, Attilanı yada salasan. Almanlar Tatsit (Qədim Romanın böyük tarixçisi - məllif) dövründən barbar dövləti olaraq qalır.” Mussolini 1937-ci ldə Almaniyada Hitlerlə görüşdükdən və natsizmin qüdrətini müşahidə etdikdən sonra isə , onun haqqındakı rəyini tamamilə dəyişdi. Həm də alman natsistləri özləri üçün Mussolini faşizmininin təcrübəsindən çox şeyi götürmüşdülər.

1936-cı ildə Almaniya özü də Avstriyanın suverenliyini tanıdı. Lakin Alman hökuməti heç vaxt ona müdaxilə etməmək barədə vəd vermədi. Avstriyanın özünün göstərdiyi güzəştlər isə Avstriyanın müstəqilliyinin sonunun başlanğcı nişanəsi idi. Avstriya Alman dövləti kimi hərəkət etməyi, anti-natsist təbliğatını kəsməyi, təqribən 17 minə qədər natsist siyasi dustaqına amnisiya verəcəyini vəd etdi

12 mart 1938-ci ildə səhər tezdən Avstriyaya alman müdaxiləsi başlayanda, faktiki olaraq heç bir müqavimət göstərilmədi və bu, qələbə paradına çevrildi. Müdaxilə tələsik təşkil olunduğundan yeganə ciddi problem logistika oldu, alman tankları yanacaqsız hərəkət edə bilmirdi. Avstriyalılar nümayiş etdirilən vətənpərvərlik aktı kimi tezliklə tankları maye yanacaqla doldurdular. 12 mart axşamında Hitler artıq Lints şəhəri (bu, onun doğma şəhəri idi) hollunun balkonunda ona vurğunluq göstərən çoxluğun qarşısında natiqlik məharətini göstərdi. Onun nitqi adətən pulemyot atəşini xatırladırdı, ağzından elə bilki söz gilizləri tökülürdü. Sabahısı günü belə yaxşı qəbuldan həvəslənib, Hitler bütün Almaniya və Avstriya ittifaqı üçün qanunun layihəsini cızdı, sonra bu sənəd Vyanaya göndərildi ki, qüvvəyə mindirilsin. Baş nazir layihəni imzalamaqdan imtina edib, əvəzində istefa verdi, kabinet isə layihəni təsdiq etdi və Avstriya bir dövlət kimi öz mövcudluğunu qanuni olaraq dayandırdı. 11-13 mart günləri azacıq «alman qanının» axması ilə əlamətdar oldu. Avstriya yəhudilərindən başqa, digərlərinə ancaq kiçik şəkildə zorakılıq göstərilmişdi.

Avstriyalılar 1938-ci ilin martında küçələrdə elan edilən Anşlyusa (“Birləşmə” mənasını verir), əslində Almaniyanın tərkibinə daxil olmağa sevinc nümayiş etdirdikdə, yəhudilər özlərinin dünyada süqutlarının gəlib çıxdığını gördülər. 13 martdan sonra bu, əslində, həyat və ya ölüm şüarına çevrildi.

Hitler Almaniyada da kütləvi tamaşalardan, gur səslənən tədbirlərdən alman xalqının natsist rejiminin arxasında dayanmasına nail olmaq üçün geniş istifadə edirdi. Belə izdihamlı nümayişlər xalqda entuziazm meylini qızışdırırdı. O, məhsul bayramları keçirməyə xüsusən aludə idi. 1937-ci ildə bir şəhərdə keçirilən belə bayramda, demək olar ki, 1 milyon adam iştirak etmişdi. Onun baş iştirakçısı və canlı simvolu isə Adolf Hitlerin özü idi.

Özünə inam yarandıqdan sonra isə o, daha təhlükəli işlərə əl atdı. Əvvəllər Hitler deyirdi ki, onun məqsədi sülhdən başqa bir şey deyildir. Sonralar artıq özünü çox sərbəst hiss edirdi, çünki ona müqavimət göstərən yox idi. Ətrafındakılar

•

canilərdən və qorxaqlardan ibarət olmaqla, ona qul kimi xidməti göstərmək yolunu tutmuşdular. Ona görə də istədiyi ağılsız hərəkəti həyata keçirməyə qadir idi. Hitler 1935-ci ildə natsistlərin Nyurenberqdəki illik partiya yığıncağında yeni irqi qanunları qəbul etdi. Onlar «Nyurenberq qanunları» adlanmaqla Almaniya yəhudilərini ölkə vətəndaşlığından çıxardı və yəhudilərlə alman vətəndaşları arasında nikahı və nikahdan kənar əlaqələri qadağan etdi. Nyurenberq qanunları mahiyyətcə yəhudiləri alman siyasi, sosial mühitindən və qanunçuluğundan ayırdı və Hitlerin təmiz Arian irqini qoruyub saxlamaq cəhdlərini genişləndirməyə şərait yaratdı.

Avropadakı yəhudi xalqının bütünlüklə kökünün kəsilməsi cəhdi Natsist Yeni Qaydasının daha dəhşətli olan bir aspekti idi. İrqi mübarizə Hitler ideologiyasının mühüm tərkib hissəsini təşkil edirdi və bu arilərə müxalif olanlarla açıq münaqişə mənasını verirdi. Bu ideologiyaya görə yəhudi parazitlər ariləri məhv etməyə çalışırdılar. Hələ 1922-ci ildə Hitler burada heç bir kompromiss olmayacağını, iki şeyin mümkün olacağını- ya arilərin qələbə çalması, yaxud da arilərin məhv edilməsi və yəhudilərin qələbəsi baş verəcəkdir. Xüsusi hücumçu qüvvələrin (Einsatzgruppen) yaradılması ilə bütün Polşa yəhudilərini qapalı məkanda saxlamaq üçün ölkənin şəhərlərinin çoxunda gettolar yaradıldı. Ölüm düşərgələrində həmin qüvvələr tərəfindən 1 milyondan artıq yəhudi öldürüldü. Avropanın yəhudi əhalisinin topdan qaydada ardıcıl olaraq məhv etmək üçün xüsusi ölüm düşərgələri yaradıldı. Əslində isə tarixdə heç vaxt bioloji tərəfdən təmiz irq olmamışdır. Bəzi siyasətçilərin dediti kimi, irq heç də həqiqət deyildir, sadəcə hissdir.

Natsistlərin planı olduqca sadə idi. Almaniyanın işğal etdiyi ölkələrdən yəhudilər yığılır, mal-qara kimi yük vaqonlarında Polşaya, onları məhv etmək məqsədi ilə tikilmiş mərkəzlərə göndərilirdi. Onların içərisinsdə Auşviq- Birkenau (Osventsim) ən böyük və daha iyrənc şöhrətlə tanınan düşərgə idi. Adamları sürətlə öldürmək üçün səmərəli qaz kimi hidrogen sianiddən istifadə olunurdu. Kameraya qaz buraxılıb, iş başa çatdıqdan sonra cəsədlər xüsusi tikilən krematoriyalarda yandırılırdı. Bu, yəhudi məsələsini həll etməyə imkan verirdi.

Paytaxt şəhərləri olan Vyanadan, Praqadan və çox sayda ölkələrdən yəhudilər tutulub, ölüm düşərgələrinə göndərilirdi. Auşviqə gələnlərin 30 faizi əmək düşərgələrinə yola salınırdı, qalanları isə qaz kameralarına göndərilirdi. Buradan çıxan meyitlər krematoriyada yandırılırdı. Qurbanların malları və hətta onların bədənləri iqtisadi gəlir götürmək üçün istifadə edilirdi. Qadın saçları qırxılıb, yığılır və yorğan-döşək və ya paltar qayırmağa gedirdi.

Almanlar 6 milyon yəhudini öldürmüşdülər, onlardan 3 milyondan çoxu ölüm düşərgələrində məhv edilmişdi. Polşanın, Baltik ölkələrinin yəhudi əhalisinin 90 faizi məhv edilmişdi. Bütövlükdə Holokost, Avropa yəhudilərinin hər üç nəfərindən təqribən ikisinin ölümü üçün məsuliyyət daşıyır.

Natsistlər həm də adamları güllələməklə, aclıq törətməklə və ya ağır zəhmətə cəlb etməklə ən azı 9-dan 10 milyona qədər adamın öldürülməsinə

•

cavabdehdir.Yəhudilər kimi Avropa qaraçılarını da almanlar qırırdılar, guya onlar bir irq kimi yad qan daşıyıcıları olduqlarından, onlardan 1 milyon nəfərini və ya Avropa qaraçılarının 40 faizini ölüm düşərgələrində məhv etmişdilər. Slavyan xalqları da "aşağı adam" hesab olunurdu, onların ruhaniləri, ziyalıları, mülki liderləri və hakimləri aparıcı element hesab olunmaqla öldürülürdü. 4 milyona yaxın polyak, ukraynalı və belorusiyalı Natsist Almaniyasındakı qul əməyi hesabına həyatlarimi itirmişdi. Ən azı 3-4 milyon sovet müharibə dustağı əsirlikdə öldürülmüşdü.

Antiyəhudi fəallığının daha zorakı fazasına ilk dəfə xeyli dərəcədə 1938-39-cu illərdə başlanmışdı: 1938-ci ilin noyabrında «Sındırılan güzgü gecələri» keçirildi. Parisdəki alman səfirliyinin üçüncü katibinin Polşa yəhudisi tərəfindən öldürülməsi, natsistlərin yəhudilərə qarşı destruktiv kampaniyasına yol açdı, sinaqoqa yandırıldı. 7 min yəhudi biznesi məhv edildi və ən azı yüz nəfər yəhudi öldürüldü. Kişi cinsindən olan 30 min yəhudi ölüm düşərgələrinə göndərildi. Nəticədə SS-in birbaşa başçılığı altında yəhudilər «Almaniyadan mühacirətə» getməyə həvəsləndirildilər. II Dünya müharibəsi başlananda isə mühacirət siyasəti daha dəhşətli tədbirlərlə əvəz edildi.

1937-ci ildə Adolf Hitler hərbi liderlərlə gizli konfransda öz gələcək məqsədlərini açıb danışmışdı. Almaniyanın axırıncı məqsədi, onun öz auditoriyasına inandırdığı kimi, Şərqdə yaşayış məkanının işğal etmək idi. Bu, Fransa və Böyük Britaniya ilə müharibə demək olduğuna baxmayaraq, həmin məsələdə alman xalqının üzləşməli olacağı əsas ehtiyacları nəzərə aldıqda, guya Almaniyanın başqa alternativi yox idi. Bu məqsədin izahı Hitler tərəfindən belə formula almışdı: Əvvəlcə, ancaq Avstriya və Çexoslovakiya ilə nəzərdə tutulan işini görməli idi ki, onların şərq və cənub flanqlarında Almaniya özünə qarşı yönələcək təhlükələrdən qorunmağı təmin etsin. 1937-ci ilin sonundan Hitler inandırılmışdı ki, nə fransızlar, nə də britaniyalılar bu planlara zidd olan elə bir hərəkət etməyəcəklər. Böyük Britaniyanın 1937-ci ildən baş naziri olan Nevil Çemberlen sülhsevərliyin möhkəm tərəfdarı idi və çox inanırdı ki, Almaniya ilə rahat münasibətlərdən asılı olaraq Britaniya imperiyasını qoruyub saxlamaq mümkün olacaqdır. Çemberlen Hitlerə də bunu bildirmişdi, məqsədi isə özünün sülhsevərliyini sadəlövhcəsinə ona bir daha sübut etmək idi.

Hitler qərara aldı ki, ilk dəfə Avstriyaya hücum etmək lazımdır. Avstriyanı müdaxilə ilə qorxudub, Hitler Avstriya kansleri Kurt fon Şuşniki məcbur etdi ki, hökumətdə Avstriya natsistlərinə vəzifə versin. Alman qoşunları heç bir müqavimət görmədən 12 mart 1938-ci ildə Avstriyaya daxil olanda, onlar belə «leqal əsasa» malik olmaqla, yeni Avstriya kanslerindən tələb etsinlər ki, alman qoşunlarına bilavasitə yeni qanunun qəbul edilməsində və ölkədə qayda yaradılmasında səlahiyyət verilsin ki, onlara zəruri köməklik göstərilməsini həyata keçirsinlər. Bir gün sonra, 13 martda Hitler özünün doğma torpağına zəfər qaydasında daxil olduqdan sonra rəsmi qaydada Avstriyanı Almaniyaya anneksiya etdi. Böyük Britaniyaya Hitlerin hərəkətini anlamağa hazır idi, Fransa isə öz ölkəsindəki ciddi siyasi böhrana görə

•

cavab verməyə də qadir deyildi. Bunlar yalnız alman diktatorunun Qərbin zəifliyinə olan nifrətini daha da böyütdü.

Təcavüz nəticəsində Avstriyanın anneksiyası Mərkəzi Avropada Almaniyanın strateji mövqeyini yaxşılaşdırdı və Hitler üçün sonrakı məsələni də həll etməsinə, yəni Çexoslovakiyanı parçalamaq işinə şərait yaratdı. 30 may 1938-ci ildə Hitler öz generalına demişdi ki, bu onun dəyişilməz qərarıdır ki, yaxın gələcəkdə Çexoslovakiyanı hərbi hərəkətlə «sındırsın». 1938-ci ilin sentyabrında Böyük Britaniya və Fransa rəhbərliyi Münxen sazişi ilə Hitlerin Çexoslovakiya dövlətinin ərazisi olan Sudetləri tutmasına razılıq verdi. Lakin Böyük Britaniya baş naziri Nevil Çemberlren və Fransa baş naziri Eduard Deladye anlamırdılar ki, belə güzəştlə Hitlerin iştahı kifayətləməyəcəkdir, əslində bununla onun iri miqyaslı müharibəni başlamasına onlar yol açmış oldular.1939-cu ilin avqustunda bağlanan Molotov-Ribbentrop paktı da II Dünya müharibəsinin startında özünəməxsus rol oynadı. Güzəştlər Hitlerdə Avropa ağalığına sahib olmaq hissini daha da gücləndirdi.

Burada məşhur Roçester yepiskopu və ilahiyyat alimi Fişerin xəbərdarlığı yerinə düşür. İngiltərə kralı VIII Henri hələ Roma papası ilə münaqişəsindən əvvəl yepiskoplardan bir monastırın ona verilməsini istəmişdi. Onlar buna razılıq verdikdə, Fişer etirazını bildirib, bir pritça söylədi: O, dedi ki, balta özünə sap düzəltməkdən ötəri meşədən kiçik bir odun parçası istədi. Meşə, özündə onların izafi zənginliyinə malik olduğuna görə razılıq verdi. Balta saplanandan sonra meşəyə hücum çəkib, ağacları bir ucdan qırmağa başladı, odun daşqını əmələ gəldi. Kral da belə hərəkət edəcəkdir. Keşişin öncəgörməsi düz çıxdı, Roma baş kilsəsindən aralandıqdan sonra VIII Henri ölkədəki böyük mülkiyyətə sahib olan bütün monastırları müsadirə etdi.

Fişerə gəldikdə, o, yenıiməz katolik keşişi idi, kralın Anna Boleynlə nikahını tanımaqdan imtina etmişdi. Roma papasının ona kardinal titulunu vermək istədiyini eşidən kral VIII Henri demişdi:” Yaxşı, o, hələ sağdır? Qoy, papa istədiyi vaxt ona kardinal şlyapasını geyindirsin. Bu şlyapanı o, çiyinlərinə geyinəcəkdir, çünki mən onun başını boynunun üstündə qoymayacağam ki, o, nə vaxtsa bu başa həmin şlyapanı geyinsin”. Kral dediyini etdi, yepiskopun boynunu vurdurdu..

## Hitler ağalığı dövrü

13 martda beləliklə Avstriyanın mövcudluğu başa çatdı. Martda Hitler göstəriş verdi ki, yenidən Ostmark adlanan bu ölkə yeddi natsist əyalətinə bölünməklə, Alman Reyxinə bütünlüklə inteqrasiya olunsun. 1941-ci ildə isə Ostmark «Dunay və Alpendauya» çevrildi. «Avstriya» tarixi, beləliklə, rəsmi olaraq natsist idarəçiliyi altına düşdü. Avstriya natsist xəritəsindən silindi, avstriyalıların əksəriyyəti alman

•

qoşunları ölkəyə daxil olanda və Hitler Anşlyus göstərişini verəndə, eyforiyada idi. Avstriyada da natsistlər az deyildi və onlar özlərini Hitlerin əsl ardıcılları kimi aparır, natsist Almaniyasını isə ölkələri üçün mayak, yol göstərən ulduz hesab edirdilər. Bədbəxtlikdən Avstriya əhalisinin böyük əksəriyyəti vətənlərindəki qaydanı qorumaq əvəzinə, alman təbliğat fantomlarının arxasınca getməyə üstünlük verirdilər.

15 martda Hitler Vyanadakı  çıxışında doğma vətəninin Alman Reyxinə daxil olduğunu Avstriya vətəndaşlarına elan edəndə, diz çökmə səhnələri olduqca çox idi. Bu səhnələr bütün avstriyalıların Anşlyusu dəstəklədiyini göstərirdi. Almaniyanın tərkibində olmağa görə sevinc hissi yalnız Avstriyanın alman millətçiləri arasında deyil, liberalların və sosialistlərin də arasında  da yayılmışdı. Onların çoxu səfehliklə Hitlerə nifrət etməklə, Anşlyusu faktiki salamlamaq arasında tam bir fərqin olduğunu güman edirdi. Minlərlə yəhudi öz iş yerlərini itirdi və mülkiyyətlərini olduqca aşağı qiymətə satmağa məcbur edildi.

Avstriyanı tərk edən incəsənət xadimləri arasında Ziqmund Freyd  də var idi. Bir qrup Hind okeanındakı Mavriki adasında məskunlaşmışdı. Digər bir qrup Şanxayda sığınacaq tapmışdı. Yaxın ölkələrə – Çexoslovakiyaya, Hollandiyaya və ya Fransaya qaçanlar müharibə illəri ərzində natsistlər tərəfindən tutulurdular. Vyanada qalan yəhudilər natsist ağalığında işləməklə, təcrübə altında olan hüquqsuz heyvancıqlara çevrilirdilər. 1939-cu ildə hələ də Vyanada 66 min yəhudi yaşayırdı. Böyük yazıçı StefanTsveyq 1942-ci ildə müşahidə etdiyi müharibə dəhşətlərinə dözməyib ölmüşdü.

StefanTsveyq (1881-1942-ci illər), bu məşhur yazıçının əsl pərəstişkarı olan bir dostum daim onu almanların qaydasında «Tsvayq» adlandırır, Azərbaycan oxucuları arasında populyar hekayələr və roman ustalarından biri hesab olunur. Onun «Hisslərin sarsıntısı», «Balzak», «Ürəyin dözməməsi», «Bəşəriyyətin ulduz saatları» adlı əsərləri böyük maraqla oxunur. Axırıncı əsərdə lakonik qaydada bir sıra tarixi şəxsiyyətlərin qələbəyə ünvanlanan, bəzən onların həlak olması ilə də nəticələnən macəralarından danışılır.

Bir novellasında böyük türk sərkərdəsi, gənc Osmanlı sultanı Mehmet Fatehin Konstantinopolu işğal etməsi vaxtı, qeyri-adi əməliyyatlara əl atmasından söhbət açılır. O, ilk dəfə ağır mərmili toplardan şəhərin qalın divarlarını uçurmaq üçün istifadə edir. Onlar Avropadan alınmışdı, türk ixtiraçısı da bu silahın istehsalını təşkil etmişdi. Bəzi topların mərmisinin ağırlığı yarım tondan yuxarı idi və qala divarlarında böyük deşik açırdı. Lakin əsgərlərin hücumu üçün əlverişli yer tapmaq lazım idi, gəmilərin dayandığı yer buna imkan vermirdi. Ona görə də sultan gəmiləri Bosfor boğazının o hissəsindən çıxartdırıb, öküzlərə qoşdurub, quru yolla apartdırmaqla, başqa uyğun yerə saldırdı. Mehmet Fatehin başıpozuqlarının hücumu bir nəticə verməyəndə, əsas qüvvəsi olan  yeniçəriləri son həmləyə göndərdi, onlar divardakı yarıqlardan keçib, şəhərə girdilər və onu tutdular. Mehmet Fateh şəhərin adını dəyişib, Konstantinopolu İslamın şərəfinə İstanbul adlandırdı. Qədim Roma imperatoru

•

Konstatinin IV əsrin üçüncü dekadasında salmağa başladığı şəhər məhv olmuş Bizans imperiyasının paytaxtı olmasını dayandırıb, Osmanlı imperiyasının, bu güclü müsəlman dövlətinin paytaxtına çevrildi. 1923-cü ildə isə yeni Türkiyə respublikasının baş şəhəri hüququ Anatoliyadakı (Anadoludakı) Ankaraya verildi. Rusiya təcrübəsi kimi, bu məsələdə paytaxtın təhlükəsizliyi məqsədi əsas götürülmüşdü.

Digər bir hekayədə Tsveyq ingilis səyyahı, Cənub qütbünün mərkəzini tədqiq etmək istəyən ingilis Robert Filip Skottun faciəsini nəql edir. Skott Antarktidanın mərkəzini kəşf etməyə ehtiyatlı bir qaydada hazırlıq görməmişdi. Səfərə yük heyvanlarını düzgün seçməmişdi, ona görə də qütb mərkəzinə çatmamış həlak oldu, Mərkəzi isə Norveç qütb səyyahı Raul Amundsen kəşf etdi.

«Ürəyin dözməməsi» romanında isə kübar macar ailəsinin bədbəxtliyindən söhbət açılır, varlı ata iflic olmuş qızını böyütmüşdür. Qız bir zabitə vurulur, eşqinə cavab tapmayanda, balkondan özünü atıb öldürür, ailəsi də bədbəxtliyin qarşısını ala bilmir.

Avstriyalıları Hitler hələ 1938-ci ildən də çox-çox əvvəl alman vətəndaşlarına çevirmişdi. Anşlyusun ilk ayları içərisində Avstriyada işsizlik problemi faktiki olaraq yoxa çıxdı və Avstriya iqtisadiyyatı modern bünövrə üzərində quruldu. Natsistlərin hakimiyyəti altında Almaniya iqtisadiyyatının özü də sürətlə inkişaf edirdi. 1936-cı ildə iqtisadi böhrana son qoyulmuşdu. Prezident Franklin Delano Ruzveltin məşhur inqilabi “Yeni kursu”nu həyata keçirən ABŞ-da isə böhranla yalnız 1940-cı ildə vidalaşmaq mümkün olmuşdu. İqtisadi dəyişikliklər Almaniyada başlıca sosial dəyişikliklərə də yol açdı. Katolik kilsəsinin hakimiyyəti kiçildildi, boşanmış katoliklər indi yenidən evlənə bilərdilər.

Avstriya əhalisi hər şeydən əvvəl natsistlərin müharibə məqsədi ilə artan investisiyasından iri həcmdə iqtisadi fayda götürdü. İşsizlik yoxa çıxdı, onun yerini işləyən adamların defitsiti tutdu.

Hitleri isə Avropa ağalığı düşündürürdü, o, lap əvvəldən öz iyrənc niyyətlərini heç də gizlətmək qayğısına qalmırdı. Baş nazir təyin ediləndən üç ay sonra, 1933-cü ilin aprelində demişdi: “Biz yatmamışıq, onlar bilməlidirlər ki, tufan gəlir”. O, Mussolinidən fərqli olaraq, hakimiyyəti demokratik yolla almışdı. Sonra isə öz həqiqi diktatorluq mahiyyətini daha açıq göstərdi. Bir neçə həftə ərzində siyasi müxalifətin heç bir xırda axınına da imkan vermədi, tam avtoritar rejim qurdu.

Hitler Almaniyası Natsional Sosializmin ölkəni əvvəlki müharibədən sonrakı bədbəxtlikdən uzaqlaşdırmağı sübut edəcəyini planlaşdırırdı. Eyni vaxtda Natsistlər zorakı ideologiyanı işə salır və sülhə təhlükə olduqlarını göstərirdilər. İrqi ideologiya xüsusən eybəcərliyi ilə seçilirdi. 1936- cı ildə Almaniyada keçirilən Olimpiya oyunları da bu məqsədə xidmət etməli idi. Almaniya komandası hamıdan çox qızıl medal qazanmışdı. Lakin Hitlerin arilərin üstünlüyü barədəki canfəşanlığı alt-üst oldu. Qara dərili amerikalı Cessi Ouens 4 qızıl medal qazanmağa nail oldu.. Hitlerin əsl

•

məqsıdi isə Olimpiadadan Natsist Almaniyasını dünya xalqları arasında təbliğ etmək idi və buna xeyli dərəcədə nail ola bilmişdi. Olimpiya oyunlarının iştirakçıları bu ölkənin daxilindəki vəziyyətdən hali deyildilər, zahiri cazibədar görünüşə aldanıb, vətənlərinə qayıtdıqdan sonra Hitler Almaniyasını tərifləyirdilər.

Hitler öz məqsədləri üçün müharibəni vacib vasitə hesab edirdi. O, 1937-ci ildə demişdi: "Almaniyanın problemi yalnız güc hesabına həll oluna bilər". Hitler ordusu Polşa ərazisinə müdaxilə edib, qısa müddətdə Polşanı darmadağın etdi. Alman "blitskriqi" Daninarkada, Norveçdə,Niderlandlarda, Belçikada və Fransada dayandırıla bilməyən kimi görünürdü. Britaniya Hitler müharibə maşının hədəfinə çevrildikdə, İtaliya- Almaniya müttəfiqliyi Şimali Afrikada və Aralıq dənizində yeni müharibə teatrları açmaq üçün fürsəti əldən vermədilər.

Fransadakı 1940-cı ilin mayından başlanan qələbələrdən sonra Hitler silahlı qüvvələri bir neçə həftə ərzində öz kampaniyalarını başa çatdırmağa yaxın idilər. Heç kəs inana bilməzdi ki,sadəcə altı həftəlik vuruşla Avropanın böyük hərbi güclərindən biri olan Fransanın tam məğlubiyyəti baş verəcəkdir.

Böyük Britaniya bu vaxt Hitler Almaniyası ilə təklikdə vuruşan dövlət idi. 10 may 1940-cı ildə baş nazir təyin edidikdən üç gün sonra parlamentdə ilk dəfə çıxış edən Uinston Çörçill dedi: "Mən qandan, ağır zəhmətdən, göz yaşlarından, tər tökməkdən başqa heç nə təklif etmirəm". Bir ay sonra yenə İcmalar Palatasındakl çıxışında demişdi: "Biz onlarla plyajlarda vuruşacağıq. Biz çöllərdə və küçələrdə döyüşəcəyik. Biz heç vaxt təslim olmayacağıq". Britaniya əhalisi kütləvi qaydada almanlara qarşı mübarizəyə qalxdı. 1943-cü ildə 22 milyon ingilis qadını və kişisi silahlı xidmətdə, müharibə sənayelərində və mülki müdafiə mövqelərində xidmət edirdi.

Fransada satqın Vişi hökuməti yaransa da, fransızlar işğalçılara müqavimət göstərirdilər. General Şarl de Qoll 18 iyun 1940-cı ildə Londondan radio ilə ilk müracətində : "Fransız müqavimətinin alovu ölməməlidir və ölməyəcəkdir " sözlərini demişdi.

22 iyun 1941-ci ildə alman ordusu xaincəsinə SSRİ ərazisinə müdaxilə etdi. Bir gün əvvəl Hitler: ""Barbarossa" əməliyyatı başlayanda dünya nəfəsini saxlayacaqdır" demişdi. Stalin isə 3 iyl 1941-ci ildə radio ilə ilk çıxışında demişdi: "Tarix göstərir ki, heç bir məğlub olmayan ordu yoxdur və bu heç vaxt olmayacaqdır". Dörd il sonra Hitler ordusu məhv edildi.

1941-ci ilin yayında alman ordularının Moskvaya tərəf yürüşü SSRİ-nin qərb ərazilərində sürətlə gedirdi, böyük iqtisadi resursların cəmləşdiyi torpaqlar işğal altına düşmüşdü. 22 iyunda başlanan xaincəsinə təcavüz müdaxiləsinə qarşı Qızıl Ordu səmərəli müqavimət göstərə bilmirdi. Buna görə Hitler nəhəng populyarlıq qazanmışdı, heç nə onun hərbi uğurunun nailiyyəti ilə müqayisə oluna bilməzdi. Almanların əksəriyyəti qürur hissi duyurdu, özlərinə Avropanın, mümkün olduğu

•

qədər isə, dünyanın ağası kimi baxırdı. Avstriyalılar bütünlüklə alman zəfərinə şərik çıxırdılar, çünki «alman» silahlı qüvvələrinə çox sayda avstriyalı daxil idi.

Hitler Şərqdə almanlar üçün yaşayış məkanı əldə edəcəyi planının uğuruna, SSRİ-yə hökmən qalib gələcəyinə çox inanaraq deyirdi ki, həmin Şərq ərazilərində yüz il sonra on milyonlarla alman yaşayacaqdır. Həmin torpaqları onlar artıq özlərinin həqiqi vətənləri hesab edəcəklər. O, öz xülyaları ilə, illuziyalarla yaşamağa üstünlük verirdi, SSRİ üzərində qələbə  çalacağına şübhə etmirdi. Müdaxilənin ilk aylarında sovetlərin geniş ərazilərinin işğalı onun zəfərə nail olacağı ümidlərini daha da möhkəmləndirirdi. Onun ağlına da gəlmirdi ki, sovet əsgəri,  rus əsgərinin Napoleon Parisinə girdiyi kimi, qalibiyyətlə Berlinə daxil olacaq, Reyxstaq üzərinə SSRİ-nin qırmızı rəngli qələbə bayrağı sancılacaqdır.

SSRİ ərazisinin işğalının başlanğıcından orada "aclıq planı" həyata keçirilməli idi. İstehsal olunan taxıl Almaniyaya daşınmalı, yerli sovet adamları isə sərt aclıqla üzləşməli idi.  Aclığın ilk qurbanları isə mülki əhalidən əvvəl, sovet hərbi əsirləri oldu, onlar olduqca pis qidalandırılırdılar. Bunun nəticəsində 1,2 milyon sovet müharibə əsiri aclıqdan ölmüşdü. Bunlar, müharibə qanunlarının ziddinə idi. "Aclıq planına" müvafiq olaraq sonralar almanlar  işğal edilmiş ərazilərə köçürülməli, onlar orada əkinçiliklə məşğul olmalı idilər. Həmin ərazilərdə  qalan azacıq yerli əhali isə qul əməyi ilə məşğul olmalı idi.  Hitler özünün "aclıq planını" heç də gizlətmirdi, onu hələ 1933-cü ildə elan etmişdi.

Alman ordusunun tərkibində vuruşan avstiyalılar da SSRİ- yə müdaxilədən sonra əldə edilən uğurlara  görə həmçinin sevinc hissləri keçirirdilər. Sonralar Birləşmiş Millətlər Təşkilatının Baş katibi və Avstriyanın prezidenti olmuş Kurt Valdhaym gənc yaşlarında alman ordusunda xidmət etməsinə görə, ona bu barədə verilən suala belə cavab vermişdi ki, o, «öz borcunu icra etmişdi». Özünü o, tarixi Avstriya əsgərinə oxşatmışdı və Vermaxtın tərkibindəki faşistlərə öz xidmətini, tarixən Avstriya uğrunda həlak olan əsgərlərin igidliyi ilə müqayisə etmək yolunu tutmuşdu. Yəqin ki, müharibədə iştirak edən digər avstiyalı əsgərlər də təcavüzə və qətllərə xidmət etdiklərini nəzərə almayıb, oxşar hisslərlə yaşayırdılar.

Avstriyalılar natsist rejimi tərəfindən bütünlüklə alman kimi qiymətləndirilirdilər və alman silahlı qüvvələrinə hərtərəfli inteqrasiya olunmuşdular. Çox sayda avstriyalı Üçüncü Reyxin müharibə maşınında xidmət edir və öz həyatlarını Fürer yolunda itirirdi. Bütövlükdə 177 min avstriyalı Vermaxtın əsgəri kimi həlak olmuşdu, bu da onların alman əhalisi ilə müqayisə olunması qaydasına uyğun gəlirdi

İkinci Dünya müharibəsindəki hərbi kampaniyalar təkcə alman tarixinin deyil, həmçinin Avstriya tarixinin bir hissəsi idi. Stalinqrad təkcə alman milli fəlakəti olmayıb, həm də avstriyalılar üçün bir fəlakət idi. Stalinqrad təkcə Üçüncü Reyxin müharibə taleyində deyil, lakin həm də Avstriya əhalisinin kimliyi hissindən ötəri

•

dalğanın dönüş nöqtəsi olmasını sübut etdi. 1941-ci ildə şərəf nişanəsi kimi görünənlər, 1943-cü ildə isə artıq iyrənc qıcıqlandırıcı bir amilə çevrilmişdi.

1943-cü ilin avqustunda Müttəfiqlər İtaliyaya daxil oldular, bu amerikalıları ilk dəfə Avstriyanı bombalamağa qadir etdi. Bu vaxt sovet ordusu öz torpaqlarımdan almanları geri qovurdu.

6 iyun 1944-c ildə, D – Day ( Desant günü) adlanan tarixdə Avropanın qərbində, Normandiyada Müttəfiqlərin böyük müdaxiləsi başlandı. Avstriyalıların vətən cəbhəsindəki müharibə məhrumiyyətləri artmaqla, daha da sərt oldu. 1944-cü ilin sentyabrında Vyananın ilk ciddi bombardmanı başlandı və məğlubiyyət hissi əhali arasında geniş yayıldı.

1945-ci ilin fevralın 1-də Şərq cəbhəsində Sovet ordusu irəliləyəndə, Avstriyadakı Mauthauzen ölüm düşərgəsində əsir kimi saxlanılan 500 sovet zabiti qaçmağa cəhd etdi, onlardan 150-si buna nail ola bildi. Natsist hakimiyyəti yerli əhalinin köməyinə bel bağlayırdı. Rusiyalılar bir həşərat kimi ovlanırdılar, yalnız 11 nəfər sağ qala bildi.

Şərqdə Avstriyanın müqaviməti səmərəli deyildi. Vyanadakı alman hərbçilərinin komandanlığı içərisindəki qəsd, şəhəri sovetlərə təslim etməyə hazırlanmasını nəzərdə tuturdu. Qəsdçilərin hamısı edam edildi. Hitler 1945-ci ilin 30 aprelində Berlindəki bunkerdə özünə sui-qəsd etdi, admiral Denits 7 mayda Almaniyanın qeyd-şərtsiz təslim olmasını imzaladı.

Hitler dövrünün panalman eyniyyəti bu vaxt bankrota uğradı, bu, keçmiş Avstriya almanlarının yeni qaydada tanınması idi. Xoşbəxtlikdən, Müttəfiqlərin işğalları məsələnin müsbət həllini mümkün etdi.

Uinston Çörçill hələ 1941-ci ilin fevralında demişdi ki, Avstriya «natsistlərin təcavüzünün ilk qurbanı» olmuşdur, bu ideya *wishful thinking-ə* – arzu ediləni həqiqət kimi qələmə vermək cəhdinə bənzəyirdi. Əvvəldən britaniyalılar və amerikanlar Avstriya mühacirlərini Avstriyanın azadlığı uğrunda vuruşmaq üçün silahlı qüvvələrə könüllü daxil olmağa qadir etdilər.

1945-ci ilin fevralındakı Yalta Konfransı Almaniyanı işğal zonalarına böləndə, Avstriyaya onun kiçik bir versiyası kimi münasibət göstərildi. Müttəfiqlərin mövqeyi rəsmi olaraq Avstriyanı ağır alman yükündən azad etməyə istiqamətləndi. Vyanadakı Sovet qüvvələrinin komandanı general Tolbuxin 1945-ci ilin martında demişdi: "Avstriyanın sülhsevər əhalisi heç nədən qorxmamalıdır." Sovet işğal hakimiyyətləri tərəfindən Avstriyanın müstəqilliyi üçün, onun əyalət milli hökuməti 27 apreldən tanındı.

Avstriya müstəqil milli-dövlət kimi olmağa ikinci dəfə şans əldə etdi. Hitler dövrü isə bir daha yenidən avstriyalıları alman olmağa çevirməklə, Avstriya üçün seçimi məhv etmişdi. Müttəfiqlərin xeyli köməkliyi ilə avstriyalılar bu vaxt yenidən avstriyalılara çevriləcəkdilər.

•

II Dünya müharibəsi bəşər tarixini ləkələyən bir hadisə oldu. 6 il davam edən bu müharibədə o vaxt mövcud olan 74 ölkədən 62-si iştirak etmişdi. 1941- ci ilin iyununda 30 dövlətin qoşunu SSRİ sərhədlərinə yaxınlaşmışdı. Buna qədər Almaniya 12 Avropa dövlətini təslim etmişdi. Almaniyanın məqsədi Sovet İttifaqını darmadağın etmək idi. Lakin sovet rəhbərliyi qələbəyə inam bəsləyirdi. 22 iyun 1941-ci ildə, almanların xaincəsinə müdaxiləsi başlanan gün V.M. Molotov radio ilə çıxışını bu sözlərlə bitirdi: "Bizim işimiz haqq işidir. Düşmən məhv ediləcəkdir. Qələbə bizim olacaqdır."

Müharibənin başlanğıcı sovet ordusu üçün olduqca uğursuz idi. Almaniyanın Avropa müttəfiqləri və asılı ölkələrin hamısı təpədən dırnağa qədər silahlanmış və əvvəlki qələbələrindən məğlubedilməzliyinə inanan alman diviziyaları ilə yanaşı özlərini göstərirdilər. Döyüşlərdə daha çox Rumıniya, Macarıstan, İtaliya, İspaniya silahlı qüvvələri, fransız legionerləri iştirak edirdilər. Hətta almanlar sovet əsirlərindən də döyüşlərdə istifadə edirdilər, sovet ordusuna qarşı vuruşan belə əsirlərin sayı bir milyona çatırdı. Onların əksəriyyəti xəyanətə görə deyil, ordunun düçar olduğu uğursuzluğa görə əsir düşmüşdü. Lakin general Vlasov, Njde kimi satqınlar da az deyildi.

Müharibənin ağılasığmaz dəhşətlərini isə ilk dəfə 1945-1946-cı illərdə 11 ay davam edən Nyurenberq tribunalı əyani şəkildə göstərdi, prosesdə natsist canilərinin iç üzü bütünlükə açıldı, ABŞ-ın tribunaldakı baş ittihamçısı Robert H. Ceksonun dediyi kimi, adamları yuxudan məhrum edəcək bol faktlar ittihamın tam əsaslı olduğunu sübut etdi. Alman natsistləri bir sıra millətlərə qarşı əsl genosid həyata keçirmişdilər. ABŞ prokuroru Ceksonun "Biz bunları heç vaxt unutmamalıyıq" xəbərdarlığı bu gün də öz əhəmiyyətini itirməmişdir, çünki başqa xalqlara qarşı iyrənc düşmənçilik halları baş qaldırmaqda davam edir, Ermənistan ordusunun Azərbaycan torpaqlarını onilliklər ərzində işğal altında saxlaması və viran qoyması, xalqımıza qarşı törətdikləri vəhşiliklər unudula bilməz. Natsist rejimində ikinci şəxs olan Herman Görinq müharibənin almanlar üçün vacib olduğunu əsalandırmağa çalışdı, axı o, hakimiyyətdə təmsil olunmaqdan çox şey qazanmışdı. Arvadı öldüyndən, təkcə 1936-cı ildə yenidən evlənərkən özünə dəbdəbəli toy etmiş və Hitlerdən qiymətli hədiyyələr almışdı. Tribunal isə onun cəfəngiyyatına məhəl qoymayıb, müharibəni başlayıb, Avropanı xarabazara çevirən natsistlərin dəhşətli cinayətlərini ifşa etdi. Hiler Almaniyası bir dövlət kimi müharibələrə, cinayətkar zorakılığa, hər cür vəhşiliyə xidmət etmişdi, bunu isə inkar etmək mümkün deyildi.

Onu da qeyd etmək lazımdır ki,Herman Görinqin özü qəribə, əslində eybəcər bir xüsusiyyətə malik idi. O, yaxın qohumlarını çox sevirdi, onlara hazırlıqla istənilən xidməti göstərirdi. Başqalarına qarşı isə hər cür qəddarlığa hazır idi, saysız-hesabsız insanların məhv edilməsinə öz vəzifəsinin icrası kimi münasibət bəsləyirdi. Qardaşı, antifaşist meylli Albertin xahişi ilə natsistlər tərəfindən həbs edilib, ölüm düşərgəsinə salınmış Avstriya ershersoqu Ferdinand İosifin və keçmiş baş nazir Şuşnikin

•

vəziyyətinin yüngülləşməsinə nail olmuşdu. Lakin Görinq bunu onlara yazığı gəlməsinə görə deyil, yalnız doğma qardaşının xahişini yerinə yetirməyə görə etmişdi. O, başqalarına qarşı adi bir mərhəmət hissinə də yad idi.

Hatsistlərin dəhşətli cinayətlərini quru faktlar və rəqəmlər sübut edir. Müharibə dövründə 12 milyon günahsız mülki şəxs öldürülmüşdü. 6 milyon yəhudi Holokostun qurbanı olmuşdu.

Tribunal 21 nəfər baş natsist canisini mühakimə etdi, onlardan üçü bəraət, 6 nəfər isə həbs cəzası aldı. 12 nəfər asılmaqla, edam edilməli idi. Herman Görinq gecə sianid zəhərini içməklə, canını dar ağacından asılmaqdan qurtardı.

Natsistlərin cinayətləri tarixdə özünə bənzəyən heç nəyi tanımır. Təkcə Osventsim (Auşvits Birkenau) ölüm düşərgəsinndə 1943-cü ilin dekabrına qədər 3 milyon adam öldürülmüşdü, onlardan 2,5 milyonu qaz kameralarında, yarım milyonu aclıqdan və xəstəliklərdən ölmüşdü. Yerusəlimdki Yad Vaşem Holokost Tarixi Muzeyində natsistlərin vəhşilikləri faktlar və əyani vasitələrlə nümayiş etdirilir. Adlar xollunda isə Holokost qurbanları şəxsən sadalanır.

Almaniyada silah istehsalını artırmaq üçün zavodlara 14 milyon əlavə fəhlə cəlb olunmuşdu. İşğal edilmiş ərazilərdən 3,5 milyon fəhlə gətirilmişdi.

Tribunalın işi gedərkən maraqlı əhvalatlar da baş verirdi. Polşanın general-qubernatoru olmuş Hans Frank çıxış edərkən demişdi: “Mən Baxın oratoriyasını eşidəndə, bu, mənə Allahın səsi kimi gəldi, xəbərdar edirdi ki, heç nəyi gizlətmək olmaz, hər şey ona məlumdur.” O, özü milyonlarla Polşa vətədaşının qətlində iştirak etmişdi və tribunalın hökmü ilə asılmaqla edam cəzasına məhkum edildi.

Başqa bir misal da ondan ibarət idi ki, Osventsim ölüm düşərgəsində bir dəfə qaz kamerasına gələn qaz kəsilmişdi. Bu, düşərgə xidmətçiləri olan almanlar üçün faciəyə çevrildi, qırğın prosesində fasilə baş vermişdi. Milyonlarla insnı məhv etməyi isə onlar Hitler qarşısındakı öz borclarını yetirmək növü hesab edirdilər.

II Dünya müharibəsində günahsız bəşəriyyət çox ağır haqq ödəməli oldu. Nyurenberq tribunalı isə Almaniyanın həyatında dönüş nöqtəsi oldu. Tribunal belə bir ümid yaratdı ki, bunlar gələcəkdə bir daha təkrar olunmayacaqdır.

II Dünya müharibəsinin vurduğu ziyanın ölçüsü olduqca nəhəng idi. Ən azı 21 milyon əsgər öldürülmüşdü. Mülki adamlardan ölənlər daha çox idi və onların 40 milyon olduğu güman edilir. Onlardan 28 milyonu sovet adamları və çinlilər idi. Sovet İttifaqı böyük itkiyə nəruz qalmışdı, onun 10 milyon əsgəri və 19 milyon mülki şəxsi həlak olmuşdu.1945-ci ildə bütün dünyada milyonlarla adam aclıqla üzləşdi. Avropada 100 milyon adam müxtəlif növdə olan ərzaq yardımından asılı idi.

Milyonlarla adam həmçinin müharibə tərəfindən öz yurd-yuvalarından qovulmuş və “yersiz şəxslərə” çevrilmişdilər. Avropa təklikdə 39 milyon belə adama malik idi və onlar vətənə qayıtmaqda çətinlik çəkirdilər. Avropada və Asiyadakı Çində şəhərlər viran qalmışdı. Müharibənin vurduğu ziyan bütövlükdə pul şəklində 4 trilyon ABŞ dolları kimi qiymətləndirilirdi.

•

Bütün zamanların ən dağıdıcı və dünyanı viran qoyan qanlı münaqişəsi olan II Dünya müharibəsi, vəhşiliyə son qoyulması ilə, haqqın və ədalətin zəfəri ilə başa çatdı. Bəşəriyyət ağır haqq ödəsə də, özünün tiraniya əsarətinə düşməsinə yol vermədi.

2 sentyabr 1945-cu ildə başa çatan II Dünya müharibəsi tarixdə əhatə dairəsinin perimetrinin uzunluğuna, abad şəhərləri xarabalıqlara çevirmək və vəhşiliklər törətmək miqyasına, on milyonlarla əslində günahsız insanın qurbana çevrilməsinə görə öz tipinə əvvəllər aid olanlarla heç bir müqayisəyə sığmırdı. Natsizmin və yapon militarizminin timsalında meydana çıxan yeni Molox daha acgöz, qaha çox qana susayan idi. Müharibənin çox sayda xalqlara təsiri də böyük idi və dünyadakı bir nəsil dərin ehtiyacdan və himayəsiz qalmış ailələr çoxluğundan ibarət olan həmin təsirin altında böyümüşdü. Yalnız müharibənin başa çatmasından keçən on illiklərdən sonra onun uzun sürən kölgəsi azalmağa, geri çəkilməyə başladı.

Tarixçilər II Dünya müharibəsini qələmə aldıqda, bəzən detallarda ilişib qalmaqla, yanlışlığa yol verir, hətta təsvirdə obyektivlikdən uzaqlaşırlar da. Bəziləri Şimali Afrikadakı (El Alameyndəki), Stalinqraddakı, Normandiyadakı həlledici döyüşləri öz yazılarında canlandırdıqda, diqqəti yalnız onların xüsusi aspektlərinə verir, ümumi kontekstdən uzaqlaşırlar.

Müharibənin tarixi, onda gedən hadisələrin təsviri də çox vaxt mübahisələrə səbəb olur, təəssüf ki, həm də hətta bir-birinə və obyektivliyə zidd olan mövqelərdən qələmə alınır. Ona görə də çox sayda əsərlərdə qərəzli münasibət özünü biruzə verir, tarixi faktların təhrifi də hakim ideologiyaya itaət qılmaq xatirinə məqbul sayılır. Qərb müəlliflərinin çoxu Soyuq müharibənin yaratdığı mübarizə şəraitində, doğurduğu əks münasibətlər atmosferində öz əsərlərini yazanda Şərq Cəbhəsinin danılmaz əhəmiyyətini etiraf etmək istəmirlər. Təəssüf ki, rəsmi dairələr də onlardan geri qalmır. 8 may 2023-cü ildə Birləşmiş Ştatlar Ağ Evinin verdiyi bəyanatda deyilir ki, faşizm üzərindəki qələbəni ABŞ əldə etmişdir, “ qitədə ABŞ və müttəfiq qüvvələrinin faşizm üzərindəki qələbəsi “ baş vermişdir. Rus tarixçiləri isə özlərinin “Böyük Vətən müharibəsi” mövzusuna həsr olunmuş əsərlərini yazanda qərəz mərəzindən uzaqlaşmağı bacarmadıqlarından, öz xalqının və silahlı qüvvələrinin qələbədəki iştirakını hədsiz qaydada şişirdib, digər iştirakçıların çox mühüm cəhdlərini az qala inkar etməklə , Qərb Müttəfiqlərinin ümumi qələbənin əldə edilməsindəki həqiqətən böyük olan xidmətlərini aşağılamaqla, onlara qarşı tarixçi mövqeyinə zidd olan bir ədalətsizlik göstərirlər. Rusiya rəhbərliyi isə digər qalib dövlətlərdən fərqli olaraq, dünyada hər il, hətta qələbədən 78 il keçdikdən sonra da yeganə hərbi parad keçirməklə, qələbənin təkcə öz silahlı qüvvələrinə məxsus olduğunu,yalnız onunku olduğunu iddia etməyə üstünlük verir.

Hər iki tərəf ümumi qələbəni yalnız öz adına çıxıb, həqiqətə göz yummaqla yanaşı, həm də tarixin təftişinə, daha dəqiq deyilsə, təhrifinə yol verir. Tarixdə onsuz da saxtakarlıq halları az olmamışdır. Bizim eradan əvvəl XIII əsrdə (b.e.ə. 1286-cı il)

•

Misir faraonu II Ramzes, Kadeş döyüşündəki hettlərlə vuruşda əslində məğlub olduğu, və ya əks tərəfə heç də üstün gəlmədiyi halda özünü qalib kimi qələmə vermişdi. Borodino döyüşündən sonra rus ordusu geri çəkilib, hətta Moskvanı Napoleona təhvil verdikdən sonra da, həmin məşhur döyüşdə rusların qalib gəldiyi iddia edilirdi. XX əsrin böyük münaqişəsinin əsl tarixi də bəzən milli üfüqlər tərəfindən bağışlanmaz qaydada retuş edilir, hətta sui-istifadə obyektinə çevrilməkdən də yan keçmir.

Onu da nəzərə almaq lazımdır ki, II Dünya müharibəsi Avropada olduqca təhlükəli miras qoymuşdur və onlara müvafiq olaraq, həm də ciddi diqqət yetirilməlidir.Müəlliflər müharibə maşınının qan çayı axıtmaq, ölkələri nəhəng qəbristanlıq ərazilərinə çevirmək yoluna daş döşəmək sahəsindəki rolunu etiraf etməklə yanaşı, eyni zamanda xırda əhvalatların bolluğu altında mühüm cəhətlərin, prinsipial amillərin unudulmasına yol verirlər. Bəzən isə onlar hansısa əhəmiyyətsiz epizodu şişirdib, onu müharibənin taleyini həll edən vacib bir səhnəyə çevirirlər. Lakin müharibə qlobal xarakter daşıdığına görə, onun təsviri də, analizi də əhatəli, obyektiv, qərəzsiz və ədalətli olmalıdır. Axı bu əsərlər hansısa xüsusi məqsədi güdməklə kəşfiyat orqanlarının yazdıqları gizli hesabat deyildir, müqayisə etməyi və məntiqi nəticəyə gəlməyi də bacaran kütləvi oxucuya ünvanlanmışdır.

Obyektivlikdən qəsdən uzaqlaşan belə tarixçilər qoca köstəbəkləri yada salırlar, belələri, təəssüf ki, bilə-bilə özlərini də aldatmaq yolunu tuturlar. Çünki təbiətən kor olan köstəbəklərdən fərqli olaraq, onlar şüurlu insanlardır, heç şübhəsiz, müəyyən müşahidə və təhlil etmə qabiliyyətinə də malikdirlər. Onlara, çox saydakı yazılarında yol verdikləri qeyri-obyektiv mövqelərinə görə üz tutub, Hamletin sözləri ilə müraciət etmək istəyirsən;”Belə, qoca köstəbək, sən necə də cəld qazırsan.” Axı köstəbək kor-koranə yeri deşməklə məşğul olur, bəzi müəlliflər də həqiqətə göz yumub, tez-tez üzə çıxan elmi iş adı altında saxtakarlığa meyl etməkdən də çəkinmirlər.

Çox heyif ki, kimlərəsə xoş gəlmək xatirinə, tarixi saxtalaşdıranlar bu elmin özünün də hörmətdən düşməsinə.səbəb olurlar.Bığı əldə etmək əvəzinə, saqqalı da itirmiş olurlar. Burada ədəbiyyatda təmsil janrının banisi, b.e.ə.VI əsrdə yaşamış Ezopun bir təmsili yada düşür.Onun məcazi məna daşıyan əsərində köstəbək anasına, möcüzəli şəkildə görmək qabiliyyəti qazandığını elan edir. Anası onun qarşısına buxur dənəciyi qoyub, əşyanın nə olduğunu soruşur. Bala köstəbək deyir ki, bu daşdır. Anası onun əvvəlki tək kor olaraq qaldığına əmin olub, deyir :”Sən nəinki görmək qabiliyyəti qazanmamısan, hətta öz iy bilmə qabiliyyətini də itirmisən”. Çünki, buxur əslində iyi ilə məşhurdur və bu məqsəd üçün indi də xristian dini tədbirlərində istifadə edilir. Kor olanlarda isə adətən iy bilmə, intuitsiya güclənir, görmədən hərəkət etmək qabiliyyəti yaranır. Bəzi qələm sahibləri isə hakimiyyətə itaət göstərməkdə hədsiz canfəşanlıq edərək, elmi əsər əvəzinə surroqat məhsul buraxır və onunla həm də şöhrət qazanmaq istəyirlər. Zaman dəyişdikcə, nəinki zövqlər, hətta mövqelər də sürətli dəyişikliyə uğrayır, bəzən sarsılmaz qalmalı olan

•

prinsiplər belə, öz yerini iyrənc mimikriya daşıyıcılarlnın sifətinin biabırçı ifadəsinə verir. Buna isə yalnız təəssüflənmək lazımdır..

Müharibənin baş verməsinə gəldikdə, onun qarşısını almaq üçün səylər birləşsəydi, qüdrətli dövlətlər vahid cəbhədən çıxış etsəydilər, yəqin ki, bu cəhdlər uğur qazana bilərdi. Təəssüf ki, bu birlik yalnız müharibənin gedişində, nəhayət təhlükənin məhvedici olduğunun anlaşıldığı anda meydana çıxdı və xoşbəxtlikdən, arzulanan nəticənin də əldə edilməsinə səbəb oldu. Müharibədən əvvəlki dövrdə isə mənafelər üst-üstə düşmədiyindən, iki sistem arasında mövcud olan şübhə atmosferi alman natsizminə və yapon militarizminə qarşı mübarizənin təşkili imkanlarını sıfıra endirdi. İqtisadi depressiya, 1929-cu ildə Uoll Stritin süqut etməsi ilə başlanmaqla, Birləşmiş Ştatlara, müharibənin qarşısının alınmasında Millətlər Liqasının cəhdlərinə qoşulmağa imkan vermədi. Belə güclü dövlət iqtisadi depressiyanın təsiri ilə həm də yaponların və italyanların 1930-cu illərin sonlarındakı geniş təcavüz hərəkətlərinin qarşısını ala bilmədi.

Yaponlar ABŞ-ın Pyorl-Harbor hərbi dəniz bazsına 1941-ci ilin 7 dekabrında məhvedici hücum etdikdən sonra, sabahısı gün Amerika Yaponiyaya müharibə elan etməklə, II Dünya müharibəsinə girdi və onun qalibiyyətlə yekunlaşması üçün olduqca böyük iş gördü. Ümumi qələbədə ABŞ-ın rolunun kiçildilmə\si cəhdi də həqiqəti inkar etməkdən başqa bir şey deyildir. Amerika hələ Müttəfiqlikdən əvvəl Böyük Britaniyaya və SSRİ-yə müharibənin ilk anlarından hərbi, iqtisadi, siyasi və mənəvi yardım göstərmişdi. Prezident Franklin Delano Ruzveltin bu sahədəki xidmətləri təqdirə layiq xarakter daşıyırdı. Natsistlər və faşistlər isə ona nifrət edirdilər. İtaliya diktatoru Benito Musslini, onu nəzərdə tutaraq istehza qaydasına deyirdi ki, tarixdə gödək boylu və eybəcər dövlət başçıları olmuşdur, lakin heç vaxt hansısa bir dövlətə iflic adam rəhbərlik etməmişdir.

Təəssüf ki, müharibə dövründəki sıx və uğurlu müttəfiqlik qələbədən sonra uzun sürmədi və müharibədən əvvəlki bir-birinə qarşı inamsızlıqdan xəbər verən münasibətlər sistemi yenidən bərpa olundu. Uinston Cörcill 1946-ci ilin martında ABŞ-da, Missuri ştatının Fulton şəhərində çıxış edərkən SSRİ-ni ittiham edib, onun Şərqi Avropada sosialist sistemi yaratması cəhdini nəzərdə tutaraq demişdi: "Baltikdəki Ştettindən Adriatikdəki Triestə qədər qitədə Dəmir Pərdə salınmışdır". Əlavə etmişdi ki, məşhur Avropa şəhərləri və onların ətrafındakı əhali Sovet Sferasına düşmüşdür. Bunula da o, Soyuq Müharibəyə start verdi. Əvvəllər isə o, ümumi mübarizəni nəzərdə tutaraq, "Biz bütün dünyanı natsist tiraniyasının bubon taunundan xilas etmək və insan üçün bütün müqəddəs olanları müdafiə etmək üçün vuruşuruq" sözlərini işlətmişdi.

Soyüq müharibə isə az qala yarım əsr davam etdi, 1991- ci ilin sonunda SSRİ-nin dağılması nəticəsində meydana gələn Rusiya Federasiyası dövləti öz təhlükəsizliyini təmin etmək adı altında əvvəllər ümumi ailənin üzvü kimi bir yerdə mehriban yaşamış qonşu dövlətlərlə silahlı münaqişəyə əl atdıqda, Qərb dövlətlərinin

•

sərt cavab xarakterli münasibəti ilə üzləşməli oldu. Rusiya öz təhlükəsizliyinə qorxu yarandığına əsaslanaraq 2014-cü ildə Ukrayna ərazisi olan Krım yarımadasını tutdu. Səkkiz il sonra diplomatik həll yolunu bütünlüklə kənara ataraq, Ukraynanın rus dilli əhalisini müdafiə etmək bəhanəsi ilə onun  suveren ərazisinə 24 fevral 2022-ci ildə silahlı müdaxilə etdi.  Qanlı müharibə500 gündən çoxdur ki, davam etməklə səngimək bilmir. Vaxtilə qardaş hesab edilən iki slavyan xalqı bir –birilə qanlı cəbhədə vuruşmaqla, barışmaz düşmənə çevrilmişlər. Ukraynanın  xeyli sayda şəhəri, müəyyən fasilələrlə davam edən raket zərbəsi və aviasiya bombardmanı ilə xarabazara çevrilmişdir, şox sayda mülki insanların məhvinə səbəb oilmuşdur.

## Avstriya 1945-ci ildən sonra və ölkənin varlanma dövrü

Avstriya Respublikası da 27 aprel 1945-ci ildə elan edildikdə, onun torpaqları və xalqı bütünlüklə bədbəxtlik və mənəvi deqradasiya şəraitində idi. Bu ölkə, bu xalq daha çox tövbəsi gecikən cinayətkara bənzəyirdi. Avstriyanın Üçüncü Reyxdəki iştirakı yalnız fiziki, iqtisadi, mənəvi və siyasi sahədəki dağılmalar ilə, viranəliklə mükafatlanmışdı. On il sonra isə Avstriya dünyanın daha da çiçəklənmiş və təhlükəsiz ölkələrindən biri idi. 2006-cı ildə Avstriya yenidən Avropa İttifaqının prezidentliyi vəzifəsini daşıyırdı. Avstriya İkinci Respublikasının feniks quşu kimi 1945-ci ildəkindən dirilib qalxması, müharibədən sonrakı Avropada ən görkəmli nailiyyət timsallı əhvalatlardan biri idi.

1945-ci ilin mayının xaotik günlərindən birində  Amerika qoşunları Yuxarı Avstriyaya müdaxilə etdi. Monfilddə bir qəribə hadisə baş verdi. Yeniyetmə qız evlərinin qapısının döyüldüyünü eşidib, qapını açanda qara dərili afro-amerikan əsgərini görəndə, bu adamın qara sifətinə görə şok keçirdi. Qız qapını bağlayıb, pilləkənlə geri qaçdı. Natsist doktrinasına və mədəni düşüncəsinə görə, belə bir reaksiya zəruri idi. Hələ adamlar dəyişilməmişdi və işğalın yeni reallığından qaçmaq da mümkün deyildi.

Müttəfiqlərin rəyinə müvafiq olaraq Avstriya rəsmi qaydada azad olunmuş ölkə hesab olunurdu. Çünki natsist işğalından yaxasını böyük məğlubiyyət hesabına qurtarmışdı.

4 iyun 1945-ci il ilk Nəzarət Razılaşması ilə Müttəfiqlər Avstriyanı Müttəfiqlər Şurasının nəzarəti altına qoymuşdu, bunun üçün dörd hərbi zona yaradılmışdı və onlarda qalib dövlətlərin hərbi qüvvələri yerləşdirilməli idi. Avstriyada Sovetlərin amerikanların, britaniyalıların və fransızların işğal zonaları meydana gəldi. Almaniya özü də belə dörd zonaya bölünmüşdü, onlardan üçü sonralar birləşib Almaniya Federativ Respublikasını əmələ gətirdi və ölkənin şərq hissəsində isə Sovetlərin köməkliyi ilə Almaniya Demokratik Respublikası yarandı. Paytaxt Berlin şəhəri

•

sovetlərin zonasında olsa da, öz növbəsində müvafiq olaraq dörd zonaya bölündü, şəhərdəki Brandenburq qapısından şərqdə ADR-in paytaxtı yerləşirdi.

Qərbin məqsədi Qərbi Berlini iqtisadi və siyasi cəhətdən AFR-ə bağlamaq idi. Ona görə də 1948-49-cu illərdə Qərbi Berlinin bu meylinin qarşısını almaq üçün sovet işğal qüvvələri zonasında yerləşən həmin şəhərin qərb hissəsinin ərzaqla təchizatında çətinliklər yaratmağa cəhd edildi və bu, şəhər sakinlərinin aclığa məhkum edilməsinə bərabər ola bilərdi. ABŞ özünün hərbi yük təyyarələri ilə Qərbi Berlinə «hava körpüsü» təşkil edib, şəhərə ərzaq daşınmasında fasilə yaranmasına imkan vermədi. Sovet işğal zonası qüvvələrinin yaratdığı süni çətinliklər bununla da öz əhəmiyyətini itirdi.

Müttəfiqlərdən biri olan Sovet İttifaqı Avstriya ilə işğal edilmiş ölkə kimi davranırdı. Sovet hərbi rəhbərliyi öz qoşunları tərəfindən Avstriya qadın və qızlarının zorlanmasının və əhalinin qarət edilməsinin qarşısını almaq üçün az iş görürdü. Təkcə Vyanada 100 min nəfərə yaxın qadın zorlanmışdı. Rusiya zonası «onların administrasiyasının qəddarlıq məkanına» çevrilmişdi. Qərb əyalətlərinin fransız işğalı isə çox xoş münasibəti ilə fərqləndiyindən, müvafiq olaraq yaxşı qarşılanırdı. Daha pozitiv irəliləməni amerikanlar göstərirdilər. «Azad olunmuş» avstriyalılara əvvəllər şübhə ilə yanaşmalarına baxmayaraq, onlar Britaniya və Fransanın pozitiv münasibətinə uyğunlaşmışdılar və prezident Henri Trumenin administrasiyası daha çox Avstriyanın xeyriyyəçisinə çevrilmişdi. 1929-1933-cü illərdə ABŞ prezidenti olmuş və 1929-cu ildə start götürən Böyük Depressiyaya münasibətdə əslində laqüeydlik göstərdiyinə görə ən uğursuz dövlət başçısı sayılan Herbert Huver, o, prezidentliyindən əvvəl isə uğurlu homanitar tədbirlərin həyata keçirilməsinə başçılıq etdiyinə görə ad çıxarmışdı,1946-cı ilin aprelində Vyanada olmuşdu ki, şəhər sakinləri ilə amerikan korpusunun münasibətlərini  yüngülləşdirmək sahəsində cəhdləri təşkil etməklə, onların baş tutmasına nail olsun.

Marşall Planı (bu plan Qərbi Almaniyanın  müharibədən sonra iqtisadi cəhətdən dirilməsinə xidmət edən böyük maliyyə yardımı idi. ABŞ-ın Dövlət katibi Corc Marşallın adını daşıyırdı) ilk dəfə 1947-ci ilin iyununda rəsmiləşdi, Avstriyanın gələcək perspektivi üçün də bu tədbir mərkəzi rol oynadı. Sonrakı üç il ərzində Avstriya Avropa Sağalma Proqramından təqribən 1 milyard dollar məbləğində yardım aldı, bu adambaşına 137 dollar edirdi, Qərbi Almaniya ilə müqayisə etdikdə, orada adambaşına 19 dollar düşürdü. Bu fondların yarısı sənaye və infrastruktura lahiyələrinə investisiya olunurdu.

Avstriyalılar əsir götürülmüş köhnə natsistləri görməyə gəlirdi. Onlar vaxtilə Nasional Sosialist partiyasının üzvlüyündən olan faydaya görə sevinmişdilər. Avstriyanın özü də məcbur edilirdi ki, Üçüncü Reyxdə olan maddi rifah səviyyəsinə görə sevinsin. Əgər Avstriya alman natsizminin qurbanı idisə, o vaxt Avstriya natsistləri alman avstriyalılardan betər həqiqi qurbanlara çevrilmişdilər.

•

Şərq-Qərb soyuqluğunu həll etmək üçün Avstriya kansleri 1953-cü ildən İsveçrə modelində Avstriyanın bloklara qoşulmayana və ya neytral olmağa çevrilməsi ideyasından istifadə etməyə başladı. Qərbin məsləhətinin ziddinə, Avstriyanın baş naziri Moskvaya yollandı və tezliklə qarşılıqlı qəbul edilməli olan razılığın meydana çıxması baş verdi. Avstriya vəd etdi ki, neytral dövlət olacaqdır. 1955-ci ildə Yuxarı Belveder sarayında Dövlət müqaviləsi rəsmi olaraq imzalandı.

Hökumət müqaviləsinin imzalanmasından üç ay sonra işğal qoşunları Avstriyanı tərk etdi. 16 noyabr 1955-ci ildə Avstriya parlamenti vəd etdiyi kimi, daimi (silahlı) neytrallıq barədə qanun qəbul etdi.Sovet İttifaqına dəymiş ziyanı kompensasiya etmək üçün, ona 150 milyon dollar pul verdi.



Parlament binası

1955-ci illə 1970-ci il arasında Avstriyanın nailiyyətlərini inkişafın və daimi sülhün modeli hesab etmək olardı. 1950-ci ildə burada böyük sənaye böhranı baş vermişdi. Kommunistlər Vyanada baş tətil elan etmişdilər, lakin tətil az sonra söndü.

Avstriyanın Qərbdə nüfuzu böyüyürdü. Nikita Xruşşovla Con Kennedinin 1961-ci ildə Vyanadakı görüşü, iki ideoloji cəbhənin liderləri olan SSRİ və ABŞ arasında bir körpü rolunu oynamasına görə Avstriyanın imici xeyli parlaqlıq əldə etdi.

Avstriyanın mədəni irsi dondurulduğundan, Habsburq imperiyasına olan nostalji hissləri inkişaf edirdi. Yüksək mədəniyyət Avstriyanın kimliyində mühüm əhəmiyyət  kəsb edirdi. Çin xalqının mədəni birliyi imperiyanın böyük ərazisini min

•

illər ərzində qoruyub saxladığı kimi, Habsburqlar dövründə inkişaf edən mədəniyyət Avstriyanı bir ölkə kimi tanıtmışdı.

Vyana Dövlət Operası 1955-ci ildə «Fidelio» operası ilə yenidən açıldı. Avstriya qış idmanının qəribə bir məkanına çevrildi. 1964-cü ildə İnnsbrukda Qış Olimpiya oyunları keçirildi. Avstriyanın turizm imici də Brodvey və Hollivud tərəfindən dəstəkləndi. Brodvey teatrında «Musiqinin səsi» tamaşası qoyuldu. 1965-ci ildə çəkilən film versiyası daha böyük hitə çevrildi. Film Zalsburqa həsr olunmuş kinematoqrafik oda və həmçinin ətrafdakı Avstriya Alp mənzərəsinə himn rolunu oynadı. Əsər «igid kiçik Avstriyanın» alman natsizminə qarşı mübarizəsindən bəhs edirdi və Qərbdə Avstriyanın pozitiv imicinin yaranmasına xidmət etdi.

## Xeyir-dua verilmiş ada

1971-ci ildə Avstriya prezidenti Frank Yilas dövlət başçısı kimi ilk dəfə İtaliyaya dövlət səfəri etdi. Bu müharibədən sonrakı Avstriyanın mövqeyinin xeyli dərəcədə dəyişilməsinin bir əlaməti idi. Bundan sonra Cənubi Tirol məsələsi həll olundu. İtaliyaya qarşı qəzəb bir az əvvəl hətta terrorist hücumlarına aparıb çıxarmışdı. İtaliyaya dövlət səfəri Vatikana olan dövlət səfərindən sonra baş tutmuşdu. Papa VI Pavel Avstriya barədə «xeyir-dua qazanmış ada» kimi tərifli sözlər deyə danışmışdı. Papanın Avstriya barədəki xoş sözləri başa düşülən idi. Avstriya cəmiyyəti müqayisədə hələ də konservativ olaraq qalırdı, kilsə millətin həyatında ağır çəkili amil kimi qiymətləndirilirdi.

Avstriyanın xeyir-dua qazanması hansısa bir mərhəmətin nişanəsi və ya ona xüsusi qayğı göstərilməsinin əlaməti deyildi. Avstriyalılar belə bənzətməni fədakarlıq səviyyəsində olan öz zəhmətləri ilə qazanmışdılar. Həm də dövlətin, keçmiş səhvlərdən ibrət götürməsinin nəticəsində düzgün, həm də tarazlaşdırılmış siyasət aparması ilə ölkə sənaye istehsalı və kommersiya hesabına böyük iqtisadi yüksəlişin əldə edilməsinə nail olunmuşdu. Monastır hərəkatının ilk təşəbbüskarı Müqəddəs Benediktin rahiblərə ünvanlanmış və sonralar onların ənənəvi devizinə çevrilmiş "Ora et Labora!"-"Dua et və işlə!" sözləri elə bil ki, avstriyalıların rəhbər tutduqları bir sloqana çevrilmişdi. Katoliklər kimi yəqin ki, onlar dua edirdilər, işləməyə gəldikdə, zəhmətə münasibətdə isə Avropanın çox xalqları onlara həsəd apara bələrdi. Qısa müddətdə Avstriya iqtisadi inkişafda böyük uğurlar qazanmaqla, qitə ölkələrinin təəccübünə səbəb olmuşdu.

Avstriya tarixinin ironiyası kimi 1918-ci ildən sonra məhv edilən yəhudi burjuaziyasının nümayəndəsi olan Bruno Krayski baş nazir oldu, on ildən çox bir müddətdə onun liderliyi Krayski erası kimi məşhurlaşdı. 1911-ci ildə Vyanada doğulan Krayski 1926-cı ildə Sosial Demokrat partiyasına girdi və 1935-36-cı illərdə

•

siyasi dustaq kimi məhbəsdə yatdı. 1938-1945-ci illərdə o, İsveçdə qaçqın kimi yaşadı. 1959-60-cı illərdə o, Xarici İşlər naziri və 1956-cı ildən parlamentin deputatı oldu, bu dövrdə görkəmli xarici siyasət ustasına çevrildi. 1970-ci il seçkilərində özünü autentik avstriyalı kimi təqdim etdi, onun yəhudi əsilli olması da birbaşa vurğulanmasa da, təmiz rol oynadı. O, özünü yeni Avstriyanın modern lideri kimi göstərdi. Lakin o, parlamentdə deputatların çoxluğunu qazana bilmədiyindən, azlıq hökumətini formalaşdırdı. 1971-ci ilin oktyabrındakı seçkilərdə mütləq çoxluğu qazandı. Avstriya tarixində ilk dəfə belə bir şey baş vermişdi – 12 ildən çox bir müddətdə Avstriya sosialist idarəçiliyi altında yaşamışdı.

O, iqtisadi inkişaf hökumətinin onurğa sütununu yaratdı. 34 yaşlı maliyyə naziri iqtisadiyyatın idarə edilməsinin tərəfdarı idi. Krayski rejiminin sosial islahat gündəliyi problemlərə tədricən yanaşma qaydasında idi. Təhsil siyasəti partiyanın cəhdləri arasında mərkəzi yer tutdu.

Vətənindəki bütün uğurları içərisində Krayski xarici siyasətinə görə daha yaxşı tanınmışdı. O, 1950-ci illərdən Avstriyanın effektiv xarici siyasətini aparırdı. 1966-cı ildə Xarici işlər naziri olan Kurt Valdhaym Krayskinin baş xətti üzrə gedirdi. Bu vaxt tam məsuliyyət daşımaqla, Krayski «kiçik Avstriya»nı başlıca beynəlxalq oyunçuya çevirməyi bacardı.

Krayskinin Avstriyanın fəal neytrallığı üzrə ambitsiyaları Mərkəzi Avropadan uzaqlara gedib çıxdı. 1979-cu ildə Vyana Birləşmiş Millətlər Təşkilatının üçüncü iqamətgahı oldu. Vyananın şimal-şərq ətrafında tikilən geniş kompleks BMT şəhəri kimi Birləşmiş Millətlərin Baş katibi olan Kurt Valdhayma təhvil verildi.

Krayski Orta Şərq problemlərinə də dərindən cəlb olunmuşdu. Vyanada OPEK-in baş ofisi açıldı. Həm də Krayskinin yəhudi ətrafı başlıca amilə çevrilmişdi, onun Orta Şərqdəki diplomatiyasının məqsədi İsraillə, Fələstin də daxil olmaqla ərəb qonşuları arasında sülh yaratmaq idi. Ölkədə turizm həm qışda, həm də yayda genişlənirdi. Musiqi və mədəni festivallar çiçəklənməkdə davam edirdi. Mədəni və intellektual həyat həmçinin maraqlı inkişafa çatdı.

Həmin dövrdə Fransa prezidenti olmuş Jiskar d`Esten hökumət rəhbəri kimi AFR kansleri Helmut Şmidtin özünün razılığını aldıqdan sonra onun yəhudi olduğunu açıb demişdi. Fransa prezident onu da əlavə etmişdi ki, Hitlerin natsist məkanına çevirdiyi iki alman dövlətinin eyni vaxtdakı kanslerləri yəhudilər idi. Bunlardan biri 1970-83-cü illərdə Avstriyanın federal kansleri Bruno Krayski, digəri isə Almaniya Federativ Respublikasının 1974-1982-ci illərdəki kansleri Helmut Şmidt idi. Hitlerin məğlubiyyətindən və Holokostdan üç onillik sonra natsistlərin vaxtilə əksər hüquqlardan məhrum etdiyi yəhudilərin nümayəndəsi iki qonşu dövlətin hökumət başçılığına yüksəlmişdi. Hitlerin iyrənc əməlləri öz layiqli cavabını aldığı kimi, təqib və məhv edilən yəhudi mənşəli adamlar həm Almaniyada, həm də Avstriyada ən ali siyasi zirvəyə qalxmağa müvəffəq olmuşdular.

•

Valdhaym işi isə hər şeyi dəyişdi.1985-ci ildə Kurt Valdhaym Avstriya prezidentliyinə namizəd oldu və onun müharibə dövründə Hitler ordusunda xidmət etməsi üzə çıxdı. O, Avstriyanın Xarici işlər naziri və Birləşmiş Millətlərin Baş katibi olmuşdu. O, Krayski ilə birgə işləmişdi, lakin Valdhaymı amerikan sağları sevmirdilər, onun Sovetlərin və ərəblərin xeyrinə olan mövqeyini İsrail tərəfdarları olan qruplar da bəyənmirdilər.

Sosialist strateqlərinə 1985-ci ildən Valdhaymın «qəhvəyi keçmişi» məlum idi. Ciddi təhqiqat başlandı. Bir il sonra mart ayında Ümumdünya yəhudi Konqressi bəyanat verdi ki, Kurt Valdhaym II Dünya müharibəsində Balkanlardakı hərbi cinayətlərdə iştirak etmişdir. Bu onun rəsmi versiyası ilə kontrast təşkil edirdi. Bu məsələyə həsr olunmuş materiallarda göstərilirdi ki, Valdhaym öz keçmişi barədə yalan danışmışdır və alman müharibə cəhdlərinə, o, heç vaxt etiraf etmədiyi halda, əslində olduqca çox yaxın cəlb olunubmuş.

Ona olan hücumlara Avstriyada bircə cavab verildi ki, «Biz avstriyalılar kimi istəyiriksə, onu seçirik. Valdhaym həmişə olduğundan indi daha böyükdür». Avstriyalılar Valdhaymı həmin vəzifəyə seçilməsi lehinə səs verdilər. 1986-cı ilin iyulunda o, prezident seçildi, bir gün sonra isə buna görə kansler, öz vəzifəsindən istefa verdi.

Valdhaym işinə görə onun özü isə vəzifədən getməkdən imtina etdi, avstriyalılar anladılar ki, daxili qərarlar nəticədə xarici siyasətə də təsir göstərir. Qərb hökumətləri Valdhaymla qeyri-rəsmi görüşlərə qadağa qoydular və onun altı illik prezidentliyi dövründə dövlət başçısı kimi getdiyi ölkələr Vatikan, Kipr və bir sıra ərəb dövlətləri oldu. 1987-ci ildə müharibə caniliyində şübhəli bilinənlər barədəki Birləşmiş Ştatların Müşahidə siyahısına Valdhamın da adı salındı və ona ABŞ ərazisinə girmək qadağan edildi.

Avstriyada hərəkat davam edirdi. Valdhaymın prezident seçilməsindən beş il sonra parlamentin üzvü çıxış edərkən bunu qəbul etməyi vacib saydı ki, avstriyalılar keçmişdə yaxşı və pis olanlar üçün kollektiv məsuliyyətə şərik olmalıdırlar.

Vaxtilə Avstriyanı işğal etmiş, Avropanın çox sayda dövlətlərinin ərazilərini tutmuş Hitler Almaniyası ədalətin bərqərar olması kimi, ağır məğlubiyyətə düçar olmaqla, bu dəfə öz ərazilərinin bütünlüklə işğal olunmasına “nail” oldu. Səkkiz onilliyə yaxın dövrdə birləşmiş vahid Almaniya, öz ərazisində Almaniya Federativ Respublikasının və Almaniya Demokratik Respublikasının yaranması ilə əks mövqelərdə dayanan iki dövlətin timslında yenidən parçalandı. Vaxtilə milli birlik şüarı altında Hitler Avstriyanı anneksiya etmiş, Çexoslavakiyanı parçalamışdı. II Dünya müharibəsindən sonra isə almanların cəzalandırılmasının bir növü kimi, dövlət təkcə öz birliyini itirmədi, həm də az sonra bir-birinə yad münasibət bəsləyən iki ölkəyə çevrildi. Bəlkə də bu, onun tsiklop ambitsiyalarına görə əlavə bir qisas növü idi. Hitler natsizminin törətdiyi, həmçinin özlərinin də əsasən kütləvi şəkildə bilavasitə iştirak etdikləri vəhşilikləri sonralar bütünlüklə məhkum edən almanlar bu

•

yeni milli  ayrılma bədbəxtliyinə lap əvvəllərdən dözə bilmirdilər və ADR- dəki hər cür təqiblərə baxmayaraq əhalinin müəyyən hissəsi öz evini tərk edib,  AFR- də nisbətən firavan və həm də insan haqqlarının məhdudlaşdırılmasına yol verilmədən, sərbəst şəraitdə yaşamağa can atırdı. Nəhayət, 1989- ci ildə onları  ayıran "Berlin səddi" uçuruldi (bu divar 1961 –ci ildə Xruşşovun təşəbbüsü ilə  Şərqi Berlin sakinlərinin Qərbə qaçmaq cəhdlərinin qarşısını almaq üçün tikilmişdi və fəth edilə bilməyən bir qaya hesab olunurdu) və iki yad sayılan ölkələrin birləşməsi baç verdi. Alman xalqına yönəldilmiş bu nisbi haqsızlıq, haqlı olaraq onun natsist rəhbərliyinin cinayətlərinə görə cəza kimi meydana gəlsə də, aradan qaldırılmalı oldu.

Əslində bu nəticə çar Solomonun mürəkkəb işi mühakimə etmə təcrübəsinə bənzəyirdi. Solomon da uşağı özününkü etməyə çalışan iki qadının, onlardan biri tam haqlı idi,  mübahisəsini müdrikliklə həll etməyi bacarmışdı və körpənin iki yerə parçalanmasına yol verməmlşdi. Yaxşı ki, dörd onillik sonra əvvəlki düşmənçilik yaddan çıxarıldı və dünya da Almaniyanın birləşdirilməsinə etiraz etmədi. Solomonun müdrikliylnə həsr okunmuş hekayəti  Bibliya belə təsvir edir :

"Bir gün iki fahişə qadın gəlib, çar Solomonun qarşısında özlərini təqdim etdilər. Onlardan biri dedi: "Əlahəzrət, bu qadınla mən eyni evdə yaşayırıq və mən o evdə  bir oğlan uşağı doğdum. Oğlum doğulandan iki gün sonra, o da həmçinin oğlan uşağı doğdu. Evdə yalnız biz ikmiz idik, başqa heç kəs yox idi. Sonra bir gecə o, öz körpəsini təsadüfən yanının altında qoyması nəticəsində, uşaq boğulub ölübmüş. O, həmin gecə ərzində, mən yatan vaxt oğlumu mənim yanımdan götürüb, öz çarpayısına aparmış, sonra isə ölü uşağı mənim çarpayıma qoyubmuş. Sonrakı  günün səhəri mən oyananda körpəni əmizdirmək istədim və gördüm ki, o, ölmüşdür. Mən ona daha yaxından baxdım və bildim ki, bu mənim uşağım deyildir. "

O biri qadın isə dedi: "Yox! Diri uşaq mənimkidir, ölən isə səninkidir."

Birinci qadın cavab verdi:  "Yox! Ölən uşaq səninkidir, sağ olan isə mənimkidir" Onlar bu qaydada çar qarşısında mübahisə etdilər.

Sonra çar Solomon dedi : " Hər ikiniz iddiia edirsiniz ki, sağ olan uşaq onunkudur və ölü uşaq isə digərinə məxsusdur." O, qılınc gətirməyə adam göndərdi və qılınc gətiriləndə dedi : "Diri uşağı iki yerə bölün və bədənin kəsilmiş yarısını hər iki qadına verin". Həqiqi ananın ürəyi öz oğluna məhəbbətlə dolu olduğundan, çara dedi :  "Əlahəzrət, uşağı öldürməyin, bu qadına verin". Lakin digər qadın dedi : "Onu heç birimizə verməyin. İşinizi görün və onu iki yerə bölün"

Bu vaxt Solomon dedi : " Uşağı öldürməyin! Onu birinci qadına verin, uşağın həqiqi anası odur." (Good Neüs Bible. The first book of Kings. 3: 16-28 )

Soolmonun müdrikliyi ədalətin zəfər çalmasına səbəb oldu və həm də onun şöhrətini minillər ərzində yaşatdı.

Alman natsistləri, Hitler Bibliyada təsvir olunan həyasız fahişə kimi təkcə bir uşağa haqsızlıqla sahib olmağı deyil, çox saydakı xalqları və yüz milyonlarla insanı öz əsarəti altına salmaq, qul etmək istəyirdi. Müttəfiqlərin orduları öz qələbələri ilə

•

ədalətin bərpası və zəfəri üçün buna imkan vermədilər, natsizmin vəhşilikləinə tam və birdəfəlik sədd çəkdilər. Natsizmin öz cəzası kimi Almaniya müharibədən sonra parçalanmalı oldu. Dörd onillik sonra alman xalqı özünün ayrı şəkildə yaşamasına və doğma ölkəsinin bölünməsinə dözməməsi nəticəsində, xalqın arzusuna və iradəsinə müvafiq olaraq, Almaniya yenidən vahid dövlətdə birləşdi. Çar Solomon bədbəxt ananın günahsız körpə uşağının iki yerə bölünməsinə razılıq vermədiyi kimi, iki dünya müharibəsindən, xüsusilə ikincisindən artıq ibrət dərsi götürən almanlar bölünmüş şəraitdə yaşamağın sona çatdığını hiss edib, ikinci dəfə və yenidən məhz dinc əsasda birləşməyi vacib saydılar.

Almaniyanın qitədə geniş təcavüzü ilə başlanan II Dünya müharibəsi isə atalarını döyüşdə itirmiş milyonlarla uşağın yetimlərə çevrilərək, ağlr və əzablı həyat sürməsinə səbəb oldu. Çar Solomon bir uşağı anasına qaytarmaq yolunda müdrikliyini nümayiş etdirdisə, Müttəfiqlər isə birgə səyləri ilə dünya xalqlarının əksəriyyətinin arzularını həyata keçirərək, Hitler natsizminin insanlığa zidd olan dəhşətlərinə öz qələbələri ilə son qoydular.

## Epiloq

Avstriya üzərinə tarix ağır çəkidə çökmüşdür.Bu onun tarixi hakimiyyət axtarışı əhvalatları idi, həmin axtarışda Habsburq sülaləsi mərkəzi rol oynamalı idi. Habsburqlar feodal aqlomerasiyanı tutmaqda əsaslı qaydada uğur qazanmışdı və imperial hakimiyyət də yüksəliş üçün ölkəni bazaya çevirmişdi. İmperial Avstriyasının parlaq uğuru buna baxmayaraq efemerial idi və imperial modeli artıq əldən gedəndə, modern milli dövlət kimi Avstriya yenə uğur qazandı. Yüksək milli sülalə hakimiyyəti kimi, Habsburq monarxiyası anorrmala çevrildi, onun «proqressin» səhv tərəfində olmasını avropalıların əksəriyyəti anladı.

Milli dövlət erasında Avstriya və avstriyalılar sonrakı problemlərin arasına düşdü. Avstriyanın alman kimliyi barədə XIX əsrdə Monarxiya qərara gəlməyəndə, bu, hiyləgər bir problemə çevrildi, monarxiya süqut etdi və Avstriya öz növbəsində Alman Avstriyasına və Avstriya Respublikasına çevrildi. Bu problemin həlli 1945-ci ildə ayrıca avstriyalı milli kimliyinin qurulması və ona uyğunlaşması ilə tanındı. Bununla Avstriya «normal» milli dövlətə çevriləndə, Avropanın müharibədən sonrakı tarixi əks istiqamətdə getməsi ilə, o da müstəqil dövlət kimi müasir Avropa İttifaqına doğru irəlilədi.

Avstriya tarixi mürəkkəb dialektik inkişaflarla xarakterizə olunurdu. Reformasiya ilə Kontr Reformasiya arasında XVI və XVII əsrlərdə gedən dramatik çəkişmə və ya XVIII və XIX əsrlərdə isə yeni meydana gələn rəqabət baş vermişdi.

•

Avstriyalılar həm də öz irsləri ilə özlərini rahat hiss etmirdilər, çünki irs, kiçik bir milli dövlət olan müasir Avstriya üçün olduqca böyük idi. XX əsrin ikinci yarısının ilk illərindəki Avstriya dövləti olduqca varlı və şöhrətli babanın kasıblaşmış və ehtiyac kimi dövrün damğasını gəzdirməklə, yoxsulluğun nə olduğunu aydın dərk edən və bir az əvvəl düşdüyü vəziyyətdən dəhşətə gələn fağır nəvəyə bənzəyirdi. İrs həm də yüksək milli xarakteri, çoxmillətli olması və çox etnik müxtəlifliyi ilə seçilirdi. Bu irs demək olar ki, dünyanın bütün hissələrinə genişlənmişdi. Attsek hökmdarı Montesumanın lələkdən olan tacı Mexikoda deyil, Vyanada idi, onu hədiyyə kimi ispan konkistadorları Habsburq kralına vermişdilər. Əks qaydada Avstriya mədəni irsinin parlaq hissələri yalnız 1938-ci ildən sonra dünyanın başqa tərəflərinə götürülməklə xilas edilmişdi. Müasir dünyada Avstriyanın əldə etdikləri eksponatların əksəriyyətinin kökü Vyanada deyil, dünyanın başqa şəhərlərində idi.

Güman ki, avstriyalılar Avstriya tarixinin böyüklüyünün nə demək olduğunu anlayırdılar.

2006-cı ilin yanvarında Avstriyada nə vaxtsa yaşamış ən böyük insan olan Volfqanq Amadey Motsartın anadan olmasının 250 illiyi bayram edildi. Motsart isə əslində,avstriyalı deyildi, onun ilk göz açdığı Zalsburq həmin vaxt Avstriyanın tərkibindən kənarda idi. Motsart öz kamil karyerasının əksəriyyətini on il ərzində yaşadığı Vyanada keçirmişdi, Bethoven də onun ölümündən sonra Vyana sakini olmuşdu, ancaq alman bəstəkarı olaraq qalırdı. Onlar kosmopolit Avstriyasının qiymətli irsi idilər. Motsart, həqiqətən, bir model idi, bugünkü Vyanada da hər yerdə Motsartın heç də real olmayan, virtual izinə, portretlərinə rast gəlmək mümkündür. Motsartın gur saçlı portreti istənilən əmtəəni tez satılan mala çevirir. Burqqarttendə isə Motsartın möhtəşəm heykəli ucalır.

Motsart məşhur bəstəkar, görkəmli musiqiçi olmaqla yanaşı, frimason idi, Maarifçilik tərəfdarlarından birinə çevrilmişdi. O, həmçinin Venetsiyada məşhur qadın düşkünü kimi tanınan və macəralar sahibi olan Kazanovanın dostu idi.

•




Kursalon. İohann Ştraus və Motsart konserti

Böyük fransız heykəltəraşı Ogyüst Roden 1911-ci ildə onun büstünü yaratmışdı. Mərmər daşdan boylanan bəstəkarın başı ona həsr edilən esse olsa da, əslində, yəhudi bəstəkar Qustav Malerin cizgilərini əks etdirirdi. Axı iki il əvvəl Roden onun da bürüncdən olan büstünü yaratmışdı. «Əbədi bahar» kimi qeyri-adi məhəbbət himni təsiri bağışlayan heyranedici kompozisiyanın ecazkarlığını nümayiş etdirən bir dahi müəllifə belə xətaları bağışlamaq olar. Böyük fransız heykəltəraşı Ogyüst Roden dünyada şöhrət tapmış «Cənnət qapısı» əsərini, «Mütəfəkkiri» heykəlini, «Ədəbi bahar» adlı məhəbbətin gur coşqunluğunu təsvir edən mərmər və bürünc kompozisiyalar yaratmışdı. Yubiley şənliklərinə gəldikdə, Avstriyanın sərhədlərindən kənarda olanlar da, onun daxilində yaşayanlarla birlikdə  Motsarta həsr olunmuş bayramda göstərdilər ki, onlar dahi həmyerliləri qarşısında öz borclarını ləyaqətlə yerinə yetirirlər.

Avstriya böyük keçmişə malik olan indi kiçik, olduqca müasir Avropa ölkəsidir. Onun öz tarixinin çox saydakı səhifələri ilə fəxr etdiyi kimi, kiçik zamanı əhatə etsə də, utancaqlıq bəxş edən əlamətlərlə dolu bir həyatı da yaşamalı olmuşdur. Ona görə də Avstriya və ayrıca avstriyalıların tarixinə səyahət maraq kəsb etdiyindən, nəzərə çarpan cəhətlərə, yəqin ki, oxucular da müəyyən həvəslə yanaşacaq, onun əhvalatlarına qiymət vermək təsadüfünə heç də laqeyd qalmayacaqlar.

Biz Vyanada 2022-ci ilin Milad bayramı günlərində olduq. Vaxtilə mən Parisdə, bir az əvvəl isə Praqada Milad bayramı vaxtı olmuşdum. Paris Miladı qeyd edəndə öz gözəlliyini, bəlkə də, dəfələrlə artırmışdı. Yelisey çölü avenyüsündə ağaclar kiçik lampalarla elə bəzənmişdi ki, Afrikada gördüyüm flogiston ağacını yada

•

salırdı, onların çiçəkləri od saçır, işıq verir. Burada maşınla gedəndə Lido gecə klubunun yaxınlığında küçənin yuxarısından asılmış güzgü parçalarından olan şarlar fırlandıqca projektorlardan düşən işıq, güzgüdən bərq vurur, ətraf binaları, yolun döşəməsini gur işıq hissələrinin burulğanına çevirirdi. Hərəkət etdikcə bu qəribə mənzərəli mağaranın, tunelin qurtarmasını arzu edirsən, çünki işıq seli fantastik, sənə məlum olmayan bir sehrli mənzərə yaradır. Parisin binaları gül-çiçəklərlə, illüminasiya ilə elə bəzədilmişdi ki, toy üçün özünə hər cür yaraşıq vermiş gəlinə bənzəyirdi. Buradakı Milad bayramı günləri, bahalı şampan şərabının yaratdığı sevinc və şadlıq hisslərinin coşğunluğunu yada salırdı.

Praqanın da bayram libası Parislə müqayisə olunmasa da, nisbətən kasıblıq təsiri bağışlasa da, şəhərin simvolu sayılan Karlov Mosta yaxın olan küçələri, meydanları işıqla, elektrik lampaları ilə yaxşı bəzədilmişdi. Bir kiçik meydanda iki hündür, ingilislərin Christmass tree ( Mövlud ağacı), rusların yolka adlandırdıqları ağac oyuncaqlarla və kiçik lampalarla bəzdilmiş bir libasa qərq olmuşdu, onların zirvəsində beş guşəli ulduz parlayırdı. Küçələr qarlı, həm də onun əriməsindən əmələ gələn lehməli olmasına baxmayaraq, güclü insan axını ilə dolmuşdu, adamların çoxluğundan piyada hərəkətdə ilk dəfə tıxaclarla rastlaşmalı olmuşduq. Soyuq, şaxtalı havaya baxmayaraq, axşamlar şəhər sakinləri və turistlər sayı xeyli çoxalmış açıq kafelərdə, Parisdəkindən fərqli olaraq elektrik sobaları ilə yuxarıdan o qədər də yaxşı qızdırılmayan terraslarda yeyib-içirdilər. Onlardan ətrafa əsl bayram əhval-ruhiyyəsi, şadlıq hissləri yayılırdı.

Etiraf etməliyəm ki, bunların heç birini Vyanada görmədik. Axı Vyana katoliklər ölkəsinin paytaxtıdır, mən orada Parisin şən, parlaq mənzərəsini görəcəyimə ümid bəsləyirdim. Lakin yanıldığım qənaətinə gəldim. Yaşadığımız otelin foyesi istisna olmaqla, şəhərdə bol bəzəkdən əsər-əlamət yox idi, tək-tək gözə dəyənlər Türkmənistanın saksaul ağaclarını yada salırdı, bir-birindən çox aralı idi. Bəlkə də, iqtisadi böhran, pandemiyanın vurduğu maddi zərbə şəhərin bayrama layiqincə hazırlaşmamasına da öz təsirini göstərmişdi. Avstriyalıların praqmatizmini də yaddan çıxarmaq olmazdı.

Ancaq inanmaq olmurdu ki, qədim katolik şəhəri olan Vyana müqəddəs bayram sayılan bu Allah oğlunun- xristianların sitayiş etdiyi Üçlüyün biri olan, bizim eranın I əsrinin başlanğıcında meydana gələn və onun adı ilə adlanmış dinin banisi İisus Xristosun anadan olduğu günün qeyd edilməsinə belə laqeydliklə yanaşırlar. Axı Müqəddəs Roma imperatorları olan Habsburqlar Romada papa tərəfindən taclanmalarını böyük şərəf hesab edirdilər. Bu tədbir əsasən Vatikanda, Müqəddəs Pyotr kilsəsində (Basilica de San Pedro-da) keçirilirdi. Möhtəşəm məbəd Renessans dahiləri tərəfindən inşa edilməklə, həm də İisusun baş apostolu və həmçinin Romanın ilk yepiskopu (papası) sayılan Müqəddəs Pyotrun adını daşıyır. Yəqin ki, Vyananın qonağı olan digər katoliklər bayrama belə məhəl qoylmamasını heç cür anlamazdılar,

•

bir halda ki,  bu,  hətta İslam dininə sitayiş edənlərin də təəccübünə və təəssüf hissinə səbəb olmuşdu.

Başqa bir izahı güzəşt xatirinə, qəribə də olsa, yəqin ki, tapmaq olardı. Vyana öz gözəlliyi ilə, möhtəşəm sarayları, əzəmətli binaları, fəvvarələri və cazibədar heykəlləri ilə öyünə bilər. Yəqin ki, şəhər tarixin yadigarı olan bu gözəlliklərin kifayət olduğunu hesab etdiyindən, əlavə bəzək-düzəyə vaxt və vəsait sərf etməyi lazımsız sayır. Axı gözəl xanımlar da təbiətin ona bəxş etdikləri ilə daha çox öyündüklərindən daş-qaşa, sifətin makiyajına o qədər də əhəmiyyət vermirlər. Lakin yüksək zövqdən xəbər verən azacıq süni gözəllik əlavələri də təbii olanları tamamlamağa, gözə çarpdırmağa kömək edir. Vyana meriyasının isə hakim Xristian dininin yaradıcısının doğum gününü (Miladı) təmtəraqsız keçirmək qərarına heç də haqq qazandırmaq mümkün deyildir.  Ancaq bir cəhəti də etiraf etmək vacibdir ki, Vyananın küçələrini dolaşdıqca, tarixin iyini hiss edirsən.

Xristianlar, xüsusən katoliklər üçün Milad günü müqəddəs bayram hesab olunur, hamı ona xüsusilə hazırlaşır, hədiyyələr daşqını baş verir. Bayram, hər bir şəhər üçün zahiri əlamətini özünü bəzəməkdə, adi günlərdən fərqli olan libasa bürünməkdə ifadə edir. Daxili əlamət isə kütləvi şənlik, şadlıq əhval-ruhiyyəsidir. Bu iki əlamət birlikdə bayramı doğrudan da ilin çox fərqlənən bir dövrünə çevirir. Nədənsə, Vyana bu həqiqətləri ötən ilin Milad bayramında lazımınca nəzərə almamışdı.

Lakin Vyana sadə bir şəhər, ya paytaxt deyildir. O, yaşı əsrlərlə ölçülən qədim şəhər olsa da, öz cavanlığını, şux gəncliyə xas olan xüsusiyyətlərini qoruyub saxlayır. Dunayın layla dediyi, ona həsr olunan valsda ruhən incəliklə fırlanan şəhər öz möhtəşəmliyi ilə adamda onsuz da bayram əhval-ruhiyyəsi yaradır və biz də onu məhz belə hisslərlə tərk etdik.

**SON**

**12 iyul 2023-cü il**

•

# "Əziz dost" haqqında söz

Mən son vaxtlar  kənd prozası üslubunda yazılmış əsərlərin tanınmış müəllifi olan yazıçı dostumla tez-tez məktublaşırdım. Bizim epistolyar janrımız adətən ədəbiyyata həsr olunurdu, çünki dostum bu məsələdə özünü at üstündə olan Orta Əsrlər Avropasının cəngavəri kimi hiss edirdi.  Son məktubunda o, sözün qeyri-adi gücü, qüdrəti haqqında söhbət açır və mənim bu barədə ötən məktubda söylədiklərimin, əsasən, şifahi sözə, nitqə, natiqlik qabiliyyətinə aid olduğunu göstərməklə, sözü öz əritmə sobasından keçirib, onu artıq izafi qarışıqlardan təmizləyərək qiymətli metal şəklinə salan yazılı ədəbiyyata münasibətimi davam etdirməyi lazım sayırdı. Qeyd edirdi ki, sən düzgün qeyd edirsən ki, şifahi ədəbiyyat, folklor qədim insanın təxəyyülünün, istedadının, yaradıcılığının inkişafına böyük təsir göstərməklə yanaşı, müəyyən hədlərdə dayanmış, onu otüb-keçə bilməmişdir. İnsanın şüuru, ağlı, düşüncəsi artdıqça, onun bədii təxəyyülü genişləndikcə özünə yeni, daha geniş meydan axtarmağa başlamış və onu məhz, yazılı ədəbiyyatda tapmışdır.

Əlbəttə, qədim yunanlar miflərlə yanaşı, Homerin "İliada" və "Odisseya"sından qidalanmışdılar, hər bir mədəni avropalı öz beşiyinin başında bu iki ölməz poemanın nəğmələrini eşitmiş və dünyanı qavramağa, dərk etməyə bu əsərlərin ölməz sətirlərini mənimsəməklə başlamışdır. Orta Əsr ərəbinin ən böyük sevinc mənbələrindən biri də "Min bir gecə" nağılının sehrli əhvalatları, eşq macəraları olmuşdur. Qədim skandinavlar və almanlar xoşbəxt dünyalarını allah Odinin səltənətində, Nibelunqlar haqqında nəğmələrdə axtarmışlar. Qədim yəhudilər və semit dilli xalqlar bu xalqın yaratdığı böyük inçidən - Bibliyadan təkçə dini inam üçün deyil, həm də qeyri-adi təsir gücünə malik olan bir bədii əsər kimi istifadə etmişlər. Qədim şumerlər "Qilqameş dastanı"nda yerüstü həyatda əbədi yaşamaq mümkün olmasa da, gəncliyi qaytarmaq arzusu ifadə edilmişlər. Qədim misirlilər Ra, Amon və Aton adlandırdıqları allahlarının köməyi ilə Bibliya tərəfindən faraon adlandırılan çarlarının ilahiliyə yüksəlməsinə cəhd göstərmiş, qədim yunanlar Heraklı əlçatmaz qəhrəmanlıq, cəngavərlik və igidlik zirvəsinə qaldırmış, ölümündən sonra yenə allahlar tərəfindən onların səltənətinə aparıldığını işarə etməklə, bu əlçatmaz igidliklərin sahibinin də ağlasığmaz insan, əslində, allah olduğunu göstərmişlər.

Qədim Şərq əsatirləri öz zənginliyi ilə heç də Yunan mifologiyasından geri qalmır. Qədim hind əsatirlərində allahlar, insanlar və heyvanlar, xüsusən, meymunlar aparıcı qüvvə kimi iştirak edir. Qədim Çin əsatirlərində isə tarixi hadisələr, tarixi

•

şəxsiyyətlər uydurulmuş əhvalat və personajlarla qarışdırılır, bu da həmin miflərin təsir gücünü artırır.

Azərbayçanlıların mif yaradıcılığı öz ifadəsini dastanlarda tapır. "Dədə Qorqud", "Koroğlu" dastanlarında xalqın müdrik adama, şair və qəhrəmana sönməz məhəbbəti ifadə olunur. "Dədə Qorqud" xalqı əmin-amanlığa, qurub-yaratmağa, mərdliyə, torpağını sevməyə, yadelli işğalçılara qarşı mübariz olmağa çağırır. Koroğlu isə həm şair-aşıq, həm də qəhrəmandır, o, macəraları çox sevir və bu sınaqlardan həmişə qalib çıxır.

Lakin miflər öz yerini yazının icad edilməsi ilə ondan daha yüksək səviyyədə dayanan və bu yüksəklikdə dialektik qaydada onu inkar edən yazılı ədəbiyyata verdi və kitablar yarandı.

Yazılar isə ilk dəfə Şumerdə piktoqrammalardan - şəkil rəmzlərdən səs və heca ifadə edən az sayda hərflərə keçidlə başlandı. Bu, mixi yazısı adlanırdı. Finikiyada isə sözlər hərflərin birləşməsində ifadə olunmaqla yazılırdı, başqa sözlə, ilk dəfə olaraq əsasən hər səsə uyğun hərf icad edilmişdi. Qədim Misirdə isə bütöv sözlərin işarəsi olan heroqriflərdən istifadə edilirdi və bu heroqrifləri ilk dəfə XIX əsrdə fransız alimi Jan Şampolyon oxumağa müvəffəq oldu. Bu gün də Çində və bir neçə qonşu ölkədə öz yazıları kimi heroqriflərdən istifadə olunur. İlk yazı nümunələri, finikiyalılardan götürülmüş hərflərdən istifadə edilməklə, Krit adasında A və B xətti yazısı adlanan yazı meydana gəldi və bu, həm də heroqriflərdən irəliyə doğru bir addım idi. İndiki yazıların əksəriyyətinin ümumiyyətlə əcdadı əslən finikiyalıların yazısı hesab olunur. Bu yazılarda, bir qayda olaraq, hərflərdən istifadə edilirdi. Qədim Roma tarixçisi Tatsit "Annallar" əsərində yazır ki, misirlilər özünü hərfin ixtiraçısı hesab edirlər. Yazını onlardan finikiyalılar əxz etmişdilər. Finikiyalılardan və karfagenlilərdən sonra öz dövrünün ən yaxşı dənizçiləri olan yunanlar yazını öz doğma vətəninə gətirmişdilər. Yunanlardan isə etrusklar vasitəsilə romalılar yazını götürmüş, sonralar isə latın yazısı dini və ədəbi dillə birlikdə bütün Avropaya yayılmışdır.

Kitab insanın ən böyük kəşflərindən, ixtiralarından biridir. İnsanın yaratdığı elm, mədəniyyət, tarix, ədəbiyyat, bir sözlə, insan ağlının və şüurunun bütün bəhrələri məhz kitablarda cəmləşmişdir. Onlarla təmasda olmaq adama yeni dünyaları açır. Lakin mütaliə etməyən adamlar nadanlıq aləmində gəzib-dolaşdığından, onlar bir yad çisim kimi mədəni aləmə düşə bilmirlər, çünki onların səltənətinə Şeksprin sözləri ilə desək, "qaranlıq deyil, cəhalət çökmüşdür". İisus Xristin lənətlədiyi qurumuş əncir ağacı daha tez yarpaqlayacaq, nəinki belə adamlar maarifə tərəf üz çevirəcəklər. Gəlin qaranlıqdan, ən azı alatoranlıqdan xilas olmaq üçün özümüzə yol açmaqda əvəzsiz məşəl xidməti göstərən kitabı seçək və onun işığında dünyanı dərk edərək yalançı,

•

əslində hər cür vasitələrlə sirayətləndirilən saxta inanc fanatizmindən də uzaqlaşaq. Qoy bizim qısa və bəzən əzablı keçən ömrümüzü, əsasən əbədi və sevincli ömür sahibləri olan yaxşı kitablar bəzəsin. Mən isə onu deyə bilərəm ki, kitablar sədaqətli və etibarlı dost simvolu olan Piladdan heç də geri qalmır. Axı Pilad ən çətin anlarda, ən ağır sınaqlarda Orestin ən sədaqətli dostu kimi özünü göstərir, onun yolunda hətta canını qurban verməyə də hazır olur. Kitablar da insanın çətin anında özlərini təskinlik mənbəyi rolunda göstərməklə, məhz belə sədaqət rəmzi kimi aparır.

Sivilizasiya inkişaf etdikcə kitabların bir yerə yığılması, kitabxanalar yaranması təcrübəsi meydana gəldi. Yeni Babildəki kitabxanada çoxlu yazılı gil lövhələr saxlanırdı. Xeyli sonra ikinci Ərəb xilafətinin paytaxtı olan Kordobadakı kitabxanada 100 mindən artıq kitab saxlanırdı. Kitab hazırlamaq üçün yeni vasitələr də icad edilirdi. Qədim misirlilər Nildə bitən qamışlardan - papiruslardan istifadə etməyə başladılar. Bu, daşınmaq və saxlanmaq üçün daha az əziyyət tələb edirdi. Başqa xalqlar isə heyvan dərisindən - perqamentdən istifadə etməyə başladılar. Bizim eranın II əsrində isə kağızı Çində kəşf etdilər. Belə məlumat var ki, VIII əsrin lap sonunda bir neçə Çin sənətkarını ərəblər əsir götürmüşdülər, onlar isə xilas olmaq üçün öz ağalarına kağız istehsal etməyi öyrətmişdilər. Harun ər-Rəşidin vəziri Barmakid 800-cü ilə yaxın Bağdadda ilk kağız fabriki tikdirdi və oradan da kağız istehsalı Avropaya yayıldı.

Qədim dünyanın ən böyük kitabxanalarından biri Aleksandriyada idi və QayYuli Sezar ordusunun xilası naminə limanda dayanan donanmanı yandırmağı əmr edərkən, alov şəhərə də keçmiş və məşhur kitabxana da yanmışdı. Bu müdhiş hadisə m.ə. 48-ci ildə baş vermişdir. Aleksandriya kitabxanasını ərəb xəlifəsi Ömər də VII əsrin 40-cı illərində yenidən yandırtmışdı. Xəlifə bu yanğını onunla əsaslandırmışdı ki, əgər kitabxanada Quranda olduğundan artıq heç nə yoxdursa, onda onu yandırmaq lazımdır, əgər kitabxanadakı kitablarda Quranda olanlardan əlavə bir şey vardırsa, bir küfr kimi o yandırılmalıdır. Tarix Efesdəki məşhur Artemida məbədini yandıran Herostratı məşhurlaşdırdığı kimi, təəssüf ki, elm, bilik məbədlərini oda tutan, kitabları yandıran cahilləri də xüsusi "şöhrət" sahibi etmişdir.

Qədim Romada isə artıq şəxsi kitabxanalar yaranmağa başlandı. İnsanlar kitabın necə böyük xəzinə olduğunu dərk etməyə başladıqda, onlar kiçik heykəllərlə yanaşı məhz bu "daş-qaşlar"ın aludəçilərinə çevrildilər.

Ali gözəlliyi vəsf etmək çətin olduğu kimi, kitab haqqında yazmaq, onu tərif etmək də çox çətindir. "Kitab" özü elə böyük və yüksək kəlamdır ki, yunanlar öz dillərində yəhudilərin ən qüdrətli dini kitabını məhz bu sözlə ifadə etmiş və "Bibliya" adlandırmışdılar. Müsəlmanların ali dini kitabı olan "Quran"ın adı isə qiraət, kitab

•

oxumaq mənasını verir. Kitab aləminə azacıq bələd olan adamın gözləri xeyri və şəri dərketmə ağacının meyvəsini ilk dəfə dadan Həvva və Adəminki kimi açılır və o, əlavə olaraq vacib idraka yiyələnir. O, keçmişi və gerçəkliyi, təbiəti, cəmiyyəti, insanları və özünü dərk etməyə başlayır. Adəmlə Həvva bunun üçün cənnətdən qovulduğu, əzablı insan həyatına düçar olduqları halda, kitab həvəskarı, mütaliə aludəçisi isə yeni, daha maraqlı və əzabsız hesab etdiyi dünyaya qovuşur. İnsan təkcə təbiətin bəxş etdiyi göz okulyarına deyil, həm də ağıl gözünə yiyələnir. O, müdriklərin kitablarda ifadə olunan zəkalarla, biliklərlə silahlanıb, dünyaya baxır və həyat hadisələrini, təbiət və cəmiyyətdə baş verənləri cahillərdən fərqli olaraq fantom kimi deyil, səbəblərinə agah olduğundan düzgün qəbul və dərk edə bilir.

Qanunauyğunluqlardan, ziddiyyətlərdən baş çıxarmağa başlayır, bunları nəinki izah etməyə, hətta təqdir və ya rədd etməyə imkan verən arqumentlərə və elmi əsaslara malik olur. Bu isə ona imkan verir ki, təbiət və cəmiyyət hadisələrini izah edə bilsin, ziddiyyətlərin səbəblərindən baş çıxartsın və düzgün nəticəyə gələ bilsin. Gəmi qəzaya uğrayanda üzməyi bacarmayan qorxaq adam bir qayda olaraq özünü asanlıqla ölümün qucağına atır. Bilikli adam isə üzməyi bacaranlar kimi çətin sınaqlarda da özünü itirməyərək, taleyin dönük anlarında, ömrün uğursuz gedişlərində iradəsi hesabına hadisələrdən yuxarıda dayanmağı bacarır. Həyatın faniliyinə və taleyin, fatumun sınaqlarına nəinki təslim olmur, hətta öz ağlı, şüuru və iradəsi ilə bunu ram etməyə qadir olmaqla, hər cür zülmə tabe olmaqdan, boyun əyməkdən, təslim olmaqdan, əslində qula çevrilməkdən imtina edir, hətta belə bir fikrin özünü də acı hiddətlə şüurundan uzaqlaşdırır və öz ruhunun yenilməzliyini qoruyub saxlaya bilir. O, başa düşür ki, qul olmaq insan ləyaqətinə ziddir. Təsadüfi deyildir ki, Aristotel qulu danışan və hərəkət edən ikiayaqlı heyvan adlandırırdı. Qədim yəhudilər Misirdə qul olmağın əzablarını görmüşdülər və Allahın köməyi ilə Moisey onları qul əsarətindən xilas etmişdi. Ona görə də yəhudilər qərara almışdılar ki, heç bir yəhudi bir daha qul olmamalıdır, bu məqsədə yönəlmiş çox sayda tədbirlər Tövratın “Deyteronomiya” – “İkinci qanun” kitabında öz əksini tapır.

Öz sadə təcrübəmə gəldikdə, mən hələ uşaq olarkən kitablarla dostluğa başladım və bu dostluq illər keçdikcə möhkəmlənərək, mənim dünyamın və axtarışda olan ruhumun bir hissəsinə çevrildi. Yaşadığımız mühit, bizi əiatə edən şərait, əlbəttə, cismani qidamız kimi, ruhu qidamızın da rasionunu, onun olduqca kasıb çeşidlərini müəyyən edirdi. Əvvəlcə, doğma dilimizdə mövcud olan və kənd kitabxanasının əhatəsini ifadə edən kitablar bir-birinin ardınca beynimiz vasitəsi ilə həzm olunurdu. Uşaq dünyagörüşü ilə iri həcmli kitabları oxumağımızla fəxr edirdik. Sonradan SSRİ xalqlarının yazıçılarının tərcümə olunmuş əsərləri ilə tanışlıq başlandı. Daha sonra isə rus dili vasitəsilə rus ədəbiyyatı ilə daha yaxından tanışlıq və dünya ədəbiyyatı

•

incilərindən faydalanmaq anları başladı. İlk dəfə məktəb illərində rus dilində oxuduğum kitab italyan yazıçısı Alberto Moravianın "Çoçara" romanı olmuşdu, onu mənə oxumağa, Gəncədən olan bir nəcib ziyalı oğlan kolxozda zootexnik işləyən vaxt vermişdi. Sonralar isə tarix, coğrafiya, etnoqrafiya, fəlsəfə, hüquq elmlərinə dair əsərlər ön plana keçdi.

SSRİ-də totalitarizm təkcə möhkəm dövlət quruluşu formasını müəyyən etmirdi, burada vahid ideya, vahid partiyanın olması və bəsit demokratiyanın tam məhdudlaşdırılması ilə yanaşı, qeyri-iradi, bir mərkəzdən idarə olunan totalitar şüur da formalaşdırılırdı. Mən heç də ideya təbliğatına toxunmaq istəmirəm. Elə bil, mütaliə obyekti də, bütün o geniş ərazidəki ölkədə kiminsə sehrli çubuğu ilə idarə olunurdu. Hamı, əsasən bir qaydada olan paltar geyindiyi tək, elə bil şüurlara, mütaliə zövqlərinə də oxşar uniforma təlqin olunurdu. 50-ci illərdə Moskvanın və ölkənin digər rusdilli oxuçuları Erix Mariya Remark ilə xəstələnmişdi, 60-cı illərdə ön cərgəyə Ernest Heminquey çıxdı, 60-cı illərin ikinci yarısında isə hamı, əslində əksəriyyət müharibə haqqında ədəbiyyatı, sərkərdələrin elə də maraqlı olmayan memuarlarını oxumağa girişdi. 70-ci illərdə çoxu Rəsul Həmzətova, sonralar isə Çingiz Aytmatova vuruldu. Bir müddət Yuri Trifonov özünün məişət povestləri, Valentin Rasputin və Viktor Astafyev isə kənd povestləri ilə məşhurlaşdı. Nəhayət, 90-cı illərin əvvəllərində hamı Anatoli Rıbakovun "Arbat uşaqları"nı mütaliə etməyə başladı. Azərbaycanda isə mütaliə modası daha ləng dəyişirdi, burada ümumən kitaba bəslənən zövq o qədər də kübarlılığı ilə seçilmirdi. Ona görə də aşağı səviyyəli, bəzən heç bir bədii dəyəri olmayan kitablar ümumi oxucu kütləsi dünyasının ən parlaq və cazibədar ulduzuna çevrilirdi. Məsələn, 60-cı illərdə "Qara Volqa" adlı primitiv detektiv povest hamı tərəfindən oxunurdu və kütləvi oxucu üçün ən populyar əsər hesab olunurdu. Sonralar da bu ənənə tayfa təbliğatı hesabına daha geniş davam etdirildi.

Şəxsi müşahidələrim heç də kütləvi oxucunun yüksək zövqündən xəbər vermir. Azərbaycan oxucusu 50-ci illərdə amerikan yazıçısı Teodor Drayzerin bir-birinin ardınca tərcümə edilib. çap olunan "Kerri bacı", "Cenni Herhard", "Dahi", "Amerika faciəsi" romanlarını böyük iştaha ilə həzm edirdi və hamı güman edirdi ki, amerikan ədəbiyyatı məhz bu müəlliflə başlayır və onunla qutarır. Sonra hind kinofilmlərinin melodramatik süjetlərinin təsiri altında hind ədəbiyyatına maraq yarandı, Rabindranat Taqorun Şərq fəlsəfəsindən faydalanmış əsərləri ilə yanaşı, Xoça Əhməd Abbas və digər müəlliflərin o qədər də güclü olmayan əsərləri geniş mütaliə obyektinə çevrildi. 50-ci illərin sonunda kütləvi Azərbaycan oxucusunun "Baskervillərin iti" əsəri ilə, orijinalda "blood hound"- "axtarıcı it"adlı başlıq var idi, ilk dəfə Konan Doylla, həm də ümumən, detektiv ədəbiyyatla tanışlığı başladı. Çünki bu oxucu janrın ilk banisi

•

Edqar Allan Podan uzaq olduğu kimi, onun digər davamçıları Aqata Kristini və daha müasir Jorj Simenonu da tanımırdı. Lakin bu oxucu doğma yazıçısı Məmməd Səid Ordubadinin əksər tarixi romanlarında bu janrın elementlərini nəinki hiss etməmişdi, hətta bu janrın üslubuna tam yaxın olan "Dumanlı Təbriz"ini də məhz inqilabi roman kimi qəbul etmişdi. Axı tanış olmayan meyvədə tanıdığımız meyvələrin tamını axtarırıq. Biz adətən ananas, papayya, avakado və digər tropik meyvələri öz meyvələrimizin dadı və ətri ilə müqayisə edirik.

Sonralar isə Böyük Vətən müharibəsi tarixinin birtərəfli, primitiv səviyyədə, kütləvi öyrənilməsi başlandı. Buna start verən general Ştemenkonun Baş Qərargahın müharibə dövründəki fəaliyyətinə həsr olunan kitabı oldu və əslində, bu, "buzun əriməsi", "mülayimləşmə" dövründə şəxsiyyətə pərəstişin ciddi damğalanması ilə əlaqədar xidmətləri bütünlüklə inkar edilən Stalinin fəaliyyətinin tarixi və bədii əsərlərdə reabilitasiyası tonqalını alovlandırmağa səbəb olan ilk kibrit çöpü rolunu oynadı. Hamı aviasiya konstruktoru Yakovlevin, hərbi və dövlət xadimlərinin Stalinlə bağlı müsahidələrini əzbərləməyə cəhd edirdi. Hətta Tehran konfransında tərcüməçilik etmiş Berejkovun adi primitiv misallarla Stalinin xidmətlərini mədh edən detallar, marşal G. K. Jukov tərəfindən ilk dəfə açılan sirr - Stalinin doğma oğlunun almanlara əsir düşməsi və onun acı aqibəti barədə hekayətlər bir neçə illər ərzində məclislərdə ən çox misal çəkilən ibrətamiz pritçalara çevrilmişdi. Bu hərbi xadimin "Xatirələr və düşüncələr" əsəri istisna olmaqla, digər hərbi xadimlərin aşağı səviyyəli memuarları bir-birinin ardınca yağışdan sonrakı göbələk kimi çoxalmağa başladı. Sonralar V. M. Molotovun bu əsər haqqındakı mənfi rəyi ilə də tanış oldum. Bu əsərlərdə hər kiçik təpənin və yaşayış məntəqəsinin alınması barədə bütün hərbi hazırlıqlar və hərəkət təsvir olunurdu, yorucu, maraqsız detallarla dolu səhnələr verilirdi. Lakin çoxları bu əzici dövrədən çıxa bilmirdi və zəif memuarları, ağıl və ruh üçün heç nə verməyən bu kitabları oxumaq üstündə elə bil ki, elan olunmamış bir müsabiqə gedirdi.

50-ci illərin sonu, 60-cı illərin əvvəllərində Azərbaycan oxucusunun uzun fasilədən sonra türk ədəbiyyatı ilə, Rəşad Nuri Güntəkinin ən uğurlu "Çalıquşu" romanı ilə start götürən tanışlığı başlandı. Bu əsərin şairanə dili böyük fasilədən sonra yerli oxucu üçün bir tapıntı idi. Çox təəssüf ki, tərcümələrin keyfiyyətinin aşağı olması, orijinalın yüksək bədii xüsusiyyətlərini ifadə edə bilməməsinin nəticəsidir ki, A. Düma-ata istisna olmaqla, klassik Qərb və rus ədəbiyyatının geniş oxucu kütləsi arasında yayılması, onların maraq dairəsinə cəlb edilməsi üçün elə bir əsaslı iş görülməmişdi və oxucu klassikaya olan bu təşnəsini yalnız rus dilində mütaliə etməklə söndürə bilirdi. Ona görə də kütləvi oxucunun maraq dairəsi heç də düzgün tərbiyə olunmurdu, çox vaxt zövqləri korlayan, onları primitivləşdirən əsərlərə geniş

•

yer verilirdi. Bədnam kitab ticarəti də öz fəaliyyətini bu zövqlərin korlanması prinsipində qurmaqla, məhz primitiv mütaliəçi kütləsi formalaşdırmaqdan maddi fayda götürürdü. Kitabxanalarımızda isə işçilər arasında həqiqi kitab vurğunları olduqca azdır, onlar elə bil ki, içərisində məhz hansı qiymətli daş-qaşların, ləl-cəvahiratın saxlanmasından xəbəri olmayan xəzinə gözətçilərinə bənzəyirlər. Çox vaxt onlar qızılla misi, yaxud tuncu bir-birindən ayırmağı bacarmırlar. Nəşriyyatlarda, tərcümə ilə məşğul olan idarələrdə də cahilliyin baş alıb getməsi Azərbaycan oxucusunun dünya ədəbiyyatı incilərindən xeyli müddət uzaqda qalmasına səbəb olmuşdu. Sovet xalqları ədəbiyyatının qiymətli əsərləri əvəzinə, ideoloji cəhətdən yararlı olan, aşağı səviyyəli əsərlər tərcümə olunub çap edilirdi. Bəzən də tərcümənin keyfiyyəti əsərin bütün dünya tərəfindən qəbul edilən dəyərinə uyğun gəlmirdi. Əlbəttə, istisnalar da yox deyildi, mən qazax Muxtar Auezovun “Abay”ını, latış Vilis Latsisin 30-cu illər Latviyasının həyatından bəhs edən maraqlı romanlarını, sonralar isə gürcü Nodar Dumbadzenin məşhur povestlərini nəzərdə tuturam.

Kitab çapında senzuranın götürülməsi, nəşriyyatların bir qədər liberallaşdırılması vəziyyəti düzəltmək əvəzinə, daha da ağırlaşdırdı, bulvar ədəbiyyatının təbliğatı başlandı. Həqiqətən böyük şəxsiyyətin hamıya məlum olan tarixi xidmətləri və  qiymətli keyfiyyətləri, universal  idarəetmə üslubu, ölkəni anarxiya meylindən uzaqlaşdırması, dövlət çevrilişinin qarşısını alması və hərbi müxalifəti ləğv eməsi kimi nəhəng işlərin təsviri və əsalandırılması əvəzinə, bayağı, primitiv düşüncənin məhsulu olan cılız səviyyəli yazılara geniş meydan açıldı. Belə bir şəraitdə, həm də oxucu dünyagörüşünün formalaşması kimi məsul və vacib bir işin, əlbəttə ki, ümumbəşəri dəyərləri vəsf edən kitablar tərəfindən deyil, aşağı zövqləri, iyrənc ehtirasları təbliğ edən tərcümə kitablarının üzərinə düşməsinə, onların əlinə keçməsinə də səbəb oldu.

Kitab aləminə göstərilən qayğı, ona verilən qiymət və əhəmiyyət cəmiyyətin formalaşmasına, onun üzvlərinin şüurunun, bilik səviyyəsinin inkişafına xidmət edir. Burada biganə, laqeyd münasibət cəmiyyətin şüurunun saflaşmasına və zənginləşməsinə mane olan amilə çevrilməklə bitib qurtarmır, cəmiyyətin mənəvi əsaslarının pozulmasını, aşılanmasını sürətləndirir.

Bəşəriyyətin ən böyük mütəfəkkirləri, müdrik zəka sahibləri kitab haqqında öz fikirlərini söyləmiş, bu mədəniyyət və bilik vasitəsinin böyük əhəmiyyət kəsb etdiyini dəfələrlə qeyd etmiş, biliklərə yiyələnməkdə, dünyanı dərk etməkdə, varlığa hakim olmaqda bu bilik mənbəyinin qiymətsiz bir vasitə olduğunu göstərmişlər. Böyük ingilis şairi və publisisti, XVII əsrdə yaşamış Con Milton özünün məşhur “Aeropakitika” əsərində yazırdı ki, yaxşı kitab yaradıcı ruhun qiymətli dirilik şirəsi

•

olub, gələcək nəsillər üçün saxlanılır. Onun fikrincə, kitabı cansız şey hesab etmək olmaz. Kitabda onu yaradan dahinin qabiliyyətini, onu layiq olduğu dərəcədə aşkar edən həyat qüvvələri gizlənmişdir. Bundan əlavə, kitabda onu qidalandıran canlı intellektin təmiz və tünd məhlulu vardır. Medeyanın atası Kolxidada torpağa əjdaha dişlərini səpdiyindən, bu toxumdan torpaqdan yaraqlı əsgərlər çıxırdı və arqonavtların başçısı Yason bunun şahidi olmuşdu. Kitab da məhz belə həyatverici və məhsuldar bir qüvvəyə malikdir.

Kitab haqqında rəy söyləyərkən olduqca ehtiyatlı olmaq lazımdır. Çünki kitabı öldürmək adamı öldürmək kimi bir şeydir. Adamı öldürən ağıllı məxluqu, allanın təcəssümünü məhv edir. Kitabı məhv edən isə ağılın özünü öldürür, ilahi obrazın işığını söndürür. Çin imperatoru Şi Xuan-di m.ə. III əsrin sonunda Konfutsinin əsərlərini yandırtdırdı. Xristianlar ilk dövrlərdə bütpərəstliklə mübarizə adı altında qədim Roma ədəbiyyatını və fəlsəfəsini yasaq edirdi. Almaniyada faşistlər böyük mütəffəkirlərin əsərlərini tonqallarda yandırırdı. Sovet cəmiyyətində isə ideologiyaya uyğun gəlməyən, ona xidmət etməyən kitablar qadağan edilirdi.

Kitablar həm də bütöv xalqların xarakterlərinin yumşaldılması, onların qəddar təbiətlərinin mülayimləşdirilməsi üçün istifadə edilmişdir. Sparta qanunlarının yaradıcısı Likurq İoniyadan Homerin əsərlərinin ayrı-ayrı parçalarını öz vətəninə bu məqsəd üçün gətirmiş, Krit adasından olan şair Falesi də doğma ölkəsinə göndərmişdi. Axı spartalılar Lakoniya zərb-məsəllərindən başqa heç nəyə malik deyildilər və özlərini yalnız hərbi hazırlığa həsr edirdilər. Qədim romalılar da uzun müddət kobud hərb sənətinə üstünlük verirdilər və bu cəhətdən lakedemoniyalılara bənzəyirdilər. Lakin sonralar romalılar ədəbiyyata, ümumən, mədəniyyətə xüsusi fikir verməyə başladılar. Kitaba ehtiramı ilk dəfə Romuldan sonra Romada ikinci çarlıq edən Numa Pompili başlamışdı, o, vəsiyyət etmişdi ki, onu, kitabları ilə birlikdə dəfn etsinlər.

Kitab ruhları təmizləyir, saflaşdırır, lakin əlbəttə, bu, ruhun özünün vəziyyətindən də çox asılıdır. Təmiz olanlar üçün hər şey təmizdir. Pozulmuş mədəyə yaxşı yemək də pis qida kimi təsir edir. Qüsurlu ağıl ən yaxşı kitabdan da bəd əməllər üçün istifadə edə bilər. Yararlı olmayan ərzaqdan yaxşı yemək hazırlamaq mümkün olmadığı halda, ən pis kitabdan belə, ağıllı və düşüncəli oxucu çox şey öyrənə və özü üçün aydınlaşdıra bilər. Ona görə də ağıl üçün qida secərkən bizə sərbəstlik verilmişdir. İnsan mədəsi hər şeyi həzm etdiyi halda, adamlar yeməkdə ölçü gözləyirlər. Biz kitabları secərkən öz qabiliyyətlərimizi inkişaf etdirmək, kamilləşdirmək qayğısına qalırıq. Moisey yəhudiləri Sinay səhrasından keçirərkən ac qalan əhaliyə Allah səma mannası göndərdi və onları aclıqdan yaranan ölümdən xilas

•

etdi. Allahın ayırdığı qida ölçüsü bütünlüklə onlara kifayət edirdi. Ruhi qida məsələsində isə ölçü hissi adamın özü tərəfindən müəyyən olunur. Çar Solomon çox oxumağın bədənə yorğunluq gətirdiyini qeyd edirdi. Lakin heç bir müdrik adam kitab oxumağın qeyri-qanuni olduğunu iddia etmirdi. Yorğunluğu ləğv etmək isə o qədər də çətin məsələ deyildir.

Kitab oxumaq şifahi nitqi dinləməkdən daha səmərəlidir. Yaxşı söhbət ruhlandırıcı təsir etsə də, kağızda yazılmış mətn oxunduqda onu mənimsəmək, təhlil etmək daha asan olur. Çünki kitab oxumaq nitqin, demək olar ki, hipnotik təsirini heçə endirir. Çarlz Persi Snou yazırdı ki, Lev Trotski bəzən öz nitqinin cazibəsi altına düşürdü. Bu istedada malik olan natiqlər başqa adamlara asanlıqla təsir edə bilirlər. Kitab oxumaq isə bunlardan azaddır. Bəzən yazı yazmaq da çoxlarına fikirləşməkdə daha çox kömək edir və onlar öz düşüncələrini kağızda dala yaxşı ifadə edirlər. Yazı fikirlər bulağının suyunun fasiləsiz axmasına şərait yaradır. Yazıda fikirlər daha təmiz, şəffaf olur. Ona görə də yazılı ədəbiyyat şifahi nitqdən daha çox və daha monumental söz abidələri yaratmışdır.

Kitaba sevgi bəzən qadına olan məhəbbətdən nəinki geri qalmır, hətta ona da üstün gəlir. Kitab mütaliəsi insana fərəh, sakitlik və istirahət verən ən intim və asan mənbəyə çevrilir. Böhranlar dövründə isə mütaliə xüsusən faydalı olur, adama çətinliyi aradan qaldırmaqda kömək edir. Kitaba məhəbbət yarandıqdan sonra, ən xoş dəqiqələrdə də o səni öz ağuşundan buraxmır. Mütaliə öz yerini heç bir məşğuliyyətə vermir. ABŞ prezidentləri içərisində Tomas Ceffersondan sonra ən çox mütaliə etməsi ilə fərqlənən Teodor Ruzvelt bir dəfə demişdi ki, o heç yerə, hətta Afrikanın cəngəlliklərinə də özü ilə oxumaq üçün kitab götürməmiş getməzdi. O, hətta ova gedəndə də özü ilə bir-iki kitab götürürdü.

Müəyyən kitabları oxumaq barədə qoyulan qadağalar, bir qayda olaraq, əks nəticə verir, həmin kitaba maraq artır. 90-cı illərdə Salman Ruşdinin “Satan's verses”– “ İblis ayələri” kitabının və sovet dövründəki dissident ədəbiyyatın oxucular arasında yayılması  buna misaldır.

Bəzi adamlar kitablara öz cahilliyi səviyyəsindən, özünün mədəniyyətinin piqmey boyu çərçivəsindən qiymət verməyə cəhd edir. Belə üzdəniraq bir “ziyalı” ilə tanışam və onun çox vaxt təhqiramiz rəylərini eşitmək məcburiyyətində də qalmalı olmuşdum. Ömründə heç bir kitab oxumamış bu adam daim öz “biliyi”ni nümayiş etdirməyə çalışır və lüzum olmadığı anlarda da öz cəhalətini nümayiş etdirməkdən həzz alır. Bir dəfə o, son vaxtlarda məddahlığı ilə ad çıxarmış bir qoşma şairinə müraciətlə dedi ki, dünyada cəmi üç böyük şair olmuşdur, onların da hamısı bizim xalqa məxsusdur və bu dahilərdən biri də onun rəyinə görə, elə həmin mədhiyyə

•

ustasıdır. Onun üçün dünyada heç bir müqəddəslik olmadığı kimi, bilik aləmində o, heç bir yüksəkliyi tanımır və öznün xırda empirik bilik gölməcəsi ilə öyünür. Siyasət aləmində özünəməxsus Şərq məkrliliyindən istifadə etməklə uzun müddət üzdə qalan bu adam həmişə az saydakı təlxək təbiətli adamlarla, mənəvi kvazimodolarla dostluq etmişdir, onların arasında qələm sahibləri də var idi. Bizim ədəbiyyatımızda isə bədbəxtlikdən, təlxəklər daim ölkə Parnasının ən uca zirvələrində məskunlaşmağa can atmışlar. Yazşı məlumdur ki, peyin böcəkləri həyat şirəsini, bal arısı kimi, çiçəklərin nektarından deyil, yaşadığı mühitin üfunətli məhsulundan alır.

Mütaliə də pis adamı tam tərbiyə edə bilmir, mütaliə olmadıqda isə o, öz axmaqlıq səltənətindən heç cür əl çəkmək istəmir. Ağıllı qızıl ovu həvəskarı qumda parıldayan dənələri axtaran kimi, təcrübəli oxucu ən boş, zəif kitabdan belə, azacıq da olsa qiymətli metalı yuyub, qumdan ayıra bilir. Heyvanlar aləmində də buna bənzər xüsusiyyətlərə rast gəlirik. Hörümçək bütün qidasını ifraza və tora sərf etdiyi, heç bir şey istehsal etmədiyi halda, arılar uzaq çölləri gəzərək öz qabiliyyəti, əməyi və bacarığı hesabına öz evinə bal və mum gətirir. Təəssüf ki, adamların arasında arıya bənzəyənlər nisbətən az, hörümçəyə bənzəyənlər isə çoxluq təşkil edirlər. Belələri Fransua Viyonun sözləri ilə desək, dişi qu quşunu da qara qarğa adlandırır və ya Zevs özünü qu quşuna çevirib, Ledaya təcavüz etdiyinin əksinə, cəmiyyəti öz bənzərinə çevirib, onu zorlamaq istəyir.

İngilis filosofu Frensis Bekon kitabları zaman dalğalarında gəzən və öz qiymətli yükünü nəsillərdən-nəsillərə eitiyatla daşıyan fikir gəmisi adlandırmışdır. Əgər gəmi qayırmaq sənətin möcüzəsi sayılırdısa, yazının əhəmiyyətini biz niyə yüksək qiymətləndirməməliyik, çünki etiraf etməliyik ki, onlar da gəmilər kimi əlçatmaz dənizlərdən gecərək, gələcək əsrlərə müdrikliyin bəhrələrini və hansısa bir əsrin kəşflərini verməklə, sonrakı nəsillərə nümunə göstərir.

İngilis şairi, nasir və dramaturqu Robert Sauti (XVIII əsrin sonu–XIX əsrin əvvəli) yazıçı əməyinə böyük qiymət verərək qeyd edir ki, heç vaxt yazıçılardan başqa, heç bir adam ömrünü öz arzuları və şəxsi meyilləri ilə böyük razılıqda keçirməmişdir. XV əsrdə yaşamış holland ilahiyyat alimi Foma Kempiyski isə yazırdı ki, hər yerdə rahatlıq arasa da, onu yalnız kitablarda tapdı.

Çoxları əyri yollarla qazandıqlarını qiymətli əşyalara, daşınmaz əmlaka, daş-qaşlara çevirirlər. Lakin ən ağıllı adam özünün o qədər də çox olmayan vəsaitinin bir hissəsini kitab almağa, özünə şəxsi kitabxana yaratmağa sərf edir. Bu adamların xəzinəsi dərin sandıqlara yığılıb bağlanmır, açıq rəflərdə yerləşir. Bir qayda olaraq, kitabın icindəkilər onun üzlüyünü də bəzəyir. Lakin kitabın xarici görünüşü heç də həmişə onun həqiqi dəyərindən xəbər vermir. İmkan düşən kimi yaxşı kitabla

•

qarşılaşdıqda, öz dolanışığına sərf edilən vəsaitdən kəsib, hökmən kitab almağa xərcləmək lazımdır. Mən öz şəxsi kitabxanamı ən böyük var-dövlətim hesab edirəm. Bu kitabxana maraqlandığım hər bir məsələ üçün istənilən vaxt məni lazım olan elmi materiallarla təmin edir və başqalarına möhtac olmaqdan xilas edir. Kitabxanamda elmin müxtəlif sahələrinin mütəxəssisləri ilə, dünyanın ən müdrik filosofları, mütəfəkkirləri, yazıçıları, bütün dövrlərin, əksər mədəni xalqların ən qabaqcıl nümayəndələri ilə görüşmək, ünsiyyətdə olmaq, fikir mübadiləsi aparmaq imkanı tapıram. Kitabxanam məni şumer qəhrəmanı Qilameşlə də, Homer, Zərdüşt, Konfutsi, Moisey kimi nəhəglərlə də görüşməyə şərait yaradır. Burada mən Firdovsi və Sədi, Nizami və Şekspir, Viyon və Stern, Höte və Hüqo, Dostoyevski və Tolstoy ilə tez-tez görüşmək imkanı tapıram. Burada qanunların yaradıcıları Hammurabi, Solon, Manu, Moiseylə fikir mübadiləsi aparmaq olur. Burada heç bir təmənna gözləmədən hamı öz böyük dünyalarının qapılarını taybatay sənin üzünə açır, səni şah ləyaqəti ilə qəbul edir və özünü aparmağı bacarırsansa, müdrikləri eşitməyə həvəs və hövsələ tapırsansa, onlarla ünsiyyətdə özünü nadan göstərmirsənsə, elə ləyaqətlə də yola salır və işarə edirlər ki, təkrar gəlişinə də şad olacaqlar. Bu söhbətdən onlar heç vaxt yorulmur, birçə şeyə ümid bəsləyirlər ki, sən onları olduğu kimi başa düşəcəksən, dərk edəcəksən, onların fikirləri ilə razılaşmasan belə, bu fikirlər üzərində düşünməyə başlayacaq və ağlının qabiliyyəti və hazırlığı səviyyəsinə uyğun olaraq onları həzm edəcəksən. Ən yaxşı dostla uzun çəkən söhbət adamı yorur, sevdiyin qadın da səni usandıra bilər, ən ləzzətli xörəklərdən də sən doyduqdan sonra imtina edirsən, yaxşı kitabdan, maraqlı kitabdan, müdrik kitabdan heç vaxt doymursan, ona özündə daim tələbat tapırsan və mütaliəni sevən adam üçün bu, hava və su kimi həyati təlabata çevrilir. Ona görə də kitab oxumaq üçün vaxt tapmaq özü ağılsızlıqdır, heç kəs hava udmaq və su içmək üçün vaxt axtarmır. Mütaliə də həyatın, varlığın, şüurlu varlığın bir hissəsinə çevriləcəkdir.

İndiki dövrdə həyat çətin olduğundan dostların sayı erkən yaz qarı kimi tez əriyib sıradan çıxır. Dostların çoxu məslək dostu yox, mənafe dostu olduğundan xırda qazanç imkanı olmayanda, bu adamlar səndən, cüzamlı xəstələrdən uzaqlaşdıqları kimi kənarlaşırlar. İkinci Dünya müharibəsindən sonrakı dövrdə ABŞ prezidenti olmuş Harri Trumen bir dəfə demişdi: "Əgər istəyirsinizsə bu şəhərdə dostunuz olsun, evdə iz saxlayın". Onun dediyi indi bizim reallığımızı təsvir edir. İt saxlamaq da əziyyətli işdir və onun da dostluğunun ömrü azdır. Düzdür, itlər insanlardan daha sədaqətlidir. Lakin elə bir dost var ki, sənin azacıq ünsiyyətinə o hər şeyini qurban verir, sənin hər şıltaqlığına dözür. Bu dost isə yalnız kitabdır.

Kitabla ünsiyyətdə olmaq, adamların xəyanətkar nankorluğundan təhqir olduğuna görə, onlardan qaçıb təklikdə yaşamağa başlamış, miladdan əvvəl V əsrdə

•

yaşamış afinalı Timonun seçimindən daha yaxşıdır. Amma indiki dövrdə belə tənhalıq da olduqca əlçatmaz olduğundan, yeganə ümid kitablar dünyasındakı sakit və dolğun həyata qalır.

Çünki insan könlünə kitabdan yaxın olan heç bir şey yoxdur, onlar bizim ürəyimizə daxil olur, şairin şerləri bizim qanımızın cərəyanı ilə birləşir. Kitablardan biz başqa adamların başına gələn əhvalatları öyrənirik və bizə belə gəlir ki, bu bizim taleyimizə məxsusdur.

İngilis tənqidçisi və esseisti Uilyam Hezlittin yazdığı kimi böyük işlər, görüldükdən sonra yaddan çıxır. Qəsbkarlar, dövlət xadimləri və krallar ona görə yaşayırlar ki, onlar tarixin səhifələrində möhürlənmişlər. Həm də Hyum düzgün olaraq qeyd edir ki, adamlar Homer və Vergili haqqında daha çox düşünürlər, nəinki Aleksandr və Sezar haqqında. Doğrudan da, şairlər daha uzunömürlü irqdir, nəinki qəhrəmanlar, onlar başqalarından fərqli olaraq ölməzlik havası ilə dərindən nəfəs alırlar. Homer və Vergilinin yaratdığı hər şey dövrümüzün mövcudluqları kimi bizimlə qalır. Ancaq demək olar ki, Aleksandrın və Sezarın əməllərinin izləri indiki dünyada o qədər də nəzərə çarpmır. Keçmişin yazıçıları canlı adamlar olaraq qalırlar, öz yaratdıqları əsərlərdə varlıqlarını nümayiş etdirirlər. Digərləri – dünyanın qəsbkarları isə öz məqbərələrində toza çevrilmişlər. Sözlər, ideyalar, hisslər zamanın keçməsi ilə reallıqda təcəssüm olunur, əşyalar, bədənlər, hərəkətlər ya izsiz yoxa çıxır, ya da səsə, bəhrəsiz havaya çevrilir. Çünki yalnız təkcə insanın işləri onun özü ilə birlikdə yoxa çıxmır, onun ləyaqətləri və qabiliyyəti isə çox vaxt onun ölümü ilə ölür. Təkcə zəka ölməzdir və çürümədən gələcək nəsillərə çatır. Söz vahid şeydir ki, əbədi yaşayır. İohanın İncilində Allahla bərabərləşdirilən söz, doğrudan da, heç nə ilə müqayisə olunmayan ilahi qüdrətə və qüvvəyə malikdir. Ona görə də müdrik sözlə ünsiyyət böyük sevinc yaradır. Bu sevinc hamıya nəsib ola bilər, bircə qoy adamlarda mütaliə həvəsi olsun.

İnsan yaranandan qəbrədək dünyanı dərk etməyə çalışır və ona görə də öyrənməyə, bilik almağa can atır. Kitablar da dünyanı dərk etməyin mənbələrindən biridir. Böyük "ölülərlə" ünsiyyətdə olmaqla biz öz biliklərimizi artırırıq. Belə bir həqiqət də bizə məlumdur ki, ən yaxşı kitablar ən böyük müəlliflərə məxsusdur. Kitablar parçalanmış təəssüratları bir yerə yığmağa kömək edir. Kitablar adamın fikrini yayındırmaqla, həyatın əzici qüvvələrindən onu müəyyən müddətə də olsa azad edir, səni sevinc atmosferinə, başqa dünyaya aparır. Əgər teatr insan həyatının yüksək ifadəsidirsə və səhnə adamların maskasını göstərirsə, kitablar adamların ürəyinə nüfuz etməyə imkan verir və bizim öz sirlərimizi özümüzə açır. Bir müdrik adamın dediyi

•

kimi, “kitablar, ürəyimizə ən yaxın və əziz olan mümkün həzzlərin birincisi və axırıncısıdır”.

Teatr tamaşaçısının çoxluğu, bir tamaşanın uzun müddət getməsi ilə öyünür. Natiq onun nitqinə heyranlıqla qulaq asanların hisslərindən ilhamlanır və bunda öz mükafatını görür. Fransanın məşhur ilahiyyat alimi, XI–XII əsrlərdə yaşamış Pyer Abelyara ( O, daha çox sevgilisi Eloizadan ayrı düşdükdən sonra bir birinə yazdıqları və məhəbbətin ucalığından xəbər verən məktubları ilə daha böyük məşhurluq tapmışdır.), Fransa torpağında özünün sxolastik dialektikası haqqında mühazirə oxumaq qadağan edildikdə, o, ağaca dırmaşıb oradan öz söhbətlərini davam etdirirdi, ona havadan mühazirə oxumağı yasaq etdikdə o, qayığa minib çaydan sahilə toplanmış tələbələrə mühazirə oxumağa başladı. Onun mühazirələrinə 30 minədək dinləyici yığılırdı. Bu o dövr üçün olduqca qeyri-adi bir hal idi. Bəs çap olunmuş sözlərin mühazirəsinə əsrlər boyu neçə yüz min, neçə milyon adam toplaşmışdır? Təəssüf ki, bunun statistikasını heç kəs aparmır.

Tarixçi Diodor belə şəhadət verirdi ki, qədim Misir kitabxanası binasının giriş qapısının üzərində “könül üçün dərmanlar” sözü yazılmışdır. Doğrudan da, adama bədbəxtlik üz verdikdə o, özünün yeganə könül sirdaşına – kitablara müraciət edir. Kitablar onun birinci və ən yaxın təskinlik verəni olur. Xəstəlik anlarında onun əzablarını həblərdən, dərmanlardan daha çox kitablar unutdura bilir. Mən bir qayda olaraq, xəstəxanada yatanda çoxlu mütaliə ilə məşğul oluram, bir kitabdan yorulduqda, digərinə keçirəm və demək olar ki, eyni vaxta 4-5 kitabı oxuyub qurtarıram. Bu kitablar mənim müalicəmi yüngülləşdirməsə də, sürətləndirməsə də, mənim əzablarımı azaltmağa, ruhən dözümlülük aşılamağa kömək edir. Həyatın ağır sınaqlarında da mən dostların ən incə hissləri ilə müqayisədə belə, kitabların köməyini heç də az hiss etməmişəm.

Dahi adamlar sarsıntılar keçirdikdə elmlə məşğul olmağa başlamışlar. Belə söyləyirlər ki, Höte oğlu öldükdən sonra ona tanış olmayan elm sahəsinə nüfuz etmişdir. Axı Höte optika fizikasında, biologiyada, anatomiyada müxtəlif elmi sınaqlar aparmışdır. Çünki ağır dərdin öhdəsindən əyləncələrlə gəlmək mümkün olmur, burada ağılın daim oyadılması, canlanması tələb olunur. Bu vaxt beyin ürəyi müalicə etməyə başlayır. Belə zamanda dil öyrənmək də köməyə gəlir, mən bunu öz təcrübəmdə görmüşəm. Kitab bizi öz üzücü dünyamızdan ayırıb, başqa dünyalara aparır, burada sən ən müdrik adamlarla fikir mübadiləsi etmiş olursan. İstənilən qapını acan sehrli Sezam kimi kitablar bizə əsrlər boyu yığılan bəşəriyyət xəzinəsinin qapılarını açır və bu səltənəti sənin ağlının və ruhunun ixtiyarına buraxır.

•

Kim kitab oxumağı sevirsə, ona özünün ən sədaqətli dostu kimi baxır. İtalyan intibahının görkəmli nümayəndələrindən olan Petrarka yazırdı: "Mənim dostlarım var ki, onların məclisi mənim üçün qeyri-adi dərəcədə əzizdir; onlar müxtəlif əsrlərə və müxtəlif ölkələrə məxsusdurlar. Onlar alim adamların iş otaqlarında və döyüş meydanlarında fərqlənmişlər; onlar öz elmi idraklarına görə yüksək mükafatlara layiq görülmüşlər. Mənim üçün onlarla görüşməkdən asan iş yoxdur, çünki onlar həmişə bizim xidmətimizə hazırdılar – mən onları öz yanıma çağıra və istəsəm, başqa yerə göndərə bilərəm. Onlar heç vaxt zəhlə tökən deyillər, lakin mənim verdiyim istənilən suala cavab verməyə hazırdırlar. Biri mənə keçmiş əhvalatlardan danışır, digərləri isə təbiətin sirlərini açır. Biri mənə necə yaşamağı, digəri isə necə ölmək lazım olduğunu öyrədir. Bu dostların məclisindən, səs-küylü yığıncaqda olduğu kimi deyil, təklikdə həzz almaq lazımdır".

Kitablar aləmində sən özünü həm ən böyük tənhalıqda və həm də ən çox adamın olduğu cəmiyyətdə hiss edirsən. İngilis filosofu Karleyl (XIX əsr) yazırdı ki, kitab toplamaq həqiqi universitetdir. Kitablar qarşısında, dünyanın ayrı-ayrı guşələrində və ayrı-ayrı dövrlərində müqəddəsliklər qarşısında olduğu kimi sitayiş etmişlər. Sərt normanlar daş yazılarına – runlara möcüzəli qüvvəyə malik olan bir şey kimi baxırdılar. Əslində, daşlar bəşəriyyətin ilk kitabları olmuşdur. Ərəblərdə isə belə bir zərb-məsəl var idi: "Müdrikin bir günü cahilin ömründən uzundur". Sultanlardan daha maarifpərvər olan xəlifələrə (bunlar az olmamışlar) daha çox uyğun gələn digər zərb-məsəldə isə deyilir: "Alimlərin mürəkkəbləri edam olunanların qanından qiymətlidir". Belə söyləyirlər ki, Çinin böyük mütəfəkkiri Kun-Tszı (Konfutsi) özünü, ruhi qidaya bədən qidasından daha üstünlük verən adam adlandırırdı. Elmi məşğələlərin sevincində o, həyatın kədərlərini unudurdu, hətta qocalığının da necə gəlib çatdığını hiss etməmişdi. Siseron isə deyirdi ki, kitabsız ev, ruhu olmayan bədənə bənzəyir. Axı kitablar köhnə dostlar kimi öz məsləklərini dəyişmir, onlar sən dövlətli, ya da kasıb olduqda, şöhrət sahibi olduqda və yaxud da tənəzzülə uğradıqda, həmişə səninlə bir yerdə qalır. XIX əsrin ortalarında İngiltərənin baş naziri olmuş, lord Eduard Derbi yazırdı ki, kim bədən tərbiyəsi üçün vaxt tapmırsa, bu vaxtı xəstəlik üçün tapacaq. Bu sözləri bir qədər dəyişdirib, demək olar ki, kim kitab oxumağa həvəs göstərmirsə, cəhalət xəstəliyi onu cana doyduranda, necə səhv etdiyini anlayacaqdır.

Kitabxana, həqiqətən, Bibliyada Allahın yəhudilərə vəd etdiyi torpaq kimidir. Bu həqiqi həzz sarayında varlı da, kasıb da eyni dərəcədə ləzzət ala bilər, çünki burada var-dövlət heç bir üstünlüyə malik deyildir. Kitabxana lazım olan kitablara malik olduqda o, Edem bağına, həqiqi Yerüstü cənnətə çevrilir və bunun bir üstünlüyü var ki, burada heç bir qadağa-yasaq yoxdur. Burada hər şeyi dadmaq olar, Axı əcdad

•

anamız Həvva idrak ağacının meyvəsindən daddığına görə əri ilə birlikdə cənnətin gözəlliklərindən birdəfəlik məhrum oldu. İstənilən meyvəni istədiyin qədər yeyə bilərsən, təki beyin bu yediklərini həzm etmək qabiliyyətində olsun. Bu meyvələr isə insan dühasının yaratdığı zəkalarda təcəssüm olunur. Kitablar bizi dəyişdirir, zənginləşdirir, kicik mikrokosmdan çıxmağa, günəş sisteminin dərinliklərinə, yeni qalaktikaya daxil olmağa şərait yaradır.

Bir qədim ibrətamiz hekayətdə deyildiyi kimi, iki adam var idi. Şah hər gecə yuxusunda görürdü ki, o, dilənçidir, digəri, dilənçi isə hər gecə yuxuda görürdü ki, o, şahdır və sarayda yaşayır. Yəqin ki, belə yuxulardan cana gələn şah o qədər  də xoşbəxt deyildi. Təxəyyül bəzən həyatın özündən canlı olur. Kitabları oxuyarkən biz nəinki şahlara çevrilir, saraylarda yaşayırıq, həttə daha mühüm cəhət ondadır ki, biz dağların zirvəsinə qalxır və dəniz salilinə enirik, dünyanın ən gözəl guşələrinə səyahət edirik və bu vaxt nə elə bir xərc çəkirik, nə də yorğunluq və rahatsızlıq hiss edirik. XIX əsrin məşhur ingilis tarixçisi Tomas Makoley kiçik bir qıza yazdığı məktubda qeyd edirdi ki, yaxşı, qoy mən kasıb olub çardaqda yaşayım, ancaq mənim çoxlu kitablarım olsun, nəinki kitabxanası olmayan kral olum. Doğrudan da, kitab ən kasıb komanı da belə, fikirlər sarayına çevirir. Bir müdrikin dediyi kimi ,"Parnasdan, kral taxtından olduğundan daha uzaq məsafə görünür". Kitabla adam daha tez dünyanı dərk etməyə başlayır, nəinki şəxsi təcrübəsi ilə. Axı həyat təcrübəsi uzun illər ərzində əldə edildiyindən adamlara müdriklikdən daha çox, bədbəxtlik gətirir. İngilis Lebbok yazırdı ki, heç bir xalqda bizdə olan gözəl, nəcib ədəbiyyat yoxdur. O bizim ticarətdən varlı, bizim ordudan güclüdür. O, ölkəmizin həqiqi fəxri və şərəfidir və onu şöhrətləndirən heç bir söz o qədər də ucadan səslənməyəcək. Bu sözləri başqa xalqların nümayəndələri, o cümlədən, azərbaycanlılar da eyni əsasla öz doğma və qədim ədəbiyyatları haqqında söyləyə bilərlər.

Axı böyük mütəfəkkir Höte Azərbaycanı tanımadığı halda, ozünün "Qərb-Şərq divanı" kitabında "ərəb-iran Şərqinin məşhur yeddi şairının" siyahısına daxil etdiyi Nizaminin öz vətəni Gəncədə dəfn edildiyini qeyd edir. Xosrov Dəhləvi və Əlişir Nəvai öz əsərlərini yaradarkən Nizamiyə istinad etdiklərini qeyd etmişlər. Hərb sahəsində hünərlərimiz elə bir səs salmasa da, bu isə ancaq XXI əsrin ikinci dekadasında, erməni işğalçıları üzərində 44 günlük müharibədəki qalibiyyətlə bizə nəsib oldu, XII əsrdən başlayaraq öz ilk çiçəklənmə dövrünü keçirən poeziyamız bütün dünyada olmasa da, Şərqdə geniş yayılmış və yaxşı tanınmışdır. Ədəbiyyatımız tarix boyu xalqımızın ən böyük iftixar mənbəyi olmuşdur. Lakin onu bilmək, oxumaq şit tərif nidalarından daha vacibdir. 2020-ci ilin payızındakı Azərbaycan ordusunun qələbəsinə gəldikdə, bu Zəfəri hazırlayanlar və həyata keçirənlərin böyük xidməti bədii cəhətdən tərənnüm edilməyə layiqdir və panoramanı andıran geniş tabloda,

•

mübaliğədən kənar, əsl bir epopeyada öz əksini tapmalıdır. İftixar mənbəyimiz olan qələbə öz bədii reinkarnasiyasını gözləyir və yaradıcı ziyalılar bu məsələdə üzərlərinə düşən məsuliyyətli vəzifəni yerinə yetirməyə borcludurlar.

Mütaliəyə həvəs uşaq yaşlarında oyadılmalıdır. Çünki bu həvəs bütün ömürə kifayət edir, bir an belə şiddətini azaltmır. Bədii ədəbiyyata məndə maraq yazıb-oxumağı öyrəndiyim vaxtdan başlamışdır. Doğma ədəbiyyatın ələ düşən əsərləri ilə yanaşı, üçüncü sinifdə oxuyarkən Vasili Ajayevin Tatar boğazından materikə sualtı boru çəkilməsindən bəhs edən iri həcmli "Moskvadan uzaqlarda" və tatar yazıçısı Ğumer Bəşirovun müharibə dövründəki kənd həyatını təsvir edən "Namus" romanlarını oxudum. Bunun arxasınca Vilis Latsisin "Balıqçı oğlu", "Qanadsız quşlar" və Muxtar Auezovun "Abay" romanları gəldi. Xarici ədəbiyyat antologiyasından ilk dəfə Azərbaycan dilində "Tristan və İzolda" ilə, "Hamlet"lə, Şekspirin digər pyesləri ilə tanış oldum. Bu mütaliə heç bir istiqamətə malik deyildi, ələ düşən kitabların hamısı oxunurdu.

Sonradan nisbətən seçmə qaydasında mütaliə başlansa da, zamanın təsiri məndən də yan keçmirdi və kütləvi zövqə uyğun olaraq mən də bəzən az da olsa o mərhələləri keçmək məçburiyyətində qalırdım.

İndi müqaliəyə başlayanlara az-çox bu sahədə təcrübəsi və formalaşmış zövqü olan adam kimi nəyi oxumaq məsləhət görmüş olardım? Axı belə məsləhəti ən müdrik adamlar da vermişlər. Mən özümü onlarla müqayisə etməkdən çox uzağam, ancaq öz sadə təcrübəmə əsaslanıb, bu addımı atmağa cəsarət etməyi də qəbahət saymıram.

Mənim zənnimcə, hər bir kitab həvəskarının kitabxanasını hökmən Homerin "İliada" və "Odisseya"sı bəzəməlidir. Sonra qədim yunan dramaturgiyasına nüfuz etməyi vacib sayıram. Sofoklun pyeslərini, xüsusən, "Çar Edip" və " Antiqona" əsərlərini oxumaq qədim yunan teatrının nəyə qadir olduğu haqqında təsəvvür yaradardı. Qədim yunan fəlsəfəsinə müraciət də yerinə düşər, Platonun, Aristotelin əsərləri hər bir kitabxananı bəzəyər. Bizim eradan əvvəl I əsrin ikinci dekadasında Romanın dəhşətli diktatoru olmuş Sulla yalnız bir əməlinə görə - Aristotelin əsərlərini Afinada tapıb, öz paytaxtına gətirdiyinə görə ehtiramla xarırlanır.

Qədim yunan tarixçilərinin, tarixin atası Herodotun, həmçinin Fukididin, Ksenefontun əsərlərini oxumaq adama böyük ləzzət verir və qədim dünyanı öyrənməkdə onlar müqayisə olunmaz mənbələrdir. Herodotun "Tarix" adlı iri həcmli əsərindən yalnız Elladanı, yaxud Persiyanı və Qədim Misiri deyil, həm də skiflərin, massanetlərin tarixini də öyrənmək olar. Fukididi isə təkcə Periklin məşhur nitqinə görə oxumağa dəyər. Antik ədəbiyyata həvəs Roma ədəbiyyatına, falsəfəsinə böyük maraq oyadır. Tarixlə maraqlananlar Polibinin, Sallyustinin, Tit Livinin, Tatsitin,

•

Plutarxın, İosif Flavinin əsərlərini əldə etsələr, öz xəzinələrini daha da zənginləşdirərlər. Roma tarixini öyrənənlər üçün alman tədqiqatçısı Teodor Mommzenin "Roma tarixi" əsəri, həmçinin ingilis Eduard Qibbonun əsərləri çox qiymətli tapıntı olardı. Çoxları Qədim Roma imperatorlarının pozğunluqlarını öyrənmək üçün tarixçi Svetoninin "On iki Sezarın həyatı" əsərinə müraciət edir.

Qədim Yunan və Roma tarixinin ən dərin və müdrik tədqiqatçılarından biri kimi tarixçi Plutarxın əsərləri, xüsusən "Müqayisəli bioqrafiyalar" kitabı bu gün də kamilliyin və yüksək bədii zövqün məhsulu olaraq qalır. Bizim eranın əvvəlinin iki məşhur şəxsiyyəti, I əsrdə yaşayan filosof Seneka və I-II əsrlərdə yaşamış Plutarx əcnəbi olsalar da, Roma mədəniyyətinə böyük töhfələr vermişlər. Mənşəcə yunan olan Plutarx qələmi ilə qədim dünyanın ən görkəmli şəxsiyyətlərinin uydurulmamış, faktlara söykənən portretlərini parlaq boyalarla canlandıra bilmişdir. Onun əsərləri müdrik, ibrətamiz kəlamlarla doludur. O, bu tarixi şəxsiyyətlərin hər birini öz dövrünə və ləyaqətlərinə uyğun təsvir etməyə müyəssər olmuşdur. Bu əsərlərdən biz Likurq, Solon, Numa Pompili, Perikl, Aleksandr, Femistokl, Kamill, Poplikola, Sulla, Sezar, Krass, Pompey və onlarça başqalarının həyatı, mübarizəsi, ləyaqətləri və qüsurları haqqında geniş məlumat almaq imkanına malik oluruq. Plutarx bu tarixi xadimlərin canlı obrazını yaradarkən tarixi əhvalatlara üstünlük verir, dərin təhlil vasitəsilə onları cilalanmış, tam kristallaşmış şəxsiyyət kimi təqdim edir, bu tarixi yaradanların fəaliyyətinin motivlərini, səbəblərini və məqsədlərini açır. Başqa müəlliflərdən fərqli olaraq, o, ifrata varmır, öz qəhrəmanlarının obyektiv, şit boyadan kənar portretlərini yaratmağa cəhd edir və buna müvəffəqiyyətlə nail olur. Onun "Süfrə söhbətləri" kitabı isə adi həyatın bir çox həqiqətlərini ustalıqla təsvir edir, adamları maraqlandıran, hal-hazırda ümumbəşəri dəyərlər hesab edilən məsələlərə dair suallara hərtərəfli cavab verir. Digər əcnəbinin, əslən İspaniyadan olan Senekanın fəlsəfi əsərləri, xüsusən, "Əxlaqi məktubları" olduqca maraqlıdır. Həyatı keşməkeşlərdə keçmiş, Nerona müəllimlik etmiş və onun hədəsi ilə özünü öldürən Seneka bu günkü insana da öz məktublarında əxlaq dərsi, mənəviyyat dərsi verir. Bir əsr yarım sonra yaşamış Kiçik Plininin imperator Trayan haqqındakı panegirik əsəri olduqca maraqla oxunur.

Roma tarixçilərinin əsərlərindən Romanın mənşəyi, troyalılardan əmələ gələn Latinin bu xalqın əcdadı olmasını, Romulun öz adı ilə adlandırdığı həmin əbədi şəhəri salması, sabinlilərlə birləşməsi əfsanəsi ilə yanaşı, Puniya (Karfagen) müharibələri, Numidiya ilə aparılan müharibələr, xüsusən, miladdan əvvəlki üç əsrin tarixi ilə, həmin dövrün görkəmli şəxsiyyətləri ilə yaxından tanış olursan. Dövlət xadimlərindən Böyük Katonun, QayYuli Sezarın əsərləri, Oktavian Avqustun vəsiyyəti olduqca maraqlıdır. Tarixçi Polibi öz dostu Kiçik Stsipion-Emilian Afrikalı barədə, Karfageni

•

yerlə-yeksan etmiş bu sərkərdə haqqında geniş məlumat verir. Sallyustinin isə Mari haqqında yazıları olduqca maraqlıdır. Tarixi əsərlərdən söhbət acarkən amerikan tarixçilərinin yazdığı və ilk dəfə 1940-cı ildə çap olunan sanballı “Western civilisation” –“Qərb sivilizasiyası” kitabını qeyd etmək istərdim. Bu əsərdə beşiyi Şumerdən başlanan dünya tarixinin, qərb sivilizasiyasının bünövrəsindən tutmuş müasir dövrə qədər, Hindistandan Şərqə olan ərazi istisna olmaqla, dünya tarixinin lövhələri oxucunun gözü qarşısında canlanır.

Mənşəcə yəhudi olan Roma tarixçisi İosif Flavinin “İudeya müharibəsi” əsərində israillilərin bizim eranın I əsrinin ikinci yarısında Roma işğalcılarına qarşı qaldırdıqları qiyam vaxtı göstərdikləri müqavimət faktlar və tarixi qəhrəmanlarla təsvir edilir. Tarixi əsərlərdən söhbət gedərkən rus tarixçiləri Karamzinin, Klyuçevskinin əsərlərini də qeyd etmək istərdim. Rus faşizmini təbliğ edən irticaçı filosof İ. A. İlyin isə ölkədəki şovinistlərin sevimli müəllifidir. XX əsrin dövlət xadimlərindən Uinston Çörçill tarix elminin populyarlaşmasında öz layiqli töhfəsini vermişdir. Onun dörd cildlik “İngilis dilli xalqların tarixi” kitabı olduqca zəngin tarixi faktlarla doludur, əsər canlı və obrazlı dildə yazılmışdır. Onun altı cildlik “İkinci Dünya müharibəsi” əsəri isə siyasi, diplomatik və hərbi sənədlərin və məlumatların çoxluğundan, detallaşdırma meylindən bədii vəznini bir qədər itirir. Əsərdə qeyri-obyektivlik də hiss olunur. Krit döyüşü və Afrikanın şimalında Rommellə döyüşlər ən kiçik detalları əks etdirilməklə təsvir olunursa, Stalinqrad və ya Kursk döyüşü öz lazımi qiymətini almır və layiq olduğu diqqətdən yayınır. Lakin əsərdə tarixin bizə məlum olmayan bir sıra cəhətləri ilə tanış olmaq imkanı tapırsan. Birinci əsərindən fərqli olaraq ikinci əsər bir qədər ixtisar edilmiş qaydada rus dilində çap edilmişdir. Çörçillin əsərlərində biz ingilis xalqlarının qədim, keşməkeşli və qanlı tarixinin şərəfli, həm də dəhşətli səhifələri ilə tanış oluruq. Onun öz xalqının tarixinə həsr olunmuş kitabında biz İngiltərənin koloritli tarixi şəxsiyyətləri ilə - VIII Henri, qanlı kraliça Mariya Tüdor, şərəfli kraliça Elizabet, Frensis Dreyk, Kromvel, Malboro, Uilyam Pitt, Viktoriya ilə tanış oluruq. Biz İngiltərənin qədim romalılarla, danimarkalılarla, sonralar fransızlar və ispanlarla apardığı qanlı müharibələrin şahidi oluruq. İngilislərlə fransızlar arasında axırıncıların ərazisində gedən və XV əsrdə davam edən Yüzillik müharibə fransız xalqının əfsanəvi qəhrəman qızı Janna D'Arkı tarix səhnəsinə gətirmişdi.

İngiltərəni təkcə xarici düşmənlərlə aparılan silahlı nifaqlar deyil, vətəndaş müharibələri də candan salırdı. Şotlandların ingilislərə qarşı fransızlarla ittifaqı İngiltərəyə daim başağrısı gətirirdi. Kromvel monarxiyanı məhv etmək şüarı altında özünün diktaturasını yaratdı və İrlandiyanı, xüsusən Droqheda şəhərini qan icində boğdu. İngiltərənin bakirə kraliçası I Elizabet ondan bir əsr əvvəl ispanların

•

donanmasını - Məğlubedilməz Armadanı məğlubiyyətə uğratmaqla dövlətin sabitliyini və qüdrətini xeyli möhkəmləndirdi. Kraliça tərəfindən himayə və təqdir edilən dəniz qulduru Frensis Dreyk təkcə Cənubi və Mərkəzi Amerikadan qızıl və gümüş daşıyan gəmiləri qarət etməklə ispan xəzinəsinə böyük ziyan vurmaqla kifayətlənmir, İspan limanı Kadisdə ölkənin ambarlarını və gəmilərini tar-mar etməklə "ispan kralının saqqalını ütməsi" ilə lovğalanırdı.

İngilislər portuqaliyalılardan və ispanlardan sonra yeni torpaqlar zəbt etmək əməliyyatına girişdilər. İngilis Cilbert 1583-cüildə Nyufaundlend adasını ölkəsinin torpağı etdi. 1607-ci ildə Şimali Amerikada Virçiniyanın dəniz sahilində ilk ingilis koloniyası yarandı. 1620-ci ildə isə "Mey Flauer" gəmisində Yeni Dünyaya gələn ingilislər dana böyük koloniyanın – Massaçusestdəki Yeni Plimut yaşayış məntəqəsinin əsasını qoydular və ətrafdakı hindularla tez-tez dəyişilməyə məruz qalan qonşuluq münasibətlərinə və əməkdaşlığa başladılar. Amerika qitəsinin pionerləri ilə maraqlananlar Yeni Plimutun 6 ay sonra ölən ilk qubernatorunu əvəz edən Uilyam Bredfordun xatirələrindən, həmçinin böyük amerikan mütəfəkkiri Bençamin Franklinin kitablarından çox şeyi öyrənə bilərlər. Bu mənbələrdən kiçik bir puritan ingilis dəstəsinin dini təqiblərə görə əvvəlcə Hollandiyaya qaçmasını, burada Leydendə yaşamasını, sonra isə necə böyük risk və iztirablar hesabına Amerikaya gəlib çıxmasının tarixçəsini vərəqləyirsən. Oxucu bu adamların məslək yenilməzliyinə, prinsiplərinin saflığına, iradə və dözümlülüyünə heyran qalmaya bilmir. Bu adamlar özlərini gələcəkdə də böyük təhlükələrdən və məhrumiyyətlərdən müdafiə etmək üçün yeni məskunların daşınması və yerləşdirilməsi ilə məşğul olan "Vest İndia" kompaniyası ilə necə düşünülmüş, dürüst müqavilələr bağlayırlar. Bu hüquqi sənədlər öz elmliliyi, hüquqi dəyəri, ağıllı tərtib olunması ilə bu gün də adamı heyran edir. Bu koloniyanın üzvləri axıradək dini məsləklərinə də sadiq qalırlar, ayinlərini vaxtlı-vaxtında icra edir, daha doğrusu, allaha sədaqətlərini zəbur oxumaqla yerinə yetirir, moizəyə qulaq asırlar. Koloniyanın idarə olunmasında demokratik prinsiplərə ciddi üstünlük verilir və onlar hələ Amerika torpağına qədəm basmamışdan əvvəl sərnişinlər tərəfindən gəmidə işlənib hazırlanmışdı. Təsadüfi deyil ki, bu sənəd ABŞ Konstitutsiyasının binövrəsi hesab olunur.

Fəlsəfə sahəsində qədim yunan filosofları Platon və Aristotellə yanaşı, intibah dövründən sonra meydana gələn filosofları oxumaq adamın biliklərini zənginləşdirir. Erazm Rotterdamlı, Frensis Bekon, Spinoza, Hyum, Volter, Russo, Kant, Hegel və Engelsin, məşhur rus filosofu Nikolay Berdyayevin əsərlərini oxumaq və əldə etmək pis olmazdı.

•

Hüquq elmi ilə maraqlananlar üçün də böyük çeşiddə kitablar mövcuddur. Mən bu adamlara Hammurabi qanunu, yəhudilərin İkinci Qanunu-Deyteronomiya, Manu qanunu, Yustinian kodeksi, Magna Carta, Napoleonun Mülki kodeksi, ABŞ Konstitusiyası ilə tanış olmağı məsləhət görərdim.

Dövlət quruculuğu, dövlət hüququ ilə maraqlananlar Platonun bu məsələyə həsr olunmuş əsərini, həmçinin Siseronun "Dövlət haqqında" və "Qanun haqqında" traktatlarını oxusa, pis olmazdı. Ailə və dövlətin inkişafı mərhələlərini öyrənmək üçün F.Engelsin "Ailənin, dövlətin və xüsusi mülkiyyətin mənşəyi" əsəri yaxşı vasitədir. Burada dövlətin əsası, ilk hüceyrəsi olan ailənin, nikahın meydana gəlməsi və inkişaf yolu tədqiq olunur. Konfutsi isə qədim dövrlərdə Çində ustalıqla idarə olunan dövlətləri bu vaxt ailəni idarə etmək üçün örnək olduğunu iddia edirdi.

Qanunların əmələ gəlməsi, onlara cəmiyyətin, hətta təbiətin və iqlimin də, xalqın köçəri və oturaq həyat keçirməsinin necə təsir göstərməsini, qanunların sərt, qəddar və mülayim olmasının cəmiyyət üzvlərinin tərbiyəsinə, davranışına etdiyi təsirləri biz böyük fransız mütəfəkkiri Şarl Monteskyenin "Qanunların ruhu haqqında" əsərində tapırıq. XVIII əsrdə yazılmış bu əsər, bəlkə də, İngiltərədə müəyyən qədər təşəkkül tapmış hakimiyyətin bölgüsü prinsiplərini nəzəri cəhətdən əsaslandırmış, bu ideyanın dövlətin idarə olunmasında, demokratik prinsiplərin bərqərar olunmasında, hakimiyyətin hər hansı bir qanadının sui-istifadəsinə yol verməmək üçün onların səlahiyyətlərinin ayrı-ayrı sahələrdə məhdudlaşdırılması, əkslik və tarazlaşdırılma prinsipini irəli sürür. Alim öz kəşfi ilə dövlət hakimiyyətinin qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qanadlarına bölünməsi lüzumunu qeyd edir və bu bölünmə ilə, həqiqətən, hakimiyyət adlanan yırtıcı şirin iti çaynaqlarını bir qədər kəsib gödəltmək, Hobbsun dəniz yırtıcısı Leviafana bənzətdiyi dövlətin nəhəng səlahiyyətlərini onun ərazisində yaşayan vətəndaşlar - insanlar naminə yumşaltmaq mümkün olur. Hakimiyyətin həqiqi bölünməsi despotiyanın, tiraniyanın meydana gəlməsinə mane olur, onların qarşısına keçilməz sədd çəkir. Monteskye elmi əsərini yazarkən ona qədər olan dövlət formalarını və qanunları təhlil edirdi. O, tarixin gələcəkdə doğuracağı digər eybəcər dövlət quruluşu formasını - totalitarizmi görə bilməzdi. Monteskyenin əsəri olduqca maraqlı dildə yazılmışdır. Burada biz qədim Roma imperatorlarının qanundan istifadədəki vəhşiliyi ilə də tanış olurduq. O vaxtlar bakirə qızların edam olunmasına icazə verilmədiyinə görə Avqustdan sonra hakimiyyətə gəlmiş Tiberi asan çıxış yolunu tapmışdı, o, göstəriş vermişdi ki, cəlladdar əvvəlcə həmin qızları zorlasınlar, sonra onları edam etsinlər. Yaxud qədim almanların sərt qanunları, məhkəmələrin cinayətkarı mühakimə etməsi üçün deyil, onu müdafiə etməsi üçün qurulmasını, Çin və Yaponiyada sərt, azacıq xətalar üçün ölüm hökmü müəyyən edən qanunların mövcudluğunun əhalini itaətə

•

öyrətməsi, onların psixologiyasını pozmasına səbəb olmasının şahidi oluruq. Monteskyenin əsərindən biz həm də ləyaqətli tarixi şəxsiyyətlərlə tanış oluruq. Müəllif VIII əsrin sonunda, IX əsrin əvvəlində frankların kralı və Qərbin imperatoru olmuş Böyük Karlın ləyaqətlərini böyük vurğunluqla təsvir edir. Monteskyenin digər bir əsərində Roma imperiyasının süqutu problemləri tədqiq olunur. Ümumiyyətlə, bu mütəfəkkirin əsərlərini mütaliə etməyi mən fəlsəfə, tarix, hüquq məsələlərinə maraq göstərən hər bir hazırlıqlı şəxsə məsləhət görərdim.

Oxucular, yəqin ki, böyük siyasət filosofu italyan Nikkolo Makiavellinin əsəri ilə də tanışdırlar. Onun "Hökmdar" əsəri hakimiyyətə yiyələnməkdə ən iyrənc vasitələrdən də istifadənin yararlı olduğunu iddia etməklə, siyasət hiyləgərliyinin və məxfiliyinin "məqsəd, vasitələrə haqq qazandırır" sözləri ilə ifadə edilən və sonralar məkr rəmzi kimi qəbul edilən makiakvallizmin əsasını qoymuşdur. Müəllifin "Florensiyanın tarixi" kitabı Orta Əsr şəhər-dövlətinin tarixinə ekskurs etməkdə yaxşı yol göstərən olması ilə yanaşı, bir qüsuru ilə də seçilir. Florensiyaya pozğunluq, qanlı müharibələr bəxş etmiş, haqsızlıqlar və əzablar gətirmiş hakim Borçia sülaləsi əsərdə məddahlıqla təsvir olunur, onlara xüsusi təzim və aludəlik kitabın canına hopmuşdur. Atası papa VI Aleksandr kimi neqativlik simvolu olan, qətllər təşkil edən Çezare Borcia etalon sayıla bilən hökmdar kimi təqdim olunur.

Coğrafiya, etnoqrafiya, səyahətlər haqqında kitablar o qədər çox və maraqlıdır ki, onları həvəslə oxumağı kütləvi oxucuya məsləhət görərdim. Belə səyahət kitabları yüngül yazıldığından maraqla oxunur. Bura Tur Heyerdalın "Kon – Tikidə səyahət", "Pasxi adası"ndan tutmuş Qonçarovun "Palladada səyahət", nəhayət, V. Ovçinnikovun "Palıdın kökləri" və "Sakura budaqları" kitabları daxildir. Teofil Qotyenin "Rusiya səyahəti"nin, Dümanın Rusiyaya səfərinə həsr edilmiş xatirələri maraqla oxunur. Dünya xalqlarının adət-ənənələri, mədəniyyətləri ilə tanışlığı 20 cildlik "Stranı i narodı mira" kitabları verir. Bu kitablar istənilən kitabxananın bəzəyinə çevrilə bilər. Nansenin, Amundsenin öz səyahətlərinə dair kitabları da maraqlıdır.

Heyvanlar aləmi daim insanı maraqlandırmışdır. Bu sahəyə həsr olunan kitablar da maraqla oxunur. Mən məşhur ingilis təbiətşünası Cerald Darrelin dünyanın heyvanlar aləminə həsr olunmuş kitablar seriyasını oxumağı təkid edərdim. Kanada tədqiqatçısı Farli Mouettin, xüsusən canavarlar haqqındakı "Qışqırmayın, canavarlar diksinər" kitabı da xüsusi marağa səbəb olur.

Oxucu qədim insanlardan qalmış yadigarlardan uzaqda dayana bilməz. Miflər, nağıllar bizi daim qısa müddətə də olsa, uşaqlıq dövrünə, uşaqlıq aləminə qaytarır. Qədim yunan əsatirləri olduqca təsirlidir, onları öyrənmək qədim yunan və Roma

•

ədəbiyyatını da asanlıqla oxumaq üçün şərait yaradır. Ərəblərin böyük mədəni abidəsi "Min bir gecə nağılları"nın əsrarəngiz aləminə səyahət adama böyük ləzzət verir. Böyük nağıl ustası H. K. Andersenin sehrli aləmi olduqca maraqlıdır. Sent-Ekzyuperinin də sadəlövh və səmimi nağılları adamı heyran edir. Rablenin, Qrimm qardaşlarının əsərləri də nağıl xarakteri daşıyır. "Dünya xalqlarının mifləri"nin iki cildliyi və "Mifoloji söz toplusu" əsatirləri öyrənməkdə yaxşı vasitə rolunu oynayır.

Öz mütaliə təcrübəmdə bir vaxtlar dəbdə olan, bəzən hətta öyrənilməsi vacib sayılan marksizm klassiklərinin cild-cild kitablarını öyrənmək zərurəti ilə də üzləşməli olmuşdum, Moskvada təhsil alarkən dərs proqramına uyğun olaraq Karl Marksın "Kapital"ının I cildini, Friridrix Engelsin fəlsəfi kitablaını, V.İ. Leninin və G.V. Plexanovun iri əsərlərini təkcə oxunaq deyil, hətta konspektləşdirmək lazım gəldi.

Mən bir qədər Fransa maarifçilərinin, ensiklopedistlərinin insanlara bəxş etdiyi bir töhfədən - ensiklopediyadan söhbət açmaq istəyirəm. İlk dəfə fransız filosofları D'Alamber və Didro tərəfindən tərtib edilən bu 28 cildlik əsər 1751-ci ildən başlayaraq 21 il ərzində çıxmağa başladı. Kral XV Lui yeni baxışları əks etdirdiyinə görə əvvəlcə bu kitabı qadağan etdirmişdi. Lakin bu hərtərəfli elm və məlumat mənbəyinin böyük fayda verdiyinə əmin olduqdan sonra o, bu qadağanı ləğv etmək məcburiyyətində qaldı. Deyilənlərə görə, onun məşuqəsi madam de Pampadur da bu qadağanın götürülməsini xahiş edənlər sırarasında olmuşdu. Bir qraf isə krala müraciət edərək demişdi ki, mənim bütün var-dövlətimi alın, ancaq mənə ensiklopediya kitablarımı qaytarın. Mən 30 cildlik Britaniya Ensiklopediyası və onun bəzi illik buraxılışları ilə tanışam. Rusiyada Brokqauz və Efronun, sovet dövründə isə əvvəlcə 50 cildlik, sonra isə 30cildlik "Böyük Sovet Ensiklopediyası" buraxılmışdır. Sonuncunun elmi dəyərini azaltmamaqla, qeyd etmək lazımdır ki, burada siyasi və ideoloji məqsədlər aparıcı meyil olduğundan, bu, əsərin ümumi qiymətinə xeyli xələl gətirir.

Azərbaycan ensiklopediyası millətin həyatında ən böyük mədəni hadisə xarakteri daşımalı idi. Təəssüf ki, dünyanın digər inkişaf etmiş ölkələrinin bu sahədəki mədəni ənənələri və çox saydakı təcrübələri görünür lazımınca öyrənilməmişdi, dövrün və sovet ideologiyasının dar baxış bucağı altında bu kitabların tərtibi cəhətdən çiy əsasda nəşri başlanmışdı. Tarixin mühüm hadisələri və şəxsiyyətləri əvəzinə, kitabın hər cildinin səhifələrini saysız-hesabsız və zövqsüz qaydada səpələnmiş adi adamların və şübhəli ləyaqət sahiblərinin fotoşəkilləri bəzəmişdi. Ölkədə sayı yüzlərlə ölçülən Sosialist Əməyi Qəhrəmanları adını daşıyan qabaqcıl fəhlə və kolxozçuların, həmçinin elmə elə bir töhfəsi olmayan bəzi elmlər

•

doktorlarının tərcümeyi-halı və portretləri ensiklopediyaya layiq olan yazıların böyük əksəriyyətinin yerini tutmaqla, məhz onlar üçün nəzərdə tutulan məkanı zəbt etmiş, bu sığınacağa həqiqi hüququ olan sakinləri oradan uzaqlaşdırmışdılar. Bu əmək qəhrəmanlarının çoxu haqqında məlumatlar şişirdilmiş rəqəmlərdən başqa heç bir xidmət nişanəsi ilə əsaslandırılmırdı, üç vaxtla -  doğum, ölüm və bu adı almaq vaxtları ilə xarakterizə olunurdu. Əsasən, Stalin dövründə, XX əsrin ortası ərəfəsində rəqəmlərin manipulyasiyası yolu ilə bu ucuz "şöhrət" zirvəsinə qalxmış adamlar pambığın, yonca toxumunun və ya qoyunçuluğun dünyada görünməmiş uydurma məhsuldarlığına nail olduqlarına görə elə bil ki, öz xalqı və bəşəriyyət qarşısında "böyük xidmət" göstərmişlərə çevrilmişdilər. Onların arasında çox sayda kolxoz sədrləri də var idi. "Qızıl ulduza" yiyələnmiş raykom katibləri isə özlərini adamların taleyinə qənim kəsilən satraplar kimi aparırdılar. İtaət ətalətinin bəhrəsi kimi onlar hətta yeni yayılan primitiv folklorun qəhrəmanlarına çevrilirdilər. Fotoşəkilləri ilə Ensiklopediyanı "bəzəyənlər" respublikada yalnız qəhrəmanlardan ibarət heybətli bir legionun mövcud olması təsəvvürünü yaradırdı və xalqa onlarla öyünmək təlqin edilirdi. Onsuz da adamlara yaxşı məlum olan əxlaqi qüsur sahiblərinin, çünki həmin qəhrəmanlar içində beləlləri az deyildi, Ensiklopediya kimi müqəddəs ərazidə məskunlaşması təəssüf hissləri doğurmaya bilməz.

Belə ensiklopediya gələcək nəsillərə bizim milli iftixarlarımız, elmi və mədəni yüksəkliklərimiz haqqında obyektiv məlumat verə bilmədiyindən, onu yaradanları da daşıdıqları məsuliyyətdən azad etmir.  Ensiklopediya, məxsus olduğu xalqa başucalığı aşılamalıdır, onun yazıları heç kəsə xəcalət təri gətirməməli, milləti natamamlıq kompleksi rəmzinə, onun mədəni və mənəvi mənliyinin qınnağı mənbəyinə çevirməməlidir. Axı hər gün ensiklopediya yazılmır və onun tez-tez dəyişdirilməsi cəhdi isə milli zəka və şüurun  zamanın hökmündən asılı olaraq yaşıl ot kimi əyilməsindən xəbər verir. Əgər ensiklopediya kimi tarix üçün,  xalqın əzəməti naminə nəzərdə tutulan kitabın yaradılması çürük ideologiya qandalına qurban gedirsə, bəlkə də bunun əvəzinə, məqsəd baxışı belə həssas səhnə xalqın sonrakı nəsillərinin şüurunu zənginləşdirən məqalələrə verilsəydi, yəqin ki, bu öz təyinatına uyğun gəlməklə yanaşı, iftixar hissləri yaradardı.  Ancaq yaxşı məlumdur ki, anadan gəlmə əlil doğulan uşaq heç vaxt valideynləri üçün həqiqi sevinc mənbəyinə çevrilmir.

İndi isə hamıya yaxşı məlum olan bədii ədəbiyyata kecək. Qədim yunan və Roma müəlliflərindən tutmuş müasir dövrədək dünya ədəbiyyatı çoxsaylı və çoxçeşidli incilərlə doludur. Qədim Roma ədəbiyyatından Avqust epoxasının üç poeziya nəhənginin –Horatsinin, Vergilinin, Ovidinin əsərlərini xüsusi qeyd etmək lazımdır. Vergilinin"Bukolika" və "Eneida"sı maraqla oxunur, Homeri də dərk etməkdə çox kömək edir. Ovidi Nazonun "Ars Amatoria"sı –"Məhəbbət elmi" əsəri

•

insanın ən böyük tədqiqat obyektinə, iki cinsin arasındakı münasibətlərə və ehtiraslara həsr olunmuşdur. Yuvenalın, Apuleyin öz dövrlərini iti baxışlarla qamçılayan satiraları, yunan Ezopun Romadakı davamçısı Fedrin mükəmməl və öldürücü təmsilləri olduqca maraqla oxunur.

Sonra isə intibah dövrünün ədəbiyyatı gəlir. Dantenin "İlahi komediya"sı, Şeksprin pyesləri, Rablenin, Servantesin nəsr əsərləri, trubadurların fiziki hissiyatı tərənnüm edən poeziyası, Fransua Viyonun şeirləri ədəbiyyat həvəskarlarının nəzərini həmişə cəlb edir. Əsasən XVII əsrin əvvəllərində yazıb-yaradan Uilyam Şekspir dramaturgiyanı elə uca zirvəyə qaldırmışdır ki, hətta Kornel, Rasin, Çexov, Uayld, Şou da bu yüksəkliyə yaxınlaşa bilməmişlər. U.Çörçillin yazdığına görə, İngiltərə tarixinin elə bir zirvə məsələsi yoxdur ki, Şeksprin sehrkar barmaqları onları böyük sənətkarlıqla təsvir edə bilməsin. O, İngiltərənin tarixi şəxsiyyətlərinin böyük bir qalereyasını yaratmışdır. Onun yaradıcılığı İngiltərə sərhədlərində bağlanıb qalmamışdır. Onun "Hamlet"i Danimarkada, "Romeo və Cülyetta"sı Veronada, "Otello"su isə Orta Əsr şəhər-dövləti olan Venetsiyada və türklərdən azad edilmiş Kipr adasında cərəyan edir. Onun Roma tarixinə dair pyesləri də şəxsiyyətlərin və hadisələrin dəqiq təsviri ilə seçilir. Şekspir dühasının gücü ondadır ki, hər hansı mövzuya müraciət edirsə etsin, ən xırda hadisədə belə, ümumbəşəri problemlərə gəlib çıxır. İnsan təbiəti, onun eybəcərlikləri və qüsurları təhlil edilir. Onların dünya tərəfindən qəbul edilən rəmzləri yaranır: xəyanətlə barışmayan, əbədi "to be or not to be?"– "olum və ya ölüm" sualı qarşısında qalan Hamlet, məhəbbətlərini tayfa düşmənçiliyinə tabe etməyən Romeo və Cülyetta, kor və vəhşi qısqanclıqla öz ürəyinin sönməz məhəbbətini edam edən Otello, məkrli Yaqo, həyatın və nankorluğun qurbanı olan, sərgərdanlığa düçar olmuş sadəlövh kral Lir, hakimiyyət naminə qana susayan ledi Maqbet, bəd əməllərindən dəli olan Maqbet və onlarca başqaları. Şeksprin ingilis ədəbiyyatına gətirdiyi hiperbolalar, allyuziyalar adamı heyran edir. Şekspir mövzuları sonradan bəzi xalqların sənət adamları tərəfindən yenidən işlənmişdir. Məşhur yapon kino rejissoru Akiro Kurosava "Kral Lir"i yaponlaşdıraraq, əsəri Yaponiya mühitinə keçirmiş, kralın qızlarını onun üç oğlu ilə əvəz etmiş və milli ənənələri nəzərə almaqla gözəl və nəcib sənət əsəri yaratmışdır. Şekspir dünya teatrının inkişafına böyük xidmətlər göstərmişdir. Digər mədəni xalqlarınkı kimi Azərbaycan teatrı da dəfələrlə Şekspir incilərinə müraciət etmişdir.

Son iki əsr dünya ədəbiyyatının inkişafına misli görünməmiş töhfələr vermişdir. XIX əsr ədəbiyyatının çoxlu nümunələri klassikaya çevrilmişdir. Bu dövrün ingilis, fransız və rus ədəbiyyatı parlaq ulduzlarla dolu kəhkəşana bənzəyir.

•

Fransız ədəbiyyatı dünya oxucusuna Hüqo, Balzak, Stendal, Myusse, Jorj Sand, Madam de Stal, Flober, Prosper Merime, Mopassan, Emil Zolya kimi nəhəng yazıcılar vermişdir. Höte kimi uzun ömür sürmüş və XIX əsr başlayanda dünyaya gəlmiş Viktor Hüqo yaradıcılığı, onun çoxsaylı əsərləri qranit arxipelaqa bənzəyir ki, zaman seli, zaman axını hər cür təpələri və yüksəklikləri yuyub aparsa da, qranit qayaların məğrurluğunu azalda bilmir, onlara xələl gətirmir. Unutqanlıq dənizində bu adalar onun yaradıcısının nəhəng və təkrarolunmaz dühasından xəbər verir. Biz uzun müddət onu nasir, romançı kimi tanımışıq, onun böyük şair və dramaturq olmasından bixəbər olmuşuq. Əslində, onun poeziyası, dramaturgiyası sənətkarlıq nöqteyi-nəzərindən heç də romanlarının yüksəkliyindən geri qalmır. Lakin biz onu romançı kimi sevmişik, bu sevgiyə də gəlin xilaf çıxmayaq. Hüqo gənc yaşlarında öz istedadı, yüksək intellekti ilə başqalarından fərqlənirdi. Hansı problemlərə toxunursa toxunsun, onu bir mütəxəssis, usta bilici qabiliyyəti ilə təhlil edir. Ömrünün üçüncü onilliyinin sonunda yazdığı "Paris Notr-Dam kilsəsi" romanında o, arxitektura, memarlıq məsələlərinə toxunur, bu problem haqqında olduqca geniş, elmi məlumatlar verir və göstərir ki, kitab çapının meydana gəlməsi ilə memarlığa, insan dühasının bir ifadəsi kimi böyük zərbə vurulmuşdur. Yaxud "Səfillər" romanında o, arqolar (jarqonlar) məsələsini geniş təhlil edir, müəyyən insan qruplarının ünsiyyət vasitəsi kimi bu süni düzəldilmiş dilə müraciət etmələrinin, onun formalaşmasının səbəblərini açır. "Güləyən adam" romanında qəhrəman Quinplenin bədbəxt taleyində o, orta əsrlərdə Avropanı bürümüş iyrənc bir xəstəliyi – uşaq ticarətini təhlil etmək məcburiyyətində qalır və bu vəzifənin öhdəsindən şərəflə gəlir. Bu sahədə ixtisaslaşmış adamlar – kompraçikoslar uşaqları körpə vaxtı oğurlayır, onları dəhşətli surətdə əlil edir, eybəcərləşdirir və təlxək kimi, əyləncə, gülüş vasitəsi kimi baha qiymətə varlı adamlara satırdılar. Əgər əsərin əsas qayəsini aid olmayan məsələlərdə müəllif belə bilik sahibi olduğunu göstərirsə, insan faciələrinin salnaməsi kimi yazılan əsərlərində bütünlükdə insanlığa, bəşəriyyətə yönələn bu ağrının, dərdin, insan qüsurları adlanan bəlanın həqiqi, real və tükürpədici anatomiyasını açır. Bu faciələrin tüğyan etdiyi cəmiyyətlərdə biz bu bəlaların həqiqi qurbanı olan ən xeyirxah, şəffaf qəlbə və düşüncəyə malik olanları, fani dünyada öz xoşbəxtliyini tapmayan və hətta həyatını da qurban verməyə məcbur olan, lakin yazıçının dühası ilə ölməzliyə qovuşan, ölməzlik hüququ qazanan bu allaha bənzər insanları görürük. Mən, özünü başqalarının xoşbəxtliyi, bəzən sadə istəyi və ya günahsız incidilməməsi üçün qurban verən, altruizm rəmzi olan Jan Valjan qarşısında sitayiş etməyə hazıram.

Dünyada, bəlkə də, Jan Valjandan bədbəxt adam yoxdur, amma o, başqalarına öz imkanında olan xoşbəxtlik payı verməklə, öləndən sonra belə, ən unudulmaz adama çevrilir. Kimsə etiraz edə bilər ki, həyatını həsr etdiyi, böyük var-dövləti

•

yarıac yaşamaq hesabına hifz edib saxlayaraq, doğma övladı kimi böyütdüyü, bunu ona vərəsə kimi verdiyi Kozetta o, öləndən sonra qara nankorluq göstərərək, bir dəfə də olsun onu yada salmır, nəticədə onun qəbrinə gedən cığırı ot basır. Yox, söhbət Kozettalardan getmir, Jan Valjan adlı insanlıq, xeyirxahlıq, nəciblik günəşindən hərarət alan milyonlarla oxucudan, bir əsr yarıma bərabər olan bir dövrdə dünyanın bütün guşələrinə səpələnmiş və Jan Valjanla ünsiyyətdə olmaq xoşbəxtliyi nəsib olmuş bir çox nəsillərin çoxsaylı nümayəndələrindən gedir .    Jan Valjan Yer kürəsini dolduran bəşəriyyət materiyasının bir zərrəsi, bir atomudursa, insanlıq, ləyaqət dünyasının günəşə bənzər ən iri və kamil şəxsiyyətlərindən biridir. O, öz xeyirxahlığını adamlara yaxşılıq göstərmək məqsədlərinə tabe edir, həyatın dibində olan adamlara bu bədbəxtlik girdabından çıxmaq üçün əl uzatdıqda isə ən böyük təhlükələrlə üzləşir, öz azadlığını və həyatını ölümcül hədələrə hədəf edir. Lakin özünün bu nəcib təbiətindən nəinki imtina etmir, əl çəkmir, hətta həyatının bütün mənasını monsinyor Benvenyudan aldığı ilk ibrətamiz dərsi mükəmməl şəkildə mənimsəməkdə və ona dönmədən əməl etməkdə görür. O, küçədə öz bədənini satmaqla kiçik qızının yaşayışını təmin edən, fabrikdəki işindən qovulmuş, xəstəxanaya düşmüş Fantinanın qızı Kozettanı onun yanına gətirmək barədə xahişinə özünün həyatının üstünü almış qara buludun dəhşətli kölkəsinə baxmayaraq, əməl edir, bir nəfərin günahsız yerə keçmiş katorqaçı kimi mühakimə edildiyini eşitdikdə, özünü ölümcül təhlükə tonqalına atmaqla onun təqsirsizliyini sübut edir, ona nifrət edən qoca faytonçu Foşlevan arabanın təkəri altında qalıb, qarşısıalınmaz ölümə məhkum edildikdə, onu xilas edir. Kozettanın sevdiyi cavan oğlan Marius ağır yaralı olduqda, ölümcül təhlükəyə baxmayaraq, çiynində onu Paris kanalizasiyasının ucsuz-bucaqsız katakombaları ilə apararaq ölümdən qurtarır. Əclaflıq və pislik rəmzi olan, mənfur tamahına görə hamını aldatmağa çalışan və hamıya məkr toru quran Tenardyenin də istəyinə əməl edir, onun Fransadan uzaqlaşması üçün vəsait barədəki xahişini cavabsız qoymur. Nəhayət, özünün bütövlükdə antipodu olan, eybəcər riqorizmi ilə Jan Valjan aləmində əks dünya kimi təsvir olunan adamın ona tapşırılmış ölüm hökmünün icrasını görünməmiş alicənablıq göstərməklə yerinə yetirmir, onu əfv edir, Javeri öldürmək əvəzinə, bu mənfur düşmənini sərbəst buraxır.

Jan Valjan elə bil nisbətən xırda bir aləmdə İisus funksiyasını öz üzərinə götürür, günahkar insanların, Allah qarşısında günah işlədənlərin, hətta digərlərinə pislik edənlərin hamısının təqsirlərini yumağa çalışır. İisus bütün bəşəriyyətin günahlarını yumaq üçün özünü qurban verdisə, Jan Valjan da ünsiyyətdə olduğu, onu əhatə edən və qarşılaşdığı heç bir adamın taleyinə biganə qalmır. Özünü onların günahını yumaq üçün hər cür əzab-əziyyətlərə düçar edir. Onun, bəlkə də, elə savadı yoxdur, dünyanı dərk etmək imkanları da məhduddur, lakin ləyaqət və xeyirxahlıq

•

səltənətində o, ən ali adamdır, bu billur dünya uçub-dağılmayıbsa, məhv olmayıbsa, o, burada daimi məskundur, hər dövrün adamına necə yaşamaq elmini, bu ən çətin dərk edilən fəlsəfəni öyrədir. Özü də öyrətmə didaktikadan, quru təlimdən uzaqdır, o ancaq əməllərə, həyat və düşüncə tərzinə, onların gerçəklikdə reallaşmasına əsaslanır. Jan Valjanın əməlləri, davranışı çiçək tozu kimi dünyada baş verən bütün xeyirxah işləri mayalandırır, onun səpdiyi toxumdan ləyaqət adlı bol məhsul yığılır. Hər bir oxucu onu əiatə edən mühitin boğucu havasından xilas olmağa çalışdıqda, ona Jan Valjan dünyasının saf və sağlam havası ilə, lap Amazonka selvası kimi onun yaydığı bol oksigenlə nəfəs almağı məsləhət görərdim. Böyrəkləri və qara ciyri yaxşı işləmədiyindən qanının tərkibi xeyli pisləşmiş cəmiyyətin damarlarına qaynar və dirildici Jan Valjan qanı yeridilərsə, bu cəmiyyət onu üzən ağır şər xəstəliyindən azacıq da olsa, azad ola bilər, qoruna bilər.

Ömründə qadın məhəbbətinin nə olduğunu dadmayan bu insan başqasının məhəbbəti üçün hətta özünü qurban verməyə hazırdır, fizioloji cəhətdən o bir kişi kimi realizə olunmasa da, öz təsdiqini tapmasa da, elə bil ki, bir nümunə kimi bütün məhəbbətlərə himayəçi olmaq missiyasını öz üzərinə götürür, özünün dadmadığı bu meyvənin başqalarına bol-bol çatmasına çalışır. Ən böyük təhlükə ilə üzləşdikdə belə, o öz ləyaqətini itirmir, çaşqınlığa dalmır, əclaflığın və onların həyata keçməsinin nəticəsi kimi üstünə gələn ölümün gözünə dik baxa bilir. Bununla da, özünün yenilməzliyini, ləyaqət abidəsi olduğunu sübut və təsdiq edir. Bununla da, o, özünün fiziki ölümündən sonra ruhi ölməzlik qazanır, adamlar dinindən və irqindən asılı olmayaraq, Jan Valjan məbədinə baş əyirlər, yaxşı adamların hamısı illər, on illər keçsə də, qədim Roma vestalkaları kimi onun yandırdığı ləyaqət və xeyirxailıq, şəfqət və alicənablıq odunu sönməyə qoymurlar. Bu gün harada biz bir yaxşılıq və xeyir nişanəsi görürüksə, orada nəzərlərimizi Jan Valjan dünyasının parametrlərinə dikirik, onun əməllərinin izlərini və oxşarlıqlarını axtarırıq. Jan Valjana təzim etməklə, öz dühası ilə onu dünyaya gətirmiş Hüqo istedadı və təxəyyülü qarşısında da baş əyirik. Axı çoxlarından fərqli olaraq Hüqo şəxsiyyəti yaradıcılığı ilə qırılmaz vəhdətdədir, o, imperator III Napoleonun əmri ilə Gernsi adasında sürgündə olanda da bir an belə öz yenilməzliyinə xələl gətirmir. Oğlunun ölümü belə onun məslək və ruhi qəddini əyə bilmir.

Hüqonun geniş oxucu kütləsi tərəfindən sevilən digər bir əsəri "Paris Notr-Dam kilsəsi" bir tərəfdən bu möhtəşəm memarlıq abidəsinə ikinci həyat vermişsə, axı onun qüllələri müəllifin soyadının baş hərfinə bənzəyir, digər tərəfdən füsünkar Esmeraldanın, zahirən eybəcər, daxilən onu əhatə edənlərin hamısından gözəl və təmiz olan Kvazimodonun tam aşkar olmayan, bir-biri tərəfindən başa düşülməyən ilahi münasibətlərinin təsvirinə həsr edilmişdir. Adından göründüyü kimi, Kvazimodo

•

natamam, adama bənzəməyən bir fərddir. O, uşaqlıqdan bədbəxt olmuşdur, qozbeldir, zəng çalan olduğundan kilsə zəngləri onu kar və lal etmişdir. Lakin onun ürəyində bu gözəl qıza sönməz məhəbbət alovu yanmağa başlayır. Esmeralda isə bundan xəbərsizdir, bunu ağlına da gətirə bilməz. O, zahirən şux və yaraşıqlı, daxilən boş olan və rəngli balıqqulağına bənzəyən Febusa vurulur və öz səhvini anlayır. Lakin digər bir mənfur adam da, keşiş və əlkimyaçı Klod Frollo da Esmeraldaya vurulur, öz məhəbbətinə çatmadıqda, özünün bütün güclü hisslərini nifrətə çevirir və qızı məhv etməyə çalışır. İtaətkar qul kimi ona sadiq olan Kvazimodo bunu anladıqda, allah tərəfindən verilmiş onun barəsindəki cəza hökmünü yerinə yetirir, kilsənin uca eyvanından onu yerə çırpıb öldürür. Orta əsrlərdə Avropanı bürümüş və inkvizisiyanın, din xadimlərinin əlində iti silaha çevrilmiş bədnam cadugər qadınların təqib edilməsi burada günahsız, məsum və şən bir qızın həyatını zəhərləyir və nəhayət, onu məhv edir. Hüqo bu əsərində də dini cəhalətə qarşı üsyan edir. Onun dəhşətli eybəcərliklərini canlı obraz və hadisələrlə təsvir edir.

Hüqonun ən maraqlı romanlarından biri, əlbəttə ki, "93-cü il" əsəridir. Adından göründüyü kimi əsərdəki hadisələr Böyük Fransa inqilabının ən qızğın dövrünə təsadüf edir. Royalistlər respublikaçıların qələbəsinə müqavimət göstərmək üçün hərbi xadimlər şəxsində İngiltərədən kömək alırlar. İnqilabın sərt qanadını təmsil edən Qoven və Simurden insanlıq işığının şüalarına biganə qala bilmirlər. Qoven düşmən Lantenakın ananın fəryadına dözə bilməyib, yanan binadan bir qız uşağını xilas etmək üçün özünün ələ keçməsinə məhəl qoymadığına görə bu alicənablığı cavabsız qoymur, edam olunmalı bu qorxulu rəqibə öz paltarını geyindirməklə onun gözətçiləri aldadıb dustaqxanadan qaçmasına nail olur və onun əvəzinə məhbəsdə qalan Qoven öz müəllimi və dostu tərəfindən ölüm hökmünə layiq görülür. Gilyotinanın bıçağı onun başını üzüb səbətə atdıqda, atəş səsi eşidilir. Ən əziz dostunun ölümünə qərar verən Simurden bu itkiyə dözə bilmədiyindən özünə verdiyi ölüm hökmünü də dostunun edamı ilə bir vaxtda icra edir. Deməli, heç bir inqilabi prinsip, heç bir ideya da insanlığı, xeyirxahlığı, alicənablığı, rəhmdilliyi və şəfqəti bütünlüklə məhv edib, aradan çıxara bilmir. Əsərdə nə respublikaçılar, nə royalistlər, yalnız və yalnız ali insanlıq qalib gəlir və göstərilir ki, inqilabın tökdüyü qanlar digər lokal faciələrin də başlanğıcına təkan verən amillərə çevrilir.

Digər maraqlı "Güləyən adam" romanında Hüqo üzü eybəcərləşdirilmiş Quinplenlə kor gözəl qız Ursulanın məhəbbətini təsvir edir. Bir sözlə, Hüqonun əsərlərindən çox şey öyrənmək olar, bu böyük yazıçı insan dünyasının ən qaranlıq guşələrinə nüfuz etməklə, ən incə hisslərinin tellərini səsləndirməklə bizi təyinatımıza uyğun insan həyatı sürməyə çağırır, xeyirə, ləyaqətə səsləyir. O, bir qayda olaraq, həyatın dibində əzab çəkən insanları öz qəhrəmanlarına çevirib, ləyaqət və

•

mənəviyyat zirvəsinə qaldırır. Bunları nəzərə alaraq, əsərləri vasitəsilə Viktor Hüqo kimi yüksək və çoxcəhətli şəxsiyyətlə ünsiyyətdə olmaq imkanından yan keçməyin, hər bir fürsətdən onun qonağı olmaq üçün istifadə edin.

Hüqo ilə eyni dövrdə yaşamış Onore de Balzak "İnsan komediyası" adlı bir epopeya yaratmışdır, bu dastanın səhifələrinin 3 min obrazdan ibarət məskunu var. Rostinyakı və ya Qorio atanı oxucular yaxşı tanımır. Pulun, var-dövlətin hakim kəsildiyi cəmiyyətin eybəcərlikləri böyük istedadla təsvir edilir. Balzak bu romanını, Hüqonun sözləri ilə desək, "İnsan tarixi" adlandırsa, səhv etməzdi. Stendalın "Qırmızı və qara", "Parm sığınacağı", Napoleonun mədhinə həsr olunmuş əsəri maraqla oxunur. Flober özünün "Madam Bovari" romanı ilə şöhrət tapmışdır..

Yəqin ki, çoxları Jorj Sandın "Konsuelo", "Qrafinya Rudolştatskaya" adlı mistik epizodlarla dolu olan əsərlərini oxumuşdur. Madam de Stalın "Korinna" əsəri isə italyan intibah mədəniyyəti, rəngkarlığı, heykəltəraşlığı ilə tanış olmaq üçün dəyərli vəsait rolunu oynaya bilər. "Azadlığın qəbir qazanı" adlandırdığı Napoleona axıradək nifrət edən bu qadın, özünün çox qiymətli tədqiqat əsərində italyan sənətinə vurğun olduğunu və onu dərindən mənimsədiyini göstərmişdir. Prosper Merime isə özünü "Karmen"lə məşhurlaşdırmışdır. Ejen Syunun "Aqasfer" əsəri xristian dininin problemlərini öyrənməyə kömək edir.

Bizim oxucuya Mopassan daha yaxından tanışdır. Onun "Həyat", "Əziz dost" romanları və əsrarəngiz hekayələri böyük maraqla oxunur. Tarixi və maraqlı əhvalatların təsvirçisi olan Aleksandr Düma -atanın "Üç muşketyor", "Vikont de Brajelon", "Qraf Monte-Kristo" romanları, gənclər tərəfindən aludə obyekti olan D'Artanyanı, onun dostlarını və digər cəngavərləri həyata gətirmişdir. Oxucu həm də bu əsərlər vasitəsilə kardinal Rişelyenin – bu böyük dövlət xadiminin və məkrli siyasətçinin obrazı ilə tanış olur. Oğul Aleksandr Düma isə librettosu əsasında yazılmış "Traviata" operası ilə daha çox məşhurlaşmış "Kameliyalı qadın" pyesinin müəllifidir.

Poeziya həvəskarları isə Bodlerə, Verlenə, Apollipnerə, Elyuara üstünlük verirlər. XX əsrdə Fransa ədəbiyyatı özündən əvvəlki əsrin ətaləti altında bu ənənəni davam etdirmişdir. İki əsrin keçidində yazıb-yaratmış Emil Zolya özünün "Ruqon-Makkarlar"ı seriyasından olan, xüsusən "Jerminal", "Tələ" romanlarında həyatın ağır, müdhiş səhnələrini təsvir etmiş, istismar olunan bədbəxt adamları öz əsərlərinin səhifələrinə gətirmişdir. "Abbat Muryenin xətası" əsərində keşişin bir qıza olan hərarətli məhəbbəti və ehtirası qarşısında dini yasaqlara məhəl qoymaması təsvir edilir. Oxucu Sartrın, Kamyunun fəlsəfi əsərləri ilə yanaşı, bədii əsərlərini də maraqla oxuyur. 70-ci illərdə keçmiş SSRİ-də fransız qadın yazıçısı Fransuaza Saqanın sehrli

•

qələminin məhsulu olan “Soyuq suda bir qədər günəş” və “Siz Bramsı sevirsinizmi?” əsərləri geniş oxunmağa başlandı. Bu qeyri-adi, olduqca səmimi və intim dildə yazılmış əsərlərdə məhəbbətin dərk olunmayan çalarları təsvir edilir.

Oxucular Moris Dryuonun burjuaziya dünyasının var-dövlətə hərisliklə çuğlanmış həyatını əks etdirən romanlarını maraqla mütaliə edirlər. Fransa rəngkarlığına həvəs göstərənlər Lui Araqonun “Anri-Matiss-Roman” əsərinə, Perruşonun silsilə kitablarına müraciət edirlər.

Mən fransız yazıçısı, olduqca maraqlı tərcümeyi-hal romanlarının müəllifi, görkəmli ədəbiyyat tədqiqatçısı Andre Moruanın yaradıcılığı üzərində ayrıca dayanmaq istəyirəm. Andre Morua “Olimpio və ya Viktor Hüqonun həyatı”, “Leliya və ya Jorj Sandın həyatı”, “Üç Düma”, “Prometey və ya Balzakın həyatı” kitablarının, həmçinin Bayron və başqa görkəmli şəxsiyyətlər barədə olduqca maraqlı əsərlərin müəllifidir. Onun Hüqoya həsr olunmuş əsərindən biz gənc Viktorun Adelə vurulmasını, sonra onunla evlənməsini, Adelin Sent-Byövlə eşq macərasını öyrənir, Hüqonun erkən poeziyası və nəsri ilə, gənc aktrisa Jülyetta Drue ilə sevişməsi və böyük zəfərləri ilə, həmçinin şimaldakı Britaniyaya məxsus olan Gernsi adasına sürgünə yollanması və həyatının acılı-şirinli çoxlu hadisələri ilə tanış oluruq. Əsərin baş qəhrəmanından başqa, ikinci əsas iştirakçısı kimi onun məşuqəsi və qəlb sirdaşı Jülyetta Druenin qabarıq və cazibədar portretini xüsusi qeyd etmək istəyirəm. Bu qadın Adeldən fərqli olaraq, Hüqonu bütün varlığı ilə sevir. Dahi isə intim münasibətlərdə mifik Favn kimi ehtirasdan doymayan olduğu üçün, çoxlu qadını, gənc qızları, o cümlədən, məşhur aktrisa Sara Bernarı eşq toruna salır və ona uşaq doğuzdurur, yazıçı dostu Teofil Qotyenin gənc qızını da ələ keçirə bilir. Jülyetta onun ani dönüklüyünə və sədaqətsizliyinə daha da alovlanan məhəbbəti ilə cavab verdiyindən, Hüqo bir az əvvəl tərk etdiyi bu sakit və fırtınasız məhəbbət limanına qayıdır, hara yollansa da, nəticə etibarı ilə onu məmnun edən sığınacağı burada tapır. Ona görə də bu iki qeyri-adi adamın tale gəmisi məhəbbət dənizində yarım əsr ərzində üzməkdə davam edir və bu qadın öz məhəbbəti ilə böyük dühanı həyatın sarsıntılarına üstün gəlməkdə, onun sağlamlığının qorunub saxlanmasında öz əvəzsiz xidmətini göstərir. Üsyankar və şıltaq təbiətli Hüqo öz istedadının miqyasına görə necə sınaqlara məruz qalırsa qalsın, bu sınaqların şaxtasında bu kiçik və sadə qadının bütünlüklə, məhz ona həsr edilmiş məhəbbəti, özünün hərarəti ilə onu isitməklə, dahiyə xilasedici birköməklik göstərir. Düzdür, gənclik dövründə bu o qədər də istedadlı olmayan aktrisanın həyatında rus mühaciri knyaz Demidov olmuşdur, lakin Viktor Hüqo ilə ilk tanışlıqdan mənfur xərçəng xəstəliyinin onu həyatla vidalaşmaya məcbur edənə qədər bu zahirən zəif qadın güclü bir ehtiras və ürəklə, dözüm və sədaqətlə öz məhəbbətini yalnız bir nəfərə bağışlamış, öz həyatını hər şeydən məhrum

•

edərək, bircə nəfərə həsr etmişdi. Mənim tanıdığım gözəl və ziyalı bir qadın həyatda və məhəbbətdə özünə Cülyetta Drueni ideal seçdiyini və Parisdəki qəbiristanlıqda onun qəbrinin üstündəki ağ mərmərdə Viktor Hüqonun şeirindən bir hissəni və xüsusən son kəlməsini: "O məni sevirdi" sözlərini oxuduqda, göz yaşları axıtdığını böyük səmimiyyətlə söyləyirdi. Andre Morua bu məhəbbəti geniş təsvir etməklə bu nəsr əsərini, əslində, bir məhəbbət dastanına, yüksək hisslər haqqında məhz Hüqoya layiq olan bir poemaya çevirmişdir. Əsərdə Hüqo yaradıcılığının geniş və dərin təhlili verilmişdir. Müəllifin yazı dili heç də Hüqonun poetik və nəsr dilindən, yüksək ifadə üslubundan geri qalmır.

"Üç Düma " romanında general babanın, böyük yazıçı Düma-atanın və yazıçı-dramaturq Düma -oğulun portretləri yaradılmışdır. Müəllif qeyd edir ki, ata Dümaya əsərləri haqqında sual verdikdə, ən mükəmməl əsərinin onun oğlu olduğunu söyləmişdir.

Balzakın həyatını təsvir edərkən onu qeyri-adi dühası ilə yanaşı, bayağı geyimi, həmişə sarı jilet geyinməsi, gəncliyindən özündən yaşlı qadınlara vurulması və buradan "Balzak yaşı" termininin yaranması göstərilir. Əsərdə onun ukraynalı varlı qadın, polyak mənşəli Evelina Qanskaya ilə olan və axıradək, əslində, baş tutmayan izdivac niyyətləri əks olunur. Balzak öz əsərində Paris həyatının geniş panoramasını böyük ustalıqla, bir rəssam məharəti ilə təsvir edə bilmişdir. O, təkrar olunmaz obrazlar qalereyası yaratmışdır. Qorio atanın ölüm ərəfəsində dediyi "evlənməyin, doğub törəməyin. Biz uşaqlara həyat bəxş edirik, onlar isə bizə ölüm" sözləri övladlarından narazı olan çoxlarının həyatını ən kəskin və acı sözlərlə ifadə edir.

Moruanın Jorj Sandın həyatına həsr etdiyi romanında biz böyük istedadlarla – dahi polyak bəstəkarı Frederik Şopenlə, macar bəstəkarı və virtuoz pianoçu Ferents Listlə, onun məşuqəsi, yazıçı Mari D`Aqu ilə tanış oluruq. Şopenlə Jorj Sandın qısa sürən sevgi ömrünün səhifələrini vərəqləyirik. Qeyri-adi istedada malik olan bu qadının şıltaq təbiəti isə onu başqaları ilə münasibətində, xüsusən Andre Myusse ilə yaxınlığının baş tutmamasından sonra məşuqu tərəfindən lağa qoyulmasında öz əksini tapır.

Bayron haqqında əsərində uşaqlıqdan şikəst olan bu gözəl oğlanın və nadir istedad sahibinin natamamlıq kompleksinin təsiri altında həyatdan qisas almaq istəməsi və çoxlu qadınlarla eşq macəralarının qəhrəmanına çevrilməsi ilə tanış oluruq. Onun ögey baçısı Avqusta ilə məhəbbəti dəlicəsinə alovlanaraq intim yaxınlığa çevrilir və onun məhsulu kimi bir qız uşağı dünyaya gəlir. Bayronun yunan milli-azadlıq hərəkatına kömək göstərməsi və həyatının digər yadda qalan səhnələri

•

ilə yanaşı, onun poeziyası, xüsusən "Çayld- Harold" poeması bir bilici qələmi ilə təhlil olunur.

Mən tərcümeyi-hal romanları ilə ixtisaslaşmış digər yazıcıların əsərlərini də oxumuşam. Onların içərisində İrvinq Stounun Vinsent van Qoqun həyatından bəhs edən "Həyat eşqi", Cek Londona həsr edilmiş "Yəhər üstündəki dənizçi" romanlarını və Mikelanceloya həsr olunmuş "Əzablar və sevinclər"ini qeyd etmək istəyirəm. Lakin heç kəs bu sahədə Andre Morua ilə müqayisə oluna bilməz. O, gözəl ədəbiyyat tədqiqatçısı olmaqla yanaşı, həm də əvəzsiz insan tədqiqatçısıdır, güclü tarixçidir və ən nəhayət, qeyri-adi istedadlı qələmə və heç kimlə müqayisə edilməyən obrazlı dilə və oxunaqlı ifadə tərzinə, cilalanmış söz ehtiyatına malikdir. Bəlkə də, Morua XX əsrdə Plutarx üslubunu davam etdirərək böyük yazıçıların, elm və siyasi xadimlərin bir heykəltəraş tişəsi ilə mərmərdən ifadəli heykəlini yonmaqla, onların əbədiləşdirilməsi yolunda əvəzsiz xidmət göstərmişdir. Onun fransız, ingilis və rus yazıçıları haqqında esseləri də böyük maraqla oxunur. Ensiklopedik biliyə və arxeoloq məharətinə malik olan bu tədqiqatçının gözlərindən heç nə yayınmır, nə qəhrəmanlarını əhatə edən mühit, nə onun siyasi və ictimai fəaliyyət vektorlarını müəyyən edən qüvvələr və amillər, nə həmin dövrün adamlarının mentaliteti və düşüncə tərzi, nə qəhrəmanların şəxsi keyfiyyətləri, ləyaqət və qüsurları, nə də onların əsərlərinin ideya və bədii qayələri. Eçazkar rəssam kimi o, hər bir yaxmanı, rəngi öz yerində vurur, bu vaxt həm işıq-kölgə vasitələrindən, həm də impressionistlər kimi plenerdən ustalıqla istifadə edir. Bütün bunlar onun qəhrəmanlarının malik olduğu bir zirvəni - ölməzliyi ona da, onun əsərlərinə də qismət edir. İlahiyyat alimi Laktantsinin yazdığına görə, "ölməz insanın özü allaha ən gözəl himndir". Mən dostlarıma məsləhət görərdim ki, belə görkəmli düha ilə tanışlığa can atsınlar, bu vaxt heç nə itirmədən çox şey qazanarsınız. Morua qələmi ən primitiv zövqləri də nəcibləşdirə, yaxşılaşdıra bilir, oxucunun yüksək zövqünün formalaşması üçün möhkəm bir tramplin yaradır.

İndi isə bir qədər ingilis ədəbiyyatının nümunələrinə ötəri də olsa, nəzər salaq. İngilis ədəbiyyatının Şekspirdən sonrakı dövrünün görkəmli nümayəndəsi XVIII əsrdə yaşamış Lourens Sterndir. Onun Fransaya səyahət və Şekspirin təlxək obrazından əxz etdiyi Yorik adlandırdığı adamın macəraları həvəslə oxunur. XIX əsr isə bu ədəbiyyata Çarlz Dikkens, Stivenson, Valter Skott, Oskar Uayld, Con Qolsuorsi, bir az sonra isə Somerset Moem, Konan Doyl, Aqata Kristi kimi nəhəng yazıçılar vermişdir. Əsərlər orijinalda daha maraqla oxunur. Uşaqlara "Mauqli"dən tanış olan Redyard Kiplinq kimi yazıçının hekayələri, müstəmləkə Hindistanında yaşayan ingilislərin, hinduslarin və müsəlmanların əhvalatlarını təsvir edir.

•

Azərbaycan oxucusu Şerlok Holms vasitəsilə də yazıçı Konan Doylu kəşf etmişdir. Məni dilinin zənginliyi və zərifliyi ilə heyran edən Qolsuorsinin "Forsaytlar haqtında saqa" romanı və Somerset Moemin "Teatr", "Ay və xırda pul" və "Şəkilli pəncərə pərdəsi" povestləridir. Varlı və çoxlaylı bir zadəgan ailəsinin –Forsaytların həyatından bəhs edən beş cildlik bu dastan tipli əsər göstərir ki, pula allah kimi sitayiş edildiyi ailələrə xoşbəxtlik, bir qayda olaraq, heç vaxt qonaq olmur, bəlkə, bəziləri qısa müddətdə yalnız bu kabusun varlığı haqqında təsəvvürə malik olmaq imkanı tapır. Forsaytlar öz cəmiyyətlərinə kənardan daxil olmuş ən istedadlı adama belə həqarətlə baxır, əsərdəki memarı təhqiramiz qaydada "dəniz qulduru" adlandırırlar. Var-dövlətin daimi atributa çevrildiyi bu ailənin hər bucağında cürbəcür bədbəxtliklər məskən salmışdır. Əsərin ifadə tərzi, dili olduqca zərifdir, müəllif qoca Forsaytın ağacın altındakı sakitcə ölümünü onun bığının üstünə düşən ağac tozcuğunun daha o, nəfəs almadığından tərpənməməsi ilə təsvir edir. Romanın qəhrəmanları elə bil ki, qədim yunan mifindəki, oğullarını itirib daim göz yaşları axıdan daşa dönmüş Nioba kimi allahlar tərəfindən lənətlənmişlər və onların həyatından həqiqi insan xoşbəxtliyi yoxa çıxmışdır.

Moemin povestləri isə insan talelərini tədqiq və təhlil etməklə insan həyatının mənasını qiymətləndirməyə cəhd edir. Onun Çində yerləşən xristian karmelit sektasından olan rahibə qadınların həyatı fonunda bir ingilis qadınının qızğın məhəbbəti naminə ərinə xəyanət etməsi, onların Honkonqdan xolera yuvası olan Cənubi Çinə işləməyə getməsində ərinin xəyanətə dözməyərək, bu dəhşətli xəstəlikdən ölməsini və ölüm anında da xahişinə quduz itlə müqayisə edən şeirlə cavab verərək, onu əfv etməməsini, nəhayət, məşuqunun əclaflığını, öz karyerasını qorumaq naminə arvadını hər cür bədbəxtliklərə düçar etməyə hazır olduğunu göstərməklə, məğrur qadının bu alçaqlıqla barışmadığını təsvir etməklə. məhəbbətin ianə olmadığını, dilənçi payı kimi qəbul edilmədiyini göstərir. "Teatr" əsərində isə gözəl və məhşur aktrisa şəxsi həyatında xoşbəxt deyil, onun sevgi axtarışları uğursuz qurtarır, oğlunun dostu ilə intim yaxınlığının da bu oğlan üçün bir uşaq şıltaqlığı olduğunu dərk etdikdən sonra, bu təşnəsi söndürülməyən qadın qəlbi, daha narahat günlər yaşamağa başlayır. "Ay və xırda pul" əsərində isə məşhur rəssamın sərgüzəştlərindən, xüsusən prototipi olan məşhur rəssam Pol Qogen kimi Taiti adalarındakı tapıntılarından bəhs olunur.

İngilisdilli xalqların ədəbiyyatına gəldikdə gənc və zəngin amerikan ədəbiyyatına müraciət etmək maraqlı olar. Edqar Po, Folkner, Fitsçerald, Heminquey, Teodor Drayzer, Con Apdayk, Artur Xeyli daha populyar olsa da, Azərbaycan oxucusu bu ədəbiyyatla Fenimor Kuperin hinduları təsvir edən əsərləri, O`Henrinin gözəl novellaları və Mark Tvenin güclü yumoru, Cek Londonun "Marten İden"

•

romanı və qızıl axtaranların macəralarına həsr olunmuş povestləri vasitəsilə daha yaxından tanışdır. Edqar Po öz əsərlərində ilk dəfə detektiv və fantasmoqorik janrlara müraciət edir. Fenimor Kuper özünün “Axırıncı mogikan”, “Pionerlər” və digər əsərləri ilə uşaqların ən sevimli yazıçılarından biri hesab olunur. O'Henrinin lirik və güclü yumorla dolu kiçik novellaları bizə onun dövrünün Amerikası haqqında cild-cild əsərlərdən daha çox məlumat verir. Con Apdaykın “Gəl evlənək” əsərində gecikmiş məhəbbətin şirinliyi və şiddəti ustalıqla təsvir olunur. Bu əsəri oxuyanların çoxu özlərini Apdaykın qəhrəmanları ilə müqayisə edir, onlara oxşamağa çalışır. Heminquey isə bir vaxtlar bizdə çox məşhur olmuşdur. Onun “Zənglər kimə çalınır” və “Əlvida, silah” romanları, “Qoca və dənizçi” povesti bir etiraf nağılı kimi bir nəfəsə oxunur. Artur Xeyli isə ədəbiyyata maraqlı bir üslub gətirmişdir, o, adi əhvalatlar fonunda ölkəsinin iş dünyasında, biznes aləmində cərəyan edən hadisələri böyük bələdçilik qabiliyyəti ilə təsvir edir. Axı “Otel” və “Aeroport” romanları son səhifəyədək oxucunu intizardan qurtarmır. 90-cı illərdə ədəbiyyata gəlmiş hüquqşünas Con Qrişhom özünün dünyada məşhur olan üç bestselləri ilə – “Firma”, “Müştəri” və “Gödək qutan” əsərlərində amerikan mafiyasını indiyədək tam məchul olan nöqtələrdən tədqiq etməyə başlayır və bu qənaətə gəlir ki, böyük dövlətin əlində olan imkanlar mafiyanın qüdrəti qarşısında cılız və aciz görünür. Bu yazıçı həm də yeni yazı tərzi gətirmişdir, burada hadisələr olduqca sürətlə, dinamik inkişaf edir, sözlər əsərin anatomik skeletini təşkil edən orqanlar rolunu oynadığından, heç bir cümlə əsərin fabulasına xidmətdən kənarda qalmır. Mən ingilis dilində mütaliə edənlərə bu əsərləri oxumağı məsləhət görərdim. Çünki əsər vasitəsilə amerikan hüquqşünaslığı ilə də mükəmməl tanış olmaq imkanı əldə edilir.

Digər ingilisdilli ədəbiyyatdan Avstraliya qadın yazıçısı Kolin Makkalounun 80-cı illərdə çox məşlur olan “Cəngəlliklərdə şərqi deyənlər” romanını qeyd etmək istərdim. Əsər kiçik qız Meqqinin keşiş Ralf ataya məhəbbətinin ilk anından, bu məhəbbətin onlara bəxş etdiyi qısa xoşbəxtliyin və şərtiliklərin ucbatından, dini yasaqların qorxusundan bu sevgi qayığının həyatın reallıqları qayasına çırpılaraq məhv olmaq səviyyəsinə gəlib çatdığını təsvir edir. Onların məhəbbətinin yeganə məhsulu olan oğulları Yunanıstanda dənizdə batıb öldükdən sonra Meqana Ralfa çox sərt qaydada bu bədbəxtliklərə onun səbəb olduğunu söyləyir və keşiş Ralf həyatın ona bəxş etdiyi yüksək mövqe ilə şəxsi həyatının bədbəxtliyi arasında elə bil ki, çəkiclə zindan arasında qalmaqda davam gətirə bilmədiyindən, son anda öz şərqisini oxuyaraq döşünü cəngəlliyin iti tikanları ilə yaralayıb, həlak olan mifik quşlar kimi, onun ürəyini didib-dağıdan bu dərdlərə, bu keşməkeşlərə dözə bilmir, həyatdan insan məmnuniyyəti tapmadığına görə onunla vidalaşır. Meqana isə ən ağır bədbəxtliklərin qarşısında belə əyilmir, çünki onun məhəbbət adlı bir məbədgahı var, onun həyatı

•

Nuhun qayığı kimi bədbəxtliklər dənizində üzsə də, həyatını nurlandıran məhəbbətdə təskinlik tapır və təəssüratlarında tez-tez oyanan bu göyərçin ona zeytun budaqlarından olan sevinc çələngi bəxş edir.

60-cı illərin əvvəlində Lui Araqon Çingiz Aytmatovun "Cəmilə" povestindəki sevişən qadınla Daniyarın əhvalatını XX əsrin Romeo və Cülyettası adlandırdığı kimi, mən də cəsarət edib deyə bilərəm ki, Makkalounun əsəri saf məhəbbəti tərənnüm edən ən qiymətli əsərlərdən biri hesab oluna bilər. Bu qadın yazıçı özündən bir əsr yaşlı olan rəfiqələri "Tom dayının koması" romanının müəllifi Harriet Biçer Stounun və məşhur "Ovod"un yaradıcısı Etel Lilian Voynicin gözəl ənənələrini davam etdirmişdir.

Alman ədəbiyyatı da olduqca zəngindir. Kim Hötenin "Faust"unu və ya "Gənc Verterin iztirabları"nı oxumamışdır? Axı sonuncu kitabı Napoleon daim hərbi yürüşlərində özü ilə götürürdü. Şillerin pyesləri, Nitsşenin fəlsəfi əsərləri, Remarkın böyük maraqla oxunan "Zəfər tağı", "Üç yoldaş", "Qara obelisk" romanları, Feyxtvangerin "Qoyya" romanı, Henrix və Tomas Mannın əsərləri, Henrix Heynenin şeirləri çoxlarına tanışdır. Avstriya ədəbiyyatı isə Stefan Tsveyqin gözəl povestləri, xüsusən "Ürəyin dözməzliyi" əsəri və hekayələri, Freydin insan fəaliyyətinin motivlərini tam başqa sahədə – iki cinsin intim münasibətində axtaran elmin əsasını qoyan psixoanaliz barədəki əsərləri ilə tanınır.

İspandilli ədəbiyyatın Servantes, Lope de Veqa, Qarsia Lorka, Jorj Amadu, Qabriel Qarsia Markes, Oktavio Pas kimi nümayəndələrinin yaradıcılığı ilə tanışlıq adama çox şey verir. Argentinanın sonralar prezidenti olmuş Sarmyentonun "Fakundo" əsəri bu ölkənin kecən XIX əsrin 30-40-cı illərində Rusiyanın indi yaşadığı dövrə çox oxşar olan biabırçı həyatının müdhiş səhnələrini təsvir edir. Markesin isə "Tənhalığın yüz ili" və digər əsərləri özünün sürrealist əhvalatları ilə oxucunu elə bil ki, qeyri-real, virtual bir aləmə aparır.

Biz başqalarından fərqli olaraq daim Şərq ədəbiyyatını mövcud imkan daxilində izləmişik. Bir vaxtlar "Kəlilə və Dimnə" və "Qabusnamə" əsərləri stolüstü kitaba çevrilmişdi. "İnostrannaya literatura" jurnalı vasitəsilə müasir dünya ədəbiyyatının bir çox qiymətli nümunələri ilə tanış olmaq imkanı tapdığımız kimi, bu jurnalda Sudan yazıçısının bir kənd dəlisinin həyatından bəhs edən və "happu end"lə bitən – kəndin ən gözəl qızının ona ərə getməsi ilə tamamlanan romanı mənə olduqca böyük təsir bağışladı. Mən Misir yazıçısı Nəcib Mahfuzun Nobel mükafatına layiq görülən romanını da "Min bir gecə"nin bugünkü davamı kimi qəbul etdim.

•

Fars ədəbiyyatının gözəl inciləri – Firdovsinin “Şahnamə”si, Sədinin “Gülüstan”ı və “Bustan”ı, Hafizin qəzəlləri və şeirləri, Ömər Xəyyamın dünyanın faniliyini təsdiq edən rübailəri kimi məftun etməmişdir?

Zəngin Çin ədəbiyyatından mən “Qızıl vazada gavalı çiçəyi” adlı orta əsr romanını qeyd getmək istərdim. Müasir Çin povestlərinin bir çoxu “mədəni inqilab”ın tənqidinə həsr edildiyindən pamflet xarakteri daşıyır.

Yapon ədəbiyyatından isə Akutaqavanın qəmli hekayələrini, Kabo Abenin “Yad sifət” və “Qumluqdakı qadın” romanlarını, Yasunari Kavabatanın, Haruki Murakaminin maraqlı əsərlərini qeyd etmək istərdim.

Nəhayət, XIX əsrin möcüzələrindən biri olan rus ədəbiyyatına keçmək istəyirəm. Ruslar özlərinin ədəbi dilinin formalaşmasında xüsusi xidmətləri olan Puşkini bədii yaradıcılığın ən böyük titanı hesab edirlər. Lakin dünya oxucusuna daha çox tanış olan Dostoyevski, Tolstoy və Çexovdur. F.M.Dosqoyevski özünün əsərlərində –“Cinayət və cəza”, “Dəli”, “Karamazov qardaşları”, “Alçaldılmış və təhqir olunmuş insanlar” romanlarında rus adamının təbiətinin məchulluğunu, insan xarakterlərinin şəraitin təsiri altında necə eybəcər deformasiyalara, metamarfozalara uğramasını təsvir edir. L. N. Tolstoy özünün “Hərb və sülh”, “Dirilmə”, “Anna Karenina”, “Qafqaz əsiri”, “Hacı Murad” əsərlərində tarixi və adi əhvalatlar fonunda insan taleyinin təbəddülatlarını təhlil edir. Bir əsərində o, işğalçı fransızlarla aparılan Vətən müharibəsinin geniş panoramasını, digər əsərində qulluqçu qızın bir səhvindən ömürlük bədbəxt olmasını, üçüncüsündə ailəli qadının təsadüfi məhəbbət tufanında qərq olmasını və nəticədə özünü həlak etməsini, göstərdiyimiz son iki əsərində isə Qafqazda qılınca söykənən Rusiya imperialist siyasətini açıb göstərir. Tolstoyun dahiliyi özünü “Sevastopol hekayələrində” də, “Hacı Murad”ın həlak olmasının baş verdiyi ərazinin və hadisənin olduqca inandırıcı və həqiqətə tam uyğun şəkildə təsvir olunmasında da göstərir. Bu gün də cəsədi Azərbaycanın şimal-qərbində uyuyan Hacı Murad torpaqdan qopmayan iri pıtrax kolu kimi məhvə düçar olduğunu dərk edir. Onun müasri olan bəzi tənqidçilər “Hərb və sülh” romanını bəyənmirdilər, müəllifin real səhnələrin təsviri əvəzinə anektodlara əsaslandığını iddia edirdilər.

A.P. Çexov isə dünyada kiçik hekayə ustası və rus dramaturgiyasının ən böyük yaradıcılarından biri kimi şöhrət tapmışdır. Bu hekayələrdə hər şey: incə yumor, acı istehza, bədbəxt insanın halı üçün qəm, kədər də var. Bəzən bir sözlə və kiçik bir cümlə ilə Çexov böyük həqiqətləri açır, bir yaxma ilə bütöv insan obrazı yarada bilir. Çexov oxucu və tamaşaçı barədə heç bir hüdud tanımır. Onun “Buqələmun”u da, “6 nömrəli palata”sı da artıq zərb-məsələ çevrilmişdir.

•

Əlbəttə, bu üç dahi yazıçı dünyada ən çox oxunan müəlliflərin o qədər də böyük olmayan siyahısına daxildir. Kinayəli qələmi olan N. V Qoqol isə təkcə öz "Müfəttişi" ilə deyil, digər mənfi qəhrəmanları ilə də dünyanın əyalətlərini gəzməkdə davam edir. İ. S. Turgenevin roman və povestləri isə bəxtin üz döndərdiyi adamların sakit axan dərdləri ilə bizi tanış edir. Sonra mən A. N. Gertseni və A. V. Kuprini oxucuya məsləhət görərdim. Kuprin, əsasən, "Döyüş" və "Qranat braslet" əsərləri ilə tanınır. Lakin onun "Çuxur" əsəri bu gün də ən dəhşətli bəlalardan biri olan fahişəliyin, onun yayılmasına səbəb olan amillərin və onu yaradan şəraitin üzərindən örtüyü götürür və bütün çılpaqlığı ilə məhz xəstə cəmiyyətə xas olan bu yaranı açıb göstərir. Sonra A. M. Qorkinin fırtına quşu kimi inqilabı tərənnüm edən yaradıcılığı gəlir. İvan Buninin mühacirət yaradıcılığı, xüsusən hekayələri böyük maraqla oxunur. XX əsrin astanasında duran dahi yazıçıların ardınca Valeri Bryusov, Aleksandr Blok, Marina Svetayeva və Anna Axmatova kimi gözəl şairlər gəlir. Oxucu Svetayevanın sözləri ilə desək, bu köhnə şərablara bənzəyən şeirlərin öz vaxtı gəldikdə, onlardan dadmalıdır. Mixail Bulqakovun, Mixail Zoşenkonun yaradıcılığı sosialist cəmiyyətinin qüsurlarına bələd olmaqda yaxşı yardımçı ola bilər. Şarikovların, Şvonderlərin timsalında sosialist quruluşunun aparıcı prinsipləri gülüş hədəfinə çevrilir. Əlbəttə, indi Mixail Şoloxova münasibət bir qədər dəyişilmişdir. Lakin heç bir sərt külək də onun "Sakit Donu"nu klassika toplusundan qoparıb ata bilməz. Konstantin Simonov isə həyatının son dövrlərindəki siyasi ziqzaqları ilə yaradıcılığının da xeyli hörmətdən düşməsinə şərait yaratdı. Yazıçıların baş katibi olan Aleksandr Fadeyevin isə əsərlərinin ömrünə də elə bil ürəyinə tuşladığı tapança gülləsi ilə son qoyuldu. Sonra Aleksandr Soljenitsinin yaradıcılığı özünün üsyankar ruhu ilə diqqəti cəlb etdi. Onun "İvan Denisoviçin həyatının bir günü" əsəri güclü bədii əsər sayıla bilər, digərləri isə, xüsusən "Qulaq arxipelaqı" bədiilikdən çox uzaq olub, faktların və sənədlərin sistemləşdirilmiş toplusundan ibarətdir. Valentin Rasputin, Viktor Astafyev, Vladimir Tendryakov, Fyodor Abramov, Boris Vasilyev və başqalarının əsərlərində dövrün mühüm problemləri qaldırılırsa da, onlar qəzet janrı kimi çoxömürlü olmadılar. Yuri Bondarevin ziyalılar haqqındakı romanları da marağa səbəb oldu. Mühacirətə getmiş yazıçılar isə ədəbiyyatı həyatı bütünlüklə qaralayan "Əsgər İvan Çonkin" kimi karikatura xarakterli əsərlərlə zənginləşdirdi. İlk mühacirlərdən Mark Aldanov isə bu məsələdə istisnalıq təşkil edir.

Yevtuşenko və Voznesenski iki dünyanın birləşdiyi ərazidə telləri səsləndirməyə başlayıb, özlərinin siyasətbazlığa və absurda yaxın olan yaradıcılıqları

•

ilə bir müddət suyun üzərində qala bildilər. Dissident ədəbiyyatı quruluşa qarşı etiraz harayı salsa da, öz bədii səviyyəsinə görə lazım olan yüksəkliyə qalxa bilmədiyindən yaz və payız modası kimi tez yaddan çıxmağa başladı. Vasili Qrossmanın əsərlərində ən böyük həqiqətlər də, məsələn, Stalinqrad qələbəsi şübhə altına alınmağa başladı. Amma Anatoli İvanovun qolçomaqlarla mübarizəyə həsr edilmiş "Kölgələr günorta yox olur" və Pyotr Proskurinin "Əbədi çağırış" romanları digər diametral qütblü bir mövzuya həsr olunmasına baxmayaraq, maraqla oxunur. Təkcə Anatoli Pristavkinin "Qızıl bulud gecələdi" əsəri millətlərarası münasibətləri çox ustalıqla aca bildi.

Rus ədəbiyyatı zəngin bir aləmdir və çalışmaq lazımdır ki, onun nümunələri məhz orijinaldan oxunsun. Bədii əsərləri mütaliə edərkən bu dilin zənginliyinə, ifadə vasitələrinin genişliyinə, fikri ifadə etmək üçün saysız-hesabsız variantların mövcudluğuna heyran olmaya bilmirsən. Son illərdə mən ingilis ədəbiyyatını da orijinaldan oxumaqla bundan aldığım sevinci xüsusi qeyd etmək istəyirəm və fransız, ispan və alman dillərini bilənlərə qibtə edirəm. Şekspiri, Sterni, Qolsuorsini, Uayldı, Çörçilli, Cek Londonu, Edqar Ponu, Konan Doylu, Aqata Kristini, Heminqueyi, Ayris Merdoku, Redyard Kiplinqi və başqalarını öz dilində oxumaq xüsusi ləzzət verir. Rus klassikasını da tərcümədə oxumaq günahdır, oxucu bu vaxt bu geniş aləmin kandarında dayanaraq, ora daxil ola bilmir.

Bəli, biz ədəbiyyat deyilən səltənətin füsünkar saraylarına baş vurmaq istədik, bəlkə də, burada ardıcıllığı və heç kəsin müəyyən etmədiyi bədii səviyyə sinifləşməsini pozduq. Mülahizəmi qəbul etməyənlər də, ona düzəliş vermək istəyənlər də və rəylərlə razılaşmaq istəməyənlər də ola bilər. Mən savadlı və obyektiv iradların hər birini məmnuniyyət və razılıqla qarşılayaram. Lakin "dünyada hamıdan ağıllı və hamıdan yaxşı bizik" prinsiplərindən çıxış edənlərin hər birinə bunu demək istəyirəm ki, normal qulaqlar bu cəfəng bəyanatları eşitməkdən təngə gəldiyindən, onlara qarşı özündə laqeydlik immuniteti yaratmışdır. Belə adamların danışığı,boğazındakı üfunətli xəstə bəlğəmi hara istədi tüpürən azğın məmurları andırır, onlar ancaq ikrah hissləri oyadır. Doğma ədəbiyyatımızın biliciləri və həvəskarları çox olduğundan və zövqlərdəki kəskinliyi və fərqi nəzərə alaraq mən bu sahəyə toxunmadım. Hər kəs uşaqlıqda ana südü ilə qidalandığı kimi laylalar, "Koroğlu" və "Dədə Qorqud" dastanının sətirləri onun beşiyinin başında səslənən nəğmələr olmuşdur.

Nizaminin müdrik kəlamları, Məcnun – Füzulinin məhəbbət lirikası, Vaqifin qoşmaları bizim həyat sirdaşımız olmuşdur. Mən Aşıq Ələsgərin qoşmalarındakı təşbehlərin gözəlliyinə və incəliyinə heyranam. Rus ədəbiyyatciları Qoqolun "Şinel"indən çıxdığı kimi, bizim bədii zövqümüzün formalaşmasında da doğma

•

ədəbiyyatımız müstəsna rol oynamışdır. Əlbəttə, bu heç də həmişə ağ və dadlı buğda çörəyi olmamışdır, onun içərisinə çox vaxt arpa və yulaf unu da qatılmışdır. Nə etməli? Axı heç kəs öz tarlasının məhsuluna yuxarıdan aşağı baxmır və onu səmərə ilə istehlak etməyə çalışır.

Nəhayət, kitab haqqında söhbətimiz bəzi qatı cəhalət düşkünlərini hiddətə gətirə bilər. Lakin bəlkə, irəli sürülən mülahizələr kimlərəsə özünə vurğunluq xəstəliyindən azad olmaqda kömək etdi. Axı bir xəstəni mübtəla olduğu dərddən kim xilas etməyə cəhd edirsə, böyük bir xeyirxahlıq göstərir. Kitablar isə bizim hamımızı dövrün, məkanın və şəraitin vurduğu qüsur damğalarından azad etməkdə misilsiz xidmətlər göstərir və ona görə də bu yazını şit, bayağı şüar olan “kitabı sevin” sözləri ilə bitirmək istəmirəm, yalnız hamını bu “fikir gəmisi”nin sərnişini olmaq imkanından vaz keçməməyə çağırıram. Çünki kitablar qüvvətliləri xeyli dərəcədə insanlığa yönəldir, zəifləri isə söz və ruh kimi ləyaqətli vasitələrlə silahlandırır. Kitablar insanların dünyasına gözəlliyi hakim kəsir. İnsanı isə tarixdən göründüyü kimi heç bir quruluş xilas etmir, böyük Dostoyevskinin təbirindən istifadə etsək, “dünyanı gözəllik xilas edəcəkdir”. Burada əvəzolunmaz vasitələrdən biri olan kitaba qovuşmaq lazımdır. Əlinizi bu xilaskara uzatmaqdan çəkinməyin. Bu sözləri ifadə edəndə tam səmimiyəm, qoy bunu kimsə molla ya keşiş duasına bənzətməsin.

*Noyabr, 1999-cu il*

**P.S.**“XX əsrin sonlarında praktikamda ingilis dilində olan ədəbiyyatların mütaliəsi mühüm yer tutdu. Bunun bünövrəsini “Bibliya”qoydu. Sonra Londonda 1900-cu ildə çap edilmiş 20 cildlik“Məşhur ədəbiyyatın beynəlxalq kitabxanası”adı altında olan çox zövqlə seçilmiş əsərlərlə tanış oldum. Çox sayda tarixi, fəlsəfi, etnoqrafik və əlbəttə ki, bədii əsərlər diqqətimi cəlb etdi. Əslində, ingilis dilindəki mütaliə daşqını meydana gəldi. Şekspirin orijinaldakı yaradıcılığına marağım artdı. VudroVilsonun, Uinston Çörçillin tarixi əsərlərini oxudum. Bu mütaliənin təsiri altında“Tarixdə iz qoyanlar”, “Göy qübbəsini işıqlandıranlar”, ABŞ tarixi və Qədim Roma tarixi barədə, Florensiya və Avstriya tarixi haqqında, üç cildlik “Ümumdünya tarixi” kitablarım meydana gəldi. Abelyar və Elonzanın məktublarının ingilis dilindən, Con Kennedinin “Mərdliyin profilləri” və Barak Obamanın“Ümidin cəsarəti”kitablarını orijinaldan tərcümə edib çap etdirdim.

İngilis və yapon ədəbiyyatına marağım daha da artdı. Son illərdə isə yəhudi tarixçisiYuval Noa Harrarinin bəşəriyyətin tarixinə həsr olunmuş üç cildlik əsərini,

•

əfqan yazıçısı Xaled Hüseyninin xalqının faciəsindən bəhs edən trilogiya romanlarını oxudum.

Ona görə də sayı xeyli çoxalmış ingilisdilli gənclərə daha çox mütaliə etməyi məsləhət görərdim. Onların əksəriyyəti öz sahələrinin qiymətli mütəxəssisləridir, lakin mən istərdim ki, onlar ümumi intellekt cəhətdən də başqalarına nümunə olsunlar. Başlıca məqsədim isə kitabları təbliğ etməkdir, çünki onlar hamı üçün təmas vasitəsilə çox asanlıqla "yaxın dost"ola bilərlər.

Əvvəllər qeyd etdiyim kimi, mənim iftixar mənbəyim usun illər ərzində topladığım kitabxanamdır, burada elmin müxtəlif sahələrinə aid olan kitabları tapmaq mümkündür. Son 30 ildə ingilis dilində olan kitabların toplanmasına daha çox diqqət verilmişdir. Kitabxanamın bu cəhətdən zənginləşməsində yaxın dostlarımın qayğlsını və xidmətini xüsusilə qeyd etmək istərdim. Onların bu alicənablığına yalnız minnətdarlıq hissləri düşür.

Uzun müddət gostluq etdiyim mərhum yazıçının böyük oğlu atasının izi ilə gedərək, öz içindən kənar yaradıcılıqla da məşğul olub, yeni bir janra imza atmışdır. Mərhum yaxınlara ünvanlanmış bu janrda onun ardıcılları da meydana gəlmişdir. O, həm də əsl mütaliə həvəskarı olmaqla, yanaşı aforizmlər pərəstişkarıdır. Söhbət nədən gedirsə, onlara öz ağıl xəzinəsinə yığdığı, dahilərdən gələn və əsasən yerinə düşən qiymətli müdrik sözləri əlavə edə bilir. Özü kimi kitabı sevənlərə xüsusi ehtiramla yanaşır. Bu prinsipinin real ifadəsi kimi o, özünün zəngin şəxsi kitabxanasından *Britannica* Ensiklopediyasının axırıncı nəşr nüsxəsinin komplektini, bu külliyatın son çapından iki onillik sonra mənə bağışladı. *Britannica* böyük elmi dəyərə malikdir və Böyük Sovet Ensiklopediyası onunla müqayisədə çox uduzur. Onun köməyi ilə mən biliklərimi artırmaqla yanaşı, böyük tarixi hadisələr və şəxsiyyətlər barədə əlavə

•

məlumatlar bolluğuna sahib oldum. Mənim düşüncəmə görə, ingilislərin Ensiklopediyasını əsl elm məbədi adlandırmaq olar.

Xarici ölkələrdə yaşayan gənc dostlarımın hədiyyələri hesabına kitabxanamın qiymətli növlərlə zənginləşməsini də xüsusilə qeyd etmək istərdim. Yaxın dostumun İngiltərədə həkim işləyən oğlu son 20 ildə məni bizdə tapılmayan kitablarla təchiz edir.“Western Sivilization” və “Chronicle of the Mankind” adlı və çox sayda digər kitablara da onun hesabına sahib olmuşam, əvvəlki iki kitabda tarixə aid olduqca samballı məlumatlar vardır. Son vaxtlarda isə qədim Vinçester şəhərində yaşadığından, həmin adı daşıyan tüfəngin şöhrəti ilə yarışa girə bilən yerli məşhur yazıçı Ceyn Ostinin 6 cildlik külliyatını göndərmişdir. Abu-Dabidə bankda işləyən qardaşı və onun ərəb əsilli nəcib xanımı isə mənə Qor Vidalın “Abraham Linkoln” kitabını və hind eposlarını göndərmişlər.

Digər bir dostumun Vaşinqtonda indi Dünya Bankında rəhbər vəzifədə işləyən oğlu isə ixtisasca hüquqşünas olan yazıçı Con Qrişhomun 90-cı illərdə Amerikada mafiyaya qarşı mübarizəyə həsr olunmuş 9 kitabını göndərmişdi. Onlardan üçü əsaında Hollivud film çəkmişdir, onlardan ən məşhuru “The Client” – “Müştəri” filmi idi.

Mən özüm də xarici ölkələrə səfər edərkən xeyli kitab yükü ilə qayıdıram. ABŞ-a iki səfərim vaxtı oradan Uebster və Kenbric Ensiklopediyalarını, dövlətin tarixinə dair qiymətli kitabları almışdım. Uçduğumuz Türkiyə Hava Yollarının təyyarəsinin styuardı kitablarla dolu mənim iri zəmbilimə təəccübünü bildirib, pulu belə xərcləməyimə rişxəndli iradını bildirməyi də öz səviyyəsində vacib saymışdı. Qonşuluğumdakı kitab satan ziyalı oğlan da az-çox mənim

•

zövqümə bələd olduğundan, ingilis dilində çap edilən müvafiq məzmunlu kitablarla məni təmin edir. Ondan xeyli sayda yaxşı kitablar almışam

Onu da qeyd etmək lazımdır ki, Avropanın iri şəhərlərindəki və Amerikada olduğum Nyu Yorkun kitab mağazaları göz oxşayır. Praqanın nəhəng kitab mağazasındakı silos quyusuna bənzər kitablardan hörülmüş iri quyu və onun üstündə ucalan qüllə məni heyran etdi. Bu qəribə installasiyada kitablar kaladeyskopu ilə qarşılaşırsan. Lakin xarici ölkələrdə kitab olduqca baha qiymətədir.

Göründüyü kimi, kitabxanamın ingilis dilində olan bölməsinin böyüməsində və müxtəlif çeşidlərə yiyələnməsində dostlarımın və onların övladlarının hədiyyələrini xüsusilə vurğulayıram. Axı bizdə elə kitabları tapmaq o qədər də asan deyildir. Mən başa düşürəm ki, bu alicənablıqları ilə onlar məndən çox öz atalarına ehtiramlarını izhar edirlər və valideynini dostu ilə xoş əlaqə saxlamağı və yeri gəldikdə ona qiymətli hədiyyələr verməyi özlərinin borcu hesab edirlər.

Mütaliə adamın mədəni səviyyəsinin yüksəlməsinə də əvəzsiz köməklik göstərir. Hansı ölkəyə səfər edirsənsə, əvvəlcədən kitablar vasitəsilə onun təbiəti, tarixi, əhalisi barədə isə etnoqrafik məlumatlarla geniş tanış olmaq imkanı qazanırsan. Aldığın biliklər həmin ölkəni və xalqı yaxından tanımaqda sənə bələdçilik göstərir. Avropanın rəngkarlığı və heykəltəraşlığı barədəki biliklər də, onlarla əyani tanış olduqda, həmin əsərlərin mahiyyətini qiymətləndirməkdə kitablar əsl yol göstərən vasitə rolunu oynayır. Əvvəllər reproduksiyaları ilə tanıdığın əsərlər əyani təmas vasitəsi ilə sənə daha güclü təsir göstərir.

•

Mütaliə yaradıcılıqla məşğul olan insanlara da öz köməklik əlini uzadır. Geniş mütaliələri ilə fərqlənən yazıçılar adətən dar dairəni tərk edib, öz personajları ilə insan həyatı və ümümbəşəri dəyərlər barədə oxucuya geniş məlumat verir. Uilyam Şekspirin,Viktor Hüqunun, L.N. Tolstoyun əsərlərini oxuyarkən biz həyacanlı anlar yaşamaqla yanaşı, həm də elmə aid olan çox şeylər öyrənirik. İstedadına güvənərək öz səviyyəsini yüksəltmək qayğısına qalmayanların əsərlərində isə hökmən primitivlik özünü biruzə verir.

Bütün bunlar heç də didaktika xatirinə deyilmir, məhz kitabın, onu oxumağa həsr olunan vaxtın, mütaliənin insan hətatında mühüm rol oynadığını diqqətə çatdırmaq məqsədini güdür. Öz olduqca sadə təcrübəmə müraciət etdikdə də mən yalnız kitabları təbliğ etmək istəyirəm, az-çox savadlı adamların bu məbədə sitayiş etməməsini isə bağışlanmaz qəbahət sayıram.

Zaman çox şeyə təsir göstərdiyi, təsəvürlərimizi dəyişməyə məruz qoyduğu kimi, kitabların təsir gücünə, kütləvi mütaliə həvəsinə də ziyan vurmamış qalmamışdır. Əlbəttə, süni intellektin həyata qədəm qoyduğu, reallığa çevrildiyi bir şəraitdə mütaliəni ön plana çəkmək bir qədər təəccüblü görünə bilər. Lakin hər şey dəyişsə də, insanın mədəni haləsi metamorfozalara uğrasa da, insan mənəvi varlığını itirməyəcəkdir.

Son vaxtlar bayağı, inancın mahiyyətini anlamayanlar ordusu da güclənmişdir, dini ehkamlardan yeri gəlib-gəlmədi misal çəkmək dəbi meydana gəlmişdir. Primitivliyə, vulqarlığa dalanlar özlərini az qala ilahiyyatçı hesab edirlər. İnanca qarşı mübarizə aparmaq ağılsızlıq olduğu kimi, cəhalətin yayılmasına qarşı laqeydlik göstərmək də ciddi səhv hesab

•

edilməlidir. İnsanlara öz inancı barədə haray çəkməsinə görə deyil, adətən onların məhz fəaliyyətinə və əməlinə görə qiymət verilir. Bu sahədə amerikanların "Deed before Creed" –"Əməl inancdan əvvəldir" şüarı mühüm əhəmiyyət kəsb edir. İnsan dünyadan köçdükdən sonra məhz öz əməllərinə, cəmiyyət naminə fəaliyyətinə görə xatırlanır. Bəzi görkəmli şəxsiyyətlər isə öz xalqı, milləti üçün nümunəyə çevrilir.

Həyat fəlsəfəsini, özünü dərk etməyi öyrənməkdə bizim ən yaxın köməkçilərimiz kitablardır, onlar öz xidmətləri üçün bizdən iri məbləğdə haqq tələb etmirlər. Kitablardakı nümunələr vasitəsilə biz həyatın mənasının həyatın özündən qiymətli olduğu qənaətinə gəlirik. Kitab təkcə onu oxuyanlarla təmasa girməklə öz işini bitmiş hesab etmir, oxucu onun məziyyətlərini müzakirə və analiz etməyə də girişir. Əvvəllər adamlar bir-birlə kitablar vasitəsilə danışırdılar. Kitab həm də nitqi və yazı mədəniyyətini inkişaf etdirir.

Təəssüf ki, son vaxtlar kitab oxuyanlar seqmenti daralmışdır. Lakin bədbinliyə qapılmaq da düzgün olmazdı. Mütaliə edən seqment nisbətən kiçilsə də, daim qalacaqdır. Indiki nəsl çox az hallarda öz şəxsi kitabxanasını yığır, kitab oxumayanlar isə öz diqqətlərini kinoseriallara verirlər.

Yaxşı olardı ki, yazıçılar kitabın təbliği ilə də məşğul olaydılar, təkcə şöhrət qazanmaq barədə düşünməyəydilər. Onları oxucya tanıtdıran və sevdirən yazdıqları kitablardır. Onlarla şəxsi tanışlığa da elə bir ehtiyac yoxdur. Kitabları vasitəsilə onlarla qiyabi tanışlıq daha sərfəlidir, çünki onlar yalnız yaradıcılıqları ilə ağıla və ürəyə hakim kəsilirlər, çox adamın arzu olunan qonağına çevrilirlər. O, təkcə personajlarını deyil, çox vaxt

•

özünü də oxucuya dolayı yolla təqdim edib, yeri düşdükcə qiymətləndirir. Onların bilavasitə yazıb yaratdıqlarına da zamanın, dövrün xüsusiyyətləri öz təsirini göstərir. Puşkin “Yevgeni Onegin”də kübarı tərənnüm edirdisə, Səməd Vurğunun “Muğan” poemasında ekskavatorçu qəhrəmana çevrilmişdi. Axı, hər iki müəllif öz əsərini real oxucularına ünvanlamışdı. Bəzən köhnə formada yazılmış əsər də sonralar öz oxucularını tapa bilmir, hətta dahi yazıçılar da belə münasibətlə üzləşməli olur. Tolstoy Puşkinin “ Kapitan qızı” əsərini bu qüsura görə tənqid edirdi. Plexanov isə Tolstoyun özünü ardıcıl metafizik adlandırırdı.

Təəssüf ki, yazıçı çox vaxt şəxsi həyatda öz qəhrəmanları səviyyəsinə yaxınlaşa bilmir. Onlarla şəxsi tanış olmaq istəyi də gözlənilənin əksinə, bəzən xoşagəlməz hallarla nəticələnir. Bəzilərinin nümunəsi heç adi ləyaqət prinsiplərinə də cavab vermir. Bunun təsdiqi üçün hətta məşhur yazıçıların da həyatına aid olan çox sayda misallar gətirmək olar.

XV əsrdə yaşamış ilk fransız lirik şairi Fransua Viyon dəfələrlə quldurluqda, savaşda və qarətdə iştirak etmiş, Parisdən sürgün edilmişdi. O, özünün dəyişikliyə uğrayan həyatını ”Böyük vəsiyyət” və “Kiçik vəsiyyət” adlanan balladalarında təsvir etmişdi. O, həmçinin Yer üstündəki həyatın faniliyi motivini, cavabsız məhəbbətin əzabını yaşamağı qələmə almışdır.

Detektiv janrın banisi, amerikan yazıçısı Edqar Allan Po 13 yaşlı öz qız qohumuna evlənmişdi. Bu izdivac bir əsr yarım sonra baş versəydi, onu pedofiliyada ittiham edib, ağır cəzalandırardılar. Corc Qordon Bayron və A. N. Gertsen isə intsestlə məşğul olub, öz ögey bacıları ilə intim

•

yaxınlıq etmiş, Bayronun bacısı Avqusta ona qız doğmuş, Gertsen isə bacısına rəsmi qaydada evlənmişdi.

Böyük rus şairi A. S. Puçkin hər xırda məsələyə görə adamları dəfələrlə duelə çağırmışdı, onların arasında doğma dayısı da var idi. 1837-ci ilin yanvarında duelə çağırdığı Dantes tərəfindən sərrast atəşlə yaralanmış və həmin yaradan ölmüşdü. Ondan xeyli əvvəl, dramaturq A. S. Qriboyedov  İranda Rusiyanın diplomatik korpusuna başçılıq edərkən Fətəli şahın hərəmxanasının başçısı, erməni əsilli xacə Yaqub Mirzənin provakasiyasına uğrayaraq, səfirliyin iqamətgahı binasında saraydan qaçmış hərəm qızlara sığınacaq vermişdi. Tehranda kütlə  bunu millətin namusunun təhqiri kimi qiymətləndirərək, səfirlik binasını dağıtmış, Qriboyedovu da öldürmüşdülər. Sonra onun cəsədini atın quyruğuna bağlayaraq, küçələrdə sürümüşdülər.

Rus yazıçısı F. M. Dostoyevski qumarbazlıqla məşğul olur, çox vaxt uduzurdu, hətta arvadının qızıl bəzək əşyalarını da satıb, həmin pulu da qumara qoymuşdu.

Rus yazıçısı İ. S. Turgenyev Parisdə məşuqəsi, aktrisa Polina Viardo və onun əri ilə bir mənzildə yaşamışdı. Qadın həm məşuqu, həm də əri ilə fiziki yaxınlıq edirdi. Şair V. V. Mayakovski də öz sələfinin təcrübəsini davam etdirmiş, məşuqəsi Liliya Brik və onun əri Osip Briklə bir yerdə yaşamışdı.

SSRİ Yazıçılar İttifaqının sədri A. A. Fadeyev sərxoşluğa qurşanmış, özünü intihar etmişdi.

•

Azərbaycan yazıçılarından bəziləri 1937-38-ci illərin repressiyası vaxtı donosçuluq edərək, öz qələm yoldaşlarının həbsinə və ölümünə səbəb olmuşdular.

Göründüyü kimi, bəzi yaradıcı insanlar şəxsi həyatlarında ciddi nöqsanlara yol verdiklərinə görə oxucularına nümunə ola bilməzlər. Ona görə də biz onların yaradıcılığına qiymət verməliyik, şəxsi davranışları isə ümumiyyətlə bizim diqqətimizi cəlb etməməlidir. Hətta hansı inanca və ideyalara tərəfdar və ya zidd olmaları, onların yaradıcılığına qiymət verildikdə də həmçinin heç bir rol oynamamalıdır. Bu barədə Rusiya çarı III Aleksandrın L. N. Tolstoya bəslədiyi münasibət ibrətamizdir. Onu ağır qaydada gəzalandırmağı tələb edənlərə çar sərt cavab vermişdi; " Mənim Tolstoyuma toxunmayın". Tolstoy isə provaslav dininə qarşı üsyan edirdi və buna görə onun çox sayda düşmənləri meydana gəlmişdi.

Kitab ağıla, ruha yaln;z fayda verir. Faşizm, terror, şovinizm təbliğatına həsr olunanlardan başqa heç bir kitab adama ziyan vura bilməz Biz kitaba hörmətlə yanaşırıqsa, onların yaradıcılarına da ehtiram bəsləməliyik. Axı onlardan bəziləri heç də adi, öləri adamlar deyillər. Bəlkə də müqəddəslərə bəslənən xoş münasibətdən onlara da pay düşsəydi, bizim pərəstişimizin qiyməti də daha vəznli olardı.

Son.

İyul 2023-cü il